ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2023
№3 (75)

BAKI-2023

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Александр Пухкал (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***"GEOSTRATEGİYA"*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2023
№3 (75)

BAKU-2023

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by
the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan
to publish the main results of the dissertations of the Republic of Azerbaijan on
***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

Siyasi elmlər

UOT 327

Orcid ID: 0000-0002-5309-0009

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏTİNİN AVROPA İSTİQAMƏTİ

**İRADƏ NURİYEVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Humanitar fənlər" kafedrasının professoru, siyasi elmlər doktoru*

*E-mail: iradanuri@gmail.com*

Ulu Ondər Heydər Əliyev - 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının (YAP) yaradıcısı, 1993-cü il iyunun 15-də Ali Sovetin Sədri seçilərək xalqın qurtuluşu, müstəqil Azərbaycan dövlətinin yaradıcısı, demokratik dövlətin, vətəndaş cəmiyyətinin qurucusu, dini konfessiyalara tolerantlıqla yanaşma ənənəsini yenidən dirçəldən və bu istiqamətdə xüsusi fəaliyyət göstərən dövlət başçısı, ordunu müasir hərbi texnika ilə təchiz edən, möhkəm nizam-intizam yaradan Ali Baş Komandan, düşmənə sarsıdıcı zərbə vuran, qarşıya qoyulan istənilən tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik olan yüksək döyüş ruhu ilə seçilən, Vətənə, Azərbaycan xalqına və dövlətinə sadiq, yüksək hərbi hazırlığa malik Milli Ordumuzun qurucusu, neft istehsalını inkişaf etdirmək üçün Azərbaycan dövlətinin həyata keçirdiyi "açıq qapı" siyasətinə uyğun olaraq xarici investorlara və kreditorlara təminat verən, onları müdafiə edən qanunları qəbul edərək xarici investisiyanın daha geniş cəlb olunmasına imkan yaradan və yeni neft strategiyasını müvəffəqiyyətlə yerinə yetirən və digər özəlliklərə malik olan siyasi liderdir.

Azərbaycanın yeni xarici siyasət kursunda bütövlükdə Avropa dövlətləri ilə münasibətlər məsələsi yeni bir istiqamət təşkil edirdi. Heydər Əliyevin ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Polşa, Norveç, Rumıniya və s. ölkələrə rəsmi və işgüzar səfərləri nəticəsində həmin dövlətlərlə Azərbaycan arasında iqtisadi əməkdaşlıq münasibətləri yaradıldı. Bu ölkələrlə imzalanmış 90-a yaxın mühüm sənəd Azərbaycanın Avropa iqtisadi münasibətlər sisteminə inteqrasiyası prosesini sürətləndirdi.

Qısa müddətdə Azərbaycan Böyük Britaniya, Almaniya, Fransa, İtaliya kimi nüfuzlu müttəfiqlər əldə etdi ki, bu da Heydər Əliyevin xarici siyasətinin Avropa istiqamətində apardığı uğurlu fəaliyyəti idi. Prezident Heydər Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində Avropanın siyasi və iqtisadi həyatında mühüm rol oynayan Belçika Krallığı, Hollandiya, Norveç və digər dövlətlərlə qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsi Azərbaycanın Avropaya inteqrasiyasına, onun beynəlxalq aləmdə nüfuzunun artmasına, mövqelərinin möhkəmlənməsinə xidmət edirdi.

Azərbaycanın Mərkəzi və Şərqi Avropa ilə bütün səviyyələrdə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək istəyi bu məkanda yerləşən dövlətlərin mövqeyinin və fəal xarici siyasətinin Avropanın siyasi atmosferinin müəyyənləşdirilməsinə mühüm təsiri ilə bağlı idi. Azərbaycan Avropanın siyasi, iqtisadi və təhlükəsizlik sistemlərinə inteqrasiya sahəsində iqtisadi və siyasi islahatları uğurla başa vurmuş ölkələrin mütərəqqi təcrübəsindən səmərəli istifadə etmək niyyətindədir. Hazırda Qərbi Avropa ilə yanaşı, Avropa İttifaqı və NATO ilə münasibətlərdə yüksək nəticələr əldə etmiş Polşa, Rumıniya, Bolqarıstan, Macarıstan, Çexiya, Sloveniya, Xorvatiya kimi dövlətlər də Azərbaycanın Avropa İttifaqına inteqrasiyası prosesinə fəal dəstək verirlər və təcrübə mübadiləsi aparırlar. Mərkəzi və Şərqi Avropa, eyni zamanda, bizim Transqafqaz nəqliyyat-kommunikasiya sistemi vasitəsilə Qərbi Avropaya çıxışımızı təmin etmək baxımından da əlverişli geosiyasi məkandır [7].

1994-cü il sentyabrın 20-də Bakıda 30 il müddətinə imzalanmış "Əsrin müqaviləsi"nə əsasən 30 neft şirkəti ilə 57 milyard dollar sərmayə qoyuluşu nəzərdə tutulan 20 neft müqaviləsi imzalandı [9, s. 521]. 1998-ci il sentyabrın 7-8-də Bakıda "Böyük İpək Yolu"nun bərpası üzrə beynəlxalq konfrans keçirildi. "Avropa-Qafqaz-Asiya" dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş və Bakı bəyannaməsi imzalandı. Azərbaycanın TACİS və TRACECA proqramları çərçivəsində Avropa İqtisadi Komissiyası ilə əməkdaşlığı nəticəsində respublikamızın nəqliyyat kommunikasiyalarından istifadə edilməklə Avropa-Asiya istiqamətində tranzit

yüklərinin daşınmasının həcmi 10 dəfələrlə artırıldı [11, s. 394]. Bakı-Tbilisi-Ceyhan əsas boru kəməri vasitəsilə Azərbaycanın "qara qızılı"nın dünya bazarına çıxarılması təmin olundu. Bakı-Tbilisi-Ərzurum qaz kəməri Azərbaycan, Gürcüstan və Türkiyənin qaza olan tələbatını ödəməklə yanaşı, Azərbaycan qazının Türkiyə vasitəsilə Yunanıstana və digər Avropa ölkələrinə ötürülməsində mühüm pol oynayır [5]. "Şahdəniz" qazının Türkiyədən əlavə, Yunanıstan, İtaliya, Balkan yarımadası dövlətləri və digər Avropa ölkələrinə nəql olunmasına zəmin yaradırdı. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin davamı olan Bakı-Tbilisi-Qars dəmir yolu (2005) xətti Şərqlə Qərbi, Asiya ilə Avropanı birləşdirən strateji və böyük iqtisadi əhəmiyyətə malikdir. Memarı Ulu Öndər Heydər Əliyev olan yeni neft strategiyasının təməl daşı – "Əsrin müqaviləsi" həm iqtisadi, həm də siyasi, geostrateji və beynəlxalq əhəmiyyətli idi. Neft strategiyasının reallaşdırılması sayəsində sosial-iqtisadi və mədəniyyət problemləri uğurla həll olundu, Azərbaycan nəinki Cənubi Qafqazda, hətta ümumdünya miqyasda tanındı, geosiyasi məkanda söz sahibinə çevrildi, iqtisadi, siyasi və hərbi təhlükəsizliyinə nail oldu. Neft amili Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə kömək etdi [9, s. 529]. 2022-ci il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında enerji memorandumu imzalanıb. Tərəflər 2023-cü il qaz nəqlinin həcmini 12 milyard kubmetrə, sonrakı illərdə isə 20 milyard kubmetrə çatdırmağı qarşıya məqsəd qoyublar. Hazırda Avropaya nəql olunan qazın illik həcmi 8 milyard kubmetrdir. 2022-ci il iyulun 18-də Bakıda Azərbaycan ilə Avropa İttifaqı arasında enerji memorandumunu Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Ursula von der Leyen imzaladılar. Ursula von der Leyen hesab edir ki, Azərbaycan Avropanın "təchizat təhlükəsizliyi və iqlim neytrallığının təmin edilməsi yolunda mühüm tərəfdaş" olacaq [12].

Azərbaycan bütövlükdə Avropanın enerji təhlükəsizliyində geniş imkanlara malik ölkə kimi Mərkəzi və Şərqi Avropa dövlətlərinin maraq dairəsindədir. Belə ki, əksər Avropa ölkələri enerji asılılığından çıxmaq üçün neftin nəqlində tranzit və istehlakçı qismində çıxış etmək niyyətlərini bəyan edirlər.

Azərbaycan dövləti ali təhsil sənədlərinin və elmi dərəcələrin dünya dövlətləri tərəfindən tanınması üçün YUNESKO-nun 1979-cu il Paris Konvensiyasına, 1983-cü il Banqkok Regional Konvensiyasına, respublika ali təhsil ixtisaslarının Avropa məkanında tanınması barədə 1997-ci il Lissabon Konvensiyasına qoşuldu. Azərbaycan təhsil sistemi YUNESKO, YUNİSEF, YNEVOK, İSESKO, Avropa Təhsil Fondu, Avropa Şurası, Avropa İttifaqı kimi beynəlxalq təşkilatların təhsil proqramları ilə məşğul olan qurumlarla Açıq Cəmiyyət İnstitutu (SOROS Fondu) və digər qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edirdi [1, s. 411-412]. Respublika ali məktəbləri Avropa İttifaqının maliyyələşdirdiyi TEMPUS/TASİS proqramına cəlb olundu. Respublikanın ali məktəblərinə bu proqram çərçivəsində 2003-cü ilədək 3370000 avro maliyyə-texniki yardım göstərildi [4].

Təkcə 1993-1998-ci illərdə Prezident Heydər Əliyev 33 ölkəyə 79 səfər etmiş, xarici ölkələrlə Azərbaycan arasında 431 beynəlxalq sənəd imzalanmışdır. Hazırda Azərbaycan dünyanın 128 ölkəsi ilə ticarət münasibətləri qurubdur. Ticarət əlaqələrinin 80%-dən çoxu İtaliya, Rusiya, İngiltərə, Türkiyə, ABŞ, Türkmənistan, Almaniya, Yunanıstan, Qazaxıstan, İsrail, Fransa, Yaponiya, Malayziya və İran dövlətlərinin payına düşür [9, s. 575-576]. Azərbaycanın xarici siyasətində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatındakı (1994-cü ildən ATƏT) fəaliyyəti mühüm rol oynayır. O, hələ 1992-ci il yanvarın 20-də bu təşkilata daxil olmuş, iyunun 10-da isə onun Yekun Aktını imzalamışdır. ATƏT-in 1996-cı ilin 2-3 dekabrında keçirilən Lissabon Sammitinin nəticələri Azərbaycan diplomatiyasının mühüm nailiyyəti olmuşdur. Sammitdə Azərbaycan Prezidenti Heydər Əliyevin qətiyyətli mövqeyi sayəsində ATƏT-in üzvü olan 54 ölkənin 53-ü Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul edilmiş Bəyanatda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir [11, s. 368, 377; 8, s. 46-70].

1996-cı ilin aprel ayında Azərbaycan ilə Avropa Şurası (AŞ) və üzv dövlətləri arasında "Tərəfdaşlıq və Əməkdaşlıq haqqında" saziş imzalandı [2]. Mühüm əhəmiyyətli bir hadisə Avropa Şurasının Nazirlər Komitəsinin 2001-ci ilin yanvar ayının 25-də keçirilmiş iclasında Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv olması haqqında Qərar qəbul edilməsi idi. Yanvarın 25-də isə Fransanın Strasburq şəhərində yerləşən Avropa Şurasının iqamətgahı qarşısında ölkəmizin dövlət bayrağı qaldırıldı. Azərbaycanın Avropa Şurasındakı parlament nümayəndə heyəti 2001-ci ilin mayında AŞ Nazirlər Komitəsinin 108-ci sessiyası konsensusla Azərbaycanın təşəbbüsü ilə Avropa dövlətlərinin, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən xüsusi kommünike qəbul etdi [10],

AŞ Parlament Assambleyasının (AŞPA) sessiyalarında, müxtəlif səviyyəli məclislərində böyük siyasi və diplomatik fəaliyyət göstərir. AŞ PA-nın 2001-ci il sentyabrın 24-də keçirilmiş payız sessiyasında Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən daha bir mühüm sənəd qəbul edildi. Bu sənədin əhəmiyyəti həm də ondan ibarət idi ki, o Azərbaycanın öz ərazilərini işğaldan azad etmək üçün hər bir vasitəyə əl atmasına haqq verən beynəlxalq hüquqi sənəd idi. Demək olar ki, bu günə kimi AŞPA-da qəbul olunan 12 sənəddə (bunlara üst-üstə AŞPA-nın 300 deputatı imza atmışdır) Ermənistan terrorçu dövlət adlandırılmışdır. 2002-ci il sentyabr ayının 26-da AŞPA-nın sessiyasında Ermənistanın Azərbaycana qarşı təcavüz etməsi, Azərbaycan torpaqlarının işğal olunması, bu işğal nəticəsində Azərbaycanın bir milyondan artıq qaçqın və köçkününün olması ilk dəfə bu təşkilatın çox vacib sənədində açıq-aydın bildirilirdi [3]. Beləliklə, Prezident Heydər Əliyev Ermənistanın işğalçı olması faktının Avropa Şurasının sənədlərində ilk dəfə əks etdirilməsinə nail olmuşdur. 2002-ci ildə Azərbaycan Respublikasının Avropa İttifaqı ilə “Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi”nin (1992-ci ildə bağlanıb) yerinə yetirilməsinə dair milli Proqram hazırlanmışdır. Azərbaycanın Avropa İttifaqı ilə “Şərq Tərəfdaşlığı” çərçivəsində əməkdaşlığı 2004-cü ildə qəbul edilmiş “Avropa Qonşuluq Siyasəti” və ikitərəfli münasibətlərin hüquqi əsasını təşkil edən “Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi”nə əsaslanır. Avropa İttifaqı ilə əlaqələr indiyədək iqtisadi və siyasi islahatlar, Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizinin yaradılması, infrastrukturun inkişafı və s. çərçivələrdə inkişaf etdirilmişdir. Müstəqilliyin ilk illərində Aİ ilə münasibətlər “MDB ölkələrinə texniki yardım” (TACİS), “Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi” (TRACECA), “Neft və qazın Avropaya nəqli üzrə Dövlətlərarası Proqram” (INOGATE), “Humanitar Yardım” (ECHO) və digər proqramlar çərçivəsində inkişaf etdirilmişdir. Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair “Anlaşma Memorandumu” 2006-cı il noyabrın 7-də Brüsseldə imzalanmışdır. Tərəflər xüsusilə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsi üçün təhdid və risklərin aradan qaldırılması baxımından region ölkələrinin suverenliyinin, ərazi bütövlüyünün və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsinin vacibliyini vurğulayırlar. Azərbaycan parlamentarilərinin Avropa Şurasında əldə olunmuş ən böyük nailiyyətlərdən biri də, 2003-cü ilin 27 yanvar sessiyasında İlham Əliyevin yekdilliklə AŞPA-nın vitse-prezidenti və qurumun Büro üzvü seçilməsi oldu [9, s. 585-586]. 2022-ci il aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən vurğulayıb ki, Azərbaycan ilə Avropa Şurası arasında 2022-2025-ci illər üçün Fəaliyyət Proqramı qəbul olunacaq. Hazırda Azərbaycan Respublikası Avropa Şurası çərçivəsində qəbul edilmiş 60-dan çox beynəlxalq konvensiyanın iştirakçısıdır. Ümumilikdə, Azərbaycan Respublikası Milli Məclisinin AŞPA-dakı nümayəndə heyəti 6-sı həqiqi üzv və 6-sı deputat olmaqla, 12 üzvdən ibarətdir. Sessiyanın gündəliyinə əsasən, nümayəndə heyəti Azərbaycanın mənafeyinə və maraqlarına xidmət edən təşəbbüslər irəli sürür, müvafiq sənədlərin müzakirələrində fəal iştirak edir [6]. Azərbaycan diplomatiyasının səyləri nəticəsində ölkəmiz sürətlə Avroatlantika məkanına inteqrasiya olunur.

Müstəqil Azərbaycan Respublikası xarici siyasəti nəticəsində dünya birliyində öz mövqeyini daha da möhkəmləndirmiş, yeni müttəfiq ölkələr qazanmış, beynəlxalq və regional təşkilatlarda iştirakını, onlarla əməkdaşlığını daha da intensivləşdirmiş, iqtisadi potensialına görə Cənubi Qafqaz regionunda lider dövlətə çevrilmişdir. O, dünya birliyinin sayılan dövlətlərindən biri olmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan tarixi. 7 cilddə, VII c. (1941-2002-ci illər). Bakı: “Elm”, 2008, 608 s.+80 s. illüstrasiya.*

*2. “Azərbaycan” qəzeti, 11 may 1996-cı il*

*3. “Azərbaycan” qəzeti, 24 sentyabr 2002-ci il.*

*4. “Azərbaycan müəllimi” qəzeti, 20-26 dekabr 2002-ci il*

*5. Azərbaycanda neft sənayesinin inkişaf tarixinə dair qısa arayış.http://www.azerbaijan.az /portal/StatePower/Committee/committeeConcern_01_a.html.*

*6. Azərbaycan — Avropa Şurası//https://azerbaijan.az/related-information/194*

*7. Heydər Əliyevin müdrik xarici siyasəti. //https://respublika-news.az/news/1682040273-heyder-eliyevin-mudrik-xarici-siyaseti.*

*8. Həsənov Ə. Azərbaycan və ATƏT. Bakı: “İşıq”, 1997, 80 s.*

*9. Nuriyeva İradə Tofiq qızı. Azərbaycan tarixi (ən*

*qədim dövrlərdən zəmanəmizədək). Texniki Ali məktəblər üçün dərslik. – Bakı: Elm və təhsil, 2022, 744 səh.*

*10. Siyasi tarix: mühazirə kursu. II hissə. Bakı: "Azərbaycan Ensiklopediyası NPB", 1998, 420 s.*

*11. TİEA, f. 1, s. 19, i. 8961, v. 108.*

*12. Ursula von der Leyen Bakıda: Avropa Azərbaycanı "etibarlı tərəfdaş hesab edir". 18 Iyul 2022// https://www.bbc.com/azeri/azerbaijan-61979520*

**İRADƏ NURİYEVA**

***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, "Humanitar fənlər" kafedrasının professoru, siyasi elmlər doktoru***

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏTİNİN AVROPA İSTİQAMƏTİ (Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunur)**

**XÜLASƏ**

Məqalədə Ulu Öndər Heydər Əliyevin Azərbaycan və Avropa birliyi arasında münasibətlərin qurulmasında apardığı uğurlu xarici siyasəti və bu fəaliyyətin Avropa dövlətləri ilə əldə olunan qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsinə, bununla da Azərbaycanın Avropaya inteqrasiyasına yol açmasına, onun beynəlxalq aləmdə nüfuzunun artmasına, mövqelərinin möhkəmlənməsinə xidmət etməsi şərh olunmuşdur. Mərkəzi və Şərqi Avropanın dövlətimizin Transqafqaz nəqliyyat-kommunikasiya sistemi vasitəsilə Qərbi Avropaya çıxışını təmin edən əlverişli geosiyasi məkan kimi əhəmiyyət kəsb etməsi və Azərbaycanın Avropanın mühüm tərəfdaşı olması məqalədə xüsusilə vurğulanır.

**Açar sözlər:** *Ulu Öndər Heydər Əliyev, xarici siyasət, Azərbaycan, Avropa birliyi.*

**ИРАДА НУРИЕВА**

***Доктор политических наук, профессор кафедры «Гуманитарных наук» Азербайджанского Государственного Университета Нефти и Промышленности***

**ЕВРОПЕЙСКОЕ НАПРАВЛЕНИЕ ВНЕШНЕЙ ПОЛИТИКИ ВЕЛИКОГО ЛИДЕРА ГАЙДЕРА АЛИЕВА (Посвящается 100-летию Великого Лидера Гейдара Алиева)**

**РЕЗЮМЕ**

В статье описывается успешная внешняя политика Великого Лидера Гейдара Алиева в установлении отношений между Азербайджаном и Европейским Союзом, и то, как эта деятельность служила расширению взаимовыгодных отношений с европейскими странами, тем самым прокладывая путь интеграции Азербайджана в Европу, повышая его авторитет в международном мире, укрепляя свои позиции. В статье особо подчеркивается значение Центральной и Восточной Европы как благоприятного геополитического пространства, обеспечивающего нашего государства выход в Западную Европу через Закавказскую транспортно-коммуникационную систему и как Азербайджан является важным партнером Европы.

**Ключевые слова:** *Великий лидер Гейдар Алиев, внешняя политика, Азербайджан, Европейский союз.*

**IRADA NURIYEVA**

**Doctor of Political Sciences, professor at the Department of Human Sciences of Azerbaijan State Oil and Industry University**

**THE EUROPEAN DIRECTION OF THE FOREIGN POLICY OF THE GREAT LEADER HAYDER ALIYEV (Dedicated to the 100th anniversary of Great Leader Heydar Aliyev)**

**SUMMARY**

The article describes the successful foreign policy of Great Leader Heydar Aliyev in establishing relations between Azerbaijan and the European Union, and how this activity served to expand mutually beneficial relations with European countries, thereby paving the way for Azerbaijan's integration to Europe, increasing its authority in the international world, strengthening their positions. The article emphasizes the importance of Central and Eastern Europe as a favorable geopolitical space that provides our state with access to Western Europe through the Transcaucasian transport and communication system and how Azerbaijan is an important partner of Europe.

**Key words:** *Great Leader Heydar Aliyev, foreign policy, Azerbaijan, European Union.*

UOT 327

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN YENİ NEFT STRATEGİYASI

**SƏNUBƏR BABAŞOVA**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: babashlisanubar@gmail.com*

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçildikdən sonra sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi, neft emalı sənayesində də böyük dəyişikliklər baş vermişdir. 1969-cu ildən etibarən Azərbaycanın xalq təsərrüfatının bütün sahələri kimi neft və qaz sənayesi də yüksək dinamik inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu dövrdə Azərbaycanın neft və qaz sənayesinin inkişaf tarixində yeni mərhələ başlayır.

1971-ci ildə Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Azərbaycanda 1 milyardıncı ton neftin hasilatının qeyd edildiyi təntənəli mərasim keçirilmişdir. Heydər Əliyevin təşəbbüsü və böyük səyi nəticəsində 70-80-ci illərdə Azərbaycanda neft sənayesinin inkişafına təkan verən 75 növdə 400-dən çox ağır yük qaldıran kran gəmisi, boruçəkən gəmilər, seysmik, sərnişin və s. gəmi növləri gətirildi. Xəzərdə 2500 t gücündə "Azərbaycan" kranı, "Xəzər" tipli özüqalxan, sonralar isə dənizin 200 m dərinliyindəki sahələrdə işləməyə imkan verən "Şelf" tipli yarımdalma üzən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yarandı. 60-cı illərin sonu ilə müqayisədə yeni 8 neft və qaz yatağı kəşf edilmişdir. Beləliklə, neft ehtiyatları 2, qaz ehtiyatları isə 3 dəfə artmışdır. 1975-ci ildə neft və qazın ümumi hasilatı 27,1 mln. t-a çatdırıldı. 80-ci illərdə üzən qazma qurğularının sayı 11-ə çatdı və onlardan istifadə nəticəsində, indi Azərbaycan neftinin əsas hissəsini təşkil edən dənizin 80-350 m dərinlikdə yatan zəngin neft ehtiyatlarına malik olan yataqlar kəşf olunmuşdur.

1991-ci ildə müstəqillik əldə etdikdən sonra Azərbaycan hərbi təcavüz, daxili qarşıdurmalar və iqtisadi çətinliklərlə üzləşib. 1993-cü ildə, Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından qısa müddət sonra sabitlik əldə edildi, ölkənin iqtisadi potensialının aktivləşdirilməsi, dövlətin təbii sərvətlərinin kəşfiyyatı və xarici investisiyaların cəlb edilməsi istiqamətində mühüm addımlar atıldı. Müstəqillik əldə etdikdən sonra Azərbaycanın iqtisadi və siyasi inkişafında neft ehtiyatları çox mühüm rol oynamışdır. Həmin dövrdə beynəlxalq neft şirkətlərinin Azərbaycanda olmasının vacibliyi diqqəti cəlb edirdi [7, s. 75].

Azərbaycanı müasir, qüdrətli, davamlı iqtisadi inkişafa malik dövlətə çevirmək məqsədilə Ulu Öndər Heydər Əliyev gələcək siyasi və iqtisadi islahatların köklü transformasiyası üçün əsas olacaq neft strategiyasını müəyyən etdi. “Yeni neft strategiyası” xarici investorları Azərbaycanın neft yataqlarının işlənməsinə, xam neftin nəqli marşrutlarının şaxələndirilməsinə, neft gəlirlərinin səmərəli idarə olunmasına cəlb etdi və Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu məsələlərlə bağlı Azərbaycan Prezidenti 4 fevral 1994-cü il tarixli “Azərbaycanda dəniz neft və qaz yataqlarının işlənməsinin sürətləndirilməsi haqqında” qərar qəbul etmişdir. Göstərilən prinsiplərə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti AMOCO Caspian Petroleum Ltd, Pennzoil Caspian Corporation, Remko Caspian Energy Ltd, Turkiye Petrolleri, United Caspian Ltd. "Çıraq" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi üzrə sazişin bağlanması üzrə üç ildən artıq davam edən danışıqlar başa çatmışdır.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Prezidentinə hesabatı ilə hazırlanmış saziş layihəsində Azərbaycan Respublikası üçün iqtisadi cəhətdən əlverişli variant kimi səciyyələndirilmişdir. Yataqların işlənməsinə qoyulan sərmayələrin 80%-i konsorsium tərəfindən həyata keçirilməsi, saziş qüvvəyə mindikdən sonra Azərbaycan neftinin beynəlxalq bazara çıxarılmasının təmin edilməsi məqsədilə 18 ay ərzində ilk neftin hasil edilməsi və boru kəmərinin tikintisinin 54 ay ərzində tamamlanması nəzərdə tutulurdu.

Beləliklə, 1994-cü il sentyabrın 20-də Bakıda “Gülüstan” sarayında “Əsrin müqaviləsi” adlı müqavilə imzalandı. Ulu Öndər “Əsrin müqaviləsi”nin imzalanması mərasimindəki çıxışında bildirmişdir: “Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar

olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir. Azərbaycanda demokratik prinsiplərin bərqərar olması və inkişaf etməsi üçün geniş meydan açılmışdır. Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək əzmindədir. Bu müqavilənin imzalanması bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addımdır. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla müqavilədə iştirak edən şirkətlərin mənsub olduqları böyük ölkələrlə – Amerika Birləşmiş Ştatları, Rusiya, İngiltərə, Türkiyə, Norveç kimi dövlətlərlə dostluq əlaqələrinin, iqtisadi əməkdaşlığın və ümumiyyətlə, bütün sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümid bəsləyirik.” [4, s. 166-167].

Dənizin dərinliklərində yerləşən “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının işlənməsi və hasilatın pay bölgüsü haqqında 400 səhifəlik müqavilə 4 dildə hazırlanmışdır. Müqavilə 7 ölkədən (ARDNŞ, Amoko, BP, McDermott, United, LUKOIL, Statoil, Exxon, Turkish Petroleum, Penzoil, Remoko, Delta Nimir) 13 şirkət (Azərbaycan, ABŞ, İngiltərə, Rusiya, Türkiyə, Norveç, Səudiyyə Ərəbistanı) tərəfindən imzalanmışdır. "Əsrin müqaviləsi" daha sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə 26 müqavilənin imzalanmasına səbəb olmuşdur. "Əsrin müqaviləsi" imzalandıqdan sonra iştirakçılar tərəfindən Rəhbər Komitə, Azərbaycan Beynəlxalq Biznes Şirkəti və Məsləhət Şurasının orqanları formalaşdırıldı. Bu strukturlar hüquqi səlahiyyət əldə etdikdən sonra, yəni Azərbaycan Prezidentinin 1994-cü il dekabrın 2-də xüsusi fərman imzalamasından sonra fəaliyyətə başlamışdır. 1994-cü il dekabrın 12-də Azərbaycan Respublikası parlamenti "Əsrin müqaviləsi"ni təsdiq etdi. "Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycanın tarixində “Yeni neft strategiyası”na təkan verildi. "Əsrin müqaviləsi"nin imzalanması bütün dünyada müzakirələrə səbəb oldu. ABŞ Prezidenti B. Klinton, Böyük Britaniyanın Baş naziri, Türkiyə Respublikasının Prezidenti S. Dəmirəl və digər ölkələrin dövlət və hökumət başçıları beynəlxalq neft sazişinin imzalanması münasibətilə Azərbaycan Respublikasının Prezidentinə təbrik məktubu göndərdilər [7, s. 41].

Neft müqaviləsi imzalandıqdan sonra da, bu müqavilə haqqında, onun ətrafında müxtəlif dairələrdə, mətbuatda, ayrı-ayrı ölkələrdə danışıqlar gedirdi. Əks qüvvələr onun həyata keçirilməsinə mane olmağa çalışırdılar. Ona görə də bu müqavilənin həyata keçirilməsinə mane olmaq istəyən qüvvələrə cavab vermək üçün Rəhbər Komitənin iclasında göstərildiyi kimi, bütün şirkətlər öz səylərini daha çox birləşdirməlidirlər. Həqiqətən də Azərbaycan Respublikasının xarici ölkələrin neft şirkətləri ilə sağlam əsasda olan əməkdaşlığı bütün bu maneələri aradan götürməyə imkan vermişdir [8, s. 41].

Ümummilli Lider Heydər Əliyev Rəhbər Komitənin iclasındakı nitqində göstərmişdir ki, müqavilənin yerinə yetirilməsində Qərb neft şirkətləri konsorsiumuna daxil olan neft şirkətləri ilə birlikdə: “Bu müqavilənin həyata keçirilməsi üçün Azərbaycan Dövlət Neft Şirkətinin, neftçilərimizin, alimlərimizin üzərinə çox böyük və şərəfli vəzifələr düşür” [5, s. 144].

“Əsrin müqaviləsi”nin Azərbaycan Respublikası üçün rolu, sahələrin istifadəsi üçün lazımi investisiyaların 90%-nin konsorsium tərəfindən yerinə yetiriləcək olmasıdır. Azərbaycan neft və təbii qaz sahələrinin istifadəsi üzərində idarə və nəzarət hüququnu özündə saxlayır. Heç şübhəsiz ki, dənizin neft ehtiyatlarına tez və faydalı olacaq şəkildə böyük miqdarda sərmayə qoyulmalıdır və yeni texnologiyalar alınmalı, xarici ölkələrdən ən təcrübəli neft şirktlərini bu ərazilərə cəlb edərək onlarla müttəfiq olunmalıdır. Çünki bu sahələrin istifadəsi məqsədi ilə qazma və emalat platformalarının, boru xətlərinin quruda təchizat sistemlərinin qurulması üçün böyük miqdarda sərmayə qoyulmalıdır.

Müqavilə 30 illik müddətə bağlanmışdı, təxminən 432.4 km$^2$ ərazinin işlənməsini nəzərdə tuturdu. 80%-ni xarici şirkətlər, 20%-ni ARDNŞ ödəməklə kapital qoyuluşu 7,4 milyard dollar hesablanmışdı. Ehtiyatlar 4 milyard barel (511 milyon ton) olaraq qiymətləndirilmişdi. Bu yataqlardan hasil olunan xam neft dünyanın ən yüksək keyfiyyətli nefti hesab olunur. Müqaviləyə uyğun olaraq, hasilatın 18 aydan sonra

sutkada 40 000 bareldən başlamaqla ilk illərdə sutkada 80 000 barelə qədər artması və on-on beş il ərzində sutkada 700 000 barelə çatması nəzərdə tutulurdu. Hazırda Azərbaycanın neft hasilatı sutkada 160 min barel səviyyəsindədir. Müqaviləyə əsasən, Azərbaycan neft yataqlarının işlənməsinə nəzarət etmək və idarə etmək hüququnu özündə saxlayırdı [3, s. 53].

Hasilatın pay bölgüsü prinsipinə əsasən paylar ARDNŞ (Azərbaycan Respublikası) 20%, BP (Böyük Britaniya) 17,127%, Amoco (ABŞ) 17,01%, Lukoil (Rusiya) 10%, Pennzoil (ABŞ) 9,82%, Unocal (ABŞ) 9,52%, Statoil (Norveç) 8,563%, McDermott International (ABŞ) 2,45% Ramco (Şotlandiya) 2,08%, Türkiyə Dövlət Neft Şirkəti (Türkiyə) 1,75%, Delta-Nimir (Səudiyyə Ərəbistanı) 1,68% olmaqla müəyyənləşdirilmişdir. Müzakirələr zamanı ARDNŞ-ın (Azərbaycan) payı 30% olaraq qərarlaşdırılsa da, müqavilə imzalanmamışdan əvvəl 10% Rusiyanın Lukoil şirkətinə, müqavilədən sonra isə 5% EXXON-a, 5% isə TPAO-ya verilmişdir.

1994-cü il sentyabrın 20-də ARDNŞ-lə xarici neft şirkətlərinin konsorsiumu arasında hasilatın pay bölgüsü sazişi imzalanarkən Türkiyənin "Türk Petrolları Anonim Ortaqlığı" şirkəti konsorsiumda 1,75 faiz yer almışdı. Lakin Türkiyə Prezidenti Süleyman Dəmirəlin və baş nazir Tansu Çillərin Ümummilli Lider Heydər Əliyevə məktubla müraciətindən sonra Azərbaycan Respublikası həmin müqavilədəki öz payının 5 faizinin əlavə olaraq bu ölkənin "Türk Petrolları Anonim Ortaqlığı" şirkətinin sərəncamına keçməsinə razılıq vermişdir.

1995-ci il iyulun 11-də Bakının "Gülüstan" sarayında ARDNŞ-in beynəlxalq neft konsorsiumundakı payının 5 faizinin "Türk Petrolları Anonim Ortaqlığı" (TPAO) şirkətinə verilməsi haqqında sazişin imzalanması mərasimi keçirilmişdir. Mərasimdə Ümummilli Lider Heydər Əliyev və Türkiyə Cümhuriyyətinin Baş Naziri Tansu Çillər iştirak etmişlər.

Təqdim edilən müqaviləni ARDNŞ-in və "Türk Petrolları Anonim Ortaqlığı" şirkətinin prezidentləri və hər iki ölkənin baş nazirləri imzalamışlar. Beləliklə, Azərbaycan neft yataqlarının işlənməsi üçün Türkiyənin 1,75 faiz payı 6,75 faizə çatdırıldı [6, s. 31].

Müqavilə imzalanarkən konsorsiuma daxil olmayan Yaponiya sonradan konsorsiuma qoşulub. Yaponiyanın İtouchu şirkəti bütün səhmlərini satan McDermott International-dan 2,45% pay alaraq konsorsiumun bir hissəsi oldu. Eyni zamanda, daha sonra Itochu Pennzoil (ABŞ) şirkətinin səhmlərinin 1,4 faizini alaraq öz payını 3,9205 faizə çatdırıb. Exxon (ABŞ) və Unocal (ABŞ) da Pennzoil-in səhmlərinin müvafiq olaraq 3,06 və 0,5 faizini alıblar [2, s. 218].

1995-ci ildə ARDNŞ-ə məxsus 5% payın İrana verilməsi müzakirə olunsa belə, Qərb dövlətlərinin ciddi müqaviməti nəticəsində baş tutmadı [2, s. 218].

"Əsrin müqaviləsi"ndə səhmlərin paylanılmasına baxdığımızda ən böyük payın ABŞ-a aid olduğunu görürük. Amerika şirkətlərinin ümumi payı təxminən 40%-dir. ABŞ bir ildə təxminən 340 milyon ton neft hasil edir, 600 milyon ton isə idxal edir. Beləliklə, ABŞ idxal edə biləcəyi yeni enerji ehtiyatları lazımdır. Bu baxımdan, Xəzər ABŞ-ın iqtisadi marağı olan regionlar içindədir. İngilis şirkətlərinin ümumi payı isə, 19%-dir. Amerika və ingilis şirkətlərindən sonra konsorsiumdakı ən böyük pay Rusiya və Azərbaycan şirkətlərinindir. Milli iqtisadiyyatın inkişafında vacib bir ünsür olmaqla yanaşı xarici bazarda da mühüm bir açar olan enerji ehtiyatlarına dair imzalanan "Əsrin müqaviləsi" ilə Azərbaycan, dünya iqtisadiyyatına aktiv bir şəkildə inteqrasiya olunmaq yolunda ilk addım atmış oldu [2, s. 219].

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı daha da artmış və ölkənin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan vermişdir. Müqavilənin imzalanması ilə xalqın öz sərvətlərinə sahiblik hüququ və eyni zamanda, Azərbaycan iqtisadiyyatının dünyaya açıqlığı bir daha təsdiqini tapmışdır. "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan Respublikasının müstəqil dövlət kimi tanınmasına, qlobal iqtisadi sistemə qoşulmasına və beynəlxalq nüfuzunun möhkəmlənməsinə imkan verdi. Beynəlxalq neft müqavilələrinin imzalanması neft müqavilələrində iştirak edən ölkələrlə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün möhkəm zəmin yaratmışdır. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının geosiyasi mövqeyinin daha da möhkəmlənməsinə, dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsinə səbəb olmuşdur.

14 sentyabr 2017-ci il tarixində Heydər Əliyev Mərkəzində Azərbaycan iqtisadiyyatının gələcək inkişafı üçün daha bir mühüm hadisə baş verdi. Azərbaycan hökuməti və Dövlət Neft Şirkəti (ARDNŞ), "BP", "Chevron", "Inpex", "Statoil", "ExxonMobil", "TP", "Itochu" və "ONGC Videsh" şirkətləri ilə birlikdə "Azəri", "Çıraq" yataqları və "Günəşli" yatağının dərinsulu hissəsinin (AÇG) birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş, yeni-

dən işlənmiş saziş bağladı. Bu, "Əsrin müqaviləsi"-nin 2050-ci ilə qədər uzadılmasını nəzərdə tutan saziş idi. Yeni saziş ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödənilməsini şərtləndirdi. Həmçinin ARDNŞ-ın payı 11,6 faizdən 25 faizə yüksəldi və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil etdi. Yeni imzalanan saziş isə 1994-cü ildə imzalanan sazişdən daha da böyük miqyaslıdır. Sazişdə vurğulanırdı ki, 32 il ərzində bu neft yataqlarına 40 milyard dollardan çox investisiya qoyulmalı və beynəlxalq tərəfdaş şirkətlər tərəfindən Azərbaycan Dövlət Neft Fonduna əlavə 3,6 milyard dollar ödənilməlidir. İlkin hesablamalara görə, yaxın 32 ildə bu yataqlardan 500 milyon tondan çox neft hasil ediləcəyi gözlənilir [1].

"Əsrin müqaviləsi"nin imzalanmasından keçən 20 ildən artıq müddət ərzində Ümummilli Lider Heydər Əliyevin "Yeni neft strategiyası"nın çox böyük uğurla reallaşması günümüzün reallığına çevrilmişdir. Bütün bunları nəzərə alıb "Yeni neft strategiyası"nın nailiyyətlərinin aşağıdakı istiqamətlərdə reallaşdığını göstərmək olar:

- Azərbaycanın, neft-qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, bütövlükdə xarici işgüzar dairələrin, iri investisiyaların cəlb edilməsi hesabına dünyanın enerji daşıyıcıları bazarına sürətli çıxışı təmin edilmişdir. Bütövlükdə "Əsrin müqaviləsi"indən bu günə qədər xarici neft şirkətləri ilə 32 neft sazişi imzalanmışdır. Bu sazişlərin nəticəsi olaraq Azərbaycanın neft-qaz sənayesinə təxminən 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulmuşdur ki, bu isə respublikamızın iqtisadi inkişafına ciddi təsir göstərmişdir.

- Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarına sərbəst və sürətli çıxışını təmin etmək üçün ixrac boru kəmərləri sistemi yaradılmışdır. Hazırda hasil edilən neft və qaz ehtiyatları dünya bazarlarına bir neçə marşrut üzrə çıxarılır. Bunlar: Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kəmərləridir. Bundan əlavə, "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində TANAP qaz kəməri də istifadəyə verilmişdir. Hazırda "Cənub Qaz Dəhlizi" layihəsinin bir hissəsi olan TAP kəmərinin tikintisi davam etdirilir.

Bakı-Novorossiysk və Bakı-Supsa kəmərlərinin həm müsbət, həm də mənfi cəhətlərinin olmasına baxmayaraq, Azərbaycan xalqının Ümummilli Lideri H.Əliyev, sonradan zaman göstərdiyi kimi, müdrik və yeganə düzgün qərar qəbul edərək hər iki neft kəmərinin çəkilməsini lazım bildi. İlkin neft layihəsinin həyata keçirilməsi və onun dünya bazarına ixracı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarındakı işlərin intensivləşməsinə və Azərbaycanın karbohidrogen resurslarının işlənməsinə yeni investisiyaların cəlb edilməsi üçün şərait yaratdı.

- Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu "Yeni neft strategiyası"nın həyata keçirilməsinin nailiyyətlərindən biri də Qərbin qabaqcıl texnologiyasının Azərbaycana gətirilməsidir.

Xüsusilə tikintidə və yataqların işlənilməsində, qazımada və istismarda tətbiq olunan yeni texnika, texnologiya və avadanlıqlar neft sənayesinə pozitiv təsir göstərmişdir. Azərbaycanda ilk dəfə olaraq Mərkəzi Azəri yatağında 48 quyunun qazılmasına imkan verən nəhəng və əzəmətli dərin dəniz özülü tikilmişdir. Texniki baxımdan dünya miqyasında ən iri terminallardan biri Səngəçal terminal istifadəyə verilmiş və burada yüksək infrastruktur yaradılmışdır.

Heydər Əliyevin müəllifi olduğu neft strategiyası bu gün müstəqil dövlət kimi Azərbaycanın öz milli sərvətinin sahibi olmasının, iqtisadiyyatımızın dünya iqtisadiyyatına qovuşmasının, ölkəmizin 90-cı illərin əvvəlində başlanmış siyasi, iqtisadi və sosial böhranlardan çıxaraq dirçəlməsinin və ən əsası XXI əsrin astanasında yüksək inkişaf etmiş, möhkəm, demokratik Azərbaycan dövlətinin yaranmasının rəmzidir.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. "Azərbaycan" qəzeti, 20.09.2017*

*2. Aras A. N., Süleymanov E., Azerbaycan İqtisadiyyatı, 2.Nəşr, Bakı: "Şərq-Qərb" Mətbəəsi, 2016, 412 s.*

*3. Aras A. N., "Asrın Anlaşması' ve Azerbaycan Ekonomisine Etkisi" Akademik Araştırmalar Dergisi, Yıl. 6, Sayı. 30, 2006, ss. 41-59.*

*4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. İkinci kitab. Bakı: Azərnəşr, 1997, 604 s.*

*5. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. Bakı: Azərnəşr, 1997, 488 s.*

*6. Heydər Əliyevin Neft strategiyası. 1-ci hissə. Bakı: 2001, 491 s.*

*7. Məsimov A. BP-Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin yaranması və fəaliyyəti, 1. Nəşr, Bakı: Elm və Təhsil Mətbəsi, 2018, 288 s.*

*8. Quliyev S. Azerbaycan Respublikasının neft strategiyası ve Qafqazda təhlükəsizlik problemləri, 1. Nəşr, Bakı: BMU Nəşriyyatı, 2018, 201 s.*

### XÜLASƏ

Cənubi Qafqaz geosiyasi məkanının lider dövləti olan Azərbaycan sahib olduğu zəngin enerji ehtiyatlarından səmərəli şəkildə istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca aktorlardan biri kimi çıxış edir. Ölkəmiz milli dövlətçilik prinsiplərinə müvafiq olaraq həyata keçirilən praqmatik və rasional siyasət nəticəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusuna çevrilib. Təsadüfi deyil ki, Xəzər dənizinə xarici sərmayədarları ilk dəfə dəvət etməklə uzunmüddətli qarşılıqlı faydalı əməkdaşlığın sağlam təməlini atan Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə reallaşmır. Bu da Azərbaycan Respublikasının dünya dövlətlərinin enerji planı və strateji əməkdaşlıqlar perspektivində kəsb etdiyi önəmi aydın şəkildə əks etdirir. Azərbaycan Respublikasının "Yeni neft strategiyası" məhz belə bir beynəlxalq şəraitdə meydana çıxmışdır. Azərbaycan Respublikasının "Yeni neft strategiyası" Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ərsəyə gəlmişdir.


**Açar sözlər:** *Ümummilli Lider, Yeni neft strategiyası, Əsrin müqaviləsi, ARDNŞ, Bakı-Tbilisi-Ceyhan, TAP, TANAP.*


### SUMMARY

Azerbaijan, the leading state of the South Caucasus geopolitical space, acts as one of the main actors who play an important role in ensuring energy security on an international scale by efficiently using its rich energy resources. As a result of the pragmatic and rational policy implemented in accordance with the principles of national statehood, our country has become the central player of transnational projects of regional scale and global importance. It is no coincidence that without the participation of Azerbaijan, which laid a solid foundation for long-term mutually beneficial cooperation by inviting foreign investors to the Caspian Sea for the first time, no project is realized in the region today. This clearly reflects the importance of the Republic of Azerbaijan in the perspective of the energy plan and strategic cooperation of the world states. The "New oil strategy" of the Republic of Azerbaijan appeared in such an international environment. The "New oil strategy" of the Republic of Azerbaijan was created with the initiative and leadership of national leader Heydar Aliyev.


**Key words:** *National leader, New oil strategy, Contract of the Century, SOCAR, Baku-Tbilisi-Ceyhan, TAP, TANAP.*


### РЕЗЮМЕ

Азербайджан, ведущее государство геополитического пространства Южного Кавказа, выступает одним из главных акторов, играющих важную роль в обеспечении энергетической безопасности в международном масштабе, эффективно используя свои богатые энергетические ресурсы. В результате прагматичной и рациональной политики, реализуемой в соответствии с принципами национальной государственности, наша страна стала центральным игроком транснациональных проектов регионального масштаба и глобального значения. Неслучайно без участия Азербайджана, который впервые заложил прочный фундамент для долгосрочного взаимовыгодного сотрудничества, пригласив иностранных инвесторов на Каспий, сегодня в регионе не реализуется ни один проект. Это ясно отражает важность Азербайджанской Республики в перспективе энергетического плана и стратегического сотрудничества государств мира. В такой международной среде появилась «Новая нефтяная стратегия» Азербайджанской Республики. «Новая нефтяная стратегия» Азербайджанской Республики была создана по инициативе и под руководством общенационального лидера Гейдара Алиева.


**Ключевые слова:** *Национальный лидер, Новая нефтяная стратегия, Контракт века, ГНКАР, Баку-Тбилиси-Джейхан, TAP, TANAP.*

UOT 327; 930.22

# AZƏRBAYCANIN XARİCİ SİYASƏT PRİORİTETLƏRİ VƏ BEYNƏLXALQ TƏŞKİLATLAR

**LALƏ QARAYEVA**
*Bakı Dövlət Universitetinin doktorantı*
*E-mail: lale.qarayeva2014@mail.ru*

Azərbaycan müstəqillik əldə etdikdən sonra ümumilikdə xarici aləmlə və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqədə olub. Beynəlxalq və regional təşkilatlarla əlaqələr qurmaq və öz problemlərini sülh yolu ilə həll etmək ölkəmizin müstəqillikdən sonra xarici siyasətinin prioriteti olub. Bunun üçün uyğun olan xarici siyasət istiqamətləri müəyyən edilib. SSRİ-nin parçalanması ilə xarici aləmdən dəstək axtaran Azərbaycan, ümumiyyətlə, Qərb ölkələri, keçmiş MDB ölkələri və Türkiyə ilə yaxınlaşmaq üçün səylərə başladı. Bunun əsas səbəbləri illərin iqtisadi böhranı və Ermənistanla Dağlıq Qarabağ münaqişəsinin davam etməsi idi. Azərbaycan imkan daxilində bu problemlərin öhdəsindən gəlmək, sabitliyi təmin etmək məqsədilə Qərb təşkilatları və ölkələri ilə yaxınlaşma siyasəti həyata keçirmişdir (6).

Azərbaycan iqtisadiyyatda yüksək sürətli və eyni zamanda sabit artıma nail olub siyasi sistemin qurulmasına yönəlmişdir. Azərbaycanın xarici siyasətinin xarakterik xüsusiyyətlərindən biri də milli maraqların həyata keçirilməsi, müstəqilliyin möhkəmləndirilməsi, ərazi bütövlüyünü bərpa etmək və çevik və səmərəli xarici siyasət strategiyası qurmaq idi. Onun zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi Azərbaycanın dövlət maraqlarının möhkəmləndirilməsi və qorunması baxımından böyük əhəmiyyət kəsb edirdi. Bu amillər Azərbaycan dövlətinin maraqlarına cavab verən səmərəli və məqsədli xarici siyasət üçün yaxşı zəmin yaradır (9).

Demokratik cəmiyyət və bazar iqtisadiyyatı strateji inkişaf xətti kimi sınaqdan keçmiş dünya standartlarını seçmiş Azərbaycan Respublikası humanitar dəyərlərdən istifadə etməyə çalışan, inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyası və maliyyə imkanlarını cəlb edir və onlarla qarşılıqlı faydalı əməkdaşlıq qurmağa çalışır. 1991-ci ilin sonu və 1992-ci ilin əvvəllərində bir çox dövlətlərlə diplomatik əlaqələr quraraq, Azərbaycan Respublikasının beynəlxalq aləmə sistemli inteqrasiyası imkanı təmin edilmişdir. Ölkəmiz ikitərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin qurulması, inkişafı üçün qarşılıqlı iqtisadi əməkdaşlıq, siyasi münasibətlərin və qarşılıqlı etimadın dərinləşməsinin təmin edilməsi, möhkəmlənməsinə əlverişli zəmin yaratmışdır (10).

Azərbaycanın həyata keçirdiyi fəal xarici siyasət rəqabətə deyil, əməkdaşlığa, qarşılıqlı fəaliyyətə, dəstəyə əsaslanır. Azərbaycan dünyada gedən proseslərdə konstruktiv mövqe tutur. Bu münasibət ümumi rifahı təmin edəcək dünya nizamının formalaşması ilə diqqət çəkir. Fəal xarici siyasətin davam etdirilməsi Azərbaycana beynəlxalq təşkilatlarda mühüm rol oynamağa imkan verir (11).

Azərbaycan dünyada həm İKT, həm də Avropa Şurasının üzvü olan azsaylı ölkələrdən biridir. Xarici siyasətdə ən mühüm hadisələrdən biri 2012-ci ildə Azərbaycan Respublikasının 2013-cü il üçün 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurası üzvlüyünə seçilməsi olmuşdur. Bu vəziyyət Bakının regionda və beynəlxalq aləmdə rolunu artırdı (13).

Azərbaycan 2014-cü ilin may-oktyabr aylarında uğurla Avropa Şurası Nazirlər Komitəsinə sədrlik etmişdir. Azərbaycan Respublikası tərəfindən son illərdə əldə olunmuş nailiyyətlər ölkənin beynəlxalq aləmdə müsbət imicinə mühüm töhfə verir. Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları ilə sıx əməkdaşlıq mövcuddur (7).

Azərbaycanın xarici siyasətində regional əməkdaşlıq məsələləri prioritetdir. Qonşu ölkələrlə - Türkiyə, Rusiya, Gürcüstanla çox müsbət münasibətləri var. Eyni zamanda, Azərbaycan regional səviyyədə üçtərəfli əməkdaşlığın müxtəlif formalarında ön sıralardadır. Son illərdə Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-Türkiyə-Türkmənistan və Azərbaycan-Rusiya-İran arasında yaradılmış üçtərəfli platformalar, regional məsələlərin müzakirəsi və əməkdaşlığın inkişafı üçün mühüm təşəbbüslərdir (2).

Müsəlman ölkələri ilə ortaq tarix, mədəniyyət, din və qarşılıqlı maraqlar əsasında qurulmuş əməkdaşlıq həmişə ən yüksək səviyyədə olmuşdur. İslam Əmək-

daşlıq Təşkilatının Zirvə toplantısında həmin təşkilata da üzv qəbul edilib. Qəbul edilən qərarda iştirakçı ölkələr də Azərbaycanı qətiyyətlə dəstəklədilər. Üzvlük üçün Ermənistanın aqressiyası şiddətlə pislənilib. Bu sammitdə Ermənistan - Azərbaycan münaqişəsi ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı Əlaqə Qrupu da yaradılmışdır (1).

Uzaq Şərq, Afrika və Latın Amerikası ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələr sürətlə inkişaf edir. Son illər Azərbaycan bu bölgələrdə yeni zirvələr qazanıb, səfirliklər açdı ki, bu da həm regionlararası, həm də çoxtərəfli qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafına verilən önəmin canlı nümunəsi kimi faydalıdır.

Yuxarıda yazılanları ümumiləşdirsək, belə qənaətə gəlmək olar ki, Azərbaycanın xarici siyasət prioritetləri belədir. Siyasət istiqamətləri və strateji seçimlər aşağıdakı amillərdən təsirlənir:

- Ermənistanın Azərbaycana təcavüzü;
- Qlobal proseslər;
- Strateji coğrafi yerləşmə;
- Zəngin təbii ehtiyatlar;
- Mövcud mərhələdə müstəqillik və təhlükəsizliyi təhdid edən risklər (14);

Regional mövqelərini möhkəmləndirməyə yönəlmiş xarici siyasət prioritetləri aşağıdakı kimi müəyyən edilir:

1. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi.
2. Beynəlxalq sülh və sabitliyin təşviq edilməsi
3. Beynəlxalq münasibətlərin səmərəli çoxtərəfli sisteminin yaradılması.
4. Qarşılıqlı əlaqələrin inkişafı.
5. Avropa və Avroatlantik strukturlara inteqrasiya.
6. Avropanın enerji və nəqliyyat dəhlizinin sabit inkişafı və genişlənmə.

Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifələri (5):

1. Ölkənin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, təhlükəsizliyi, beynəlxalq təhlükəsizlik sistemini qorumaq və əlaqələndirmək.
litical realism is particularly relevant in the context of Azerbaijan-Iran relations given the historical and ongoing conflicts in the region. The Second Karabakh War highlighted the potential for instability and conflict in the region, and understanding the realist dynamics of this conflict is crucial for predicting and preventing future conflicts. Finally, analyzing Azerbaijan-Iran relations from a realist perspective can help policymakers and analysts develop more effective strategies for promoting regional stability and cooperation. By recognizing the key drivers of state behavior, policymakers can design policies that align with the interests of key stakeholders, reduce the potential for conflict, and promote regional cooperation and prosperity.

In addition, understanding the realist perspective on the relationship between Azerbaijan and Iran sheds light on the geopolitical dynamics of the region. It highlights the balance of power and strategic interests at play, and the potential for conflicts and cooperation among neighboring states. As such, the application of political realism theory to the study of Azerbaijan-Iran relations can contribute to a better understanding of the factors shaping the region's political landscape.

Furthermore, the findings of this article demonstrate that Iran's stance on Azerbaijan during the Second Karabakh War was largely driven by its strategic interests, particularly its concerns over the potential for regional destabilization and the reflection of Azerbaijan's relations with Iran's enemies. It also highlights the impact of the conflict on economic, trade, and cultural ties between the two countries. These findings underscore the importance of maintaining stable and cooperative relations between Azerbaijan and Iran, not only for their bilateral interests but also for regional stability and security.

At last but not least, a realist approach can help us understand the potential for conflict between Azerbaijan and Iran and its implications for regional stability. By examining the changes in economic and trade relations as well as the effects on cultural and social ties, we can gain a more comprehensive understanding of the impact of the conflict on Azerbaijan-Iran relations.

Azerbaijan-Iran relations during the Second Karabakh War have shown both cooperation and tension between the two nations. Iran's stance on the conflict, its reflection on Azerbaijan's relations with Iran's enemies, and the potential for regional destabilization have all been analyzed through a realist lens. It is clear that political realism theory is relevant to understanding Azerbaijan-Iran relations and the potential for conflict in the region. As such, it is important for policymakers and analysts to take a realism perspective into account when dealing with issues related to Azerbaijan-Iran relations. Calls for peace and neutrality and Iran's position on Azerbaijan's territorial integrity have also been analyzed from a realist perspective. By examining these issues through a realist lens, this article has provided a deeper understanding of the complex dynamics at play in Azerbaijan-Iran relations.

Overall, the analysis of Azerbaijan-Iran relations through the lens of political realism theory provides valuable insights into the dynamics of their interactions and the potential implications for regional stability. It is crucial to continue examining the complex and multifaceted aspects of their relations to ensure sustainable peace and cooperation in the region. Increased cooperation and stability in the region will require continued efforts to understand the realities of the geopolitical landscape and the motivations of the actors involved. By doing so, policymakers and analysts can work towards a more peaceful and stable future for Azerbaijan, Iran, and the broader region as a whole.

At the end, it must be mentioned that the research on Azerbaijan-Iran relations from the perspective of political realism is important for several reasons. Firstly, the Armenia-Azerbaijan conflict has significant implications for regional stability and security, and understanding the positions of key actors such as Iran and Azerbaijan is crucial for the development of effective policies and strategies to promote peace and stability. Secondly, the analysis of Iran's stance on Azerbaijan during the Second Karabakh War and its potential implications for regional stability highlights the importance of political realism theory as a useful framework for understanding international relations. The realist interpretation of Iran's position on Azerbaijan sheds light on the motivations behind Iranian foreign policy, and provides a more nuanced understanding of the complex dynamics at play in the region. Finally, the research underscores the importance of increased cooperation and stability in the region, particularly in light of the potential for further conflict and destabilization. By recognizing the

concerns and interests of key actors such as Iran and Azerbaijan, policymakers can work towards developing more effective strategies for promoting cooperation, dialogue, and stability in the region.

## REFERENCES


1. *Abbasov, S., 2022. Further strain in Azerbaijan-Iran relations. Eurasianet.*
2. *Aghayev, I., 2021. Irrationality is Subjective: Fears Rise of Conflict between Iran and Azerbaijan. OC Media.*
3. *Akhundova, E., 2022. A New Direction in Azerbaijan's Foreign Policy: Irredentism?. Baku Research Institute.*
4. *Alibayli, V., 2021. Historical and Legal Aspects of the Armenia-Azerbaijan Conflict. Azerbaijan National Academy of Sciences, Institute of History, Ancient and Medieval Eastern Studies.*
5. *Amirova, S., 2020. The Image of the 'Other' in the Azerbaijani-Iranian Relations. Journal of Balkan and Near Eastern Studies.*
6. *Anon., n.d. Analytical Articles on Azerbaijan-Iran Relations. Central Asia-Caucasus Institute and Silk Road Studies Program Joint Center .*
7. *Asgarov, A. & Ismayilov, A., 2021. "Iran's Policy Towards Azerbaijan in the Period of Power Transfer. Dumlupinar University Journal of Social Sciences.*
8. *Avdaliani, A. I. E., 2020. Israel and Azerbaijan: A Partnership Built on Oil and Arms. The Begin-Sadat Center for Strategic Studies.*
9. *Blank, S., 2021. The Geopolitical Significance of the Azerbaijan-Armenia Conflict. Caucasus Social Science Journal.*
10. *Cornell, S., 2023. Promise and Peril in the Caucasus. Central Asia-Caucasus Institute and Silk Road Studies Program Joint Center.*
11. *Freund, J., 2021. Azerbaijan-Iran Relations Deteriorate Amid Shifting World Dynamics. Caspian Policy Centre.*
12. *Garibov, A., 2021. "The Supremacy of the Hawks in Iran's Azerbaijan Policy. AIR Centre.*
13. *Huseynov, V., 2021. In Unprecedented Move, Baku Opens Embassy in Tel Aviv. Jamestown Foundation.*
14. *Huseynov, V., 2021. Regional Tensions Loom Over Multilateral Initiatives in South Caucasus. Jamestown Foundation.*
15. *Huseynov, V., 2021. Zangazur Corridor Closer to Realization as Armenia Readies to Normalize Relations with Turkey and Azerbaijan. Jamestown Foundation.*
16. *Huseynov, V., 2022. Azerbaijan Warns Against Threats that Might Undermine Peace Process with Armenia. Jamestown Foundation.*
17. *Ibrahimov, R. & Muradov, M., 2021. Historical and Legal Aspects of the Karabakh Conflict An Azerbaijani Perspective on A Shared Post-Conflict Future. Baku: ADA University Press.*
18. *Ismailzade, F., 2021. The Armernia-Azerbaijan War: The South Caucasus Implications. Global Review of Media and Communication.*
19. *Javadova-Spitzberg, T., 2021. Analysis: Will Azerbaijan-Iran tensions lead to war?. Al Jazeera news.*
20. *Kaleji, V., 2021. Institutional Obstacles to Azerbaijan-Iran Economic Relations. Journal of Eurasian Affairs.*
21. *Mammadov, F., 2023. Baku-Erbil Relations and Iran. Manara Magazine.*
22. *Mearsheimer, J., 2001. The Tragedy of Great Power Politics. Washington: s.n.*
23. *Mehdiyev, E., 2017. Iran-Azerbaijan Relations: Mutual Interests and Challenges. Journal of Contemporary Eastern Asia.*
24. *Melvin, N., 2016. Shifting Conflict and Security Dynamics in the Caucasus: The Role of Regional Powers. SIPRI.*
25. *Mirzayev, M., 2022. Azerbaijan-Iran Relations in the Context of Regional Developments. Journal of Contemporary Eastern Asia.*
26. *Morgenthau, H., 1948. Realism and Politics Among Nations. Washington: s.n.*
27. *Muzyka, N., 2016. The Military Dimension of Russian-Iranian Relations. Journal of Balkan and Near Eastern Studies.*
28. *Nuriyev, E. & Valiyev, A., 2021. Crisis in Azerbaijani-Iranian Relations. Baku Research Institute.*
29. *Rouhi, M., 2020. Conflict in the South Caucasus and Its Effects on Iran. Trends Research & Advisory.*
30. *Rzayev, A. & Mammadov, M., 2021. From the streets to the border: Iran's Growing Paranoia toward Azerbaijan. Middle East Institute.*
31. *Shaffer, B., 2020. The Armenia-Azerbaijan War: Downgrading Iran's Regional Role. Central*

Asia-Caucasus Institute and Silk Road Studies Program Joint Center.

32. Shahmammadov, N., 2021. Azerbaijan-Iran Relations: The Historical and Political Context. Caucasus Social Science Journal.

### SUMMARY

The article delves into the dynamics of Azerbaijan-Iran relations during the Second Karabakh War and examines them through the lens of political realism theory. The author analyzes Iran's stance on the conflict, including its reflection of Azerbaijan's relations with Iran's enemies, and concerns about the potential for regional destabilization.

Using political realism theory, the authors interpret Iran's stance on Azerbaijan during the conflict and its potential implications for regional stability. The article examines the political tensions and diplomatic disputes that arose during the conflict, analyzing the motives behind Iran's actions.

The article also explores calls for peace in the region and examines Iran's position on Azerbaijan's territorial integrity. Finally, the author concludes by emphasizing the importance of understanding Azerbaijan-Iran relations from a realist perspective and the importance of analyzing the topic.

**Keywords:** *Azerbaijan, Iran, Armenia, Second Karabakh War, Karabakh, Political realism, Balance of power.*

### XÜLASƏ

Məqalədə İkinci Qarabağ müharibəsi dövründə Azərbaycan-İran münasibətlərinin dinamikası araşdırılır və siyasi realizm nəzəriyyəsi obyektivindən məsələyə nəzər salınır. Müəllif İranın münaqişə ilə bağlı mövqeyini, o cümlədən Azərbaycanın İranın rəqibləri ilə münasibətlərinin İran – Azərbaycan münasibətlərinə təsiri və regional sabitliyin pozulması potensialı ilə bağlı narahatlıqlarını təhlil edir.

Müəllif siyasi realizm nəzəriyyəsindən istifadə edərək münaqişə zamanı İranın Azərbaycana münasibətini və bunun regional sabitlik üçün potensial təsirlərini şərh edir. Məqalədə münaqişə zamanı yaranmış siyasi gərginlik və diplomatik mübahisələr araşdırılır, İranın hərəkətlərinin arxasında duran motivlər təhlil edilir.

Məqalədə həmçinin regionda sülhə çağırışlar araşdırılır və İranın Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mövqeyi təhlil edilir. Nəhayət, müəllif Azərbaycan-İran münasibətlərinə siyasi realizm çərçivəsində baxılmasının vacibliyini vurğulayaraq, mövzunun araşdırılmasının önəmindən danışır.

**Açar sözlər:** *Azərbaycan, İran, Ermənistan, İkinci Qarabağ müharibəsi, Qarabağ, siyasi realizm, güclər balansı.*

### РЕЗЮМЕ

В статье рассматривается динамика азербайджано-иранских отношений во время Второй карабахской войны и рассматривается вопрос через призму теории политического реализма. Автор анализирует позицию Ирана по конфликту, в том числе его обеспокоенность по поводу влияния отношений Азербайджана с соперниками Ирана на ирано-азербайджанские отношения и возможности региональной дестабилизации.

Используя теорию политического реализма, автор интерпретирует отношение Ирана к Азербайджану во время конфликта и его возможные последствия для региональной стабильности. В статье рассматривается политическая напряженность и дипломатические споры, возникшие в ходе конфликта, а также анализируются мотивы действий Ирана.

В статье также рассматриваются призывы к миру в регионе и анализируется позиция Ирана в отношении территориальной целостности Азербайджана. Наконец, автор подчеркивает важность рассмотрения азербайджано-иранских отношений в рамках политического реализма и говорит о важности исследования темы.

**Ключевые слова:** *Азербайджан, Иран, Армения, Вторая карабахская война, Карабах, политический реализм, баланс сил.*

UOT 32

# QƏRB TƏCRÜBƏSİNDƏ DÖVLƏT ÖZƏL TƏRƏFDAŞLIQ MEXANİZMİNİN TƏHLİLİ

**AYSEL QULİYEVA**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrası*

*E-mail: aguliyeva@mail.ru*

DÖST bir praktiki sahə olaraq 1980-ci illərdə, bütün dünyada hökumətlər dövlət xidmətləri və infrastrukturu inkişaf etdirmək üçün özəl sektorla tərəfdaşlığın yeni yollarını araşdırmağa başlayanda ortaya çıxmışdır [2, s. 33]. DÖST modeli 1990-cı illərin sonu və 2000-ci illərin əvvəllərində, xüsusən də Avropada, məhdud dövlət büdcələri şəraitində infrastruktur sərmayəsi və dövlət xidmətlərinin göstərilməsi ehtiyacını həll etmək üsulu kimi populyarlıq qazanmış [1, s. 11], o vaxtdan bəri, DÖST modellərindən dünya ölkələrində nəqliyyat, enerji, su və sosial infrastruktur kimi müxtəlif sektorlarda genişspektrli layihələrin həyata keçirilməsi üçün istifadə olunmuşdur.

Bütün dünyada istifadə edilməsinə baxmayaraq, DÖST daha çox Qərb dövlətlərində inkişaf etmişdir. Qərb dövlətləri ənənəvi olaraq bir neçə səbəbə görə bu sahədə lider olublar. Səbəblərdən biri onların böyük və şaxələndirilmiş iqtisadiyyata malik olmasıdır ki, bu da DÖST vasitəsilə maliyyələşdirilə bilən daha genişspektrli layihə və təşəbbüslərə imkan verir. Bundan əlavə, bir çox Qərb ölkələrində DÖST layihələrinin qurulmasını və idarə olunmasını asanlaşdıran yaxşı hazırlanmış qanunvericilik bazaları var. Bu ölkələrin, həmçinin yaxşı inkişaf etmiş maliyyə bazarları və DÖST layihələri üçün maliyyə təmin edə bilən institutları var. Nəhayət, Qərb ölkələrində özəl sektorun dövlət infrastruktur layihələrində iştirakının uzun tarixi var ki, bu da bu sahədə təcrübənin formalaşmasına kömək edib [2, s. 9].

Həm Qərb dövlətləri, həm də Şərq dövlətləri bu sahədə əsasən Amerika modelinə əsaslanır. Amerika Birləşmiş Ştatlarında DÖST-dən istifadənin genişlənməsi 1980-ci illərin sonu, 1990-cı əvvəllərinə təsadüf edir [2, s. 11]. Bəhs edilən dövrdə federal hökumət özəl sektorun investisiya və təcrübəsindən istifadə etməklə ictimai infrastrukturun ehtiyaclarını həll etmək üçün DÖST-ün istifadəsini fəal şəkildə təşviq etməyə başladı. O vaxtdan bəri, DÖST mexanizmi ABŞ-da nəqliyyat, su və sosial infrastruktur da daxil olmaqla müxtəlif infrastruktur layihələrində istifadə olunur.

ABŞ-da Ticarət Departamentinin tərkibindəki İqtisadi Təhlil Bürosu (BEA) DÖST proqnozlarını hesablayır. Bu büro çox sayda ölkə və region üçün illik DÖST hesabatlarını və proqnozlarını dərc edir. Bu proqnozlar sorğular və digər mənbələrdən toplanmış kuantativ məlumatlara əsaslanır.

ABŞ-da DÖST layihələri adətən əyalət və yerli idarəetmə orqanları tərəfindən özəl firmalarla birgə həyata keçirilir. Bu tərəfdaşlıqlar, özəl firmaların DÖST layihələri üçün təkliflər təqdim etdiyi və qiymət, təcrübə, texniki ekspertiza və təklif olunan layihə dizaynı da daxil olmaqla bir sıra amillər əsasında qiymətləndirilir [1, s. 32]. ABŞ-ın DÖST mexanizmində hökumətlə tərəfdaşlıq etmək üçün özəl firma seçildikdən sonra ortaqlığın şərtləri adətən müqavilə razılaşması (konsessiya) ilə müəyyən edilir. Bu müqavilə hər iki tərəfin hüquq və vəzifələrini, eləcə də layihə üçün maliyyə məsələlərini tənzimləyir [1, s. 33].

ABŞ-dakı DÖST layihələri magistral yollar, hava limanları, su və tullantı təmizləyici qurğular, məktəblər və xəstəxanalar kimi sosial infrastruktur da daxil olmaqla genişspektrli infrastruktur layihələrinin maliyyələşdirilməsi üçün istifadə edilir [1, s. 33]. Birləşmiş Ştatlarda DÖST-ün istifadəsi Böyük Britaniya və Avstraliya kimi bəzi digər ölkələrlə müqayisədə məhdud olsa da, dövlət və yerli səviyyədə infrastruktur layihələrinin maliyyələşdirilməsi üçün bu mexanizmin istifadəsinə maraq ildən-ilə artır. Biz buna daha çox Donald Trampın prezidentlik illərində şahid olduq [6, s. 40].

Əlbəttə ki, bu mexanizm ABŞ-da sadəcə son bir neçə ildə inkişaf etməyib. ABŞ bugünkü vəziyyətinə uzun illər içərisində gəlib çatmışdır. Bu baxımdan, ABŞ-da illər boyunca formalaşmış DÖST sisteminin bir neçə əsas xüsusiyyəti vardır. Bütün bu xüsusiyyətləri detallı şəkildə təhlil etmək dissertasiya işinin məqsədinə uyğun olmadığı üçün ümumi olaraq aşağıdakı kimi təsnifatlaşdırmaq olar:

1. ABŞ-da DÖST layihələri adətən federal hökumətdən daha çox, ştatların icraedici orqanları və yerli özünüidarəetmə orqanları tərəfindən həyata keçirilir.

2. Xüsusi layihədən və cəlb olunan dövlət və özəl

tərəfdaşların ehtiyaclarından asılı olaraq ABŞ-da istifadə edilən çoxlu sayda DÖST modelləri mövcuddur.

3. Bir çox hallarda özəl şirkətlər ABŞ-da DÖST layihələri ilə bağlı maliyyə riskinin əhəmiyyətli hissəsini öz üzərinə götürür.

4. ABŞ-dakı DÖST layihələri ətraf mühit və əmək qaydaları da daxil olmaqla müxtəlif federal, əyalət və yerli qaydalara uyğun olmalıdır.

5. ABŞ-da DÖST layihələrinin uğuru çox vaxt onların iş yerlərinin yaradılması və ya infrastrukturun təkmilləşdirilməsi kimi xüsusi dövlət siyasəti məqsədlərinə nail olmaq qabiliyyəti əsasında qiymətləndirilir.

**DÖST mexanizmində Böyük Britaniya təcrübəsi**

ABŞ-ın bu sahədəki təcrübəsindən bir çox ölkə istifadə edib. Bu ölkələr arasında ən əhəmiyyətli nümunələrdən biri Böyük Britaniyadır. DÖST sahəsində ABŞ və Böyük Britaniya arasında bəzi oxşarlıqlar var. Bu oxşarlıqlardan bəzilərini aşağıdakı kimi ifadə etmək olar:

1. Hər iki ölkədə DÖST üçün yaxşı hazırlanmış hüquqi və tənzimləyici bazalar mövcuddur.

2. Hər iki ölkədə DÖST investisiyası üçün əsas sahələr olan nəqliyyat, enerji və sosial sahə də daxil olmaqla inkişaf etmiş infrastruktur sektorları var.

3. Hər iki ölkədə layihələr üçün rəqabət aparan bir çox özəl sektor firması var. Başqa sözlə, DÖST layihələri üçün hər iki ölkədə rəqabətli bazar var.

4. Hər iki ölkə həm sosial, həm də iqtisadi infrastruktur sektorlarında DÖST layihələrinin həyata keçirilməsində geniş təcrübəyə malikdir.

5. Hər iki ölkə bir sıra DÖST modellərindən istifadə edir, o cümlədən İnşa et-İdarə et-Transfer et[1] *(Build-Operate-Transfer (BOT))*, Layihələndir-İnşa et-Maliyyələşdir-İdarə et *(Design-Build-Finance-Operate (DBFO))* və İnşa et-Sahib ol-İdarə et-Transfer et *(Build-Own-Operate-Transfer (BOOT))* və s.

Bununla belə, ABŞ və Böyük Britaniya arasında DÖST sahəsində bəzi fərqlər də var. Məsələn, Böyük Britaniya bütün əsas DÖST layihələrinə nəzarət etmək üçün məsul orqan və eyni zamanda qeyri-rəsmi səviyyədə milli DÖST agentliyi hesab edilən İnfrastruktur və Layihələr İdarəsi (IPA) ilə daha mərkəzləşdirilmiş yanaşmaya malikdir. Bunun əksinə olaraq, ABŞ-da hər bir ştat öz DÖST proqramına cavabdeh olmaqla, daha mərkəziləşməmiş yanaşmaya malikdir. Bundan əlavə, Böyük Britaniya DÖST-ün yeni modellərinin, məsələn, Şəxsi Maliyyə Təşəbbüsü (PFI) və aktivlərin uzunmüddətli idarə edilməsinə daha çox diqqət yetirən PF2 modeli kimi modellərin hazırlanmasında daha innovativ olmuşdur [3, s. 22].

Ümumiləşdirsək, Böyük Britaniyadakı DÖST sisteminin ümumi xüsusiyyətləri aşağıdakılardır [3, s. 23-24]:

– Dövlət və özəl sektorlar arasında uzunmüddətli tərəfdaşlıq. Böyük Britaniyada DÖST dövlət və özəl sektorlar arasında uzunmüddətli tərəfdaşlığı nəzərdə tutur. Bu o deməkdir ki, özəl sektor uzun müddət ərzində infrastruktur layihələrinin maliyyələşdirilməsinə, layihələndirilməsinə, tikintisinə və istismarına cavabdehdir.

– Riskin bölüşdürülməsi. Böyük Britaniyada DÖST dövlət və özəl sektorlar arasında risklərin bölüşdürülməsini nəzərdə tutur. Bu o deməkdir ki, risklər onları ən yaxşı idarə edə bilən tərəfə verilir. Bu, layihələrin xərcini azaltmağa və onların vaxtında və yüksək standartlara uyğun çatdırılmasını təmin etməyə kömək edir.

– Nominal dəyər. Böyük Britaniyada DÖST nominal dəyər yaratmağa yönəlib. Bu o deməkdir ki, layihələr bütün istismar müddəti ərzində aktivin tikintisi, istismarı və saxlanması xərcləri də daxil olmaqla, onların ömürlük məsrəfləri əsasında qiymətləndirilir.

– İnnovasiya. Böyük Britaniyada DÖST infrastruktur layihələrinin çatdırılmasında innovasiyaları təşviq edir. Bu o deməkdir ki, özəl sektor layihələrin keyfiyyətini yaxşılaşdırmağa və onların dəyərini azaltmağa kömək edə biləcək yeni ideya və texnologiyaların meydana gətirilməsinə təşviq edilir.

– Şəffaflıq və hesabatlılıq. Böyük Britaniyada DÖST ciddi şəffaflıq və hesabatlılıq tələblərinə tabedir. Bu o deməkdir ki, layihələrə yüksək səviyyədə nəzarət var və onların yüksək standartlara uyğun və ictimaiyyətin maraqlarına uyğun şəkildə çatdırılmasını təmin edən mexanizmlər mövcuddur.

DÖST Böyük Britaniyada nəqliyyat, səhiyyə və təhsil kimi müxtəlif infrastruktur layihələri üçün istifadə edilir. Ancaq yuxarıdakı müsbət xüsusiyyətləri ilə yanaşı ara-sıra ciddi uğursuzluqlar da yaşanır. Ümumiyyətlə, Böyük Britaniyada DÖST-dən istifadə məsələsi hər zaman mübahisəli olub. Bəziləri bunun dövlət xidmətlərinin təqdim edilməsinin ən effektiv yolu olduğunu, digərləri isə bunun daha yüksək xərclərə və mühüm xidmətlər üzərində ictimai nəzarətin azalmasına səbəb olduğunu iddia edir. Böyük Britaniyada bir çox DÖST layihələri (məsələn, *King's Cross* dəmir yolu stansiyasının yenidən qurulması) uğurlu olsa da, bir neçə böyük DÖST layihəsində iştirak edən inşaat şirkəti olan Karillionun *(Carillion)*

---
[1] *Türk dilində: yap-işlet-devret.*

dağılması kimi yüksək profilli uğursuzluqlar da baş vermişdir [4, s. 67]. Ümumiyyətlə, Böyük Britaniyada DÖST-ün faydalılığı hələ də geniş müzakirə mövzusudur.

**DÖST mexanizmində Avropa İttifaqı təcrübəsi**

Yuxarıda da qeyd etdiyimiz kimi, Böyük Britaniya və ABŞ müvafiq sahədə müəyyən oxşarlıqlara malikdir, lakin onların bəzi fərqləri də var. Avropa İttifaqının isə ABŞ və Böyük Britaniyadakından fərqlənən dövlət-özəl sektoru tərəfdaşlığı üçün özünəməxsus çərçivəsi var. Bununla belə, kontekstdən və layihənin məqsədlərindən asılı olaraq Aİ-dəki xüsusi DÖST layihələri ilə ABŞ və Böyük Britaniyadakı xüsusi DÖST layihələri arasında bəzi oxşarlıqlar və fərqlər ola bilər.

Avropa İttifaqı (Aİ) ayrı-ayrı üzv dövlətlərin müxtəlif hüquqi və tənzimləyici çərçivələrə malik olduğu üçün mərkəzləşməmiş yanaşmaya malikdir. Bununla belə, Aİ-də DÖST sisteminin bəzi ümumi xüsusiyyətləri var. Bunlardan bəziləri aşağıdakılardır [5, s. 33-34]:

1. DÖST layihələri, ilk növbədə, yollar, hava limanları və ictimai binalar kimi ictimai infrastruktur layihələrinin reallaşmasında istifadə olunur.
2. DÖST layihələri Aİ-nin dövlət satınalmaları qaydalarına tabedir və Aİ rəqabət qanunlarına riayət etməlidirlər.
3. DÖST müqavilələri adətən uzunmüddətli olur, orta statistik müddəti 15-30 ildir.
4. Özəl tərəfdaş infrastruktur aktivinin maliyyələşdirilməsinə, layihələndirilməsinə, tikintisinə və istismarına cavabdehdir.
5. Dövlət partnyoru aktivin mülkiyyət hüququnu özündə saxlayır və onun təyinatı üzrə ictimai məqsədlər üçün istifadə olunmasını təmin etmək üçün məsuliyyət daşıyır.
6. Dövlət və özəl tərəfdaşlar arasında risk bölgüsü DÖST müqavilələrinin ən mühüm elementidir və Böyük Britaniya ilə bənzərlik təşkil edir.

Aİ-də DÖST layihələrini idarə edən hökumət proqramları var. Avropa Komissiyasının bu layihələrlə bağlı bir sıra təşəbbüsləri var. O cümlədən 2015-ci ildə Aİ daxilində strateji investisiyaları dəstəkləmək üçün yaradılmış Strateji İnvestisiyalar üzrə Avropa Fondu (EFSI) da mövcuddur. Avropa İnvestisiya Bankı (AİB) də Aİ-də DÖST layihələrinin maliyyələşdirilməsində əsas rol oynayır. Bununla yanaşı, müxtəlif milli səviyyəli DÖST proqramları da mövcuddur. Bundan əlavə, Aİ nəqliyyat infrastrukturu, bərpa olunan enerji və rəqəmsal xidmətlər kimi bir sıra sahələrdə dövlət və özəl sektor arasında tərəfdaşlıq qurmuşdur.

İttifaqda həyata keçirilən DÖST layihələri arasında müəyyən konkret nümunələrdən danışmaq mümkündür. Misal üçün, Hollandiyada A15 Maasvlakte-Vaanplein avtomobil yolu layihəsi DÖST olaraq həyata keçirilmişdir. Layihə Hollandiyanın İnfrastruktur və Ətraf Mühit Nazirliyi tərəfindən hazırlanıb və Maasvlakte limanı ərazisini hinterlandla birləşdirən yeni avtomobil yolunun tikintisini əhatə edib. Müqavilə 2008-ci ildə imzalanıb, layihə isə 2015-ci ildə tamamlanıb. Aİ-də DÖST layihələrində iştirak edən bir çox şirkət vardır. Bu şirkətlərin bəzi görkəmli nümunələrinə Ferrovial, Eiffage, Vinci, Skanska və Bouygues daxildir. Bu şirkətlər bir sıra infrastruktur layihələrində, o cümlədən yollar, körpülər, hava limanları və xəstəxanalar və digər layihələrdə iştirak edirlər [4, s. 70].

Böyük Britaniya və Aİ arasında DÖST sahəsində müəyyən oxşarlıqlar var. Bu oxşarlıqlara aşağıdakılar daxildir:

1. Həm Böyük Britaniya, həm də Aİ DÖST layihələri üçün hüquqi və tənzimləyici çərçivələrə malikdir.
2. Həm Böyük Britaniya, həm də Aİ nəqliyyat, sosial infrastruktur və enerji layihələri də daxil olmaqla bir sıra infrastruktur layihələrini maliyyələşdirmək üçün DÖST-dən istifadə ediblər.
3. Həm Böyük Britaniyada, həm də Aİ-də DÖST layihələri çox vaxt dövlət sektoru orqanları və ya yerli özünüidarəetmə orqanları vasitəsilə həyata keçirilir.
4. Həm Böyük Britaniya, həm də Aİ satınalma, müqavilələrin idarə edilməsi və risklərin bölüşdürülməsi ilə bağlı məsələlər də daxil olmaqla, DÖST layihələrinin həyata keçirilməsində çətinliklərlə üzləşib.

Böyük Britaniya və Aİ arasında DÖST sahəsində bəzi fərqlər də vardır. Əsas fərqlərdən biri ondan ibarətdir ki, Böyük Britaniya ənənəvi olaraq bir çox Aİ üzvü olan dövlətlərlə müqayisədə dövlət xidmətlərinin göstərilməsinə özəl sektoru cəlb etməyə daha çox öyrəşib. Bundan əlavə, Böyük Britaniyanın DÖST üçün hüquqi və tənzimləyici bazası Aİ-dən fərqlidir və nəhayət, Böyük Britaniya artıq Aİ üzvü deyil, ona görə də gələcəkdə iki qurum arasında DÖST-ün istifadə və tənzimlənməsinə dair fərqlər daha çox ola bilər.

**Nəticə**

Ümumiləşdirsək, söyləyə bilərik ki, dövlət və özəl sektor arasında tərəfdaşlıq hökumətlər üçün

özəl sektor şirkətləri ilə tərəfdaşlıq edərək dövlət infrastrukturunu və xidmətlərini maliyyələşdirmək və inkişaf etdirmək üçün alternativ üsuldur. DÖST layihələri nəqliyyat, enerji, səhiyyə, təhsil və su təchizatı da daxil olmaqla müxtəlif sektorlarda həyata keçirilir. ABŞ, Böyük Britaniya və Aİ ölkələrində bir neçə onilliklər ərzində inkişaf etdirilmiş yaxşı qurulmuş DÖST təcrübəsi var, postsovet ölkələrində isə bu sahə nisbətən yeni bir fenomendir. Bu ölkələrdə DÖST layihələrinin həyata keçirilməsi infrastrukturun yenidən qurulması və təkmilləşdirilməsi, xarici investisiyaların cəlb edilməsi və iqtisadi inkişafa nail olmaq zərurətindən irəli gəlir. Bununla belə, layihələrin mürəkkəbliyi, dövlət və özəl sektorlar arasında risklərin bölüşdürülməsi və şəffaf və hesabatlı idarəetmə ehtiyacı da daxil olmaqla, DÖST-ün tətbiqi ilə bağlı problemlər də mövcuddur. Bu çətinliklərə baxmayaraq, adıçəkilən mexanizm müzakirə etdiyimiz ölkələrdə infrastrukturun inkişafı və xidmətlərin göstərilməsi üçün perspektivli model kimi görünür və çox güman ki, gələcəkdə hökumətlər üçün mühüm siyasi alət olmağa davam edəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Avakov, A.V. Two Thousand Years of Economic Statistics: World Population, GDP and PPP. London: Routledge, 2010. 408 pages.*

*2. Carlson, J.D. PPP Design, Implementation, and Debugging. Third Edition. Ontario: Addison-Wesley, 2019. 414 pages.*

*3. Higuchi, T. Natural Resource and PPP Infrastructure Projects and Project Finance: Business Theories and Taxonomies. Singapore: Springer Singapore, 2019. 192 pages.*

*4. Hilbig, C. Eigenkapitalbeteiligungen an PPP-Projekten im Hochbau und im Infrastrukturbereich. Berlin: Springer, 2018. 395 pages.*

*5. Jakaitis, J. Narimantas Kazimieras Paliulis. Public-private partnership: improving landscape quality of modern communities, Journal of Architecture and Urbanism, 2013, 37:1, 31-41.*

*6. Weber, B., Alfen, H. Infrastructure as an asset class: investment strategies, project finance and PPP. Chichester: Wiley, 2015. 286 pages.*

## XÜLASƏ

Qərb dövlətləri xüsusən də DÖST-ün inkişafının ilk illərində DÖST-dən istifadə etməklə bağlı Şərq dövlətlərinə nisbətən daha fəal olmuşlar. Lakin bu, o demək deyil ki, Şərq dövlətləri DÖST sahəsində iştirak etmirlər. Bununla belə, Qərb və Şərq dövlətləri arasında bu sahədəki fərqi izah edə biləcək bir neçə amil var. Məqalədə ABŞ, Böyük Britaniya və Avropa İttifaqı ölkələrinin müvafiq sahədəki təcrübəsindən söz açılır. Nəticə hissəsində isə məqalədə aparılmış təhlillər ümumiləşdirilərək konkret nəticələr qeyd olunur. Məqalədə həmçinin qeyd olunur ki, bütün müsbət cəhətlərə baxmayaraq, layihələrin mürəkkəbliyi, dövlət və özəl sektorlar arasında risklərin bölüşdürülməsi, şəffaf və hesabatlı idarəetmə ehtiyacı da daxil olmaqla, DÖST-ün tətbiqi ilə bağlı problemlər də mövcuddur. Bu problemlər Qərb ölkələrində DÖST modellərinin inkişafını ləngidən problemlər hesab olunur.

**Açar sözlər:** *ABŞ, Avropa İttifaqı, Böyük Britaniya, DÖST, Qərb.*

## SUMMARY

Western countries have been more active than Eastern countries in using the PPP, especially in the early years of PPP development. However, this does not mean that Eastern countries do not participate in the field of PPP. However, there are several factors that may explain the difference in this area between Western and Eastern countries. The article mentions the experience of Western countries, the USA, Great Britain and the European Union, in the relevant field. In the conclusion part, the analyzes conducted in the article are summarized and specific results are noted. The article also notes that, despite all the positive aspects, there are challenges to the implementation of the PPP, including the complexity of projects, the sharing of risks between the public and private sectors, and the need for transparent and accountable governance. These problems are considered to be the problems that slow down the development of PPP models in Western countries.

**Keywords:** *United States, European Union, Great Britain, PPP, West.*

UOT 329

# KLASSİK LİBERALİZMİN ƏSAS PRİNSİPLƏRİ

**RAFİQ İBRAHİMOV**
*Bakı Dövlət Universiteti,*
*Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi,*
*Politologiya və sosiologiya kafedrasının doktorantı*

*E-mail: ibrahimovrafiq123@gmail.com*

## Giriş

Siyasi fəlsəfənin mərkəzi mövzusu insan xoşbəxtliyidir [2, s. 6]. Başqa sözlə, siyasi fəlsəfə ilə məşğul olan alimlər elə bir siyasi nizam axtarışındadır ki, həmin nizam çərçivəsində insan can atdığı xoşbəxtliyə çata bilsin. Tarix boyu müxtəlif mütəfəkkirlər öz əsərlərində təklif etdikləri siyasi nizamın insanın xoşbəxt olmasına ən yaxşı şəraiti yaratması ilə bağlı çoxsaylı əsaslandırmalar aparmışlar [2, s. 6-8]. Bu nöqteyi-nəzərdən baxdıqda liberalizm istisna deyil. Adam Smis, Con Lokk, David Rikardo, Ceremi Bentham, David Hyum, Con Stuart Mill, Ceyms Mill, Herbert Spenser, Fridrix Hayek, Tomas Hill Grin, Con Rouls və başqaları öz fikir və əsərləri ilə liberalizmin fundamental ideya və prinsiplərini formalaşdırmış və bu ideologiyanın inkişafına istiqamət vermişlər.

Liberalizmin müstəqil ideoloji xətt kimi meydana gəlməsi prosesi öz başlanğıcını Qərbi Avropada feodalizmin süqutundan [1, s. 20] və feodal-kəndli münasibətlərinin tədricən kapitalist-fəhlə və ya işəgötürən-işçi münasibətləri ilə əvəz edilməsindən götürür. Belə ki, 17-18-ci əsrlərdə Avropada monarxlar və kilsə kifayət qədər nüfuzlu və güclü idi. Lakin 17-ci əsrin sonunda İngiltərədə, 18-ci əsrin sonunda isə Fransada inqilabi hərəkatların uğurla yekunlaşması və Atlantik okeanının qərb sahillərində konstitusion quruluşa malik bir dövlətin, yəni Amerika Birləşmiş Ştatlarının meydana gəlməsi liberalizmin formalaşması prosesinə ciddi təkan vermişdir [1, s. 20]. Sözügedən dövrdə inkişaf etməkdə və varlanmaqda olan əhalinin orta təbəqəsi monarxların mütləq iradəsini, kilsə xadimlərinin məhdudlaşdırılmamış fəaliyyətini və hakimiyyətin irsən ötürülməsi prinsipini qətiyyətlə rədd edir və hətta bu prinsiplərin dayanıqlılığını sarsıtmaq üçün silaha əl atırdı. Nəticədə Qərbdə yunan demokratik erasından bəri ilk dəfə olaraq yuxarıda adıçəkilən yeni demokratik hərəkatlar meydana gəlməyə başladı və Samuel Hantinqtonun təbirincə desək, demokratik dalğa tədricən bütün Avropanı bürüdü. Bu hərəkatların formalaşmasında və müvafiq istiqamətlərdə inkişaf etməsi prosesində sənayeləşmə də kifayət qədər mühüm rol oynadı.

Liberalizmin ilkin forması inqilabi və barışmaz xüsusiyyətləri özündə ehtiva etsə də, zaman keçdikcə bu ideologiya mühafizəkarlaşdı və yalnız 20-ci əsrin əvvəllərində keyfiyyətcə dəyişdi. Odur ki, müasir dövrümüzdə liberalizm haqqında danışarkən onun iki cərəyanı elm xadimləri tərəfindən fərqləndirilir: 19-cu əsr liberalizmi və 20-ci əsr liberalizmi. Bəzən isə mahiyyət etibarilə ilə eyni olan, lakin başqa cür adlandırılan təsnifatlara da rast gəlinir: klassik və müasir liberalizm və ya *laissez-faire* və proqressiv liberalizm. Liberalizm ideologiyası daxilində belə bir parçalanma ona görə baş verdi ki, liberallar arasında dövlətin cəmiyyətdəki roluna münasibətdə fikir ayrılıqları mövcud idi və indinin özündə də mövcuddur. Bu fikir ayrılığı ondan ibarətdir ki, baxmayaraq hər iki cərəyan üçün fərd və fərdin özünü reallaşdırması mərkəzi məsələdir, bu prosesin hansı vasitə və şərtlər altında baş verməsi mübahisəlidir. Klassik liberallar fərdin özünü reallaşdıra bilməsi üçün dövlətin cəmiyyətə minimum səviyyədə müdaxilə etməli olduğunu, yalnız xüsusi hallarda, məsələn, fərdin azadlığına təhlükə yarandığı və hüquqları pozulduğu zaman müdaxilə edə biləcəyini bildirirlər. Bunun əksinə olaraq müasir liberallar dövlətin cəmiyyətin həyatında fəal iştirak etməli və fərdin özünü reallaşdırması üçün onu bütün zəruri imkan və vasitələrlə təmin etməli olduğunu qeyd edirlər. Bu məqalədə biz liberalizmin ümumi prinsipləri barədə qısaca danışdıqdan sonra klassik liberalizm, onun əsas hərəkətverici ideyalarına və onların mahiyyətinə nəzər yetirəcəyik.

## Liberalizm ideologiyası və ümumi prinsiplər

Klassik liberalizm barədə danışmazdan əvvəl liberalizmin ümumi prinsipləri ilə tanış olmağa ehtiyac var. Burada çoxsaylı və müxtəlif yanaşmalar mövcud olsa da, biz britaniyalı alim Andryu Heyvudun apardığı ümumiləşdirməyə istinad etmişik. "Siyasi İdeologiyalara Giriş" adlı əsərində o, liberalizm ideologiyasının beş əsas fundamental prinsipinin olduğunu qeyd edir: individualizm, azadlıq, rasionallıq, ədalət və tolerantlıq [1, s. 22].

**İndividualizm** haqqında danışarkən tarixə nəzər salmaq gərəkir. Belə ki, sənayeləşmə dövrünə qədər

individum və ya fərd anlayışı, demək olar ki, yox idi. Hər bir insan müəyyən bir ailəyə, dini icmaya, feodala – bir sözlə, hər hansı bir insanlar qrupuna daxil idi və fərdin kimliyi qrup kimliyi ilə təyin olunurdu. Lakin sənayeləşmə dövründə feodal-kəndli münasibətlərinin əvvəlcə böhran yaşaması, sonra isə ləğv olunması həmin qrup insanlarına sərbəst seçim etmək və müəyyən dərəcədə öz taleyini müəyyənləşdirmək imkan və ixtiyarı verdi. Dövrün ab-havasını duyan İmmanuel Kant insanın öz məqsədlərinə çatması üçün digər insanlardan vasitə kimi istifadə etməsi prinsipini rədd edərək hər bir fərdin həm özü, həm də başqaları üçün yekun bir məqsəd olduğunu bildirdi. Yəni kimliyindən asılı olmayaraq hər bir fərd bərabər ləyaqətə sahibdir və insana alət kimi baxılması doğru deyil [1, s. 23-24].

Liberalizmin ikinci dayaq prinsipi **azadlıq**dır. Əlbəttə ki, fərd və onun müstəqil seçim etməsi haqqında danışarkən dolayısı ilə onun azadlığı barədə də danışmış oluruq. Fərdin azadlığı liberallar üçün müstəsna əhəmiyyətə malikdir və hətta irəli gedib deyə bilərik ki, azadlıq liberalizmin söykəndiyi ana sütundur. Amma azadlıq dedikdə o nəzərdə tutulmur ki, hər kəs nə istəyirsə, onu icra etmək ixtiyar və hüququna sahibdir. Burada Andryu Heyvud 19-cu əsrin görkəmli mütəfəkkiri Con Stuart Milə istinad edərək fərdin azadlığının başqa fərdlərin azadlığını məhdudlaşdırmadığı müddətcə toxunulmaz olduğunu diqqətə çatdırır. C. S. Mil azadlıqla bağlı davranışları iki istiqamətdə təsnifləşdirir: özünə və başqalarına münasibətdə. Özünə münasibətdə azadlıqdan söhbət edərkən burada fərd tam azaddır və azadlığın məhdudlaşdırılması, hətta insanın özünün özünə ziyan vurması halında belə yolverilməzdir. Başqalarına münasibətdə azadlıq isə məhdudlaşdırıla biləndir. Yəni insanın öz azadlığından istifadə edərək başqalarının azadlığını çərçivəyə salmağa çalışması yolverilməzdir [1, s. 24-26]. Buradan çıxış edərək deyə bilərik ki, 1920-1933-cü illərdə ABŞ-da spirtli içkilərin satış, istehsal və daşınmasının qadağan edilməsi qeyri-liberal bir qanun layihəsinin məhsulu idi. Çünki bu layihə Milin qeyd etdiyi kimi, fərdlərin özünə münasibətdə azadlığını məhdudlaşdırırdı. Eyni zamanda konstitusion dövlət quruluşuna sahib olmasına baxmayaraq uzun illər ərzində ABŞ-da qaradərililərin qul kimi istismar edilməsi başqalarına münasibətdə azadlığın məhdudlaşdırılması kimi qiymətləndirilməlidir. Göründüyü kimi, liberal dünyanın aparıcı dövləti hesab olunan ABŞ vaxtilə çoxsaylı qeyri-liberal fəaliyyət və layihələrin həyata keçirildiyi bir ölkə olmuşdur.

Liberallar fərdlərə **rasional** varlıqlar kimi baxırlar. Bu, o deməkdir ki, hər bir fərd yaşadığı ətraf mühiti dərk edərək rasional şəkildə öz məqsəd və maraqlarını reallaşdırmağa can atır. Burada diqqətçəkən məqam ondan ibarətdir ki, rasionallıq fərdləri və millətləri tarixi təcrübədən əldə olunmuş irs və dəyərlərdən qoparır. Yəni insan keçmişlə hər hansı möhkəm bağlara sahib olmadan bu günün reallıqlarını nəzərə alaraq müstəqil şəkildə öz taleyini müəyyənləşdirir. Liberallar tarixin daim inkişaf edən istiqamətdə hərəkətdə olduğunu bildirirlər. Başqa sözlə, yeni nəsillər əvvəlki nəsillərin topladığı bilik, bacarıq və resurslardan faydalanaraq daha da inkişaf edir və yeni bilik, bacarıq və resurslar formalaşdırırlar. Buradan çıxış edərək liberallar qərəzli fikir və ideyaların yürüdülməsini rədd edir və təhsili mütləq yaxşı kimi dəyərləndirərək ona çox önəm verirlər. Eyni zamanda debat və müzakirə rasional davranışın əsas tərkib elementləri sırasında yer alır. Yəni liberalizm perspektivindən baxdıqda istənilən mövzu ətrafında yaranmış fikir ayrılıqlarının müharibə və döyüş kimi zorakı yollarla deyil, danışıqlar və müzakirələr vasitəsilə barışdırılması və konfliktlərin məhz ikincinin vasitəsilə öz həllini tapması daha məqsədəuyğun hesab olunur. Maraqlıdır ki, bununla belə, bir vasitə olaraq döyüş və müharibə tam şəkildə rədd edilmir. Özünümüdafiə və təcavüzün qarşısının alınması kimi hallar olduqda liberallar da silaha əl atılmasını məqbul sayır [1, s. 26-27].

**Ədalət** anlayışına liberalizm nöqteyi-nəzərdən baxdıqda burada üç amil xüsusilə fərqlənir. Ümumiyyətlə, liberallar ədalət haqqında danışarkən bərabərliyin müxtəlif növlərinə toxunurlar. Birincisi, *təməl bərabərlik (ingiliscə - foundational equality)* dedikdə hər bir kəsin doğulduğu andan eyni dəyərə və nəticədə müəyyən hüquqlara sahib olması nəzərdə tutulur. Həmin bu dəyərdən irəli gələn hüquqlar millətindən, dinindən, cinsindən və s. asılı olmayaraq bütün bəşər övladlarına eyni dərəcədə şamil olunur və bir çox hallarda *anadangəlmə* və ya *təbii hüquqlar* adlandırılır. Bu hüquqların belə adlandırılmasının səbəbi onların *ayrılmaz xarakteri* ilə əlaqəlidir. Yəni insan dünyaya göz açandan bu hüquqlara sahibdir və heç kim, yaxud heç bir quruluş fərdin bu hüquqlarını məhdudlaşdıra bilməz. Klassik liberalizmin banilərindən hesab edilən Con Lokka görə, bu hüquqlar *yaşamaq, azadlıq* və *şəxsi mülkiyyətdir*. Tomas Ceffersona görə isə şəxsi mülkiyyət hüquqdan daha çox bir imtiyazdır, ona görə də o, bunun əvəzinə ABŞ Konstitusiyasında xoşbəxtliyin ardınca getmək hüququnu təsbit edir [1, s. 31-32].

İkincisi, *qanun bərabərliyi (ingiliscə - formal equality)* cəmiyyəti təşkil edən vətəndaşların dinindən, etnik qrupundan, cinsindən, dərisinin rəngindən, vəzifəsindən və s. asılı olmayaraq məhkəmə qarşısında eynihüquqlu olması anlamına gəlir. Bu, o deməkdir ki, insanların cəmiyyətdə bu və ya digər səbəblərdən tutduğu mövqe onların hüquq və azadlıqlarının genişləndirilməsinə və ya məhdudlaşdırılmasına yol vemir. Üçüncüsü, *imkan bərabərliyi (ingiliscə - equality of opportunity)* daha çox müasir liberalların istinad etdiyi bir termindir. Bu terminin bünövrəsində hər bir fərdə həyat oyununda özünü reallaşdıra bilməsi üçün bərabər imkanların yaradılması ideyası dayanır. İmkan bərabərliyi dedikdə, insanların süni şəkildə cəmiyyətin ön sıralarına cəlb olunması nəzərdə tutulmur. Hər bir fərd doğulduğu andan müəyyən və bir-birindən tamamilə fərqlənən bacarıq və keyfiyyətlərə sahibdir. Liberalizm fərdin bu bacarıq və keyfiyyətləri reallaşdıra bilməsi və öz əməyi, həmçinin iradə və çalışqanlığı nəticəsində cəmiyyətdə müəyyən bir mövqeyə çatması üçün maksimum şəraitin təmin edilməsini dəstəkləyir. Başqa sözlə, liberalizm meritokratik, yəni fərdin çalışqanlığı, iradəsi və zəhmətinə uyğun olaraq müvafiq nəticələr əldə etməsini təmin edən cəmiyyətin qurulmasını təşviq edir. Kim daha çox zəhmət çəkirsə, daha çox mükafatlandırılmalı, tənbəl insanlar isə öz məsuliyyətsizliyinin və biganəliyinin qarşılığını almalıdırlar [1, s. 27-29].

Fərd və azadlıq barədə danışarkən istər-istəməz **tolerantlıq** mövzusu da diqqəti cəlb edir. Aydındır ki, cəmiyyətdə individualizmə geniş yer verildiyi təqdirdə fərqli dəyər, prinsip, bacarıq və keyfiyyətləri daşıyan fərdlər formalaşacaqdır. Eyni zamanda bu fərdlərin mövcudluğu onların nə dərəcədə bir-birinin fərqliliyini tanımasından və qəbul etməsindən asılı olacaqdır. Əgər fərqliliklər qəbul edilməzsə, cəmiyyət daim münaqişə, hətta müharibə vəziyyətində olmaq təhlükəsi ilə üz-üzə qala bilər. Liberalizm perspektivindən tolerantlıq insanların qarşılıqlı surətdə bir-birinin fərqli olmaq hüquq və azadlığını, başqa sözlə, cəmiyyəti təşkil edən hər bir fərdin tamamilə özünəməxsus individual keyfiyyətlərə sahib olmasını tanımasıdır [1, s. 29-30]. Baxmayaraq ki, liberalizm cəmiyyətdə tolerantlığı təşviq edir, burada ciddi bir paradoksa da rast gəlinir. Professor Merşaymer "Böyük aldanma: Liberal xəyallar və beynəlxalq reallıqlar" əsərində qeyd edir ki, hər bir cəmiyyətdə müəyyən sayda insan var ki, onlar liberalizm prinsiplərini rədd edir və dövlətin, həmçinin cəmiyyətin başqa dəyər və prinsiplərlə idarə olunmasına tərəfdar çıxır. Hətta həmin qrup insanlar mövcud liberal rejimin dəyişdirilməsi istiqamətində fəaliyyət göstərmək iqtidarındadırlar. Belə olan halda liberallar cəmiyyətin bu kəsiminə qarşı tolerant yanaşmalıdırlarmı və ya yanaşa bilərlərmi? Cavab, təbii ki, xeyrdir. Belə bir situasiyada tolerant davranış liberalizmin sonuna gətirib çıxara bilər. Merşaymer liberalizmin ata qurucularından sayılan Con Lokka istinad edərək bildirir ki, Lokk özü tolerantlığın ən böyük təbliğatçılarından biri olmasına baxmayaraq, ateistləri və katolik dininin mənsublarına qarşı şübhə ilə yanaşır, hətta onları liberalizmə təhlükə kimi görürdü [5, s. 62-63].

Liberalizm daxilində yuxarıda adıçəkilən iki cərəyanın nə vaxt və necə yaranması ilə bağlı müxtəlif fərziyyə və fikirlər mövcuddur. Bu məqaləmizdə biz Helena Rozenblatın "Liberalizmin itirilmiş tarixi" əsərində bu mövzu ilə əlaqədar gəldiyi qənaəti bölüşürük. H. Rozenblat adıçəkilən əsərdə liberalizmin daxildən ikiyə ayrılmasını Bismark Almaniyasının "dövlət sosializmi" siyasəti ilə əlaqələndirir. Belə ki, 1871-ci ildə Fransa-Prussiya müharibəsindəki ağır və alçaldıcı məğlubiyyətindən az sonra fransızlar bu məğlubiyyətin səbəbləri barədə qızğın müzakirələr aparmağa başlayırlar. Məlum olur ki, alman əsgər və zabitləri fransız rəqibləri ilə müqayisədə fiziki baxımından daha güclü və sağlamdırlar. Müharibənin gedişi ərzində fransız ordusunun bütöv bir diviziyasına bərabər sayda əsgər və zabitin çiçək xəstəliyinə yoluxaraq məhv olması, lakin döyüş heyətinin vaksinasiya edilməsi səbəbindən alman ordusunun qat-qat az itkilərə məruz qalması irəli sürülən mülahizənin doğruluğunu təsbit edir. Müharibədən sonra Prussiya hökuməti daha da irəli gedərək 1874-cü ildə bütün alman vətəndaşlarının çiçək xəstəliyi əleyhinə icbari vaksinasiya olunması layihəsini qəbul edir. Bu və digər addımları ilə alman dövləti tədricən cəmiyyətin sosial və iqtisadi həyatına fəal şəkildə müdaxilə etməyə başlayır, başqa sözlə, vətəndaşların fərdi azadlığına "qəsb edir". Nəticədə liberalizmin ənənəvi prinsipləri, o cümlədən dövlətin cəmiyyətin həyatında minimum rola sahib olması ilə bağlı mülahizə sual altına qoyulur. Rozenblat liberalizm daxilində parçalanmanın buradan başladığını bildirir [4, s. 220-221].

## Klassik liberalizm və prinsipləri

*Bütün insanlar azad və bərabər hüquqlara sahib olmaqla doğulur. İstənilən siyasi birliyin [dövlət və digər oxşar siyasi qurumlar nəzərdə tutulur – m.]*

*məqsədi İnsanın təbii və ayrılmaz hüquqlarını müdafiə etməkdir.*

**İnsan və Vətəndaş Hüquqları haqqında Bəyannamənin (1789) I və II maddəsindən**

19-cu əsrin sonlarında liberalizm daxilində yeni bir cərəyanın meydana çıxması ilə liberallar iki qrupa ayrıldılar: köhnə və yeni liberallar [3, s. 7]. Köhnə liberalları xarakterizə edən əsas xüsusiyyət fərdin azadlığı ilə bağlı ənənəvi baxışın onlar tərəfindən qorunması və təbliğ olunması idi. Bu ənənəvi baxış qarşıda geniş şəkildə müzakirə ediləcəkdir. Lakin müzakirəyə keçməmişdən əvvəl qeyd etmək lazımdır ki, İkinci Dünya müharibəsindən sonra köhnə liberalları müasir və rifahyönümlü liberallardan ayırd etmək üçün "klassik liberalizm" termini ortaya atıldı [3, s. 8]. Bu cərəyanın əsas müəllifləri sırasında Con Lokk, Adam Smis, Fridrix Hayek, Herbert Spenser, Con Qrey, Stefen Holms və başqaları yer alır. Aşağıda müzakirə olunacaq prinsip və elementlər əslində liberalizm müstəqil ideologiya kimi meydana gəlməyə başlayanda üzə çıxan prinsip və elementlərlə üst-üstə düşür. Başqa sözlə, liberalizm dünyaya klassik liberalizm kimi "göz açmışdır".

Ümumiyyətlə, klassik liberalizmi digər ideologiyalardan fərqləndirən və yuxarıda sözügedən ənənəvi baxışın özəyini təşkil edən əsas prinsip və ya xüsusiyyət fərdlərə verilən azadlığın dərəcəsidir [2, s. 8]. Klassik liberallar bir qayda olaraq hər bir fərdin *neqativ azadlığa* sahib olduğunu iddia edirlər. Neqativ azadlıq dedikdə o başa düşülür ki, fərd öz taleyini müəyyənləşdirməkdə tam sərbəst buraxılmalıdır və bu istiqamətdə onun üzərinə ya digər fərdlər, ya da dövlət tərəfindən hər hansı məhdudiyyət və qadağaların qoyulması yolverilməzdir [1, s. 25-26].

Məhdudiyyətsiz azadlıq dedikdə, burada o nəzərdə tutulmur ki, cəmiyyətin üzvü olan fərd istədiyi fəaliyyəti istədiyi zaman yerinə yetirmək iqtidarındadır. Çünki neqativ azadlıq yalnız bir fərdə deyil, cəmiyyəti təşkil edən bütün fərdlərə şamil edilir. Odur ki, əgər insanın fəaliyyəti başqasının azadlığını məhdudlaşdırırsa və ya onun bu fəaliyyət icra edilməzdən əvvəlki vəziyyət və halına kəmiyyət və ya keyfiyyət baxımından ziyan vurursa, o zaman həmin fəaliyyətin qarşısı alınmalıdır. Burada artıq dövlətin və ya David Konveyin dili ilə desək, liberal quruluşun müdaxiləsinə ehtiyac yaranır. Lakin əgər maddi və ya mənəvi zərər həmin fəaliyyəti icra edən şəxsin özünə şamil olunursa, burada hər hansı müdaxilədən söhbət gedə bilməz və klassik liberalizmə görə fərd tamamilə sərbəst buraxılmalıdır. Bəzi Qərb cəmiyyətlərində evtanaziyanın (insanın könüllü surətdə öz həyatına qəsd etməsi) leqallaşdırılmasının nəzəri-hüquqi əsası öz mənbəyini buradan götürür desək, şişirtməməyə yol verməri̇k. Eyni zamanda bu perspektivdən baxdıqda səhhətinə mənfi təsir göstərdiyini bilə-bilə fərdin tütün məhsullarından istifadə etməsi heç bir halda məhdudlaşdırıla bilməz. D. Konvey Adam Smisə istinad edərək bu ictimai formasiyanı *təbii azadlıq sistemi* adlandırır [2, s. 9].

Klassik liberallar təklif etdikləri *təbii azadlıq sisteminin* digər müvafiq siyasi sistemlərdən üstün olmasını iki xüsusiyyətlə əlaqələndirirlər: 1) *Yekun məqsədə münasibətdə individualizm*; 2) *Vasitələrə münasibətdə individualizm* [2, s. 9-10]. Birincisi haqqında danışarkən o nəzərdə tutulur ki, insan nəyin onun xoşbəxtliyini artırdığını, nəyin isə azaltdığını yalnız özü müəyyənləşdirmək iqtidarındadır. Bu, o deməkdir ki, fərdin özü öz həyatının yekun məqsədi və hakimidir. Başqa sözlə, fərdin özündən başqa heç kim – nə valideynlər, nə dostlar, nə də digərləri həmin fərd üçün nəyin yaxşı, nəyin pis olduğunu müəyyən və təyin etmək hüquq və ixtiyarına sahib deyillər. Vasitələrə münasibətdə individualizm dedikdə isə fərdə xoşbəxtliyini məhz və yalnız özünün gördüyü kimi müəyyən etmək üçün ona zəruri azadlığın verilməsi nəzərdə tutulur. Əlbəttə ki, bu azadlıq başqalarının azadlığı çərçivəsində sərhədlənmişdir. Yəni insana öz xoşbəxtliyini başqalarının azadlığını məhdudlaşdırmaqla təmin etmək hüquq və ya ixtiyarı verilmir.

"Soyuq müharibə" dövründən fərqli olaraq müasir dövrdə iki ölkə arasındakı münasibətlərdə açıq konfliktlər müşahidə olunmur (12). Hər iki ölkənin beynəlxalq terrorizmin və nüvə silahlarının yayılmasının qarşısının alınmasında ortaq siyasi, iqtisadi və təhlükəsizlik maraqları var. İkiqütblü dünyadan çoxqütblü dünyaya transformasiya qüvvələr balansını əvvəllər qərbin xeyrinə dəyişdirsə də, bir qədər sonra vəziyyət tamamilə başqa xarakter aldı. Çin çoxqütblü dünya modelini dəstəkləməklə yeni mərhələdə özünə yer eləməyə çalışırdı. Müxtəlif güc mərkəzləri dünyanın siyasi arenasında rol oynamağa başladı. 2001-ci ilin 11 sentyabr terror hadisəsindən sonra bütün dünya ictimaiyyətinin fikri beynəlxalq terrorizmlə mübarizəyə yönəldi. Çin də terrorizmlə mübarizə aparan ölkələrdən biri kimi beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ-ın yanında yer aldığını və birgə əməkdaşlıq edəcəyini bəyan etdi. ÇXR nə qədər böyük dövlət olsa da terrorizmdən sığortalanmayıb, çünki Əfqanıstan, Şərqi Türküstan və Tibetdəki radikal terror qruplar Çinin milli təhlükəsizliyinə potensial təhdid təşkil edirdi (1, s. 4-5).

ABŞ özünün Çinlə siyasi əlaqələrində bəzi məsələləri problem olaraq qabardır. Bu problemlərin içində Çindəki hökumətin demokratikliyi və ölkədəki insan haqları kimi məsələlər yer alır. Bu da başda ABŞ olmaqla, qərbin demokratik institutlarını narahat edən məsələlərdəndir. Vaxtilə, hökumətə etiraz edən siyasi dissidentlərin ABŞ-ın və qərbin təkidi ilə azad edilməsi əlaqələrin pozulmasına yol açmışdı (12). Siyasi əlaqələrin dinamikliyi iqtisadi əlaqələrin inkişafından da asılıdır. ABŞ-Çin əlaqələrinin inkişafında Strateji və İqtisadi Dialoq (SİD) böyük rol oynayır (1, s. 16-18). SİD Çin və ABŞ arasında iqtisadi, regional və qlobal strateji məsələləri müzakirə etmək üçün yaradılmış yüksək səviyyəli dialoq formatıdır. Dialoq zamanı hər iki ölkə əməkdaşlığı inkişaf etdirmək niyyətində olduğunu bildirmişdir. İqtisadi əlaqələrin inkişafında G2 (Group of Two), Chimerica kimi xüsusi əməkdaşlıq formatları xüsusi əhəmiyyət kəsb edir (8, s. 62-63). ABŞ Çinlə olan iqtisadi əlaqələrində əsasən iki məqsəd güdür: Çini qlobal iqtisadi və ticarət sisteminə inteqrasiya etmək və ABŞ ixracatçılarının və investorlarının Çin bazarına rahat girişini təmin etmək (13). Çin həmçinin, ABŞ-ın ən böyük kreditoru olaraq qalır ki, bu kreditin həcmi də ABŞ milli borcunun 21%-nə bərabərdir. Beləliklə, Çin dünyanın ən nəhəng iqtisadiyyatına malik ölkəsinə çevrilmişdir.

ABŞ və Çinin xarici siyasətini təhlil etdikdə dünya siyasətində ortaya bəzi vacib məqamlar ortalığa çıxır. Çin xarici siyasətində dünyanın bəzi qaynar nöqtələri ilə bağlı məsələlərə münasibətdə konkret mövqe nümayiş etdirməkdən çəkinir. Lakin gələcəkdə aktiv siyasi müdaxilələr etmək üçün əlverişli şərait yarat-

mağa da çalışır. Onun Ukrayna və Suriya münaqişələrində sərt və iddialı mövqe sərgiləməməsi, Rusiya və İran blokuna yumşaq dəstəyi, qərb dünyasına və Amerikaya olan müxalif tərzi açıq-aydın büruzə verir (15). Bununla bağlı Çin öz müttəfiqi Rusiyanın məruz qaldığı iqtisadi sanksiyalardan və beynəlxalq aləmin hədəfinə çevrilmək prosesindən kənarda qalmaq istəyir. Son illər Çinin iqtisadi inkişafı ilə paralel olaraq, hərbi sahədə də inkişafının müşahidə olunması diqqətçəkici məqamdır. İqtisadi inkişafda nailiyyətlər əldə edən Çin hərbi sənayesini gücləndirir (7, s. 78). Bu, qonşu ölkələrin, eləcə də beynəlxalq aləmin diqqətinə səbəb olur. Çin bununla gələcəkdə bölgədə baş verə biləcək geosiyasi rəqabətdə üstünlük əldə etməyə çalışır. ABŞ-ın Əfqanıstandan qoşunlarını geri çəkməsi heç də təsadüfi deyildir. Belə olduqda, yerli terror qruplaşmaları yenidən dirçələcək və bölgədə böyük təhlükəsizlik mühiti yaranacaq. Bu da ilk növbədə Rusiya və Çinin təhlükəsizliyini təhdid edir və onların bölgəyə nəzarətini zəiflədir. Rusiya və Çinin ortaq təhlükəsizlik maraqları onları qərbə qarşı daha da yaxınlaşdırır. Çin özünün hərbi-geopolitik imkanlarını artırmaq istiqamətinə və iqtisadi inkişafa xüsusilə diqqət verir, çünki yaxşı başa düşür ki, güclü iqtisadiyyat olmadan diplomatiyada və hərbi sahədə uğur qazanmaq olmaz. Təbii iqtisadi artımın illik rəqəmlərində ABŞ-la yarışan Çin gələcəyin iqtisadi imperiyasının təməllərini qoyur. Əlbəttə ki, bu gedişat başda ABŞ olmaqla, iqtisadi güc mərkəzlərini də narahat etməyə bilməz. İqtisadi inkişaf Çinə siyasi, strateji, diplomatik və s. üstünlüklər qazandırır. Çin hələ açıq oyun qaydalarına keçməsə də, əldə etdiyi güclə yaxın gələcəkdə qüvvələr balansını öz xeyrinə dəyişə bilər. Bu da tarixdə növbəti qarşıdurmalara və böhranlara gətirib çıxaran amillərdəndir.

İqtisadi və hərbi parametrlərlə yanaşı, Çindəki mühafizəkar sosial-siyasi quruluş qütbləşmənin, eləcə də gələcəkdə ehtimal olunan qarşıdurma şəraitinin yaranmasına zəmin yaradır. Sivilizasiya-ölkə olan Çin bu ənənəvi formatı qorumağa çalışır və getdikcə öz yerini möhkəmləndirir. Qərb mədəniyyətinin dünyaya getdikcə hakim olması Çin sivilizasiyasını da narahat edir. Buna alternativ olaraq, Çin özünün qədim fəlsəfə və mədəniyyətinə qayıtmağa çalışır. Qərb dəyərlərinin İslamla toqquşduğunu görən Çin İslamla konfutsionizmin yaxınlaşması siyasətini güdür. Eyni zamanda qərb də bu yaxınlaşmadan xəbərdardır. Qərb-Şərq qarşıdurmasının fonunda gerçəkləşən ABŞ-Çin mədəniyyət savaşı bu qarşıdurmaya fərqli bir format qazandırır. ABŞ-ın "yumşaq siyasət"dəki uğurları Çini qarşılıqlı cavablar verməyə vadar edir. Çinin "sərt gücün" tətbiqindən yayınaraq, "yumşaq gücə" üstünlük verməsini onun xarici siyasətinin ən mühüm və lazımi məqamlarından hesab etmək olar (9, s. 19-20). Buraya ideoloji-mədəni, iqtisadi amillər də daxildir. Çin dünyanın müxtəlif yerlərində Konfutsi məktəbləri açmaqla öz dil və mədəniyyətini tanıdır, hər il minlərlə amerikalı tələbə Çinə, çinli tələbələr də ABŞ-a təhsil almağa gedirlər (9, s. 23). İqtisadi fonda Çin Afrika qitəsinə də genişmiqyaslı layihələrlə investisiyalar qoyur, böyük kreditlər verir. Eyni zamanda nəhəng enerji layihələrində iştirak edir və böyük investisiyalar qoyur. Təsadüfi deyildir ki, Çin son illərdə dünyanın ən nəhəng kreditorlarından birinə çevrilmişdir (1, s. 6-8).

Çin ətrafında geosiyasi vəziyyət olduqca mürəkkəbdir. Bir tərəfdən Cənubi Çin dənizində geostrateji rəqabət və kiçik adalar uğrunda mübarizə, Hindistanın geosiyasi rəqabətə qoşulması və Çin-Yaponiya gərginliyi vəziyyəti daha da gərginləşdirir, digər tərəfdən isə Şimali Koreyanın apardığı raket sınaqları onun qonşularını ciddi narahat edir və bölgədə təzyiqi yüksəldir (2, s. 7). ABŞ da müvafiq olaraq müttəfiqlərini silahlandırır və bölgədəki hərbi bazalarının sayını artırır. ABŞ ən son Filippində beş hərbi baza açaraq çənbəri daha da daraltdı (2, s. 5). ABŞ Asiyanın şərqində şimaldan cənuba uzanan bu cəbhə ilə Çini dənizdən nəzarətə almağa çalışır. Çin Cənubi Çin dənizində hərbi donanmasının sayını artırır çünki, Filippin Cənubi Çin dənizində bəzi kiçik adalara iddia irəli sürür və bu, Çinlə qarşıdurmaya səbəb ola bilər. Buna görə Çini itirmək qorxusunu ABŞ-ın nəzərinə çatdıran mərkəzi Pekin hər iki ölkənin qarşılıqlı maraqları olduğunu xüsusi vurğulayır (3, s. 6). Belə məlum olur ki, Çin ABŞ-Filippin yaxınlaşmasından ciddi təşviş içərisindədir və hərbi bazaların varlığı onun təhlükəsizliyini təhdid edir. ABŞ-ın da bu regionda xüsusi maraqları var. Bu maraqlar təkcə hərbi və geosiyasi amillərlə şərtlənmir. Bu region həm iqtisadi, həm də geosiyasi cəhətdən mühüm əhəmiyyətə malikdir. Çinin cazibə mərkəzinə çevrilməsi və digər region ölkələrinin də iqtisadi baxımdan ona inteqrasiya etməsi qərb bazarları üçün ciddi sıxıntılara gətirib çıxara bilər. Şərqi Asiyanın belə sürətlə inkişafı siyasi və geosiyasi qütbləşməni də sürətləndirir. ABŞ bölgədəki qüvvələr balansını öz xeyrinə dəyişmək üçün Çinin qonşu ölkələri ilə əməkdaşlıq edir və onları öz tərəfinə çəkməyə çalışır. ABŞ-ın bu

strateji xətti “Çini əhatələmək” və ya “çəpərləmə” siyasəti adlanır (3, s. 11). Bu yolla o, Çinin ətrafında müttəfiqlərindən ibarət halqa yaradır və onu təcrid etməyə çalışır. ABŞ-ın bölgədəki başlıca müttəfiqləri Yaponiya, Cənubi Koreya və Tayvandır. Bu ölkələrdə onun hərbi bazaları mövcuddur. Həmçinin o, Asiyanın iqtisadi birliklərində aktiv fəaliyyət göstərir. İkili siyasət aparan ABŞ bir tərəfdən də Çinlə əlaqələri normal səviyyədə inkişaf etdirməyə çalışır və onunla əməkdaşlıq edir. Kənardan nə qədər anlaşılmaz görünsə də, bu, Amerika diplomatiyasının ənənəvi metodudur və hər iki yolla mənfəət qazanmağa və Çini sıxışdırmağa çalışır.

Tayvan məsələsi də ABŞ-Çin əlaqələrinin inkişafına mühüm təsir göstərən amillərdəndir. 1971-ci ildə ABŞ Tayvanla diplomatik əlaqələri kəsdi və paytaxtı Pekin olan ÇXR-i tanıdı. Ping-pong diplomatiyası, dövlət başçılarının rəsmi səfərləri, “Vahid Çin”ə sadiqlik ABŞ-la ÇXR arasında əlaqələrin formalaşmasına zəmin yaratdı. Tayvanla bütün əlaqələrin kəsilməsinə baxmayaraq, ona silah satan ABŞ zaman-zaman Çinin notaları ilə üzləşsə də, Tayvanı silahlandırmaqda davam edirdi. Tayvan siyasətində Çinin başlıca məqsədi sülh yolu ilə onu özünə birləşdirməkdir. Bu birləşmə öz əksini “bir ölkə- iki sistem” formatında göstərəcəkdir (14). Yəni, beynəlxalq aləmdə onlar hər ikisi ÇXR ilə təmsil olunacaq. ABŞ isə bu siyasətin əksini istəyir və bu məsələnin həll olunmamasına çalışırdı. ABŞ bu problemin həll olunmamasında qətiyyən maraqlı deyildi. Mövcud status-kvodan razı olan və ikili siyasət aparan ABŞ 2010-cu ildə Tayvana 6.5 milyard dollarlıq silah satmışdır (14). ABŞ-ın adaya strateji marağı bu məsələnin yaxın perspektivdə həll olmayacağını göstərir. Tayvan-Çin əlaqələrində isə əvvəlki dövrlərdən fərqli olaraq bir qədər mülayimlik müşahidə olunur. Bu mülayimliyə baxmayaraq, problemin həllinin gecikməsində əsas səbəblərdən biri ideoloji fərqliliklərdir (6, s. 12). Çin və Tayvan arasında sosial-iqtisadi məsələlərdən tutmuş insanların gündəlik həyat tərzi və mədəniyyətlərinə qədər bəzi fərqliliklərin olması iki sistemin bir-birinə yaxınlaşmasına ciddi əngəllər törədir. Tayvan ətrafında gedən bu mübarizədə ABŞ heç vaxt bu strateji ərazini itirmək istəməz və təbii ki, Çini neytrallaşdırmaq üçün Tayvan kartından həmişə istifadə edəcək. Çin də bu siyasəti başa düşərək Tayvanla əlaqələri normal və sülh şəraitində davam etdirməyə çalışır. Vacib məqamlardan biri də Tayvanın həm Çinlə münasibətləri yaxşı saxlaması, həm də ABŞ-dan silah alışını davam etdirməsidir. Yəni, Tayvan da müttəfiqi ABŞ kimi ikili siyasət aparır və Çinin ambisiyalarına qarşı ABŞ-ın yanında olduğunu göstərir (10, s. 32). Hər iki ölkənin Tayvana olan marağı onları ada ətrafında iqtisadi əməkdaşlığa vadar edir. Tayvan tarix boyu əhəmiyyətli olduğu kimi, gələcək də əhəmiyyətli zona olacaqdır. Ancaq keçmişdən fərqli olaraq o, iki ölkə əlaqələrinin tamamilə deyil, müəyyən bir hissəsinə təsir göstərmək iqtidarına malik olacaqdır. Çünki iqtisadi əməkdaşlığın güclənməsilə Çin və ABŞ daha çox qazanmağa çalışacaq və qarşılıqlı asılılıq mühiti yaranacaqdır.

ABŞ-ın sabiq prezidenti Barak Obamanın “Asia Pivot” siyasətinin prezident D. Tramp tərəfindən davam etdirilməsi gündəmi məşğul edən məsələlərdən biridir (11, s. 32-36). Bu siyasətin mahiyyəti ondan ibarətdir ki, yaxın gələcəkdə Uzaq Şərqə daha çox diqqət ayrılacaq. Onun həyata keçirilməsi ilə ABŞ Asiyanın şərqində nüfuz dairəsini daha da artırmağı planlaşdırır. Əsas hədəf kimi, əlbəttə ki, Çin götürülür. Respublikaçılar bu siyasətin davam etməsini dəstəkləsələr də, xarici siyasətdə Orta Şərqin daha çox diqqət mərkəzində olması bu siyasətin həyata keçirilməsini ləngidə bilər. Həmçinin yeni hökumət TPP (Trans Pacific Partnership) kimi müqavilədən iştirakdan boyun qaçırır (11, s. 28). D.Trampın milli-mühafizəkar tərzi və Çinə qarşı açıq cəbhə açması ABŞ-Çin əlaqələrinin normal inkişafını risk altına qoyur. D.Trampın Asiyaya konkret baxışları müəyyən olmasa da, qlobal idarəetmədə Çinlə ortaq fəaliyyətin aparılmasında geriləmənin yaşanacağı ABŞ-da müzakirə olunur (11, s. 21). Beləliklə, ABŞ-ın siyasi dairələrində Çinə münasibətdə fikir ayrılıqları meydana gəlir. Dünyanın hazırkı gedişatında həll olunması daha vacib siyasi, iqtisadi, ekoloji və təhlükəsizlik məsələləri varkən Çinlə ortaq fəaliyyətdən boyun qaçıran Tramp və kabineti tənqidlərə məruz qalır. ABŞ artıq özünü qlobal lider statusundakı super güc kimi yox, milli sərhədlərinə çəkilən və müdafiə mövqeyində olan ölkə kimi aparır (13). D.Trampın Çini öz tərəfinə çəkməsi yox, qarşısına alması Asiyanın şərqində ciddi gərginliklərə səbəb ola bilər və istər-istəməz region dövlətləri iki güc arasında bölünməyə və cəbhələşməyə məcbur edilə bilərlər. ABŞ-da milli dövlətçilərin hakimiyyətə gəlişi və Avropada millətçiliyin yüksəlişi beynəlxalq münasibətlərdə ciddi dəyişikliklərə səbəb ola bilər. Çin ilə münasibətlər də bu hadisələrin fonunda başqa məcraya istiqamətlənə bilər. Lakin ABŞ və Çinin bir çox ortaq maraqlarının və qarşılıqlı asılılıqlarının olduğunu nəzərə alaraq, zaman-zaman iki dövlət ara-

sında böhranların başvermə ehtimalı olsa da, bu böhranların ciddi bir gərginliyə əsas olmayacağına dair proqnozlar da var. Hər iki ölkənin iqtisadiyyatları bir-birindən asılı vəziyyətdədir. ABŞ-ın Çinə olan xarici borcu 4 trilyon dollardan çoxdur (4, s. 9). ABŞ-da 100 minlərlə çinlinin yaşaması əlaqələrin qopma nöqtəsinə gəlməyinə ciddi əngəl törədəcəkdir. Bir çox qlobal məsələlərin həllində də ABŞ-Çin əməkdaşlığı səmərəli nəticələr verə bilər. Ancaq ABŞ-Çin yaxınlaşmasının mümkün olmadığı halda bəzi ölkə və qüvvələrin əl-qolu açılacaqdır. Əgər bu yaxınlaşmada ciddi əngəllər baş verərsə, Şimali Koreya nüvə fəaliyyətini daha da genişləndirəcək. Bu da şübhəsiz ki, gərginliyi və qütbləşməni artıracaq. Hadisələrin gələcək inkişafında Rusiyanın fəaliyyəti də ABŞ-Çin əlaqələrinə təsir göstərməyə bilməz. Çinin geosiyasi nəzəriyyələrində Rusiya güc mərkəzi olaraq göstərilməsə də, ABŞ-la Çin arasındakı mübarizənin mərkəzində Rusiya dayanır. Rusiyanın yeni xarici siyasət konsepsiyasında (2016) gələcəkdə Uzaq Şərqin rolunun artması xüsusilə diqqəti cəlb edir (15). D.Tramp Rusiyanı öz yanına çəkməyə çalışırdı. Lakin V. Putin ABŞ hakimiyyətinə olan münasibəti ilə, ABŞ-ın ənənəvi xarici siyasət doktrinasına olan münasibəti arasındakı fərqi anlayacaq qədər təcrübəli liderdir. Tamamilə başa düşüləndir ki, Rusiya-Çin ittifaqını zədələyəcək və qərbə qarşı ortaq fəaliyyəti şübhə altına alacaq hər hansı ciddi proseslər müşahidə olunmur.

Beynəlxalq münasibətlərdə dost yox, müttəfiq, düşmən yox, rəqib vardır. Çin hər nə qədər SSRİ tipli ölkə olmasa da, sağlam iqtisadi rəqabət aparmağa davam etməkdədir və proqnozlara görə, 2050-ci ildə ümummilli gəlirin miqdarına görə ABŞ-ı geridə qoyması gözlənilir (5, s. 76). Bu baxımdan, qənaətə gəlmək olar ki, ABŞ hər vasitə ilə Çinin qarşısını almağa çalışacaq. Baxmayaraq ki, ABŞ özü də Çinə böyük investisiyalar qoyur, digər tərəfdən də onu sıxışdırmağa – yəni, istədiyi vəziyyətə gətirməyə çalışır. Əlaqələri normal inkişaf etdirmək məqsədilə hökumətlər ikitərəfli əlaqələrdə tərəfdaşlığın əhəmiyyətini qeyd edirlər. O biri tərəfdən isə ABŞ-ın Tayvanı silahlandırması və Çini "çəpərləmə" siyasəti ziddiyyətli situasiya yaradır. ABŞ Çinin böyüməsinin qarşısını "yumşaq güc" vasitələrilə almağa çalışır. Bunlardan biri də yuanın dəyərinin süni şəkildə qaldırılmasıdır ki, bu da Çinin əlavə xərclərini artıracaq (13). Bu da Çinin gələcəkdə texnologiyaya investisiya qoyaraq daha keyfiyyətli məhsul istehsal etmək üçün işçi qüvvəsinin azalmasına səbəb olacaqdır. Nəticədə işsizliyin ortaya çıxması meydana gələcəkdir. ABŞ-Çin arasında baş verə biləcək belə bir iqtisadi böhran siyasi böhranı da qaçılmaz edəcəkdir. İkitərəfli əlaqələrdə ən əhəmiyyətli məqamlardan biri də enerji mənbələri uğrunda mübarizədir. Nəhəng sənayelərə malik bu ölkələrin enerjiyə olan ehtiyacları ildən-ilə daha da artır. Bu da yenə Mərkəzi Asiyada və Orta Şərqdə maraqların toqquşacağına gətirib çıxaracaqdır. Eyni zamanda, Afrika ABŞ-Çin rəqabətinin daha da güclənəcəyi məkana çevrilir. Qitədəki iqtisadi üstünlük hazırki situasiyada Çinə məxsusdur (1, s. 19). Nəticə etibarilə, qlobal idarəetmədə çoxmərkəzli sistemin yaranması ABŞ-ı digər mərkəzlər ilə hesablaşmağa vadar edir. Bunlardan biri də gələcəyin yeni gücü olan Çindir. Çini müxtəlif yollarla cilovlamağa və böyüməyinin qarşısını almağa çalışan ABŞ eyni zamanda onu ən böyük əməkdaşlarından biri kimi görür. Artıq Çinin nüfuzu gündəmin müzakirə obyektindən düşməyən məsələlərdəndir. Çin inkişaf edən Şərqi Asiyada özünə müttəfiq axtarışlarındadır. Çin qədər olmasa da, iqtisadi inkişaf tempi 5%-dən az olmayan İndoneziya, Sinqapur, Malayziya kimi sənaye ölkələri də Çinlə əməkdaşlıqdan məmnundurlar (1, s. 33). ABŞ Çinin bu region ölkələri ilə yaxınlaşmasına potensial təhlükə kimi baxır. Bu səbəbdən zaman-zaman bölgədə gərginliyi artıracaq hadisələr yaradır. Çin üçün əsas təhlükə qonşu ölkələrdə yerləşən Amerika hərbi bazalarıdır. Hələlik dəniz geopolitikası uğrunda gedən bu mübarizədə Çin Şərqi Çin və Cənubi Çin dənizlərində qabaqlayıcı tədbirlər görməklə dəniz qüvvələrini səfərbər edir. Orta Şərqdə ABŞ-Rusiya arasında gedən vəkalət müharibələri Uzaq Şərqdə ABŞ-Çin timsalında özünü göstərir. D.Tramp seçkiqabağı kampaniyalarında Orta Şərqə xüsusi fikir verməsi və terror təşkilatları ilə mübarizəni prioritet hesab edirdi. Yaxın gələcəkdə isə Asiyanın şərqi dünya gündəminin prioritetinə çevrilə bilər. Buna da təbii ki, regionda baş verəcək hadisələrə böyük dövlətlər biganə qalmayacaqlar.

Hamıya bəllidir ki, ABŞ son illər geosiyasi proseslərin ağırlıq mərkəzinin Asiyaya dəyişmək tezisindən çıxış edərək, xarici siyasətində Asiya faktoruna üstünlük verməyə başlamışdır. Onun bu istiqamətdə strateji məqsədi həmin regionun dövlətləri üzərində hegemonluq etməkdir. Bunu rəsmi Vaşinqton heç gizlətmir də. Bu məqsədə çatmaq üçün ABŞ ÇXR ilə ticarət əlaqələrini 2014-cü ildə fantastik səviyyəyə - 555 milyard ABŞ dolları həcminə çatdırmış, qarşılıqlı investisiya qoyuluşu isə 120 milyard dolları keçmişdir.

Müasir mərhələdə dünya siyasətinin inkişaf dinamikası tamamilə fərqli şəkildə cərəyan edir. Belə bir mühitdə həm Çin Xalq Respublikasının, həm də Amerika Birləşmiş Ştatlarının strateji hədəfləri nəzərə alınmalıdır. Əks təqdirdə, iki dövlət arasında münasibətlərin real məzmununu dərk etmək mümkün deyil. Lakin bir şeyi əminliklə söyləmək olar. Həm regionda, həm də bütövlükdə dünyada yaxın perspektivdə siyasi həyatı məhz formalaşmaqda olan ABŞ-ÇXR münasibətləri müəyyən edəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Ozan Ömerci, 21. Yüzyılda ABD-Çin Rekabeti, 2013, say. 114.*

*2. Selçuk Çolakoğlu, ABD-Çin ilişkileri/ Akademik Perspektif Dergisi, 2015, say. 75.*

*3. Osman Metin Öztürk, ABD-nin yeni çevreleme politikası/ Stratejik Ortak Dergisi, 2016, say. 66.*

*4. Ergin Güneş, Yeni yüzyıldakı Çin-Amerika rekabeti, 2009, say. 156.*

*5. Görkem Umuç, Çin-ABD ilişkileri, 2013, say. 95.*

*6. Uğur Rıfat, "Kıta Çin-Tayvan İlişkileri ve Amerikan Çomağı", 2010, say. 86.*

*7. Zhao, Suisheng, "Implications of China's rise for U.S.-China relations", in China-U.S. Relations Transformed: Perspectives and Strategic Interactions, 2007, p. 335.*

*8. Boston Study Group on Middle East Peace. "Foreign Policy Association: Resource Library: Viewpoints: Moving the G-2 Forward", 2010, p. 133.*

*9. Chen Wei, China's Soft Power Deficit/ "The Wall Street Journal", 2012, p. 110.*

*10. K. Dumbaug,"Taiwan's Political Status: Historical Background and Ongoing Impications", 2006, p. 125.*

*11. William Mauldion, Donald Trump Withdraws U.S. From Trans-Pacific Partnership/ Wall Street Journal, 2017, p. 110.*

*12. http://www.cfr.org*


## XÜLASƏ


Məqalədə XXI əsrin super gücləri ABŞ və ÇXR əlaqələrinin real vəziyyəti və perspektivləri göstərilir. Müəyyən olunur ki, hal-hazırda həmin güclər arasında paradoksal vəziyyət formalaşmışdır: onlar rəqibdirlər, hələlik iki dövlət arasında mübarizə potensial xarakter daşıyır. Zaman bu əlaqələrə ton verə, həm də həmin əlaqələrin açıq müstəviyə keçməsi məsələsinə aydınlıq gətirə bilər.



**Açar sözlər:** *ABŞ, ÇXR, güc mərkəzi, ikiqütblü dünya, geosiyasət, təhlükəsizlik, rəqabət, strategiya, ikitərəfli əlaqələr, xarici siyasət.*



**ХАЙЯМ ИСМАИЛЗАДЕ**

***Бакинский Государственный Университет,***
***Кафедра международных отношений,***
***Доктор философских наук, и.о. доцента***
***Ekonika22@yahoo.com***


## США-КНР: БОРЬБА И СОПЕРНИЧЕСТВО МЕЖДУ ГЛОБАЛЬНЫМИ СИЛАМИ


В статье отражены нынешнее положение и перспективы взаимосвязи сверх держав XXI века - США и КНР. Отмечается, что на данный момент между этими державами сформировалось пародоксальное положение : они являются конкурентами и на данный момент конкуренция между ними носит потенциальный характер. Время может придать тонацию данным отношениям, также внести ясность перехода на открытый уровень.



**Ключевые слова:** *США, КНР, силовой центр, двухполюсный мир, геополитика, безопасность, конкуренция, стратегия, двусторонние связи, внешняя политика.*



**KHAYYAM ISMAYILZADEH**

***Baku State University,***
***Department of International Relations,***
***Doctor of Philosophy in Political Science, Acting Associate Professor***
***Ekonika22@yahoo.com***


## USA-PRC: THE STRUGGLE AND RIVALRY BETWEEN GLOBAL POWERS


The article is about current situation and possible prospects of USA-PRC relations, which are superpowers of XXI century. Today bilateral relations between two states are ambiguous: they are rivals, however short term competiton does not seem real. Time can clarify and set the tone in looking at the strategic framework between US and China.



**Key words:** *USA, PRC, power center, bipolar world, geopolitics, security, competition, strategy, bilaretal relations, foreign policy.*

UOT 321(4/9)

# MÜSTƏQİLLİKDƏN SONRA ERMƏNİSTAN-DİASPORA ƏLAQƏLƏRİ VƏ ORTAYA ÇIXAN ZİDDİYYƏTLİ MƏQAMLAR

**ƏVƏZ RƏHİMOV**
*Xəzər Universitetinin magistrantı*
*E-mail: avazrmoff98@gmail.com*

Diaspora dedikdə, ölkədən kənarda yaşayan, əslən bu yerə mənsub və onunla mənəvi bağlılığı olan bir qrup insan nəzərdə tutulur. Müasir dövrdə böyük və güclü diaspora ölkənin milli sərvətlərindən biridir. Bu baxımdan Ermənistanı şanslı dövlət hesab etmək olar. Xaricdə yaşayan ermənilər Ermənistandakı əhalidən 2,5-3 dəfə çoxdur. Erməni diasporunun ən güclü təmsil olunduğu ölkələr kimi ABŞ, Rusiya, Fransa, BENELUX ölkələri, Suriya, Livanı qeyd etmək olar. Erməni diasporasında tarixi və ənənəvi diaspora təşkilatları (ən önəmlisi Dashnaktsutyun), qeyri-hökumət və humanitar təşkilatlar, lobbi qrupları, erməni kilsəsi, erməni terror təşkilatları kimi çox fərqli struktur və xarakterə malik təşkilatlar var.

Diaspora Ermənistanın siyasi məqsədlərinin qorunmasından tutmuş iqtisadi inkişafına qədər, demək olar ki, hər sahədə ona yardımlar edir. Ancaq güclü diaspora müsbət tərəfləri ilə yanaşı mənfi cəhətlərini də ortaya qoyur, xüsusən də Ermənistan kimi siyasi və iqtisadi cəhətdən o qədər də güclü olmayan bir ölkənin bu qədər güclü diasporası varsa. Ermənistan-diaspora münasibətləri digər ölkələrin öz diasporları ilə münasibətlərindən əsaslı şəkildə fərqlənir. Bu, ilk növbədə, bir tərəfdə çox güclü diaspora, digər tərəfdə isə onun təsiri altında olan zəif dövlətin olması ilə bağlıdır. Təbii ki, bu qeyri-bərabər münasibətlər strukturu Ermənistana nə qədər xeyir versə də, həm də Ermənistana bir sıra sahələrdə, o cümlədən xarici siyasi arenada müəyyən məhdudiyyətlər qoyur. Diaspora Ermənistanın milli maraqlarını qoruduğu kimi, Ermənistan da diasporun maraqlarını qorumağa və onlara zidd xarici siyasət aparmamağa borcludur. Erməni diasporunun kifayət qədər dağınıq olması və bəzi məsələlərdə diaspora daxilində həmrəyliyin zəif olması Ermənistanın uyğun xarici siyasət həyata keçirməsini xeyli çətinləşdirir. Bu baxımdan, Ermənistan hakimiyyətlərinin üzərinə böyük yük düşür. Müxtəlif Ermənistan hakimiyyətləri və diaspora arasında münasibətlər də fərqlilik göstərmişdir [1].

Həm diasporanın, həm də Ermənistan hakimiyyətinin prioritet saydığı məsələlər bir-birindən fərqlənir. Digər yandan diasporanın daxilində belə eyni məsələyə dair kəskin fikir ayrılığı ortaya çıxır. Xüsusən, Ermənistan xarici siyasət istiqaməti (qərbyönümlü, yoxsa ruspərəst) diaspora daxilində kəskin ziddiyyətlər ortaya qoyur. Qərb ölkələrində yaşayan diaspora Ermənistanın demokratikləşmə və korrupsiyadan azad olması ümidi ilə Qərbə inteqrasiyanı dəstəkləyir. Lakin digər tərəfdən Rusiyada yaşayan erməni əsilli əhali həmişə qərblə əlaqələrin güclənməsindən narahat olmuşdur. Bu diaspora üzvləri qorxurlar ki, Ermənistan Rusiyaya zidd xarici siyasət istiqaməti seçdikdə onlar Rusiya hakimiyyəti tərəfindən təzyiqlərə məruz qalacaqlar [2]. Rusiyadakı erməni diasporasının narahatlığı əsassız deyil. Çünki Rusiya istər vətəndaşı olan xarici əsilli şəxslərdən, istərsə də, miqrantlardan onların mənsub olduğu ölkəyə qarşı təzyiq vasitəsi kimi aktiv istifadə edir. Biz buna həm 2009-cu il Gürcüstan-Rusiya, həm də davam edən Rusiya-Ukrayna müharibəsi dövründə şahid olmuşuq. Üstəlik Rusiya ermənilərinin böyük hissəsi müstəqillikdən sonra, bir hissəsi də SSRİ dövründə Ermənistandan köç edənlərdir (ABŞ-dakı və Fransadakı diasporadan fərqli olaraq). Buna görə əksəriyyətinin Ermənistanla əlaqələri qalmaqdadır. Bir çoxunun Ermənistanda ailə üzvləri yaşayır [3]. Beləcə, hər nə qədər Rusiyadakı ermənilərin təşkilatlanması Qərb ölkələrindəkindən əhəmiyyətli dərəcədə zəif olsa da, onların xarici siyasətdə nəzərə alınmaması, Ermənistan daxilində vəziyyətə də ciddi təsir edə bilər. Rusiyan ən geniş erməni diasporasına sahib olduğundan və onun Ermənistan üzərində çox güclü siyasi və iqtisadi təsirləri nəzərə alındıqda, "Rusiya birinci" siyasəti bütün Ermənistan hakimiyyətlərində (həmçinin Paşinyan) dəyişməz qalması başadüşüləndir.

İkinci bir ziddiyət isə diaspora və Ermənistan hökumətlərinin nəyi bir nömrəli prioritet məsələ sayması ilə bağlıdır. Bu ziddiyyət, Ermənistanın bütün müstəqilliyi boyu özünü büruzə vermişdir. Erməni diasporası öz tarixi formalaşmasını yalançı soyqırım və Türkiyə düşmənçiliyi üzərində qurub. Qondarma erməni soyqırımı məsələsi həmişə diaspora qurumları üçün ən önəmli məsələ olub və Ermənistan hakimiyyətindən bu məsələni daim diqqətdə

saxlaması tələb olunub. Azərbaycanla olan keçmiş Qarabağ münaqişəsi isə diaspora üçün uydurma soyqırımın tanınması məsələsindən daha az önəmli olmuşdur [4]. Çünki Qarabağ problemi diasporanın iradəsindən kənar yaranıb və bu həddə çatıb. Ermənistan hakimiyyəti isə Qarabağ məsələsini xarici siyasətinin əsas istiqamətverici məsələsi kimi qəbul edib. Lakin digər yandan diasporanın bu məsələyə təsiri Ermənistan tərəfindən məhdudlaşdırılıb. Çünki hər hansı bir hadisənin Rusiya ilə ittifaqı pozma (Rusiya Qarabağın işğalda saxlanmasının təminatçısı kimi qəbul edilirdi) və işğalı dayandırılmasına gətirib çıxaracağından ehtiyat ediblər [5]. Bu önəmli fikir ayrılıqları Ermənistanın aktiv xarici siyasət aparmasını hər zaman əngəlləyib.

Nümunə olaraq birinci Levon Ter-Petrosyan dövrünə nəzər salaq. Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın hakimiyyəti ilk illərində hakimiyyət Türkiyə ilə münasibətləri də genişləndirmək istəyirdi. İnkişaf edən Türkiyə iqtisadiyyatı Ermənistanın iqtisadi inkişafına böyük töhfə verə bilərdi. Bu səylərin nəticəsi olaraq qondarma soyqırımın tanınması məsələsi Ter-Petrosyan administrasiyası dövründə xarici siyasət prioritetlərindən çıxarılmışdı. Lakin bu qərar diasporanın dərin həddətinə səbəb olmuşdu və Ermənistan hakimiyyətinə qarşı narazılıqlar yaratmışdı. Diaspora-Ermənistan münaqişəsi o həddə çatmışdı ki, ən məşhur və nüfuzlu diaspora təşkilatı olan Erməni İnqilab Şurasının (Daşnaksütyun) yerli orqanı hakimiyyət tərəfindən bağlanmışdı. Bu ziddiyyətlər sonradan Ter-Petrosyan hakimiyyətinin Azərbaycanla münaqişədə ATƏT-in Minsk qrupunun irəli sürdüyü mərhələli həll yoluna razılaşmasından sonra daha aqressiv xarakter almış və 1998-ci ildə istefasına qədər davam etmişdir [6].

Robert Koçaryan Qarabağ klanını təmsil edən ilk şəxs kimi hakimiyyətə gələndə diaspora ilə münasibətlərə önəm verməyə başladı. O, Rusiya ilə ittifaqı gücləndirməyə önəm verdi. Koçaryanın milliyətçi xarici siyasəti diaspora ilə münasibətləri yaxınlaşdırsa da, əvəzində Azərbaycan və Türkiyə ilə münasibətləri bərbad həddə çatdırdı. Qarabağ məsələsi ilə bağlı danışıqlardan qaçmaqla Ermənistan bu dövrdə (1998-2008) demək olar ki, bütün önəmli regional layihələrdən kənarda qaldı.

2008-ci ildə hakimiyyətə gələn Serj Sarkisyanın hakimiyyətinin ikinci ilində Türkiyə ilə münasibətlərin normallaşması məsələsi yenidən ortaya çıxmış, bu isə yenidən diasporanın, xüsusən ARF-nin kəskin etirazına səbəb olmuşdur. Lakin Türkiyə Azərbaycanla münaqişənin həll olunmasını ilkin şərt kimi irəli sürərək bir növ diasporanın ürəyinə su səpmişdir [7].

Sarkisyan da, ümumilikdə Koçaryanın Qarabağ və Rusiya ilə bağlı siyasətinə sadiq qaldı. Sarkisyanın rejiminin 2013-cü ildə Avrasiya İqtisadi Birliyinə qoşulma qərarı verməsi, Qərb ölkələrindəki, birinci növbədə ABŞ və Fransadakı erməni diasporasını tənqidinə səbəb olmuş və bu illər ərzində bu diaspora qrupları Ermənistan daxilində hakimiyyətə qarşı dəstəkləməyə başlamışlar [8].

2018-ci ildə Qərb diasporasının da fəal dəstəyi ilə inqilabla hakimiyyətə gələn Paşinyan adminstrasiyası diaspora ilə münasibətlərə önəm verir. Qərbdəki bir çox yenilikçi diaspora nümayəndələri Paşinyanın Qərbmeyilli diskursunu əsas tutaraq demokratizasiya ümidi ilə onu dəstəkləyir. Xüsusən Fransadakı erməni diasporası Ermənistan hakimiyyəti üzərində təsirlərini artırmaqdadır. Lakin digər yandan Daşnaksütyun, Rusiya Erməniləri İttifaqı (Rusiyadakı ən böyük erməni diaspora təşkilatı) kimi önəmli qurumlarla münasibətlər pisləşib. Çünki Paşinyan onları həm potensial rəqib həm də, onu hakimiyyətdən gəldiyi kimi apara biləcək qüvvə kimi görür. Digər yandan Rusiya ilə ortaya çıxan bəzi ziddiyyətlər buradakı diaspora təşkilatlarını xüsusən narahat edir [2]. Bu təzadlar gələcəkdə Ermənistan –Diaspora münasibətləri və eləcə də Ermənistan daxilindəki vəziyyəti gərginləşdirəcək potensiala sahibdir.

Qarabağın Azərbaycana geri qayıtmasından sonra artıq bu məsələ ilə bağlı iddiaları puç olan ermənistan hakimiyyəti yalnız Qarabağda yaşayan Ermənilər və onların hüquqlarının qorunması bəhanəsi ilə nə isə əldə etməyə cəhd göstərir. Diaspora isə azərbaycanlı ekofəalların dinc aksiyasını blokada kimi qələmə verməyə çalışaraq regionda sülh ümidlərini sual altına qoyur.

Daşnaksütyun başda olmaqla ənənəvi diaspora qruplarını ən çox narahat edən məsələ isə Ermənistanın Azərbaycan və Türkiyə ilə normal münasibətlər qurulması ideyası gündəmdə olmasıdır [9]. Daşnakların erməni diaspora qrupları üzərində önəmli təsiri olduğunu nəzərə alsaq, diaspora qruplarının Ermənistan hakimiyyətindən narazılığının kifayət qədər olduğunu söyləmək olar. 2022-ci il Ermənistanda müxalifətin təşkil etdiyi Müqavimət hərəkatında diasporanın da aktiv iştirakı bu məsələnin

aktuallığından xəbər verir. Lakin artıq bu köhnələn düşmənçilik də erməni xalqını yorub ki, bu mitinqlər etirazçıların kifayət qədər olmamasına görə ötən ilin yayında dayandırıldı.

Beləliklə, İkinci Qarabağ müharibəsindən sonra da Azərbaycanla və Türkiyə ilə münasibətlərdə yaranan yaxınlaşma ümidləri hələ də diaspora tərəfindən yaxşı qarşılanmır. Görünən odur ki, Ermənistan diaspora sayəsində real inkişaf imkanlarını itirməkdədir. Türkiyə-Ermənistan, o cümlədən Azərbaycan-Ermənistan münasibətləri nümunəsi erməni diasporasının Ermənistan xarici siyasətinə mənfi yöndə təsir etdiyini göstərən tutarlı məsələlərdəndir. Türkiyə və Azərbaycanla ilə münasibətlər normallaşarsa, bunun Ermənistan üçün çox ciddi faydaları ola biləcəyi də dəqiqdir. Bunun sayəsində Ermənistan regional layihələrdə iştirak edə bilər, eləcə də Avropa ölkələri ilə əlaqələrdə daha qısa marşrut yaranar, bu da ixracı daha da şaxələndirər ki, Türkiyə məhsulları isə yerli bazarda Rusiyadan asılılığı xeyli azaldar. Beləliklə, Türkiyə və Azərbaycanla sərhədlər açılacağı halda bəzi diasporanın həll edə bilməyəcəyi məsələləri çox asanlıqla həll etmək mümkün olduğu halda, diasporanın hələ də qərəzli mövqeyini davam etdirəcəksə, bu qonşular ilə daima münasibətlərin formalaşmasında əngəllərdən biri olaraq qalacaqdır. Bunun qarşısını almaq üçün Ermənistan hakimiyyəti ilk əvvəl anti-türk təbliğatını, "qonşularla qarşılıqlı faydalı əməkdaşlıq" devizi ilə əvəzləməlidir. Lakin görünən odur ki, Ermənistan bu məsələdə də axsayır.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Fatih Aydogan (2018) "The Influence of The Armenian diaspora on The American Foreign Policy", https://scholarcommons.usf.edu/cgi/viewcontent.cgi?article=8666&context=etd*

*2. The Armenian diaspora in Russia: The second Karabakh war and its outcomes, Baku 2022, https://aircenter.az/uploads/3gu2hVzye_RU.pdf*

*3. Aram Terzyan (2019), "Russian policy, Russian Armenians and Armenia: ethnic minority or political leverage?", https://www.researchgate.net/publication/334720768*

*4. Taline Papazian (2006) "From Ter-Petrossian to Kocharian: Explaining Continuity in Armenian Foreign Policy, 1991–2003", https://demokratizatsiya.pub/archives/DEM%2014-2%20Papazian.pdf*

*5. Dzovinar Derderian (2010) "Democracy in Armenia and Diaspora-Armenia relations", https://www.pf-armenia.org/sites/default/files/uploads/pfa_uploads/Diaspora_Forum/Derderian-Democracy_Armenia.pdf*

*6. Aram Terzyan (2016) "The Evolution of Armenia's Foreign Policy Identity" https://www.researchgate.net/publication/327040082*

*7. Policy Forum Armenia (2010) "Armenia-Diaspora Relations, 20 Years since Independence", https://www.pf-armenia.org/sites/default/files/uploads/pfa_uploads/Diaspora_Forum/Second_Annual_Forum_Agenda.pdf*

*8. Armenia Chooses Customs Union over EU Association Agreement, 18 September, 2013, https://www.cacianalyst.org/publications/analytical-articles/item/12817.html*

*9. Relations between Turkey and Armenia, https://www.mfa.gov.tr/relations-between-turkey-and-armenia.en.mfa*


## XÜLASƏ


Diaspora mənşə ölkə üçün önəmli güc mənbələrindən biri kimi çıxış edir. Lakin güclü diaspora zəif dövlətlə birləşdikdə ortaya məhz Ermənistan kimi uğursuz nümunə çıxır. Müstəqillikdən bu günə qədər Ermənistan və diasporanın əlaqələrində tez-tez fikir ayrılıqları, uyuşmazlıqlar meydana gəlib. Digər bir tərəfdən diaspora belə əksər məsələlərdə vahid bir qurum kimi çıxış edə bilmir, dövlət mənafeyindən çox öz şəxsi maraqlarını nəzərə alırlar. Diaspora daxili parçalanma Rusiya ilə münasibətlərdə kəskin şəkildə üzə çıxır. Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətlərində yaranan istiləşmə ümidləri isə əsasən diaspora tərəfindən qəbul edilmir. Çünki erməni diasporası daha çox iyearxik quruma bənzəyir və yuxarıdakıların sözü aşağıdakılar üçün də keçərli sayılır, onlar isə tarixi türk düşmənçiliyini önə sürərək Ermənistanın çox vacib bir tarixi fürsətdən istifadə etməsini əngəlləyirlər. Ermənistan hökumətinin hansı istiqaməti – danışıqlar və ya diasporla həmrəylik seçməsi onun gələcəyinə əhəmiyyətli şəkildə təsir edəcək.



**Açar sözlər:** *diaspora, Ermənistan hökuməti, ziddiyyət, sülh, prioritet.*

**SUMMARY**

Diaspora acts as one of the important sources of strength for the country of origin. However, when a strong diaspora is combined with a weak state, a failed example like Armenia emerges. From independence to the present day, discrepancies and disagreements have often occurred in the relations between Armenia and the diaspora. On the other hand, even the diaspora cannot act as a single entity in most issues, they take into account their personal interests rather than the interests of the state. Internal conflicts in the diaspora are sharply revealed in relations with Russia. Hopes of warming Armenia's relations with Azerbaijan and Turkey are mostly not accepted by the diaspora. Because the Armenian diaspora is more like a hierarchic organization, and the opinions of the tops are considered valid for the followings, and they prevent Armenia from using a very important historical opportunity by promoting historical Turkish enmity. Which direction the Armenian government chooses - negotiations or solidarity with the diaspora - will have a significant impact on its future.

**Key words:** *diaspora, Armenian government, contradiction, peace, priority.*

**РЕЗЮМЕ**

Диаспора выступает одним из важных источников силы страны происхождения. Однако, когда сильная диаспора сочетается со слабым государством, возникает такой неудавшийся пример, как Армения. С момента обретения независимости до наших дней в отношениях между Арменией и диаспорой часто возникали разногласия и конфликты. С другой стороны, даже диаспора не может выступать как единое целое в большинстве вопросов, она учитывает свои личные интересы, а не интересы государства. Внутреннее разделение диаспоры резко проявляется в отношениях с Россией. Надежды Армении на сближение с Азербайджаном и Турцией в основном не воспринимаются диаспорой. Потому что армянская диаспора больше похожа на иерархическую организацию, а позиция правящих диаспоральных организаций считается приемлемой даже для рядовых членов диаспоры, и они мешают Армении использовать очень важную историческую возможность, разжигая историческую турецкую вражду. Какое направление выберет правительство Армении - переговоры или солидарность с диаспорой - существенно повлияет на ее будущее.

**Ключевые слова:** *диаспора, правительство Армении, противоречие, мир, приоритет.*

UOT 32

# AZƏRBAYCANIN DÖVLƏT İDARƏÇİLİYİNDƏ SOSİAL SİYASƏT MEXANİZMLƏRİ

**Dos. S.e.f.d. MURTƏZA HƏSƏNOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi*
*E-mail: m_hasanoglu@yahoo.com.tr*

**TUNAY RZAYEV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*E-mail: tunayrzayev211@gmail.com*

## Giriş

Sosial siyasət, Azərbaycanda vətəndaşların yaşam standartlarını və rifahını artırmağı məqsəd edilən idarəetmənin vacib bir sahəsidir. Bu siyasət insanların sosial qorunması, sağlamlığı, təhsili və iş imkanlarını təmin etmək üçün dövlət qurumları tərəfindən həyata keçirilən bir sıra proqram və siyasəti əhatə edir. Sosial siyasət, sosial bərabərsizliyin aradan qaldırılması və müdafiəsiz qrupların kifayət qədər dəstək və resurs əldə etməsində vacib bir rol oynayır. Azərbaycanda sosial siyasət, iqtisadi inkişafın təşviqi, yoxsulluğun azaldılması və sosial birliyin gücləndirilməsi ilə əlaqədar strateji bir sahədir. Hökumət vətəndaşların həyat keyfiyyətinin yaxşılaşdırılması, xüsusilə sosial qorunma, iş və sosial xidmətlər sahələrində ciddi inkişaflar əldə etmişdir və bu sahədəki uğurlu nəticələr müvafiq sənədlərlə də təsdiq edilmişdir. Sosial siyasət sahəsində innovasiya və modernləşmə, vətəndaşlara daha yüksək keyfiyyətli xidmət göstərmək və daha inklüziv və ədalətli bir cəmiyyətin inkişafına kömək etmək üçün dövlət idarəçiliyində çox mühüm bir rol oynayır. Bütövlükdə, sosial siyasət dövlətin vətəndaşların insan inkişafını təmin etmək və onların layiqli həyat sürmələri üçün lazımi resursları təmin etməsi üçün vəsaitlər yaratması baxımından kritikdir.

## 1. Dövlət idarəçiliyində sosial siyasətin mahiyyəti

Dövlətin sosial siyasəti, sosial münasibət modellərini saxlamaq və ya dəyişmək məqsədi ilə sosial xidmətlər dəsti vasitəsi ilə təsir göstərən bir mexanizmdir. Sosial siyasətin daxilindəki əsas və ən mühüm hissə olan sosial xidmətlər, cəmiyyətin hər bir fərdi və qrupunun həyat keyfiyyətinin və potensial inkişafının yaxşılaşdırılmasına yönəlib.

Spicker tərəfindən bildirildiyi kimi, sosial siyasətə daxil olan sosial xidmətlərin əsas məqsədi aşağıdakılardır:

• Sosial təminat – gəlirlərin qorunması və sosial müdafiə

• səhiyyə xidmətləri – tibbi qayğının təmin edilməsi (bəzən sığortanın tərkibi olaraq)

• təhsil xidmətləri - əhalinin savadlılığının artırılmasında bərabər iştirak imkanlarının yaradılması

• mənzil təminatı – mənzili olmayan və sosial statusu nəzərə alınan şəxslərin mənzil ehtiyaclarının təmin edilməsi

• şəxsi sosial xidmətlər/sosial iş – şəxsin yaş, xəstəlik və digər məhdudiyyətlərlə əlaqədar səhiyyə, təhsil, hüquqi və s. bu kimi xidmətlərə olan tələblərinin ödənilməsində iştirak etmək [5]

Dövlət idarəçiliyində sosial siyasətin əsas məqsədi, vətəndaşların rifahının və sosial mədəniyyətinin inkişafının təmin edilməsidir. Bu məqsədlərə çatmaq üçün sosial ədaləti təmin etmək, yoxsulluğu azaltmaq, əsas sosial xidmətlərə - səhiyyə, təhsil, mənzil və sosial təminata çıxışı təmin etmək üçün müxtəlif sosial proqram və siyasətlər həyata keçirilir. Bu məqsədlərə nail olmaq üçün dövlət qurumları sosial siyasət və proqramların hazırlanması və icrası, sosial təminat sistemlərinin idarə edilməsi, həssas qruplara müxtəlif sosial yardım və xidmətlərin göstərilməsi üçün çalışırlar. Sosial siyasətin effektiv şəkildə həyata keçirilməsi, sosial sabitliyin qorunması, bərabərsizliyin azaldılması və iqtisadi inkişafın təşviqi üçün çox vacibdir. Sosial siyasətin əsas məqsədi vətəndaşların rifahının və sosial keyfiyyətinin yaxşılaşdırılmasıdır. Bu məqsədə çatmaq üçün dövlət idarəçiliyi müxtəlif sosial proqramlar və siyasətlər tətbiq edir. Bu proqramlar və siyasətlər bütün vətəndaşların əsas hüquq və xidmətlərə çıxışının təmin edilməsində, yoxsulluğun azaldılmasında, sosial ədalətin təşviq edilməsində, səhiyyə, təhsil, mənzil və sosial təminat kimi əsas sosial xidmətlərə çıxışın təmin edilməsində və sosial sabitliyin qorunmasında əhəmiyyətli rol oynayır.

Ölkəmizdə dövlət idarəçiliyi, sosial məsələlərin həllinə, sosial rifahın yüksəldilməsinə və vətəndaşların ümumi rifahının yaxşılaşdırılmasına yönəlmiş müxtəlif dövlət proqramları və islahatları həyata keçirir. Bunlar arasında sosial proqramların işlənib hazırlanması və həyata keçirilməsi, əhaliyə yardım göstərən qurum və təşkilatların yaradılması, əmək münasibətlərinin tənzimlənməsi, istehlakçıların hüquqlarının müdafiəsi, təmin edilməsi kimi fəaliyyətlər yer alır. Sosial siyasət, dövlət idarəçiliyi üçün vətəndaşların rifahını və firavanlığını təmin etmək üçün mühüm vasitədir.

Ölkəmizin sosial siyasəti, səhiyyə, təhsil, iş, mənzil təminatı, sosial təminat və gəlir dəstəyinin daxil olduğu geniş sahələri əhatə edir. Bu sahələrdə əsas məqsəd vətəndaşların layiqli həyat səviyyəsinə bərabər imkanlara malik olan ədalətli cəmiyyətin yaradılmasıdır. Hər kəsin inkişafı üçün lazım olan resurslar və xidmətlərdən istifadə imkanının təmin edilməsi, ədalətli və bərabər hüquqlara malik cəmiyyətin yaradılması ilə həyata keçirilir. Bu, təhsil və səhiyyəyə dair qabaqlayıcı tədbirlərlə yanaşı həssas qruplara dəstək və kömək kimi tədbirləri də əhatə edir. Nəticədə sosial siyasətin əsas məqsədi sosial birliyi təşviq etmək, yoxsulluğu və bərabərsizliyi azaltmaq və bütün vətəndaşın ümumi həyat keyfiyyətini yüksəltməkdir.

## 2. Dövlət Sosial Müdafiə Fondunun dövlətin sosial siyasətində rolu

Dövlət Sosial Müdafiə Fondu, məcburi və istənilən (əlavə) sosial sığortanın, dövlət tərəfindən tətbiq olunan sosial tədbirlərin - əmək pensiyaları, sosial müavinətlər və ünvanlı dövlət sosial yardımının, təqaüd və kompensasiyaların, həmçinin digər ödənişlərin ödənilməsinə dair Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin qərarları əsasında fəaliyyət göstərən dövlət qurumudur. Dövlət Sosial Müdafiə Fondu, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Fond öz fəaliyyəti ərzində Azərbaycan Respublikasının Konstitusiyası, beynəlxalq müqavilələr, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin sərəncamlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, Nazirliyin normativ-hüquqi aktlarının, əmək və əhalinin sosial müdafiəsi nazirinin əmr və sərəncamlarının tələblərinə uyğun fəaliyyət göstərir. Fond, bu Nizamnamədə nəzərdə tutulmuş vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, dövlət və yerli özünüidarəetmə orqanları, həmkarlar ittifaqları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Fond ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlərlə məşğul olur. Fondun müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, loqotipi (emblemi), Nazirliyin adı və möhürü ilə birlikdə müvafiq ştampları və blankları mövcuddur.[12]

Qanuna uyğun olaraq, Fondun əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqlarını əldə etmək və həyata keçirmək hüququ, həmçinin məhkəmədə iddiaçı və ya cavabdeh kimi çıxış etmək vəzifələri vardır. Fondun əsas fəaliyyət sahələri arasında, ölkənin iqtisadi inkişafına dəstək olmaq, Nazirliyə dövlət siyasətinin formalaşdırılması ilə bağlı təkliflər vermək və bu siyasətin həyata keçirilməsini təmin etmək, dövlət orqanları və qurumları ilə əməkdaşlıq edərək, öhdəliklərin yerinə yetirilməsində iştirak etmək, sosial müavinətlərin, pensiyaların, təqaüdlərin və kompensasiyaların vaxtında təyin edilməsini təmin etmək, qanunvericiliklə uyğun olaraq sığorta iştirakçılarının qeydiyyatı və kontrolu, sosial müdafiə proqramlarının hazırlanması və həyata keçirilməsində iştirak etmək, xidmətlərin şəffaflığı və keyfiyyətinin yaxşılaşdırılması, innovativ ideya və layihələrin dəstəklənməsi, Nizamnamədə göstərilən digər fəaliyyət sahələrində işləmək yer alır.

Dövlətin sosial siyasətinin həyata keçirilməsində fond öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı ilə təsdiq edilmiş Nizamnamə üzrə həyata keçirir. Nizamnaməyə uyğun olaraq, Fondun fəaliyyət istiqamətləri aşağıdakılardır:

- Məcburi dövlət sosial sığortası və könüllü (əlavə) sosial sığorta, əhalinin əmək pensiyaları, sosial müavinətlər, ünvanlı dövlət sosial yardımı ilə, təqaüd və kompensasiyalarla, habelə Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə nəzərdə tutulmuş digər ödənişlərlə təmin edilməsi sahəsinin (bundan sonra – müvafiq sahə) inkişafını təmin etmək;
- Müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təkliflər

vermək, həmin siyasətin həyata keçirilməsini təmin etmək;

• Müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

• Əhalinin əmək pensiyaları, sosial müavinətlər, ünvanlı dövlət sosial yardımı ilə, təqaüd və kompensasiyalarla, habelə Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə nəzərdə tutulmuş digər ödənişlərlə təmin edilməsi üçün tədbirlər görmək;

• Məcburi dövlət sosial sığorta iştirakçılarının uçota alınmasını və uçotdan çıxarılmasını, sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə qeydiyyata alınmasını və qeydiyyatdan çıxarılmasını, fərdi uçotun aparılmasını və ona nəzarəti təmin etmək;

• Əhalinin sosial müdafiəsi ilə bağlı dövlət proqramlarının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

• Müvafiq sahədə fəaliyyətin təkmilləşdirilməsi və şəffaflığın artırılması, habelə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, onların elektron qaydada həyata keçirilməsi məqsədilə tədbirlər görmək, innovativ ideya və layihələri dəstəkləmək;

• Öz Nizamnaməsində müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərmək [9]

DSMF, Azərbaycanda sosial müdafiə proqramlarının həyata keçirilməsində mühüm rol oynayır. Fond, dövlət sosial sığorta sisteminin idarə edilməsində və sosial müdafiə proqramlarının, məsələn pensiyaların, əlilliyə görə müavinətlərin, sosial yardımın və səhiyyə xidmətlərinin idarə edilməsinə cavabdehdir. DSMF, pensiya təminatı sistemini nəzarət edir ki, bu da müvafiq vətəndaşlara yaşa görə pensiyalar, əlilliyə görə pensiyalar, dul qadınlara və uşaqlara ailə başçısını itirməyə görə pensiyalar kimi fərqli tiplərdə pensiya təminatı verir. Fond həmçinin aztəminatlı ailələrə, kimsəsizlərə, əlilliyi olan insanlara sosial yardım göstərir. DSMF, sosial sığorta haqlarının işçilər və işəgötürənlər tərəfindən ödənilməsini tələb edir ki, bu da işçinin əmək haqqının faizləri əsasında məcburi ödənişlərdir. Toplanan vəsaitlər daha sonra vətəndaşların sosial müdafiəsi üçün müavinətlərə yönəldilir. Sosial sığorta haqları, Azərbaycanda sosial müdafiə proqramlarının əsas maliyyə mənbəyi olduğundan əhəmiyyətli rol oynayır.

Bütövlükdə, Dövlət Sosial Müdafiə Fondu Azərbaycanda sosial müdafiə proqramlarının həyata keçirilməsində mühüm rol oynayır. Fond, dövlət sosial sığorta sisteminin idarə edilməsinə və vətəndaşların sosial müdafiəsi üçün pensiyalar, əlilliyə görə müavinətlər, sosial yardım və səhiyyə xidmətlərinin idarə edilməsinə cavabdehdir. DSMF-in təmin etdiyi proqramlar, özü də daxil olmaqla, aztəminatlı vətəndaşların sosial müdafiəsi üçün çox vacibdir və yoxsulluğun azaldılması və milyonlarla insanın həyat keyfiyyətinin yaxşılaşdırılmasına kömək edir.

**3. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dövlətin sosial siyasətində rolu**

Azərbaycanda sosial siyasət mexanizmlərinin həyata keçirilməsində və təşkilində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əsas rola malikdir. Nazirlik sosial inklüzivliyin təşviqinə, yoxsulluğun azaldılmasına, iş imkanlarının artırılmasına və həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş siyasət və proqramların hazırlanmasına və həyata keçirilməsinə öncülük edir. Nazirlik məşğulluq və əmək münasibətləri, işçilərin hüquqlarının qorunması, iş yerlərinin yaradılması, sosial yardım və pensiya kimi sosial müdafiə proqramlarına nəzarət və tənzimləmə, sosial dialoqun təşviqi, sosial problemlərin həllinə yönləndirilmə və digər sosial siyasət prioritetləri ilə bağlı fəaliyyətləri həyata keçirir. Bu fəaliyyətləri vasitəsilə Nazirlik, milyonlarla insanın sosial sığorta haqlarının qorunmasına və sosial müdafiə xidmətlərinə çıxışına zəmin yaradır.

Nazirliyin məsuliyyətində olan sosial siyasət və proqramlar arasında, ölkədə çoxsaylı məşğulluq mərkəzlərinin yaradılması, təlim və məsləhət xidmətlərinin təqdim edilməsi və uyğun iş yerlərinə yerləşdirmək üçün hazırlıq proqramlarının fəaliyyət göstərilməsi göstərilə bilər. Bununla yanaşı, Nazirlik peşə hazırlığı sistemlərinin inkişafına da fokuslanır, işçilərin əmək bazarında rəqabət üçün gərəkli bacarıqları əldə etməsi üçün tədbirlər təşkil edir.

Azərbaycan dövlətinin gənclərə yönəlik sosial siyasətinin prioritet istiqamətlərindən biri, gənclərin sosial müdafiəsinin və məşğulluğunun artırılması və müxtəlif sosial məşğulluq proqramlarının həyata keçirilməsidir. Bu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi və Azərbaycan Respublikasının Gənclər Fondu ilə birgə təşkil etdiyi "Gənclərin Dayanıqlı Məşğulluğu Proqramı" vasitəsi ilə həyata keçirilir. Bu proqramın

məqsədi gənclərin sosial müdafiəsinin gücləndirilməsi, bilik və bacarıqlarının artırılması, ideyalarının reallaşdırılması, məşğulluqlarının təmin edilməsi, gənclərin əmək bazarında rəqabətə davamlılığının artırılması və mövcud potensiallarının reallaşdırılmasıdır. "Gənclərin Dayanıqlı Məşğulluğu" proqramı, "Biznesini Yarat Marafonu", "İşəgötürənlər üçün Əməkhaqqı Subsidiyası" və "Peşəkar Gənclik" layihələrindən ibarətdir. Bu layihələr, işsiz və işaxtaran, ixtisası və peşəsi olmayan, əmək qabiliyyətli əlilliyi olan, risk qrupuna daxil olan və Vətən müharibəsində iştirak edən, İkinci Qarabağ müharibəsi nəticəsində zərər görən və ya şəhid ailəsinin üzvü olan gənclərə üstünlük verir. Həmçinin, Nazirliyin həyata keçirdiyi digər proqram, "Gənclərin Məşğulluğu Layihəsi" gənclərə təlim və məşğulluq imkanları yaradır və gənclərin işsizliyini və yoxsulluğunu azaltmaq üçün çalışır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycanda sosial siyasətin təşviqində və sosial müdafiə proqramlarının effektiv olmasını təmin etmək üçün önəmli bir rol oynayır. Sosial Müdafiə Nazirliyi məşğulluq və əmək münasibətləri siyasətinə, sosial yardım və yoxsulluğun azaldılması proqramlarına diqqət yetirir və bu hökumətin öz vətəndaşlarının həyatını yaxşılaşdırmaq öhdəliyini vurğulayır. Bu sahədə, Azərbaycanda vətəndaşların yaşayış səviyyəsi və rifahı üçün həyata keçirilən siyasət və proqramların uğurlu olmasında Əmək və Əhalinin Sosial Müdafiəsi önəmli bir rol oynayır [4].

## 4. Dövlətin sosial siyasətinin həyata keçirilməsinin yeni modeli - DOST agentliyi

Azərbaycan sosial siyasət, innovativ metodlardan istifadə edilərək müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilir. Bu inkişafın bir nümunəsi DOST agentliyinin yaradılmasıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 9 avqust 2018-ci il tarixli 229 nömrəli Fərmanı ilə yaradılmışdır. Agentliyin nizamnaməsi və strukturu isə Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2018-ci il tarixli 387 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

Dövlətin sosial siyasətinin yeni uğuru hesab edilən DOST agentliyi bir sıra prinsiplər əsasında fəaliyyət göstərir. Belə ki, agentlik İSO 9001:2015, İSO 10002:2018, İSO 26000 və İSO 37001:2016 standartlarının tələbləri əsasında İnteqrəedilmiş Menecment Sistemi (İMS) əsasında fəaliyyət göstərir. İMS üzrə fəaliyyətin əsas prinsiplərinə aşağıdakıları göstərə bilərik.

• İdarəetmə texnologiyalarının daimi təkmilləşməsi üçün aparıcı vasitələrdən olan İSO 9001:2015 Keyfiyyəti idarəetmə sistemləri, İSO 10002:2018 Müştəri məmnuniyyətinin idarəolunması sistemi, İSO 26000 Sosial məsuliyyət idarəetmə sistemi, İSO 37001:2016 Rüşvət əleyhinə idarəetmə sistemləri üzrə beynəlxalq standartının tələblərinə uyğunlaşdırılması və davamlı olaraq təkmilləşdirilməsi

• Agentliyin fəaliyyəti üzrə qüvvədə olan qanunvericilik aktlarının tələblərinə riayət edilməsi;

• Agentliyin fəaliyyətinə təsir edə biləcək əhəmiyyətli maraqlı tərəflərin, həmçinin daxili və xarici faktorların müəyyən edilməsi;

• Xidmətlərin həyata keçirilməsi zamanı keyfiyyətə təsir göstərə biləcək risk və ehtimalların müəyyən edilməsi və nəzarət altına götürülməsi;

• Hazırkı siyasətin Agentliyin strateji və operativ hədəflərinə uyğunluğunun təmin edilməsi;

• Agentliyin vətəndaşlara göstərilən xidmətin keyfiyyətinin yüksək səviyyədə saxlanılması və fasiləsiz olaraq təkmilləşdirilməsi;

• Bütün aidiyyəti dövlət strukturları ilə səmərəli əməkdaşlıq nəticəsində əldə edilmiş zəngin təcrübənin vətəndaşlarımızın məmnunluğuna yönəldilməsi və onların məmnunluq səviyyəsinin daim yüksək səviyyədə saxlanılması;

• Agentliyin əməkdaşlarının bilik, bacarıq və təcrübə səviyyəsinin daim artırılması;

• Xidmətlərin həyata keçirilməsi proseslərinə təsir göstərə biləcək keyfiyyət və vətəndaş məmnunluğunun təmin edilməsi, sosial məsuliyyət və korrupsiya ilə mübarizə sahəsində risklərin və ehtimalların müəyyən edilməsi və nəzarət altına götürülməsini təmin edilməsi;

• Vətəndaşların tələblərinin və gözləntilərinin ən yüksək səviyyədə yerinə yetirilməsinin təmin edilməsi [7].

Mühüm vəzifələrini yerinə yetirərkən DOST Agentliyi, bütün əməkdaşlarının əməl etməli olduğu prinsipləri əhatəli şəkildə tətbiq edərək, xidmətlərin keyfiyyətini daimi nəzarətdə saxlayaraq vətəndaşlara daha yaxşı xidmət göstərməyə kömək edir. Əsas xidmətləri arasında həssas təbəqələrə (yaşlılar və əlillər) evdə qulluq xidmətləri, məsləhət xidmətləri, hüquqi yardım və ehtiyacı olan ailələrə

dəstək göstərmək gəlir. DOST Agentliyi sosial xidmətlərin standartlara uyğun təmin edilməsi və keyfiyyətinin yüksəldilməsi üçün innovativ tədbirlərə cavabdehdir. Bu səylərinin nəticəsi olaraq, DOST Agentliyi Beynəlxalq Sosial Təminat Assosiasiyasının "Xidmət keyfiyyəti" mükafat proqramından üç mükəmməllik sertifikatı da daxil olmaqla bir sıra beynəlxalq mükafat və sertifikat qazanmışdır. Bu mükafatlar agentliyin Azərbaycan vətəndaşlarına innovativ və səmərəli sosial xidmətlər göstərməsində uğurlu olmasını bir daha təsdiqləyir.

Azərbaycanın sosial siyasətinin uğurla həyata keçirilməsi 2018-ci ildən Prezident İlham Əliyevin tapşırığı ilə başlamış və köklü islahatların əhəmiyyəti böyük olmuşdur. Bu islahatlar sosial ödənişlərin əvəz olunmasında əlverişli şərtlər yaradılmasını, sosial müdafiə və təminat proqramlarının, sosial xidmət və reabilitasiya infrastrukturunun genişləndirilməsini, sosial sahədə elektronlaşma ilə əlaqədar tədbirlərin həyata keçirilməsini, həssas kateqoriyalara göstərilən dövlət qayğısının artırılmasını və sosial xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasını özündə cəmləşdirir. Bu islahatların mərkəzi DOST agentliyidir ki, dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulmasına imkan verir. DOST agentliyi mərkəzlərində əmək, məşğulluq, sosial müdafiə və təminat, əlillik, reabilitasiya sahələrində 132 növdə xidmət təqdim edir. Mərkəzlər, "Pensiya və sosial sığorta", "Sosial müavinətlər və təqaüdlər", "Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat", "Sosial xidmətlər və övladlığagötürmə məsələləri", "Əmək münasibətləri", "Məşğulluq xidmətləri", "Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri", "Bank və notarius xidmətləri" və digər sahələrdə fəaliyyət göstərir. Vətəndaşlar bütün xidmətlərdən "bir pəncərə"yə müraciət edərək və "bir pəncərə"dən yararlanaraq, nazirlik üzrə bütün xidmətlərə daha asan şəkildə çatmaq imkanı əldə edirlər. Əlavə etmək vacibdir ki, Azərbaycan Respublikasının sosial siyasətinin həyata keçirilməsində istifadə edilən innovativ həllər və uğurlu layihələr sayəsində DOST konsepsiyası mövqeyimizi daha da yüksəldir.

Bu konsepsiya vətəndaş məmnuniyyətinin artırılmasında, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasında, dövlət tərəfindən göstərilən sosial xidmətlərin keyfiyyətinin artırılmasında və əlçatan olmasında əhəmiyyətli rol oynayır. DOST konsepsiyası, şəffaflığı və operativliyi ehtiva edən və hər kəsin məmnuniyyətini təmin etmək məqsədi ilə yaradılan son dövrlərin uğurlu bir konsepsiyasıdır. Bu konsepsiya Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü nəticəsində yaranmışdır. Qeyd edək ki, 9 may 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ilk "DOST" mərkəzinin açılışını həyata keçiriblər.

**5. Dövlətin sosial siyasətinin mexanizmlərinin yeni imkanları**

Dövlətin sosial siyasətinin həyata keçirilməsində müasir dövrün tələblərinə uyğun olaraq Prezident İlham Əliyevin rəhbərliyi altında hökumət tərəfindən müxtəlif sosial proqramlar və layihələr hazırlanır və həyata keçirilir. Sosial siyasətdə hazırlanan və icra edilən strategiyalar birbaşa olaraq ölkəmizdə sosial sahənin inkişaf etdirilməsinin və vətəndaş məmnunluğunun artırılmasını hədəfləyir. Həyata keçirilən sosial siyasət mexanizmləri Azərbaycanda sosial sahədə yeni imkanlar yaradır. Belə ki, bu imkanlara aşağıdakıları göstərə bilərik:

• Sosial siyasətin səmərəli həyata keçirilməsi: maraqlı tərəflər, o cümlədən dövlət qurumları, vətəndaş cəmiyyəti təşkilatları və özəl sektor arasında təkmilləşdirilmiş koordinasiya və əməkdaşlığın artırılması sosial sahənin daha da inkişaf etdirilməsinə səbəb ola bilər.

• Sosial xidmətlərin rəqəmsallaşdırılması: xüsusən ölkəmizin ucqar ərazilərində yaşayan və həssas əhali kateqoriyası üçün sosial sahədə rəqəmsallaşmanın daha da artırılması sosial xidmətlərin səmərəliliyini və əlçatanlığının artırılmasına səbəb ola bilər.

• Sosial müdafiə proqramlarının artırılması: Səhiyyə, təhsil, mənzil təminatı və s. bir çox sahədə həyata keçirilən layihələrin artırılması və sosial müdafiənin yeni modellərinin araşdırılaraq tətbiq edilməsi.

• Sosial sahibkarlığın təşviqi: Sosial sahibkarlıq yoxsulluğun azaldılması və iş yerlərinin yaradılması üçün bir vasitə ola və hökumət sosial sahibkarlara və sosial təsirə yönəlmiş bizneslərə dəstək verə bilər.

• İnklüziv artım: Hökumət bərabərsizlikləri azaltmaq və sosial xidmətlərə çıxışı artırmaq üçün inklüziv inkişafın təşviqinə diqqət yetirə bilər. Bu, insan inkişafını təşviq etmək və əmək bazarı üçün lazımi

bacarıqları təmin etmək üçün təhsil, səhiyyə və sosial infrastruktura investisiyaları əhatə edə bilər.

• Özəl sektorla tərəfdaşlıq: Hökumət sosial proqramları dəstəkləmək üçün özəl sektordan resursları və təcrübəni səfərbər etmək üçün dövlət-özəl tərəfdaşlığı təşviq edə bilər. Bu, özəl sektorun sosial layihələrə investisiyası üçün stimulların yaradılması və ya sosial xidmətlər göstərmək üçün özəl sektor təşkilatları ilə tərəfdaşlığı əhatə edə bilər.

• Sosial innovasiya: Hökumət yeni və innovativ sosial proqramların hazırlanmasına və həyata keçirilməsinə dəstək verməklə sosial innovasiyaları təşviq edə bilər. Bu, sosial problemlərin həllinə yeni yanaşmaları müəyyən etmək və həyata keçirmək üçün vətəndaş cəmiyyəti təşkilatları və sosial sahibkarlarla əlaqəni əhatə edə bilər.

• Beynəlxalq əməkdaşlıq: Hökumət sosial sektorun inkişafını dəstəkləmək üçün beynəlxalq əməkdaşlıqdan istifadə edə bilər. Bu, ən yaxşı təcrübələri bölüşmək, resursları səfərbər etmək və sosial siyasətin həyata keçirilməsi üçün potensial yaratmaq üçün beynəlxalq təşkilatlar və digər ölkələrlə əməkdaşlığı əhatə edə bilər.

Bütövlükdə problemlərin həlli və təkmilləşdirmə imkanlarının axtarışı Azərbaycanda sosial siyasət mexanizmlərini gücləndirə və vətəndaşların həyatını yaxşılaşdıra bilər.

## Nəticə

Yekun olaraq qeyd edək ki, Azərbaycanın dövlət idarəçiliyində sosial siyasət mexanizmləri vətəndaşların rifahının təmin edilməsində mühüm rol oynayır. Dövlət Sosial Müdafiə Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və DOST agentliyi ölkədə sosial müdafiə və inklüzivlik siyasətinin həyata keçirilməsinə cavabdeh olan əsas qurumlar sırasındadır. Belə ki, ölkəmizdə sosial siyasət mexanizmlərinin daha da inkişafı və təkmilləşdirilməsi imkanları da mövcuddur ki, sosial sahədə tətbiq edilən innovasiyalar sosial siyasətə təsirlərinin ölkədaxili prioritetlər baxımından iqtisadi-sosial islahatların gedişi çərçivəsində yeni yaradılan iş yerlərinin, yeni ixtisas və peşə tələblərinə uyğun kadr çatışmazlığının, texnoloji inkişafla əlaqədar yaranan məşğulluq probleminin, əmək bazarında tələb və təklif münasibətlərinin formalaşması xüsusiyyətlərinin diqqətdə saxlanmasında olduqca vacibdir. Sosial sahənin maraqlı tərəfləri arasında koordinasiya və əməkdaşlığın artırılması, eləcə də innovativ yanaşmaların qəbulu sosial sahənin inkişafına və Azərbaycanda sosial siyasətin səmərəli həyata keçirilməsinə kömək edə bilər. Nəticə etibarı ilə Azərbaycanın dövlət idarəçiliyində sosial siyasət mexanizmlərinin uğuru birbaşa olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi altında hökumətin öz vətəndaşlarının ehtiyaclarını prioritetləşdirmək və bütün fərdlərin həyat üçün əsas tələbatlara çıxışını təmin etmək öhdəliyindən asılı olaraq uğurla inkişaf etdirilməkdədir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. J. Kuhner and T. Schierbaum "Social Policy in the Post-Soviet State: Azerbaijan, Social Policy and Administration", vol. 50, no. 5, 2016, pp. 569-583.*

*2. H. Rəcəbli "Azərbaycan Respblikasının Sosial Müdafə sistemi" Bakı 2012*

*3. Fərhad Rəhmanov "Sosial sfera və sosial siyasət" Bakı MSV nəşr 2021*

*4. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2021-ci il üzrə hesabatı (https://www.sosial.gov.az/illik-hesabatlar)*

*5. Spicker P. Social Policy. Theory and practice. Third edition. 2014. 514 p.*

*6. Brahamson, P. (1999). The Welfare modelling business. Social Policy & Administration, 33(4), 394- 415.*

*7. https://dost.gov.az/*

*8. https://president.az/az/articles/view/56725*

*9. https://www.sosial.gov.az/*

*10. https://dma.gov.az/*

*11. https://az.wikipedia.org/wiki*

*12. https://www.sosial.gov.az/SXA*


## XÜLASƏ


Azərbaycanın dövlət idarəçiliyinin tərkib hissələrindən biri də sosial siyasətdir. Azərbaycanın dövlət idarəçiliyində sosial siyasət mexanizmləri vətəndaşların yaşayış səviyyəsinin və rifahının yaxşılaşdırılmasına yönəlmiş siyasət və proqramların həyata keçirilməsi üçün birgə fəaliyyət göstərən bir sıra dövlət orqanları və institutlarını əhatə edir. Əsas qurumlara sosial müdafiə proqramlarına və məşğulluq siyasətinə nəzarət edən Dövlət Sosial Müdafiə Fondu və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi daxildir. Hökumət sosial və iqtisadi ehtiyacları həll etmək və davamlı inkişafı təşviq etmək üçün vətən-

daş cəmiyyəti təşkilatları və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edir. Həmçinin müasir dövrdə sosial xidmətlərin vətəndaşlara daha yüksək səviyyədə göstərilməsi üçün yaradılan və bir çox beynəlxalq sertifikatlara, o cümlədən Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) tərəfindən "Xidmət keyfiyyəti" meyarı üzrə üç mükəmməlik sertifikatı ilə təltif edilən DOST agentliyinin fəaliyyəti nəzərə çatdırılır. Məqalədə Azərbaycanın dövlət idarəçiliyinin sosial siyasəti, insanların rifahının yaxşılaşdırılması üçün aparılan sosial siyasətin əhəmiyyəti, sosial siyasətə modernləşmə və innovasiyaların təsiri və insan inkişafı indeksində təzahürlər, o cümlədən Azərbaycanda sosial sferada aparılan sosial siyasət və sosial müdafiənin innovativ istiqamətləri, sosial təminat və sosial müdafiə ilə bağlı dövlət proqramları işıqlandırılmışdır. Məqalədə həmçinin sosial siyasətin aparılmasına tətbiq edilmiş yeni innovativ həllər, sosial siyasətin gələcək inkişaf prioritetlərindən bəhs edilir.

**Açar sözlər:** *Dövlət idarəçiliyi, sosial siyasət, sosial təminat,sosial müdafiə, sosial xidmət.*

**Mechanisms of social policy in the state administration of Azerbaijan**

**SUMMARY**

One of the integral parts of the state administration of Azerbaijan is social policy. The mechanisms of social policy in Azerbaijan's state administration involve a range of government agencies and institutions working together to implement policies and programs aimed at improving the living standards and well-being of citizens. Key institutions include the State Social Protection Fund and the Ministry of Labor and Social Protection of the Population, which oversee social protection programs and employment policy. The government also collaborates with civil society organizations and international partners to address social and economic needs and promote continuous development. Additionally, the quality of social services provided to citizens is monitored by the DOST agency, which has received three excellence certificates in service quality from the International Social Security Association (ISSA). The article discusses the importance of social policy in Azerbaijan's state administration, the impact of modernization and innovation on social policy, and the manifestations of human development in the country, including innovative directions in social policy and social protection programs. The article also highlights new innovative solutions applied in social policy and future development priorities.

**Keywords:** *State administration, social policy, social protection, social defense, social services.*

UOT 327; 930.22

# AZƏRBAYCANIN CƏNUBİ QAFQAZ SİYASƏTİ: NEOFUNKSİONALİZM NƏZƏRİYYƏSİ FONUNDA TƏHLİL

**KAMRAN HÜSEYNOV**
*Flensburq Avropa Universitetinin magistrantı*

*E-mail: k_huseynov@mail.ru*

**Neofunksionalizm nəzəriyyəsi nədir?**

Azərbaycanın C.Qafqaz istiqamətindəki xarici siyasətini dəyərləndirməzdən öncə neofunksionalizm nəzəriyyəsinin və bu terminin nə demək olduğuna aydınlıq gətirmək olduqca vacibdir. Bu nəzəriyyə barəsində əsasən daha çox 20-ci əsrdə müzakirələr açılmışdır. Bu, bir çox ölkələr tərəfindən xarici siyasət doktrinası kimi də qəbul edilmişdir. Funksionalizm terminində "functional"- funksiya və ya ofis, "izm" isə elm, doktrina, praktika və sistem mənasına gəlməkdədir (1).

Bu doktrinanın əsas meyarlarından biri insanın kollektiv fəaliyyəti fəlsəfəsindən qaynaqlanır. Funksionalist şüur isə cəmiyyətdə, o cümlədən, dünyada kollektiv mentalitetin, təhsilin, əqidələrin birliyi, dəyərlərin və digər sosial nizamların təşkil edilməsi məsələlərini özündə ehtiva edir. Burada əsas prinsip kollektiv fəaliyyət göstərməklə insanların cəmiyyətdə ehtiyaclarının qarşılanmasıdır. Burada daha böyük müstəvidə: dövlətlərarası münasibətlərdə də dövlətlərin birgə fəaliyyət göstərib iqtisadi, siyasi və digər sahələrdə bir-birlərinin ehtiyaclarının ödənilməsi əsas prioritet istiqmətlərdən biri kimi götürülür. Burada insan təbiəti kollektivliyə və birgə fəaliyyətə meyilli olduğu və bununla da problemlərin birgə həllinə inanıldığı göstərilir (3).

Bu nəzəriyyənin həyata keçirilməsinin ən parlaq nümunələrindən biri də Avropa Birliyinin qurulması yolunda atılan addımlardır. Bu addımlar İkinci Dünya müharibəsindən sonra Avropa ölkələrini əhatə edən bir ideya kimi parlamışdır. Əsasən J. Mone, A. Spinelli və R.Şumanın təşəbbüsü ilə 1951-ci ildə "Avropa Kömür və Polad İcması"-nın (European Coal and Steel Community) əsası qoyulmuşdur. Burada əsas prinsip Avropada gələcəkdə baş verə biləcək müharibələrin, mübahisələrin iqtisadi və siyasi inteqrasiya ilə qarşısının alınması, bununla yanaşı bu kimi neqativ halların mövcudiyyətini mümkün qədər imkansız etməkdir.

Nəzəri və praktiki cəhətdən müəyyən uğurların əldə olunmasına rəğmən, funksionalizm nəzəriyyəsi tarixdə bəzi krizislərlə də üz-üzə gəlmişdir. Baş verən bu proseslərin biri də bəzi Avropa ölkələrinin siyasi məsələlərlə bağlı mübahisələrindən irəli gəlmişdir. Fransa Şarl de Qolun prezidentliyi dövründə Almaniyanın və İngiltərənin də üzv olduğu birliyə qoşulmaq ideyasını təkzib edir, bu birliyin təşkil etdiyi iclaslarda iştirak etməkdən boyun qaçırırdı. Avropa İqtisadi Birliyinin qurulmasına qarşı çıxan Fransa 1965-ci ildən başlayaraq bir il müddətində "boş stul" adlı siyasi böhranını təşkil etməklə bununla bağlı sanki siyasi bir mesaj vermişdir (5).

Lakin, sonradan tarixi proseslər onu da sübut etdi ki, vəziyyət getdikcə bu məsələdə neofunksionalist siyasətinin, hətta Fransa üçün belə, əlverişli olduğu və bu məqamda artıq Fransanın da gələcəkdə iqtisadi, siyasi və digər mühüm müstəvilərdə qonşu ölkələrlə münasibətlərin tənzimlənməsinə köklənməsi üçün olduqca vacib idi. Tarixi düşmənçiliyi kənara qoyaraq, Avropa ölkələri gələcəkdə daim sülh içində yaşamaq üçün kommunikasiyaların açılması və bunun məntiqi nəticəsi olaraq, sonralar siyasi və sosial müstəvidə inteqrasiya siyasətinin aparılmasının vacibliyini görmüşlər.

**Neofunksionalizm nəzəriyyəsi fonunda Azərbaycanın C.Qafqaz siyasəti**

Vəziyyətə ümumi fəlsəfi tərəfdən baxsaq, o zaman onu müşahidə etmək mümkündür ki, Azərbaycanın atdığı konstruktiv addımlar nə qədər də Avropa Birliyinin sülh təşəbbüsü ilə tam eynilik təşkil etməsə də mahiyyət baxımından bu ideya demək olar ki, eynidir. Ümumiyyətlə, Azərbaycanın xarici siyasət kursu əsasən daim qonşu və digər dövlətlərlə qarşılıqlı əməkdaşlıq etmək və bütün tərəflərin qazandığı müdrik xarici siyasət yolundan ibarət olmuşdur. 44 günlük Vətən müharibəsindən əvvəl belə Azərbaycan Qarabağ münaqişəsinin həllinə yönəlmiş və qonşu dövlətlərlə sağlam əməkdaşlıq etməyə artıq müstəqillik dövründən start vermişdir.

Ulu Öndər Heydər Əliyev üçün Azərbaycanın gələcəyi olduqca önəmli idi. Buna görə də, ilk növbədə, sağlam iqtisadi əməkdaşlığın qurulması mühüm əhəmiyyət kəsb edirdi. Milli təhlükəsizlik məsələsi-

ni həll etməklə yanaşı, Heydər Əliyev həmçinin də Avropa Birliyi ilə iqtisadi və siyasi münasibətlərinin spektrini genişləndirmək üçün hərəkətə keçərək, bunun üçün ilk növbədə qonşu Gürcüstanı da cəlb etməklə, Baki-Tbilisi-Ceyhan neft boru kəməri və Cənubi Qafqaz qaz boru kəmərinin inşası üçün böyük səylər göstərmişdir (4).

Ermənistanın yürütdüyü işğalçılıq siyasəti onun bu layihələrdən uzaq durmasına səbəb olmuşdur. Azərbaycan Ermənistanın sağlam ambisiyalı siyasət yürüdərək, Azərbaycanla birgə Qarabağ konfliktini həll etməsinə ümid edirdi. Daimi sülh Azrbaycanın xarici siyasətinin özəyini təşkil etdiyi üçün, hər bir məsələnin danışıqlar yolu ilə sülh içində həllinə yönəlmiş səylər Azərbaycanın xarici siyasətində neofunksional istiqamətdə irəlildiyinin təzahürüdür. Azərbaycan qonşuluq münasibətlərində də soyuqluğun, mübahisələrin və anlaşmazlıqların aradan qaldırılmasının daim tərəfində olmuşdur. Lakin, təəssüflə qeyd etmək lazımdır ki, Ermənistan öz işğalçılıq siyasətindən və "Böyük Ermənistan" xəyalından dönməyərək sağlam xarici siyasət kursundan imtina etmişdir. Neofunksionalizm nəzəriyyəsi üçün sülhün bərqərar olunması labüddür. Ermənistan da törətdiyi əməllərlə sübüt etmişdir ki, o, bu sülhün bərqərar olunmasında maraqlı deyildir.

Onu qeyd etmək lazımdır ki, dövlətlərarası münasibətlərdə danışıqların daha da uğurla aparılması üçün fövqəlmilli təşkilatın varlığı olduqca vacibdir. Bununla belə, Azərbaycan Cənubi Qafqazda yürütdüyü xarici siyasətində sülhün və əməkdaşlığın genişləndirilməsi üçün beynəlxalq və regional təşkilatlarla da əlaqələrini gücləndirmişdir. BMT,ATƏT, ECO, İƏT, GUAM, NATO və digər təşkilatlarla etdiyi əməkdaşlıq fonunda Azərbaycan həm Qarabağ probleminin həllində, həm də qonşu dövlətlərlə iqtisadi asılılığın artırılması ilə gələcəkdə baş verə biləcək münaqişələrin qarşısının alınmasının vacib və preventiv bir addım olduğunun qənaətində idi.

Xarici siyasətdə uğurlu aktor olmaq üçün hər bir dövlət, ilk növbədə, milli təhlükəsizliyin təmin edilməsinə müvəffəq olmalıdır. Bunu hər zaman xarici siyasət kursunda rəhbər tutan İlham Əliyev danışıqlar prosesində öncə məsələlərə geosiyasi aspektdən yanaşmaqla, ölkəmizin təhlükəsizliyi və suverenliyin bərpa olunması üçün olduqca praqmatik siyasət yürüdür. Bunun da məntiqi nəticəsi olaraq, Azərbaycan öz müstəqilliyini uğurla təmin edib, ilk öncə yaxın qonşuları ilə əlaqələrini genişləndirməkdə maraqlıdır. Bu da neofunksionalizm nəzəriyyəsinin bu keysdə təzahürünü özündə ehtiva edir. Qlobal geosiyasi mühitdə müxtəlif təşkilatlarla və dövlətlərlə sağlam təmasların qurulması prinsipi Azərbaycana imkan verir ki, o beynəlxalq arenada öz nüfuzunu genişləndirə və təsir dairəsini artıra bilsin. Bu, olduqca vacib bir məqamdır. Əgər milli maraqların qorunması prioritetdirsə, o zaman ilk növbədə təsir dairəsinin genişlənməsi və əməkdaşlıq platformalarında yer almaq lazımdır. Azərbaycan da bundan məharətlə faydalanaraq, Ermənistanın qlobal arenada yürütdüyü məkrli planlarını alt-üst etmişdir. Buna misal olaraq, Azərbaycanın MDB ölkələri ilə həyata keçirdiyi sıx əməkdaşlıqlardan analiz etmək mümkündür. Azərbaycan MDB dövlətləri ilə qurduğu sıx əməkdaşlıqla öz milli maraqlarını, təhlükəsizliyini və suverenliyini daim qorumağa nail olmuşdur. Azərbaycan Ermənistan faktorunu nəzərə alaraq, öz siyasi maraqlarına zidd atıla biləcək addımlara veto qoymaq imkanına sahibdir. Bununla yanaşı, özünə qarşı yarana biləcək hər bir təhdidi qurduğu əməkdaşlıq və müdrik siyasi manevrlərlə neytrallaşdırmağa nail olmuşdur. Azərbaycan həmçinin də onu bilir ki, çoxşaxəli münasibətlərlə də yanaşı, ikitərəfli münasibətlərin qurulması öz əhəmiyyətini itirməmişdir. Bunun əsası isə belə izah edilə bilər ki, hər iki dövlət öz maraqlarının təmin olunması aspektinə daha müsbət yanaşaraq, ikitərəfli münasibətlərdən daha çox fayda görə bilər. Digər ölkələr kimi Azərbaycan da öz siyasi təhlükəsizliyini təmin etməkdə daim maraqlı olmuşdur. Azərbaycanın tarixinə və keçdiyi yola nəzər salaraq onu qeyd etmək lazımdır ki, siyasi təhlükəsizlik faktoru müstəqilliyini yaxın zamanlarda əldə etmiş ölkələr üçün olduqca vacibdir. Burada onu da qeyd etmək lazımdır ki, Azərbaycan öz neofunksional münasibətlərini sistemləşdirilmiş bir mexanizm üzərində həyata keçirir. Bu sistem səviyyə ölçüsü ilə tətbiq edilir. Birinci mərhələdə olan ölkələr əsasən Türkiyə, Rusiya və İranı əhatə edir. İkinci mərhələ Orta Asiya, Gürcüstan və Ermənistan, üçüncü mərhələ isə ABŞ, Uzaq Şərq və digər ölkələr aid edilir (4).

Azərbaycanın olduğu məkan hazırda dünyada baş verən ən mürəkkəb proseslərin cərəyan etdiyi mövqelərdən birini əhatə edir. Bununla belə, Azərbaycan yerləşdiyi geosiyasi məkanda öz milli maraqlarını təmin etmək üçün bərabərhüquqlu tərəfdaşlığa və etibarlı əməkdaşlığa söykənən xarici siyasət kursunu aparır. Son zamanlar isə Avropa Birliyinin keç-

diyi inteqrasiya və sülh təşəbbüsünün elementlərini Avrasiya məkanında da görmək olar. Türkiyənin Rusiya ilə daha da yaxınlaşması və Orta Asiya ölkələri ilə üzv olduğu Türk Dövlətləri Təşkilatı (TDT) fonunda atdığı addımlar Azərbaycanın maraqlarının tam təmin olunması üçün münbit şərait yaratmışdır. Qardaş Türkiyə ilə həyata keçirilən sıx əməkdaşlıq çərçivəsində Azərbaycan olduqca cəsarətli addımlar atmışdır.

Hətta İkinci Vətən müharibəsindən sonra da Azərbaycan son dərəcə humanist addım ataraq Ermənistana sülh müqaviləsinin imzalanmasını təklif edən ilk tərəf olmuşdur. Bu hal tarix boyu az sayda dövlətlərin etdiyi bir təcrübə olmuşdur. Bu da o faktı sübüt edir ki, Azərbaycan müharibənin deyil, funksional münasibətlərin qurulmasında maraqlıdır. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın təklif etdiyi Zəngəzur koridoru da məhz daimi sülh üçün atılan böyük bir addımla yanaşı, olduqca müdrik bir siyasi qərardır. Bu illər sonra Cənubi Qafqazda qurulacaq siyasi və iqtisadi əlaqələrin daha da genişlənməsinə şərait yaradacaq və gələcəkdə baş verə biləcək mübahisələrə qarşı çevik bir addımdır.

Zəngəzur koridoru qurularsa, Azərbaycan ilə Türkiyə arasındakı məsafə xeyli azalaraq, iqtisadi artımı və siyasi münasibətlərin daha da genişlənməsinə şərait yaradacaqdır. Bu da öz-özlüyündə quru yolla olan səyahət məsafəsini təxmini olaraq 25% qısaldacaqdır. Ən vacib məqamlardan biri isə ondan ibarətdir ki, bu, çox ehtimalla “spillover” (yayılma) effekti yaradacaqdır. Bu effekt sayəsində isə Avropa ölkələri regional əməkdaşlığa bu qədər sürətlə və əzmlə nail olmuşlar (6).

### Nəticə

Azərbaycanın yürütdüyü xarici siyasət kursu C.Qafqazın gələcək taleyinin həllində mühüm rol oynayır. Avropanın qurduğu inteqrasiya modelinin eynisini təşkil etməsə də, onun elemenetlərini yerləşdiyi geosiyasi reallığın şərtlərinə uyğunlaşdırmağa çalışan Azərbaycan bu yolla regionda sabitliyi və daimi sülhü təmin etməyə çalışmışdır. Bu araşdırmada da Azərbaycanın C.Qafqazda olan xarici siyasətinin neofunksionalist pəncərəsindən təhlil edilməsi bir daha onu göstərdi ki, bu siyasət regionda olan hər bir ölkəyə fayda verməklə, Azərbaycanın humanist və tərəfdaşı olduğu anlaşmalara hər zaman sadiq olan tərəf qismində fəaliyyət göstərdiyinin təzahürüdür. Əsasən də Ümummilli Lider Heydər Əliyevin qurduğu müasir Azərbaycan İlham Əliyevin davam etdirdiyi praqmatik xarici siyasət ilə hər gün bu məqsədə bir addım daha da yaxınlaşır.

### ƏDƏBİYYAT SİYAHISI:

*1. Entries linking to functionalism. (2015). Bu Online Etymology Dictionary: https://www.etymonline.com/word/functionalism#:~:text=Entries%20linking%20to%20functionalism&text=1630s%2C%20%22pertaining%20to%20function%20or,Related%3A%20Functionally%3B%20functionality.*

*2. ƏSGƏROV, Z. (2011). HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT STRATEGİYASI VƏ AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİYİ. Azərbaycan, S.7.*

*3. Khara, D. N. (2020). Functionalism and Neofunctionalism: Some Critical Perspectives. Kamala Nehru Women’s College, Rama Devi Women’s University, 1005-1008.*

*4. Məmmədov, N. (2013). HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSU: DÜNYA SİSTEMİNİN YENİDƏN QURULMASI KONTEKSTİNDƏ. Azərbaycan, №86.-S.3.*

*5. Niemann, A. &. (2009). Neo-functionalism. Mənbə: A. a. Wiener, Theories of European Integration (ss. pp. 45-66). Oxford: Oxford University Press, 2nd Edition.*

*6. Tütünsatar, A. (2022). THE SIGNIFICANCE OF THE ZENGEZUR CORRIDOR IN TERMS OF INTERNATIONAL TRADE POLICY AND LOGISTICS. Journal of Vocational and Social Sciences of Turkey, 66-74.*

### XÜLASƏ

Azərbaycan hər zaman Cənubi Qafqazda daimi sülhün bərqərar olunması üçün əlindən gələni etməkdədir. Ümummilli Lider Heydər Əliyevin yürütdüyü xarici siyasət kursu rəhbər götürülərək, Azərbaycanın Cənubi Qafqazda iqtisadi, siyasi və digər sahələrdə atdığı addımlar bu fikrin nə dərəcədə düzgün olduğunu sübut edir.

Bu araşdırmada Azərbaycanın 44 günlük Vətən müharibəsindən öncə və sonra yürütdüyü xarici siyasət kursu müzakirə edilir. Onu da qeyd etmək lazımdır ki, yürüdülən bu xarici siyasət kursu əsasən neofunksionalist nəzəriyyəsi pəncərəsindən baxılacaqdır. Əsas araşdırma istiqaməti Azərbaycanın C.Qafqaz üçün təşkil etdiyi iqtisadi, siyasi və sosial sahələrdə inkişaf layihələrinin rolu və bu addımların neofunksionalist nəzəriyyəsi üçün nə dərəcədə

empirik bir indikator olduğunun müzakirə edilməsi nəzərdə tutulmuşdur.

**Açar Sözlər:** *Heydər Əliyev, İlham Əliyev, Neofunksionalizm, Cənubi Qafqaz, Zəngəzur koridoru, xarici siyasət, inteqrasiya.*

**Azerbaijan's South Caucasus Policy: Analysis from the Prism of New Functionalism Theory**

**SUMMARY**

Azerbaijan is doing its best to establish lasting peace in the South Caucasus. The steps taken by Azerbaijan's national leader Heydar Aliyev in economic, political, and other fields in the South Caucasus under the guidance of the foreign policy route prove how true this idea is.

In this study, the course of Azerbaijan's foreign policy before and after the 44-day Homeland War will be discussed. It should also be noted that this foreign policy course is neo-functionalist viewed from the perspective of neo-functionalist theory. The main aspect of the research is to discuss the role, of development projects in economic, political, and social fields organized by Azerbaijan for the South Caucasus and to what extent these steps are an empirical indicator of neo-functionalist theory.

**Keywords:** *Heydar Aliyev, Ilham Aliyev, Neofunctionalism, South Caucasus, Zangezur Corridor, foreign policy, integration.*

**Политика Азербайджана на Южном Кавказе: Анализ сквозь призму теории нового функционализма**

**РЕЗЮМЕ**

Азербайджан делает все возможное для установления прочного мира на Южном Кавказе. Насколько верна эта идея, доказывают шаги, предпринятые общенациональным лидером Азербайджана Гейдаром Алиевым в экономической, политической и других сферах на Южном Кавказе под руководством внешнеполитического пути.

В этом исследовании будет обсуждаться курс внешней политики Азербайджана до и после 44-дневной Отечественной войны. Следует также отметить, что данный внешнеполитический курс является неофункционалистским, если рассматривать его с точки зрения неофункционалистской теории. Основным аспектом исследования является обсуждение роли проектов развития в экономической, политической и социальной областях, организованных Азербайджаном для Южного Кавказа, и в какой степени эти шаги являются эмпирическим индикатором неофункционалистской теории.

**Ключевые слова:** *Гейдар Алиев, Ильхам Алиев, неофункционализм, Южный Кавказ, Зангезурский коридор, внешняя политика, интеграция.*

UOT 32

# ПРОЦЕСС ЗАРОЖДЕНИЯ ЗАПАДНЫХ «МОДЕРНИСТСКИХ» ЦЕННОСТЕЙ В ПОЛИТИЧЕСКОЙ КУЛЬТУРЕ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА

**ЭМИЛЬ ЗАДАЕВ**
*Бакинский государственный университет, докторант*
*E-mail: sheyxzade1@gmail.com*

## Введение

Будучи расположенной на окраинах Европейской цивилизации, территория Азербайджана долгое время была вдали от влияния постепенно развивающихся западных ценностей. Укоренившиеся веками феодальные отношения, царившие вплоть до начала XIX века в комбинации с азиатским деспотизмом блокировали волны модернизма, охватывавшие Европейские державы. Политическая культура государственных образований Азербайджана преимущественно диктовалась клановыми, а позднее религиозными воззрениями правящих классов. После завершения колонизации северных Азербайджанских земель со стороны Российской Империи, в культурный, а позже в политический нарратив начинают просачиваться универсальные западные идеи. Вплоть до образования первой Азербайджанской независимой демократической республики в 1918 г., на подсознательном уровне восприятия отдельных частей социума, формируются целые системы ценностей, берущие свою основу из политического модернизма. Формирование данного базиса стало решительным и ключевым в образовании первой республики. Без данного базиса трудно было представить функционирование государственных институтов и проявления политической воли во внешней политике, которые были так необходимы для создания первого Азербайджанского государства, отвечающего современным реалиям. Данная работа ставит перед собой задачу установить конкретную точку отсчета зарождения западных ценностей в политической культуре азербайджанского народа, и выделить основные причины, которые способствовали успешному развитию этих идей в социальных классах.

## Содержание

Приблизительно до середины XV в. отношения государственных образований на исторических территориях Азербайджана с Европейскими державами в основном развивались в ключе торговых сношений. Данный факт не является удивительным, ввиду географического положения Азербайджана и Великого Шелкового Пути, пролегающего через эту территорию. Да и Европа скорее сдерживала Азиатскую агрессию, и разговоров об западной экспансии на восток в то время не могло быть и речи.

Последние попытки западных цивилизаций продвинуться на восток датируются со времен походов Александра Великого и Римских завоеваний. В эпоху Александра Азия, в том числе и часть Азербайджанских территорий подверглись прогрессивной на то время «эллинизации». Это ярко прослеживалось в государственном устройстве, философии, культуре, архитектуре и в других аспектах. К примеру, зодчие Атропатены хорошо были знакомы с архитектурой соседних стран. В строительстве зданий чётко прослеживается влияние греческой культуры. Над входом у монументального архитектурного памятника, вырубленного в местечке Керифто, высечена надпись на греческом языке. В ней сообщается, что храм посвящён герою греческой мифологии Гераклу. Также в эпоху могущества македонских властей полностью оградить себя от влияния эллинизма было нереально, поэтому деловая переписка шла на греческом языке [7, с. 7]. Однако, прогрессивные на то время воззрения эллинов не смогли глубоко просочиться в сознание народов древности, так как империя Македонского прожила недолгий век, и сразу после ее распада азиатский деспотизм быстро возвратил старые устои.

С середины XV в. о взаимоотношениях Азербайджана со странами Западной Европы стали приобретать и политический характер. Точнее, возросла роль внешнеполитического фактора во взаимном сближении Азербайджана с европейскими странами. Широкие дипломатические связи государства Аккоюнлу с западными странами, в частности, с Венецией, были установлены в период правления Узун Гасана, т. е. задолго до прихода к власти династии Сефевидов, а в XVI

веке они еще более расширились. Одной из основных причин расширения взаимоотношений Азербайджана со странами Европы, вернее, приобретения ими все более политического характера, была агрессивная внешняя политика Османской империи. Для Европейских держав было необходимо сдерживать завоевания Османской империи, и поэтому их взор обратился на восточные границы турков, где они рассчитывали создать напряжение путем влияния на политику азербайджанских феодальных государств [6, с. 44-52].

Однако несмотря на развитие дипломатических и экономических сношений, социальные нормы Запада, которые в той же Османской империи развивались интенсивнее, не проникали через плотный купол шиитских догматов Сефевидов и последующих династий. О каком-либо серьезном влиянии следует говорить лишь с начала XIX века, когда Туркманчайский договор (1828) окончательно разделил азербайджанские исторические земли между Российской империей и государством Каджаров.

Последующие 200 лет Азербайджан был ориентирован на Россию и с помощью нее (сначала в рамках Российской империи, а затем Советского Союза) приобщаясь к ценностям европейской культуры, был вынужден сталкиваться с достаточно напряженными дилеммами социокультурного развития. Эта дилемма ярко выражалась в вопросах осознания национальной идентичности в противоборстве наднациональной мусульманской идентичностью.

Но национальное самосознание как это доказывает европейский опыт, не может формироваться без модернизма. Модернизм утверждает, что нации и национализм есть исторические явления, появившиеся на заре индустриальной эры и связанные с усилением государств и развитием капитализма. Согласно этой теории по мере усиления прямого правления государства над жителями оборона, культура и повседневная жизнь стали всё больше зависеть от страны проживания. Государства начали учреждать национальные языки, образовательные системы, воинскую повинность, стали инвестировать в экономическую инфраструктуру, контролировать передвижения людей и товаров через свои границы, вводить единую систему пошлин. При этом развитие технологий печати способствовало развитию коммуникационной среды, в которой между людьми, никогда не общавшимися друг с другом напрямую, стали возникать общественные связи. Аналогичным эффектом обладало развитие экономического рынка. По мере процесса централизации власти государства и ликвидации феодальной зависимости в пределах каждой страны жизнь начала становиться всё более однородной, а между странами начали нарастать контрасты. Прежние (религиозные, племенные и прочие) пути самоидентификации оказались нарушены, но поскольку люди продолжали испытывать в ней функциональную потребность, они стали отождествлять себя с нацией. Данный подход представлен в работах Э. Гелнера [3, с. 38], Э. Смита [8, с. 98], Б. Андерсон [1, с. 151-153] и др.

Все эти процессы постепенно набирали обороты в Азербайджане начиная с XIX века. Но данная модернизация имеет ряд отличительных черт от той же модернизации проходившая в метрополии Российской империи. Во-первых, Азербайджан будучи фактически колонией в административно-экономическом плане получал в буквальном смысле дозированную порцию прогрессивных благ. Связано это было безусловно с природой колониальной политики России, которая не была заинтересована в создании экономически и политически крепкого субъекта на мусульманских территориях. Во-вторых, исходя из вышеупомянутого факта, для удовлетворения потребности в служебных кадрах из местного населения, которое более эффективно помогало поддерживать порядок в провинциях, Россия путем политики «Русификации» начала проводить преобразования в области образования, юриспруденции и административного управления [5, с. 158-164]. Явная дискриминация в отношении местных многовековых традиций, усилила сентименты ненависти различных групп против общего угнетателя. Безусловно, это усиливало мобилизацию масс, которые искали сначала силовые (безуспешно), а затем уже политические методы отстаивания старого порядка. Тем самым внедрение российских нормативов, которые в свою очередь были под длительным влиянием Европы, внесли положительный вклад в консолидацию различных групп и классов общества. В-третьих, наличие на территории Азербайджа-

на богатых месторождений природных ресурсов, в особенности нефти, побудило царское правительство инвестировать в экономическую инфраструктуру страны, привлекать иностранных инвесторов, привозящие с собой технологические инновации, создавать новые рабочие места, и смягчать государственный контроль над рынком в угоду предпринимателей. Благодаря этому в отличие от других провинций Российской империи, капиталистические отношения развивались в Азербайджане в ускоренном темпе, что несомненно повлияло на скрепление общества в экономическом плане. Однако, и тут была своя специфика. Царское правительство рассматривало свои отдаленные провинции в качестве сырьевых придатков, тем самым ставя туземное население в экономическую зависимость от готовой продукции. Ввиду этого, в Азербайджане практически не производилась готовая продукция и весь экономический потенциал направлялся на эксплуатацию ресурсов, которые направлялись в метрополию. И в четвертых, как отмечают исследователь Д. Фурман [9, с. 176], одним из важных факторов, который модифицировал азербайджанское сознание и во многом определил особенности его позднесоветского и постсоветского политического процесса заключается в том, что азербайджанцы дольше, чем любой другой мусульманский народ (кроме татар и башкир), были под прямым управлением европейских колонизаторов (русских) и, соответственно, дольше, чем любой другой народ, испытывали на себе действие европейской культуры.

Как итог к концу XIX века в Азербайджане сформировалась своя европейская образованная элита и происходила колоссальная культурная деятельность по созданию и синтезу европейских и традиционных национальных культурных форм и ценностей. В этот период азербайджанская элита оказывается впереди любого другого мусульманского народа (опять-таки за исключением татар) и не только в Российской империи, но и во всем мире. Это были первые «мусульманские» современного типа драматургия и опера, первая на территории Российской империи «мусульманская» газета и т. д. [5, с. 158]. Постепенно модернизм начинает охватывать политическую плоскость в Азербайджане, и новая интеллигенция начинает распространять накопленные знания и опыт среди всего населения, используя конкретную политическую повестку. На практике можно выделить несколько повесток и программ, которые проникали в массы. Самая распространенная идея ставила перед собой задачу в борьбе против колониального гнета и создания более современного и справедливого общества. Отсюда и вытекали задачи Азербайджанского национального движения на начальном этапе его развития, а именно - достижение национального, политического и гражданского равноправия, и права на самостоятельное решение национально - культурных проблем.

Наивысшей точкой подъема Азербайджанского национального движения на начальном этапе его развития, несомненно, явился период революции 1905-1907 гг. В этот период в национальном движении четко прослеживалось два направления: радикальное и либеральное [2, с. 21].

Возникновение радикального крыла в немалой степени было ответной реакцией на армяно-азербайджанские столкновения, спровоцированные российским самодержавием. Неслучайно, что первые азербайджанские политические организации, возникшие в этот период, - "Дифаи", "Мудафиэ", "Иттифак", "Эшшемс" и др. составляли именно радикальное крыло Азербайджанского национального движения. В борьбе с русским колониализмом эти партии нередко прибегали к тактике индивидуального террора против царских чиновников военных и полицейских чинов, известных своей подстрекательской ролью в армяно-азербайджанских столкновениях. Безусловно, ввиду радикализации и маргинализации, такие партии как "Дифаи" и другие азербайджанские организации того периода не обладали еще большим авторитетом и влиянием среди народных масс, да и само их существование было непродолжительным [2, с. 23]. Но бесспорен их вклад в дело становления Азербайджанского национального движения.

Не умаляя никоим образом заслуги радикального крыла в политическом пробуждении азербайджанского общества, все же необходимо подчеркнуть, что ведущей силой национального движения, которое полагалось на западные ценности, в этот период являлось либеральное течение. Именно либералы, с подъемом революционного движения 1905-1907 гг. перешедшие

к активным действиям, определяли основную политическую линию национального движения вплоть до февральской революции 1917 года. Придерживаясь принципа лояльности русским властям, либералы в отличие от радикалов действовали мирными, легальными средствами. Они стремились решать национальные проблемы в представительных органах и путем переговоров с русской в администрации. Азербайджанские либералы обращали значительное внимание на организацию гражданских инициатив и петиций, что очень сильно коррелирует с национальной борьбой народов Западной Европы. Ярким примером является апрельская (1905 г.) петиция, автором которой являлся А. М. Топчибашев [2, с. 24]. В ней нашли свое отражение основные цели национального движения на начальном этапе его развития - требование отмены всех право ограничений в отношении мусульман и предоставление им равных, наряду с другими народами империи, политических, гражданских и религиозных прав. Начиная с этого момента можно вести серьезную точку отсчета проявления политической воли народа Азербайджана, согласованную с реалиями нового мира и вдохновившуюся западной философией.

*15. Resulzade, M.E. İran Türkleri: Türk Yurdu ve Sebilürreşad'daki yazıları / hazırlayanlar Yavuz Akpınar, İrfan Murat Yıldırım, Sabahattin Çağın. – İstanbul: Türk Dünyası Araştırmalar Vakfı, – 1993. – 142 s.*

## SUMMARY

## MOHAMMED AMIN RASULZADE'S WORKS PUBLISHED IN IRAN

**Allahverdiyeva Surayya Ali gizi**
***Doctoral student of Baku State University***

M.A. Rasulzadeh spent his first years of emigration in Qajar Iran. At that time, under the leadership of the national hero Sattarkhan, the struggle for freedom against the Shah's regime began in South Azerbaijan. M.A. Rasulzade met with Sattarkhan, the nati-

onal hero of our people, and his comrades-in-arms in Tabriz and supported their struggle for freedom. During that period, the ardent patriot visited the cities and villages of South Azerbaijan and became closely acquainted with the plight of his native people. What he saw during this trip left a strong mark on M.A. Rasulzade's literary work. As a result of his experiences and researches, the author who wrote the work "Iranian Turks" clarified the controversial issues with his approach.

**Key words:** *emigration, Iran, newspaper, revolution, Turks.*

## РЕЗЮМЕ

## ПРОИЗВЕДЕНИЯ МОХАММЕДА АМИНА РАСУЛЗАДЕ, ИЗДАННЫЕ В ИРАНЕ

**Аллахвердиева Сурайя Али кызы**
***Докторант Бакинского Государственного Университета***

Первые годы эмиграции М.А. Расулзаде провел в Каджарском Иране. В это время под руководством национального героя Саттархана в Южном Азербайджане началась освободительная борьба против шахского режима. М.А.Расулзаде встретился с национальным героем нашего народа Саттарханом и его соратниками в Тебризе и поддержал их борьбу за свободу. В этот период пламенный патриот побывал в городах и селах Южного Азербайджана и близко ознакомился с бедственным положением родного народа. Увиденное во время этой поездки наложило сильный отпечаток на литературное творчество М.А. Расулзаде. В результате своих опытов и исследований автор, написавший работу «Иранские тюрки», своим подходом внес ясность в спорные вопросы.

**Ключевые слова:** *эмиграция, Иран, газета, революция, турки.*

UOT 94(479.24)

# AZƏRBAYCANIN MİLLİ KİMLİK QURUCULUĞU TARİXİNDƏ A MƏRHƏLƏSİ: XIX ƏSRDƏ MİLLİ KİMLİYİN FORMALAŞMASINDA MAARİFÇİLİK VƏ İNTELGENSİYANIN ROLU

**BAYRAM BAYRAMOV**
*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutunun magistrantı*
*E-mail: bayramov1917@gmail.com*

## Giriş

Müasir sosial elmlər sistemində sosial konstruksiya kimi qəbul olunan millət və milli kimlik anlayışları, tarixşünaslığın əsas fokus nöqtələrindən biridir və xüsusən tarixi proseslərə primordial lensdən yanaşan tarixçilərin yaradıcılığında ictimai inkişafın əsas lokomotivi hesab olunur. Müasir millət araşdırmalarında ortodoksiya hesab olunan modernist məktəbin əsas teoretikləri sayılan Bennedikt Anderson, Erik Hobsbaum, Ernst Gellner kimi sosioloq və tarixçilər milləti modernizasiya ilə birlikdə və onun nəticəsində ortaya çıxan siyasi, sosial vahid kimi qəbul edib və bunu nəzəriyyələşdiriblər. Milli kimlik quruculuğu anlayışında da məhz bu kontekstdə millət və milli kimliyin tarixin bütün mərhələlərində mövcud olmuş təbii strukturlar olmaması və onun mərkəzləşmiş güc tərəfindən müxtəlif alətlərlə dizayn oluna bilməsi əsas götürülür. İlk dəfə 1789-cu ildə qəbul olunmuş Fransa İnsan Hüquqları Bəyannaməsində “Suveren hakimiyyətin mənbəyi millətdir” bəndi ilə birgə, hakimiyyətin öz legitimliyini dindən və onun hakimiyyət institutu olan kilsədən alan kraldan millətə keçməsi, bu yeni anlayışı tarixdə ilk dəfə əsas siyasi vahidə çevirmişdir. Bu bəyannamədə keçən “millət” sözü, məhz XVIII əsrdə bugünkü mənasına qovuşmuşdur (Hobsbawm 1995, 17).

Bu baxımdan həmçinin Azərbaycan milli kimlik quruculuğu tarixi də, müxtəlif tarixçi və millətşünasların əsərlərində təhlil olunmuş, onun fazalarına dair müxtəlif dəyərləndirmələr aparılmışdır. Azərbaycanda milli kimlik quruculuğu proyektinin formalaşması XIX əsrin tarixi prosesləri ilə birbaşa olaraq bağlıdır. Belə ki, 1813-cü ildə imzalanmış Gülüstan və 1828-ci ildə imzalanmış Türkmənçay müqavilələri nəticəsində İran platosunda qurulmuş Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar və son olaraq Qacar dövlətinin əsas idarəçi etnomədəni ünsürü olan Azərbaycan türklərinin yaşadığı ərazi iki yerə bölündü. Araz çayından şimaldakı Azərbaycan əraziləri Çar Rusiyasının tərkibinə qatıldı və bu hadisə, bundan sonrakı tarixi proseslərdə cənubdakından olduqca fərqli bir yol keçməsinin başlanğıcı oldu.

Məqalədə Miroslav Hroxun tipologiyası əsasında incələnmiş Azərbaycan milli kimlik quruculuğu tarixinin A mərhələsində Tiflis intellektual mühitinin rolu, milli mətbuatın formalaşması və milli kimliyə dair irəli sürülmüş tezislər təhlil olunmuş və bu tipologiya əsasında şərh olunmuşdur.

## 1. Çar Rusiyasının işğalı nəticəsində milli kimlik quruculuğu prosesinə zəmin yaranması

Çar Rusiyasının işğalı ərəfəsində bölgədə etnik kimlik aidiyyəti, din və məzhəbin kölgəsində qalırdı. Xüsusən də bunu I və II Rus-İran müharibələrinin gedişində rahatlıqla müşahidə etmək mümkündür. Qeyd etmək lazımdır ki, bu dövrdə Çar Rusiyasının işğalına qarşı müsəlman türklərin vahid cəbhədə birləşməsindən söhbət getmirdi. Birinci Rus-İran müharibəsində könüllü “Tatar” süvari alayı canlı qüvvə baxımdan problemlərin mövcud olduğu rus ordusuna bölgəyə hərbi ekspansiya etmək üçün olduqca ciddi kömək göstərmişdi. Həmin süvari alayları ikinci müharibə ərzində Qazax və 1926-cı ildə müharibənin taleyini həll edən Gəncə döyüşündə də Çar Rusiyasının tərəfində döyüşmüşdü. Həmçinin çarizm ölkədəki şiə müsəlmanlarının hərbi gücündən 1828-ci ildə Osmanlıya qarşı aparılan müharibədə və 1853-1855-ci illərdə Dağıstanda baş verən üsyanı yatırmaq üçün istifadə etdi. Azərbaycanda Şeyx Şamilin rəhbərliyindəki “qazavat” tərəfindən dəstəklənən lokal sünni üsyanlarının, başlıca olaraq isə 1837-ci ildə Qubada 12 min nəfərin iştirak etdiyi genişmiqyaslı üsyanın yatırılmasında da bu qüvvələrdən istifadə olundu. Qubadakı üsyan Şirvandan gətirilən şiə silahlılarının köməyi ilə yatırılmışdı [11, 18-20].

Çarizm bölgənin kolonizasiyası üçün digər yönlərdə də müxtəlif addımlar atdı. 1828-ci ildə İrəvan və Naxçıvan xanlıqlarını əhatə edən erməni vilayəti təsis olundu və bütün müsəlman xanlıqları ləğv edilərək yerində komendant üsul-idarəsi yaradıldı. Çar I Nikolayın maliyyə naziri olan T.E.Kankrin çara yazdığı memorandumda regionu koloniya kimi xarakterizə edərək bu bölgənin Rusiyanın və ya rus millətinin bir parçası olmadığını, bu səbəbdən onu birbaşa olaraq mərkəzə birləşdirməyin məqsədəuyğun olmadığını bildirmişdi. Onun sözlərinə görə, Cənubi Qafqaz regionu “cənub iqlimində xammal istehsal edən koloniya olmalı idi” [11, 30]. Yalnız 1841-ci ilin yanvarın

1-də qüvvəyə minmiş yeni adminstrativ islahat nəticəsində inzibati quruluş Ümumrusiya inzibati ərazi bölgüsünə uyğunlaşdırıldı. Həmçinin 1866-cı ildə həyata keçirilən məhkəmə, 1878-ci ildəki şəhər özünüidarəetməsi ilə bağlı islahatlar hüquq və mülki həyatı daha da modernləşdirirdi. Şərqi Zaqafqaziyada azərbaycanlı türklərin sayca çox olduğu iki quberniyanın (Tiflis və Şamaxı) qurulması da azərbaycanlıların ana vətən olaraq görə biləcəyi yeni ərazi bloku yaratdı. Azərbaycan türklərində milli şüurun formalaşmasının təməlində duran maarifçilik məhz bu dövrün siyasi və sosial şərtlərindən meydana gəlmişdi. Həmçinin Çar Rusiyasının siyasətinin millətləşməyə digər bir təsiri, özünü müsəlman kimliyi ilə identifikasiya edən türkdilli xalqın etnos kimi təsnifatı idi. Yuxarıda qeyd etdiyimiz quberniyalarda əhalinin əksəriyyətini təşkil edən türklərin təsnifatı rəsmi terminologiyada qarışıq idi. Türk dili ruslar tərəfindən türkdilli tayfa qrupları və dialektləri Osmanlı imperiyasında danışılan türk dilindən fərqləndirmək üçün geniş bir kateqoriya kimi istifadə olunurdu, lakin daha sonra bu etnonim Osmanlı İmperiyasındakı türklərə şamil edildi. "Tatar" etnonimi isə, Çar Rusiyasının türkdilli xalqlar üçün istifadə etdiyi rəsmi ad idi. Bu kontekstdə Zaqafqaziyanın şərq hissəsində məskunlaşmış Azərbaycan türklərinə çar rəsmi dairələri tərəfindən "Zaqafqaziya tatarı" adı verildi və həm müxtəlif siyahıya alınmalarda, həm də kameral təsvirlərdə tatar olaraq adlandırıldı [2, 28]

### 2. Miroslav Hroxun tipologiyası və milli hərəkatın dövrləşdirilməsi

Maarifçilik hərəkatı Azərbaycanda milli kimliyin formalaşmasında ilk mərhələ hesab olunur. Belə ki, XIX əsrdə Qərb maarifçiliyinin təsiri ilə Rusiyada yayılmağa başlayan maarifçi ideyalar Zaqafqaziyada da öz əksini tapmağa başlamışdı. Azərbaycanda milli kimliyin oyanışı və milli kimlik quruculuğunun mərhələlərini daha dərindən başa düşmək üçün Miroslav Hroxun tipologiyasına müraciət etmək zəruridir. Çex tarixçi Hrox millətləşmə və milli kimlik quruculuğunu sosial-mədəni transformasiyanın bir nəticəsi kimi şərh edir [8, 182]. O, müxtəlif kolonial imperiyaların idarəsi altında olan icmaların, o cümlədən azərbaycanlıların millətləşmə prosesini "qeyri-dominant etnik qruplar" kontekstində ayrıca bir millət quruculuğu modeli kimi dəyərləndirmişdir. O, millət quruculuğu prosesində intelgensiyanın avanqard rolu olduğunu bildirsə də, sosial şərtlərin də intellektualların fəaliyyəti ilə üst-üstə düşməsinin vacibliyini vurğulamış, həmçinin milli şüurun formalaşması prosesində üç əsas faktoru önə çəkmişdir. Bu faktorlar qrupun ortaq keçmişə malik olduğunu göstərən ortaq tarix vurğusu, qrup arasında sosial kommunkasiyanı təmin edən ortaq dil və vətəndaş bağlılığının formalaşmasında önəmli rol oynayan ortaq hüquqların təmin olunmasıdır. Hrox bu modeli üç əsas mərhələyə ayırır. İlk mərhələ olan A mərhələsində etnik qrupa daxil olan intelegensiya etnik qrupun dili, sosio-mədəni xüsusiyyətlərini və tarixini kəşf etmək məqsədi güdür və bu mərhələdə millət quruculuğu layihəsi mövcud deyil. Mütəşəkkil sosial-siyasi hərəkətliliyin olmadığı bu mərhələdə, etnosa qarşı olan maraq daha çox akademik xarakter daşıyır [5, 81]. İkinci mərhələ olan B mərhələsində intellektual fəaliyyət və akademik maraq artıq siyasi fazaya keçir. Bir qrup aktivist, müəyyən təşəbbüslər alaraq etnik qrupa qarşı formalaşan bu marağı siyasi və mədəni hüquqlar uğrunda mübarizənin alətinə çevirir. Bu mübarizənin əsas məqsədi qrupa milli şüur aşılamaq və hərəkatı kütləviləşdirməkdir. Üçüncü faza olan C mərhələsində artıq təşkilatlanmış hərəkat formalaşır və etnik qrup milli kimlik ətrafında mobilizasiyaya cəlb olunur.

Hroxun klassifikasiyası eyni zamanda Azərbaycanın milli kimlik quruculuğu və millətləşmə tarixi üçün aktualdır. Çar Rusiyasının idarəçiliyində azərbaycanlılar qeyri-dominant etnik qrup idi və Azərbaycandakı milli kimlik quruculuğu prosesi yuxarıda qeyd olunan mərhələlərdən keçmişdir.

Azərbaycanda Hroxun tipologiyasındakı A mərhələsi maarifçilik dövrü kimi xarakterizə edilə bilər. Tadeuş Svetoxovski və Audri Olşdat kimi tarixçilər Azərbaycanda ziyalıların və maarifçiliyin yüksəlişini məhz Çar Rusiyasının regionda apardığı təhsil islahatlarının və Avropadakı intellektual dəyişikliklərin Rusiya kanalı vasitəsilə Cənubi Qafqaz regionuna çatması ilə əlaqələndirir. Xüsusilə Qafqaz canişini knyaz Mixail Vorontsovun (1844-1853) dövründə müsəlmanların hökumət vəzifələrində yer tutmasına imkan yaradılırdı. 1846-cı ildə Cənubi Qafqazın 4 quberniyaya bölünməsindən sonra cəmiyyətdə yeni zümrə sayıla biləcək silki imtiyazlara malik, Avropa təhsilli bürokratiya dövlət idarələrində yüksəlməyə başladı. İlk modernləşmiş intelgensiyanın yaranması da məhz bu dövrə təsadüf edir. 1830-cu illərdən mövcud olan "rus-tatar" məktəblərindən məzun olanlar bu adminstrasiyanın himayəsi altında dövlət işlərində rol alırdılar. Mirzə Fətəli Axundzadə (1812-1878), Seyid Əzim Şirvani (1835-1888), Abbasqulu Ağa Bakıxanov kimi yerli zadəganların və din xadimlərinin ailələrində doğulmuş bu cür intellektuallar maarifçiliyin ilk generasiyasını təmsil edir. Xüsusilə

rus-tatar məktəblərindən məzun olmuş M.F.Axundzadə və S.Ə.Şirvani kimi maarifçilər, ənənəvi dini təhsilə və dini dünyagörüşünə qarşı sekulyar təhsilin müdafiəçisi kimi çıxış edirdi. Onların əsas intellektual məqsədləri qərb tipli təhsil müəssisələrinin sayının artması və kütlələri mədrəsə məktəblərindən uzaqlaşdırmaq idi. Bu generasiyanın əsas xüsusiyyəti radikal sekulyarizm daşıyıcısı olması idi. Rus imperiyası da məhz bu kimi bir mədəni dəyişikliyin formalaşmasını dəstəkləyirdi. Bunun əsas səbəbi cəmiyyətin sekulyarlaşmasının İranla mədəni əlaqələri zəiflətmə arzusu idi [9, 28-29]. Tarixçi Aydın Balayev şiə İranının təsirini azaltmaq məqsədi ilə yanaşı bu intelgensiyanın dəstəklənməsini dil və mənşəcə Azərbaycan türkləri ilə eyniyyət təşkil edən sünni Türkiyəsi ilə yaxınlaşmaya imkan verməmək siyasətinin də mövcud olduğunu bildirir [4, 57]. Lakin Rus imperiyasında finlər, polyaklar, gürcülər, ermənilər kimi xristian xalqlara nəzərən müsəlmanların milətquruculuğu layihələri daha gec baş tutmuşdur.

### 3. A mərhələsindəki ilk çağırışlar: Tiflis mühiti

Yuxarıda qeyd etdiyimiz kimi, rus-tatar məktəblərinin açılmasından etibarən başlayan A mərhələsi heç də millətquruculuğu ilə bağlı sosial-siyasi proqramı özündə ehtiva etmirdi. Daha çox intellektual fermentə malik olan bu hərəkat, şübhəsiz ki, B və C mərhələlərinə də öz növbəsində təsir göstərmişdi. A mərhələsində ilk olaraq Mirzə Kazım bəy (1802-1870) və Abbasqulu ağa Bakıxanov (1794-1847) kimi maarifçilər Azərbaycan türklərinin dili və tarixinə akademik maraqdan qaynaqlanan diqqət göstərmişlər. XIX əsrin sonu və XX əsrin əvvəllərində sadələşdirilmiş Azərbaycan türkcəsinin inkişafı və yayılması istiqamətində hərəkat qismən Mirzə Kazım bəyin qrammatik mətnlərinin əsasları üzərində qurulmuşdur. Onun türkcənin Azərbaycan ləhcəsi ilə bağlı işi 1830-cu illərdə Kazan Universitetində müəllim olarkən başlayıb. Onun 1839 və 1846-cı illərdə nəşr olunmuş “Türk-tatar dillərinin qrammatikası” adlı monoqrafik əsəri 1850-ci illərdə nəşr olunan məktəb mətnləri üçün əsas təşkil etmişdir.

Maarifçilik dövrünün avanqardlarından biri də Abbasqulu ağa Bakıxanov idi. O, qərb mütəfəkkirlərinin fikirləri ilə yaxından tanış olsa da, tipik şərq mütəfəkkiri yaradıcılığına sahibdir. İstər əsərlərini fars və ərəb dillərində yazması, istər klassik islam mütəfəkkirlərinə xas bir şəkildə coğrafiya, tarix və əxlaq fəlsəfəsi ilə əlaqədar mövzuları ənənəvi müstəvidə əks etdirməsi, onun modernizatorlar arasında göstərilməsinə şübhə doğurur. Coğrafi biliklərlə əlaqədar “Kəşfül-Qəraib”, “Əsrarül Məlaküt” (1832) və fəlsəfi mövzuda qələmə alınmış “Təhzibül-əxlaq” adlı əsərləri mövcud olsa da, mövzumuzu maraqlandıran əsəri daha çox “Gülüstani-İrəm” (1841) hesab oluna bilər. Azərbaycan tarixçiləri tərəfindən milli tarixşünaslığın ilk nümunəsi hesab edilən əsər, Azərbaycan türklərinin kompakt yaşadığı Şirvan və Dağıstanın tarixini islamın zühurundan 1813-cü ildə Rusiya və Qacar İranı arasında Gülüstan müqaviləsinin imzalanması dövrünə qədər olan tarixindən bəhs edir. Azərbaycan tarixşünaslığında əsər iki baxımdan milli tarixçiliyin əsası hesab olunur: yeni konsepsiya və yeni tədqiqat üsulunun istifadə edilməsi [10, 20]. Lakin Bakıxanovun tədqiqat üsulunun klassik şərq tarixçiliyindən yeganə fərqi rusdilli ədəbiyyatlardan istifadə edilməsi idi. Bakıxanov xronikaçı tarixçilərin tarixi narrativləşdirmə üsullarından uzaqlaşsa da, o həm də dövri təsnifatlandırmadan tutmuş, əsərdə mənbələrin istifadə edilməsi və nəqletmə üsuluna qədər modern tarixçilikdən də olduqca uzaqda idi. Azərbaycan tarixşünaslığı tərəfindən Azərbaycan xalqını millət subyekti kimi qəbul edib onun tarixi haqqında qələmə alınan ilk əsər olduğu bildirilən “Gülüstani-İrəm” əsəri “Dərbəndnamə”, “Qafqazın Şərq Hissəsinin Tarixi” və “Şirvan və Dağıstanın tarixi” adları ilə də tanınır. Lakin bu əsərdə “Azərbaycan tarixi” istilahından istifadə olunmamış, Şirvan və Dağıstanla Azərbaycan eyni milli-territorial subyekt kimi şərh edilməmişdir. Kərim Şükürov, əsərin Bakıxanov tərəfindən nə üçün Azərbaycan tarixi adlandırılmamasını müəllifin Azərbaycan tarixini daha geniş kontekstdə qəbul edə biləcəyi ilə əsaslandırıb [10, 21]. 1923-cü ildə əsər “Azərbaycan tarixi” adı ilə nəşr olunsa da, sonradan keçmiş adı restavrasiya edilmişdir. Yekun olaraq onu demək mümkündür ki, əsər doğrudan da A mərhələsində etnosun tarixinə akademik marağı ifadə edən ən ciddi nümunə hesab olunsa da, millətin tarixinə qarşı təəssübkeşlik göstərmə və milli kimliyi aşkara çıxarma kimi bir qayğısı olmamışdır.

A mərhələsinin ən əsas fiqurlarından biri M.F.Axundov hesab olunur. Mixail Vorontsovun katibliyində tərcüməçi olan Axundov yaradıcılığının erkən dövrlərində Avropa stilində və ən əsası Azərbaycan dilində ilk dramaturgiya nümunələri qələmə almaqla rusdilli intelgensiya arasında məşhurlaşmağa başlamışdı. O şeirlərinin böyük hissəsini farsca qələmə alsa da, dramaturq yaradıcılığında Azərbaycan türkcəsindən istifadə edirdi. XIX əsrdəki milli intelgensiyanın əsas modernizatorlarından biri olan Axundovun modernləşməyə və millətləşməyə təsirləri üç istiqamətdə şərh oluna bilər: yerli dilin

(türkcənin) modern yaradıcılığın dilinə çevrilməsi, milli kimliyə dair ilk tezislərin irəli sürülməsi, modernizasiyanın əsas göstəricilərindən olan sekulyarlaşma və bunun təsiri ilə ənənəvi əlifbadan imtina cəhdləri. İlk seqmentdə "Tatar Molyer" adlandırılan Axundov özünün "Hekayəti Molla İbrahim-Xəlil kimyagər" (1850), "Hekayəti Müsyö Jordan həkimi-nəbatat və Dərviş Məstəli Şah Cadükuni məşhur" (1850), "Sərgüzəşti-vəziri-xani-Lənkəran" (1850), "Hekayəti Xırsi-Quldurbasan" (1851), "Sərgüzəşti Mərdi-Xəsis" (1852) və "Mürafiə vəkillərinin hekayəti" (1852) və "Aldanmış Kəvakib" (1857) kimi əsərlərində Azərbaycan türkcəsində ilk dramaturgiya nümunələri yaratmaqla yanaşı, cəmiyyətin dini vərdişləri və keçmişini sərt ədəbi dillə tənqid edərək modernləşmə dövründəki sekulyarizasiyanın təməllərini atdı. O dinə qarşı münasibətində Mirzə Şəfi Vazeh (1794-1852) və Xaçatur Abovyanın (1809-1848) fikirlərindən təsirlənmişdi. M.F.Axundovun intellektual yaradıcılığının digər bir seqmentini onun milli kimliklə bağlı tezislərin ilkin versiyasını irəli sürməsi təşkil edirdi. M.F.Axundov Azərbaycan türkləri tərəfindən danışılan dili "türki" adlandırırdı [11, 42]. Lakin o, territorial kimliyini tamamilə İran mədəni sivilizasiyası daxilində görürdü. O özünün fəlsəfi fikirlərini əks etdirdiyi əsas əsəri olan "Kəmalüddövlə məktubları" (1865) əsərində Tehranda yaşayan zərdüştlərin rəhbəri olan dostu Manukci Sahibə yazdığı məktubda yazır: "Qoy bütün iranlılar bir həqiqəti başa düşərək desinlər ki, biz parsların övladıyıq, İran bizim vətənimizdir. Hümmət sahibi olmaq, ülviyyət axtarmaq, qeyrət və namus sahibi olmaq bizdən öz həmnəsillərimiz, həmdillərimiz və həmvətənlərimizin təəssübünü çəkməyi tələb edir. Biz yadların, yolkəsənlərin, qaniçənlərin təəssübünü çəkməməliyik! Biz əcnəbilərin cəhənnəmə oxşar torpağının deyil, behiştə bərabər olan vətənimizin şərəfini ehya etməliyik. Babalarımız ədalət sahibi və mələktəbiətli adamlar olmuşlar. Onların övladı olan bizlər də bu gözəl sifətlərdə onların ardınca getməliyik. Zalımların, əhrimənlərin göstərdiyi yolla getməməliyik" [7, 142]. Axundov "Kəmalüddövlə məktublarında" tarixi davamlılığın sübutu kimi islamın yayılmasından sonra İranda müxtəlif tayfaların məhz Səfəvilər tərəfindən millət kimi konsolidasiya edilməsi və İranın müstəqilliyini bərpa etməsini ortaya atmışdır [4, 87]. Polyak tarixçi Tadeuş Svetaxovskiyə görə, Mirzə Fətəli Axundzadənin kimlik anlayışı ikiqatlıdır. O, iranlı milli kimliyini mərkəzi kimlik, azərbaycanlılığı və ya türklüyü isə, regional kimlik olaraq görürdü. Axundovun İran milli kimlik quruculuğu motivlərinə təsirləri də olduqca böyükdür və modern İran millətçiliyinin banilərindən biri hesab edilir. Həmçinin, M.F.Axundovun milli kimlik mövzusunu işləməsi, onun növbəti nəsillərdəki millətçi intelgensiyaya fikir müstəvisi yaratmasına gətirib çıxarmışdır. Yusuf Akçura (1876-1935) Axundovu türk milli kimliyinin müəyyən olunması hərəkatının əsas nümayəndələrindən biri hesab edir və onu "ədəbi türkçülüyün" ən önəmli fiqurlarından biri kimi görür [1, 67-68]. Axundovun milli kimlik quruculuğundakı rolunun digər bir istiqaməti isə, onun əlifba islahatı cəhdidir. Avropada kilsənin əsas dili olan latın dilinin mədəni üstqurumdakı dominant dil kimi sıradan çıxmasından və milli mətbuatın formalaşmasından sonra, xalq dilləri cəmiyyətin mədəni həyatında əsas dilə çevrilmişdi. M.F.Axundov da, öz növbəsində ərəb qrafikalı əlifbanı islahata cəlb edərək, xalq danışıq dilinə uyğunlaşdırmaq istəyirdi. 1857-ci ildə ərəb qrafikalı əlifbanın əsasında tərtib etdiyi yeni əlifbanı, 1863-cü ildə Osmanlı baş naziri Fuad Paşaya təqdim etsə də, yekunda əlifbanın proyeksiya cəhdlərində uğursuz oldu. Müəllifin əsərində, Kəmalüddövləyə olan 2-ci məktubda əlifbanın tərtib məqsədinin xalq arasında ana dilində oxuma-yazma bacarıqlarının artırılması qayğısından irəli gəldiyini açıq şəkildə görmək mümkündür. O, keçmiş əlifbanı barbarlıq dövründən qalan və "iranlılar" arasında savadsızlıq törədən ənənə kimi təqdim edir [3, 66].

## 4. Milli mətbuatın formalaşması və mətbuatda milli şüurun işlənməsi

A mərhələsi həm də milli mətbuatın yaranması ilə xarakterizə edilə bilər. A mərhələsində ziyalıların ikinci nəslinin yüksəlişi özü ilə birgə milli mətbuat və teatrı da gətirdi. T. Svetaxovski, bu ziyalıların əksər hissəsinin əhalinin sünni hissəsindən olduğunu və bunun da səbəbi kimi sünni Osmanlının mədəni orbitində olan və məhz burada təhsil alan azərbaycanlı sünni teoloqların 1856-1876-cı illərdə həyata keçirilən Tənzimat islahatlarından ilhamlanmasını qeyd edir [11, 43]. Sözügedən fikirdən bu nəticəyə gəlmək mümkündür ki, Azərbaycanda maarifçilik yalnız Rusiya yox, həmçinin ciddi şəkildə Osmanlı kanalının təsiri ilə inkişaf edib. 1875-ci ildə Həsən bəy Zərdabi (1837-1907) tərəfindən Bakıda təsis olunan və Rusiyadakı ilk türkcə qəzet olan "Əkinçi" məhz bu təsirin nəticəsi kimi qiymətləndirilə bilər. Rus narodniklərindən təsirlənən H. Zərdabinin "Əkinçi"si sonradan milli özünüifadənin əsas dilinə çevrilən sadə Azərbaycan türkcəsindən istifadə etməklə türk xalqları arasındakı milli hərəkatlara yön verən əsas maarifçi-

lik təməllərindən birinə çevrildi. M.F.Axundzadənin fəaliyyətində olduğu kimi, Zərdabi də oxuma-yazma qabiliyyəti olmayan aqrar əhalinin savadlanmasının əsas çıxış yolu kimi ana dilində, yəni xalq dilində təhsil və mətbuatı görürdü. Lakin, "Əkinçi" qəzetinin şiə və İran sentimenti, xüsusilə şiə üləmalarında ona qarşı qatı mövqe formalaşdırmışdı. Məhərrəm mərasimlərini tənqid edən məqalənin nəşrindən sonra bu reaksiya daha da güclənmişdi. Əkinçi qəzetində milli kimlik əsas etibarilə dil amili üzərindən işlənirdi. Burada iki əsas məqam öz yerini tuturdu: Azərbaycan türkcəsinin təhsil dilinə çevrilərək məktəb və gimnaziyada tədrisin bu dildə həyata keçirilməsi və Osmanlı türkcəsi ilə Azərbaycan türkcəsindən ortaq türkcənin yaradılması [1, 88]. Qəzetin daşıyıcı qüvvələri olan H.Zərdabi, S.Ə.Şirvani və N.Vəzirov kimi maarifçilər, A mərhələsində milli hərəkatın əsas rüşeymlərindən olan milli mətbuatın formalaşmasında bu baxımdan əsas rola malik idi. 1873-cü ilin 10 martında H. Zərdabi və N.Vəzirovun təşəbbüsü ilə M.F.Axundovun "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyasının səhnələşdirilməsi ilə, həmçinin milli teatrın da əsası qoyulmuşdu. Çar Rusiyası orqanları Osmanlı rəğbəti ehtiva etdiyi səbəbilə Rus-Osmanlı müharibəsinin gedişində, 1877-ci ildə qəzetin fəaliyyətinə son qoydu. Lakin "Ziya" (1979-1881), "Ziyayi Qafqaziyə", həmçinin "Kəşkül" (1884-1891) qəzetləri A mərhələsində milli mətbuat ənənəsini qismən davam etdirdi. Lakin 1891-ci ildə "Kəşkül"ün bağlanmasından sonra 1904-cü ilədək türkcə heç bir jurnal çap olunmamışdı.

A mərhələsinin sonlarında milli kimlik məsələsinin qoyuluşunda ən aktual problem olan ana dilində təhsil üçün mübarizədə cədidçilik hərəkatının xüsusi rolu vardır. Maarifçilik proqramında müsəlman məktəblərini inkişaf etdirmək əsas prinsiplərdən birini təşkil edirdi. Volqa tatarları arasında başlayan və XIX əsrin 80-ci illərindən etibarən Krım, Kazan tatarları və Azərbaycan türkləri arasında ana dilində təhsil hərəkatının əsas bayraqdarı olan cədidçilik, əslən Krım tatarı olan İsmayıl Qaspıralı (1851-1914) rəhbərliyində yaranmışdır. Qaspıralı tərəfindən təsis olunan bu yenilikçi məktəblər əsasən iqtisadi imkanlara malik müsəlmanlar arasında yayılmış və oxuma-yazma probleminin həllində böyük rola malik olmuşdur. 1912-ci ildə artıq bu tip məktəblərin sayı 25 minə çatmışdı. Bu dövrün "Narodnik" təsirlərindən başqa bir xüsusiyyəti də Osmanlı təsirinin məhz Qaspıralının "Tərcüman" qəzeti vasitəsilə bölgəyə gətirilməsi idi. Qaspıralı Rusiya müsəlmanları arasında Osmanlı türkcəsində nəşrlərin hazırlanmasında öncül olmuşdur. O, Rusiya imperiyasının bütün türkdilli xalqları üçün başa düşülən bir dil yaratmağı qarşısına məqsəd qoymuşdu. Panslavizmdən təsirənərək pantürkizm ideyalarının təməlini atan Qaspıralının yeni ideyalarının təsiri ilə Cənubi Qafqazın müsəlman ziyalıları da öz mətbuatlarını linqvistik baxımdan Osmanlılaşdırmağa başladılar. Bölgədə türkçülüyün yayılması özünüdərk axtarışlarına, din-millət ayrı-seçkiliyi anlayışına təkan verdi. İki termin arasındakı fərqə insanların diqqətini ilk dəfə "Kəşkül" jurnalı çəkdi [6, 24]. Qəzetin 1891-ci ildə çıxan 22-ci nömrəsində bu məsələ öz əksini tapmışdı. Bu yazıda "Azərbaycanlı türk" kimliyi milli kimliyin əsas forması kimi təqdim olunmuşdur. A mərhələsinin mühüm xüsusiyyəti azərbaycanlılıq identifikasiyasının ilk dəfə ziyalılar tərəfindən dilə gətirilməsi idi. Məhəmməd Ağa Şahtaxtinski (1846-1931) "Kaspi" jurnalında 1891-ci ilə aid bir yazısında Zaqafqaziya türklərinə tatar deyilməsini tənqid etmiş və Rusiya tatarları ilə Azərbaycan türklərinin linqvistik, mədəni və fiziki-antropoloji xüsusiyyətlərinin fərqliliyinə və onların eyni etnos olmadığına diqqət çəkmişdir. Bu yazının sonunda o, Zaqafqaziya türklərinə azərbaycanlı, onların danışdığı dilə isə Azərbaycan dili deyilməsi təklifini irəli sürür [4, 65]. Lakin ilk dəfə bu ifadə M.F.Axundovun Həsən bəy Zərdabiyə 1875-ci il 21 aprel tarixində göndərdiyi məktubda işlənmişdir [7, 194]. Həmçinin "Kəşkül" qəzetində də azəri ifadəsinin sıx şəkildə istifadə olunması, azəri və azərbaycanlı kimliklərinin SSRİ rəhbərliyi tərəfindən 1936-cı ildə konstruksiya olması fikrini çürüdür.

**Nəticə**

Yuxarıda qeyd olunanlardan yekunda aydın olur ki, maarifçilik hərəkatı və XIX əsr intellektuallarının azərbaycanlıların millətləşməsinə əsas təsirləri milli mətbuat, milli özünüdərkin rüşeymlərinin formalaşması və ana dilində təhsilin yaranmasıdır. İlk olaraq, 1830-1860-cı illər arasında intelgensiyanın M.F.Axundzadə, A.A.Bakıxanov və M. Kazım bəy kimi nümayəndələri, Azərbaycan milli layihəsinin intellektual bazasını yaradaraq, milli kimliyin ifadəsində həlledici rol oynadılar. İkinci nəsil intelgensiya olan H. Zərdabi, M.A.Şahtaxtinski, İ.Qaspıralı kimi ziyalılar isə, ilk nəsil ziyalılarda çatışmayan milli şüuru mətbuat, təhsil kimi mövzularda ehtiva etdilər.

XIX əsr ziyalıların millətləşməyə təsiri, həmçinin "azərbaycanlı" , "azərbaycanlı türk" kimi endonimlərin məhz bu mərhələdə formalaşmasındadır. Sonrakı mərhələdə həm AXC, həm də Azərbaycan SSR-də həyata keçirilən milli kimlik quruculuğu layihələrin-

də yer alan milli identiklik müstəvisindəki adlandırmalar məhz bu mərhələdəki axtarışlardan ortaya çıxmış və milli kimliyə proyeksiya edilmişdir.

**Açar sözlər:** *Azərbaycanda milli kimlik quruculuğu tarixi, milli hərəkatların tarixində Hrox tipologiyası, A mərhələsi, intellegensiyanın milli kimlik quruculuğunda rolu.*

### ƏDƏBİYYAT SİYAHISI:

*1. Axundzadə, M.F. Seçilmiş Əsərləri. Bakı: Bakı Kitab Klubu, 2014.*

*2. Axunzadə, M.F. Əsərləri. Üç cilddə. III cild. Bakı: Şərq-Qərb, 2005.*

*3. Akçura, Y. Türkçülük. Türkçülüğün tarihi gelişimi. İstanbul: Türk Kültür Yayını, 1978.*

*4. Altstadt, A. L. The Azerbaijani Turks: Power and Identity under Russian Rule. Stanford: Hoover Institution Press, 1992.*

*5. Balayev, A. Fərqli və Ziddiyyətli M.F.Axundov: əqidəli rusofi, İran aşiqi və "azərbaycanlı" kimliyinin təkanvericisi. Bakı: JekoPrint, 2022.*

*6. Hobsbawm, E. J. 1780-den günümüze milletler ve milliyetçilik. Program, mit, gerçeklik. İstanbul: Ayrıntı Yayınevi, 1995.*

*7. Hroch, Miroslav. From National Movement to the Fully-Formed Nation: The Nation-building. London: Verso-New Left Books, 1999.*

*8. Huseynli, M. The Intellectual Analysis of Azerbaijani National Project in the Late Nineteenth and Early Twentieth Century. Budapest: Central European University, 2020.*

*9. Özkırımlı, Umut. "Milliyetçilik Kuramları. Eleştirel bir bakış". İstanbul: Sarmal Yayınevi, 1999.*

*10. Resulzade, Mehmet Emin. Kafkas Türkleri. İstanbul: Türk Dünyası Araştırmalar Vakfi, 1993.*

*11. Svetoxovski, Tadeuş. Rusiya Azərbaycanı 1905-1920. Müsəlman cəmiyyətində milli kimliyin formalaşması. Bakı: Milliyət Araşdırmalar Mərkəzi, 2022.*

*12. Şükürov, Kərim. Azərbaycan Tarixi, I Hissə. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004.*

**B.Bayramov**

**Stage A in the history of natıonal identity construction of Azerbaijan: the role of enlightenment and intellectuals in the formation of national identity ın the 19th century.**

**SUMMARY**

The 19th-century enlightenment movement and the intellectuals associated with it had a major part in the process of nationalization and the creation of national identity in Azerbaijan. The aforementioned intellectuals contributed to the development of various nation-building components in the 19th century, including the national press, education in mother-tongue , and promoting national consciousness in the ethnos. The article looked at the history of these processes, how intellectuals affected the nationalization process, and the opinions of intellectuals at the time.

**Keywords:** *history of national identity building in Azerbaijan, Hroch typology in the history of national movements, stage A, role of intellectuals national identity building.*

**Б. Байрамов**

**Этап а в истории строительства национальной идентичности азербайджана: роль просветителей и интеллигенции в формировании национальной идентичности в xix в.**

**РЕЗЮМЕ**

Просветительское движение XIX века и связанная с ним интеллигенция сыграли важную роль в процессе национализации и создания национальной идентичности в Азербайджане. Вышеупомянутые интеллектуалы способствовали развитию различных составляющих нациестроительства в XIX веке, в том числе национальной печати, образования на родном языке, популяризации национального самосознания в этносе. В статье рассмотрена история этих процессов, влияние интеллектуалы на процесс национализации и мнения интеллектуалов того времени.

**Ключевые слова:** *история формирования национальной идентичности в Азербай-джане, типология Хроха в истории национальных движений, этап А, интеллигенция, роль просветление в формировании национальной идентичности.*

UOT 94 (479.24)

# "EPİDEMİOLOJİ KEÇİD NƏZƏRİYYƏSİ" XIX-XX ƏSRLƏRDƏ ŞİMALİ AZƏRBAYCANDA EPİDEMİOLOJİ KEÇİDİN XÜSUSİYYƏTLƏRİ

**FATİMƏ RÜSTƏMOVA**
*AMEA A.A.Bakıxanov adına*
*Tarix İnstitutunun magistrantı*
*E-mail: rustamovaf1998@gmail.com*

## Giriş

Dünya xalqlarının demoqrafik dəyişim tempi, tarixi-demoqrafik, statistik göstəriciləri ilə bağlı müxtəlif nəzəriyyələr mövcuddur. Bəhs ediləcək epidemioloji keçid nəzəriyyəsini müəyyən mənada "demoqrafik keçid nəzəriyyəsi"nin paraleli hesab etmək olar. Demoqrafik keçid nəzəriyyəsi dünya millətlərinin statistik dəyişim göstəricilərini izah etmək üçün təklif olunmuşdur [1,4,8]. İlk dəfə Qərbi Avropa ölkələrində rast gəlinən demoqrafik keçidlər zamanla başqa ölkələrə də yayılmağa başlamışdır. Nəzəriyyə əvvəlcə üç mərhələ olmaqla formalaşmışdır: sənaye inqilabından əvvəlki yüksək doğum nisbətinin ölüm nisbəti ilə tarazlaşdırıldığı ilkin dövr, müəyyən gəlirlər hesabına ölüm göstəricilərinin azaldığı ikinci dövr və modernləşmə nəticəsində azalan ölüm nisbətlərinin, azalan doğum nisbətləri ilə kompensasiya olunduğu üçüncü dövr. Zamanla nəzəriyyə millətlər arasında mənimsənilmiş, tarixçi nəzəriyyəçilər tərəfindən ona yeni mərhələlər əlavə olunmuşdur. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, bəhs olunan nəzəri dövrlər müxtəlif ölkələrdə, hətta eyni ölkənin alt-cəmiyyət birləşmələrində fərqli formada, fərqli zaman dövrləşməsində baş tuta bilər [2,65;67;100].

## 1. A.R.Omran "Epidemioloji keçid" məsələsi, nəzəriyyə və onun mahiyyəti

Demoqrafik keçid nəzəriyyəsinin geniş yayılmasından və mənimsənilməsindən sonra yeni bir nəzəriyyə elementləri, onun bir qolu hesab oluna bilən – "epidemioloji keçid nəzəriyyəsi" təklif edildi. Ümumiyyətlə,"Epidemiologiya" sözü latın dilindən tərcümədə "epi"-üzərində, "demos"-əhali, "logos"-öyrənmək anlamını verməklə, "əhalinin başına gələnləri öyrənmək" deməkdir. Epidemiologiya – bir populyasiyadakı xəstəlikləri, həmçinin, onların mövcudluğuna səbəb olan amillləri öyrənən tibb elminin bir sahəsi kimi müəyyən edilmişdir. Nəticə etibarı ilə, epidemioloji tədqiqatlar üzərindən xəstəliklər və bütövlükdə əhali arasında dinamika araşdırılır [3, 330,338]. Məhz bu cəhət də onu xalqların demoqrafik tarixinin öyrənilməsi ilə bağlayır, tarix elmi ilə əlaqələndirir. İlk əvvəl 1971-ci ildə Abdel R. Omran müxtəlif demoqrafik, iqtisadi, sənaye və sosioloji amillərə görə əhali daxilində xəstəlik və ölüm səbəblərinin dəyişməsini ifadə etmək üçün epidemioloji keçid terminini işlətdi. Misirli – Amerika əsilli, ictimai səhiyyə eksperti, epidemioloq A.Omran nəşr etdirdiyi məqaləsində xəstəlik və sağlamlıqla bağlı göstəricilərin demoqrafik dəyişikliklərə təsiri barədə izahlar verir. Nəzəriyyənin əsas ideyası xalqların sağlamlıq və xəstəlik faktlarının sosial, iqtisadi, demoqrafik və habelə, etno-mədəni və siyasi dinamikalar arasındakı bağlılığını izah etməkdən ibarətdir.

A.Omranın fikrincə, insanlıq tarixində ilk epidemioloji keçid izlərini sivilizasiyalar, etnik qruplar birləşmək, müəyyən əlaqələr qurmağa başlayanda, assimilyasiya prosesi getdikcə, köçəri icmalar oturaqlaşdıqca baş tutdu. Ən əvvəl erkən icma üzvləri məskunlaşdığı ərazilərdə özləri ilə gətirdikləri, bəslədikləri zoonozlara (heyvanlara) həddindən artıq yaxın münasibət göstərdikləri üçün ilkin və fərqli xəstəliklərlə qarşılaşırdılar. Və uzun müddət boyunca həmən xəstəliklərin fəsadlarından xeyli əziyyət çəkirdilər. Hətta, belə düşüncələr də mövcuddur ki, xəstəliklərin şiddəti ilə bəzi sivilizasiyalar tamamilə sönmüş, yox olmuş, zamanla yenidən dirçəlmiş və restovrasiya olunmuşdur. Məhz bəhs olunan nəzəriyyədə də bu faktlar üzərindən elementlər təhlil olunmaqdadır. Müəllif qeyd edir ki, bir müddət sonra isə bəşər tarixində xalqlar arasında mal mübadiləsi, ticarət əlaqələrinin meydana gəlməsi bakterial, parazitar və viral tipli fərqli kökənli epidemiyaların yayılmasına səbəb oldu. Belə yoluxucu xəstəliklər tayfalararası münasibətlərdə dərhal yayılır, şiddətli formada əhaliyə təsir göstərir, səbəb və ya mənşəyi bilinmədən ağır nəticələrə səbəb olurdu. Xəstəliklərin yaranmasının növbəti mərhələsini isə tayfa başçılarının yeni ərazilər tutması, yeni mühitlər kəşf etmələri təşkil edirdi. Yürüşlər zamanı döyüş dəstələri həddən artıq səfalət çəkir, uzunsürən müharibələr ifratın və natəmizliyin artmasına, yaraların irinləməsinə gətirib çıxarırdı. Bununla da xəstəliklərin yeni və qorxuducu növləri formalaşırdı. Və çox ağır son-

luqlarla nəticələnirdi. A.Omran həmçinin qeyd edir ki, hər xalqın epidemioloji keçidi öz iqtisadi-sosial tərəqqisi ilə bağlıdır. A.Omranın fikrincə, bütün millətlərin demoqrafik keçidlərinin əsasında məhz epidemioloji keçidin də rolu böyük olmuşdur. Və bu keçid özlüyündə həmən millətin sosial-iqtisadi maraqlarının nəticəsi idi [4, 49; 5, 29].

Ümumiyyətlə, statistik göstəricilərə görə, populyasiyada dəyişikliklər iki amillə baş tutur: doğum əmsalı və ölüm nisbəti. Epidemioloji keçid nəzəriyyəsinə görə isə populyasiyada əhali dinamikasına təsir edən əsas amil cəmiyyətin azalmasına səbəb olan ölüm nisbətidir. Və həmən ölüm göstəricilərinin əksəriyyətinə əvvəllər yalnız yoluxucu xəstəliklərin fəsadları təsir göstərirdisə, indi daha xroniki – ürək-damar sistemi, xərçəng kimi xəstəliklərə,qəzalara, cinayətlərlə ölüm səbəblərinə keçid olunmuşdur. A.Omranın qeydlərinə əsasən, nəzəriyyənin ilkin variantına görə, onun üç dövrü mərhələsi mövcuddur. Birinci, inkişaf etməmiş cəmiyyətlərə xas əlamətlər olan qida çatışmazlığı, zərərli qidalanma, əhali sıxlığı, aclıq və yoluxucu xəstəliklərin geniş yayıldığı – Yüksək ölüm dövrü. Əksərən də, səhiyyə sisteminin xeyli aşağı səviyyədə olması bu yerlərin insanın gənc yaşda dünyasını dəyişməsinə, doğuş hallarının faciəvi nəticələrlə sonlanmasına, ömür uzunluğunun aşağı səviyyədə olmasına səbəb olurdu. İkinci, səhiyyə sisteminin nisbətən inkişaf etdiyi, aclıqdan ölüm hallarının aradan qalxdığı, yoluxucu xəstəliklər epidemiyalarının nəzarət altına alındığı mərhələdir. Bu dövrdə vaxtından əvvəl ölüm halları azaldıqca, orta ömür uzunluğu da artmağa başladı. Üçüncü, mərhələ – qeyri-yoluxucu xəstəliklərin artdığı, degenerasiya sağlamlıq problemlərinin geniş yayıldığı, cəmiyyətlərin qocalmağa başladığı, yaşlı əhalinin artdığı dövrdür [4,55].

A.Omran bir daha bildirir ki, bu dövrləri Qərb ölkələri üçün klassifikasiya etmişdir. Digər cəmiyyətlərdə, hətta eyni cəmiyyətin alt seqmentlərində fərqli ola bilər. Hər xalqın epidemioloji profilləri, xəstəlik modelləri təbbi olaraq, fərqli qurula, formalaşa bilər.

Nəzəriyyə modelinə sonradan əlavə olunan digər dördüncü dövr yaşlı təbə-qənin problemləri olan yoluxucu xəstəliklərdə kəskin azalma, başqa amillərdə xeyli artımla müşayiət olunur. Bu mərhələdə yaşlı əhalinin problemləri olan Demans, Parkinsonizm, Alzheimer kimi degenerativ problemlərin ön plana çıxdığı nəzərə çarpır. Həmçinin, bu mərhələdə cinayət, qəza, təbii fəlakət halları səbəbindən də ölüm hallarının artımı müşahidə olunur [5,29]. Daha sonralar nəzəriyyə modelinə əlavə olunması təklif olunan beşinci mərhələ gündəmə gəlir. Burada isə əsas məsələ həmən degenerativ problemlərə əlavə olaraq meydana çıxan yeni yoluxucu xəstəliklərdir [6,109].

A.Omran həmçinin nəzəriyyənin davamı olaraq, epidemioloji keçidi izah etmək məqsədi ilə buna bağlı üç nəzəriyyə modeli irəli sürmüşdür: 1. Klassik/Qərb modeli – bu modeldə Qərb ölkələrinin XVIII əsrin sonlarından II Dünya müharibəsinin sonrakı dövrünə qədər 150 ildən çox davam edən keçidindən bəhs olunur. Belə uzunsürən keçid mərhələsində ölüm nisbəti xeyli enmiş, məhsuldarlıq faktiki olaraq azalmışdır. 2. Sürətləndirilmiş model – buraya müəllif Çin və Yaponiyanı nümunə göstərir. Müharibədən sonrakı işğal ilə sənayeləşmə nəticəsində sürətli keçid yarandı. Bu model Qərb modelinə nisbətən daha qısa müddətdə baş vermişdir. 3. Müasir/Gecikmiş model – bu mərhələdə ictimai səhiyyə sistemi təkmilləşdirildiyi üçün ölüm nisbəti azaldı, doğum səviyyəsi yüksəldi [5,26].

Müasir dövrdə demoqrafik və epidemioloji dəyişiklikləri birlikdə nəzərdən keçirdikdə xalqların sağlamlıq vəziyyətindəki dəyişiklikləri və transformasiyaları anlamaq daha asan olur. Artıq həm demoqrafik keçid nəzəriyyəsi, həm epidemioloji keçid nəzəriyyə modellərini birlikdə istifadə etmək dəb halına gəlib. Məsələn, bu iki nəzəriyyə modelinin vəhdətində yeni nəzəriyyə təklif edən SR. Johanson`un "Sağlamlığa keçid nəzəriyyəsi" (2003) artıq hamı tərəfindən qəbul edilən modeldir [7,83].

## 2. XIX-XX əsrlərdə Şimali Azərbaycan demoqrafiya tarixində epidemioloji keçidin əlamətləri

Şimali Azərbaycanda XIX-XX əsrlərdə epidemioloji keçidin başlıca əlamətlərini izləmək mümkündür. Əgər A.Omranın nəzəriyyəsinə əsaslansaq müşahidə edə bilərik ki, bu dövrlərdə Şimali Azərbaycanda da demoqrafik keçidlərin əlamətləri rəngarəngdir. Belə ki, əgər XIX əsrdə əhali artımı və azalmaları bütün Rusiya imperiyasında, habelə, Cənubi Qafqazda yayılan yoluxucu xəstəliklərdən, çarəsi tapılmayan epidemiyalardan təsirlənirdisə, növbəti əsrlərdə bu demoqrafik dəyişikliklər daha fərqli səbəblərdən, dövrün yeni xəstəliklərindən, xüsusilə xərçəng, ürək-damar xroniki xəstəliklərindən qaynaqlanırdı. Nümunə üçün, XIX yüzilliyin epidemioloji vəziyyətinə nəzər salmaq olar. XIX

yüzilliyin əvvəllərində Bakıda yalnız üç su kəhrizindən istifadə edilirdi, təbii ki, bu da su qıtlığına, anti-sanitar şəraitin formalaşmasına səbəb olurdu. Həmçinin, yüzilliyin 70-ci illərindən başlayaraq, əhali sıxlığı müşahidə olunan Bakıda kəskin surətdə su çatışmazlığı tez-tez yoluxucu xəstəliklərin, epidemiyaların başlıca səbəbi idi.

Bunlardan biri 1892-ci ildən daha geniş vüsət alan“Vəba” epidemiyası olmuşdur. Bakıda 1-6 iyun aralığında peyda olan xəstəliyi böyük ehtimalla şimaldan dəmiryolu vasitəsilə gələn sərnişinlər gətirmişdi. Həmin ilin 9 iyun tarixində “Kaspi” qəzetinin buraxılışlarında xəstəliyin dəhşətləri barədə Bakıda yoluxanlar üçün xüsusi otaqların olmadığını, onların ümumi kazarmalarda yerləşdirildiyindən bəhs edir. Xəstəliyin ilk qurbanları Eyzenşmiditin mexaniki zavodunun yaxınlığındakı binada işləyən hörgü ustaları idi. Xəstələri daşıyan qoşqu-faytonlar infeksiyanı bütün şəhər boyu daşıyaraq daha böyük fəlakətlərə yol açırdılar. Tədricən, xəstəlik şəhərin digər ərazilərinə – Təzə pir, Qala, Şamaxinkaya yayılmağa başladı. Özəlliklə, Təzə-pir ərazisində yoluxma hallarına daha çox rast gəlinirdi [8,16]. Səhiyyə sisteminin, tibb sahəsininin xeyli çatışmazlıqları olan belə bir dövrdə “vəba” demoqrafik – statistik göstəricilərə olduqca böyük təsir göstərdi. Qəzetin 1910-cu il tarixli “Bakıda vəbanın hərəkəti haqqında” başlığı altında dərc olunan məlumatlarına görə, Bakıda 1892-ci il vəbası nəticəsində 2499 nəfər xəstələnib, onlardan 1828 nəfər dünyasını dəyişib. Bu ümumi göstəricilərin 73,8%-i hesab oluna bilərdi. Bu dövrdə Mixaylovska xəstəxanasında təcrid olunmuş 1226 xəstədən 721-i vəfat etmişdi. Xəstələrdən 853-ü kişi, azyaşlılar, milli mənsubiyyətinə görə: 826 rus, 162 müsəlman-türk, 150 erməni, 78 alman və 27 polyak idi [9,12,23]. Bu da demoqrafik göstəricilərə, ümumi əhali statistikasına xeyli təsir göstərməyə səbəb olan amil idi. Ancaq qış aylarında iqlimin soyuması, qarlı, yağıntılı hava şəraiti ilə xəstəlik nisbətən səngimişdi. Xəstəlik zamanla öz-özünə sıyrılıb insanların həyatından çıxdı. Bütün Şimali Azərbaycan ərazisindən 1903-cü ilə qədər xəstəliyin tələfatları səngimədi. Xəstəliyin qeybə çəkilməsinin ardından ölüm göstəricilərinin başqa səbəblərinə keçid olundu. Daha sonrakı mərhələdə isə daha xroniki xəstəliklər, ürək-damar, tənəffüs sistemi, immun zəifliyi xəstəlikləri gündəmdə olmaqla və s. əhali dinamikasına təsir göstərməyə başladı. Məhz bu da Şimali Azərbaycanda epidemioloji keçidin əlamətləri hesab oluna bilər. Elə bu tarixi demoqrafik faktlar göstərir ki, Şimali Azərbaycanda da müxtəlif dövrlərdə fərqli epidemioloji və demoqrafik keçialər baş tutmuşdur.

XX əsrin əvvəllərində neft istehsalının yüksək zirvəyə qalxması, ağır iş rejimi, fəhlə əməyindən geniş istifadə, fəhlə kazarmalarında natəmizliyin yaranması müşahidə edilirdi. Məhz bu amillər də onlar arasında müxtəlif virus mənşəli yoluxucu xəstəliklərin yayılmasına gətirib çıxarırdı. Ümumiyyətlə, Şimali Azərbaycanın XX əsr tarixinin ümumi əmsal dinamikasını müşahidə etdikdə 1925-1934 cü illərdə yüksək ölüm və yüksək doğum nisbəti balansı nəzərə çarpır [10,33,34]. 1935-ci ildə ölüm və doğum nisbəti xeyli azaldı. 1936-1947 ci illərdə göstəricilərin xeyli dəyişməsi və nisbi tarazlığın pozulmasının qarşısı alındı. 1947 ci ildən isə doğum səviyyəsinin kəskin artması, ölüm hallarının azalması tarazlığı pozdu. Bu da Azərbaycanda demoqrafik keçidin II mərhələsinə səbəb oldu [10,36]

Azərbaycan SSR-in demoqrafiya tarixinə 1950-ci illər “demoqrafik partlayış” mərhələsi kimi daxil olmuşdur. Bu dövrdə doğum nisbəti xeyli artır, ölüm səviyyəsi aşağı olaraq qalmaqda davam edir. Bu illərdə ölümün azalmasında əldə olunan uğurların başlıca səbəbi sanitar-gigiyenik şəraitin yaxşılaşdırılması, səhiyyə sisteminin vəziyyətinin inkişafı ilə bağlı idi. Xüsusən, müharibədən sonrakı illərdə insanların həyatına antibiotiklərin daxil olması Azərbaycan cəmiyyətində körpə və uşaq tələfatının yüksək olmasının qarşısını almağa başladı [10,35].

Statistik göstəricilərə görə, 1950-1970-ci illərdə Azərbaycan SSR-də müşahidə olunan ömür uzunluğu orta hesabla 1,4 il daha intensiv artmışdır. 1970-ci illərə qədər Azərbaycanda ölüm səbəblərinin 76%-ni neoplazmalar (yenitörəmələr), tənəffüs sistemi xəstəlikləri, qan dövranı sistemi xəstəlikləri və başqa səbəblər təşkil edirdi. A.Omranın nəzəriyyəsinə əsaslansaq, Azərbaycan SSR-nin həmin dövr tarixini degenerativ və antropogen xəstəliklər mərhələsi hesab etmək olar. Lakin, təbii ki, onun da özünəməxsus xüsusiyyətləri mövcuddur. 1990-cı ilə qədər isə əhalinin ölüm səbəblərinin 4,4%-ni “infeksion və parazitar xəstəliklər” təşkil edirdi [10]. A.Omranın nəzəriyyəsində epidemioloji keçidin ssenarilərində ölüm səbəblərinin strukturunda yeniləri ilə yanaşı köhnə xəstəliklərin də rolunun böyük olduğu bu dövrdə bir daha öz təsdiqini tapır. Bu, əsasən inkişaf etməkdə olan, epidemioloji keçidi bir

qədər sonra yaşamağa başlayan ölkələrin xüsusiyyətləri idi. Ölkəmizdə 2000-ci illərə qədər parazitar və yoluxucu xəstəliklərin ölüm səbəblərindəki payı təqribən 3% müşahidə olunmuşdur [10,32].

**Nəticə**

Beləliklə, öz nəzəriyyəsi ilə xeyli istinad klassikinə çevrilən Abdel Omran qeyd edir ki, müasir insan cəmiyyətləri daha çox yaşayır, çünki biz erkən yaşlarda məhvedici yoluxucu xəstəlikləri, artıq, əsasən, daha yaşlı yaşlarda öldürən xərçəng və ürək-damar kimi xroniki xəstəliklərlə dəyişdirmişik, bu da keçidin əsasını təşkil edir. A.Omranın nəzəriyyəsi açıq-aydın çox faydalı olmaqla bərabər, nəinki keçmişdə baş verənlərin səciyyələndirilməsi, həmçinin indini dərk etmək, gələcəyi proqnozlaşdırmaq baxımından da dəyərlidir. Xüsusən, nəzəriyyənin izlərini Şimali Azərbaycanın demoqrafiya tarixi üzərində axtarmaqla maraqlı faktlar tapmaq mümkündür.

**Açar sözlər:** *epidemologiya, epidemioloji keçid, demoqrafik keçid, A.Omran, vəba.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Davis K. "The world demographic transition". Ann Am Acad Polit Soc Sci 1945; 237: pp.1;4;8*

*2. Van de Kaa D.J. "Demographic transitions". In: Zeng Y., ed. Encyclopedia of life support systems (EOLSS). Demography,Oxford: Eolss Publishers, 2010, pp. 65;67;100*

*3. Ayşe Tekin "Tarihden günümüze epidemiler,-pandemiler ve ekonomik sonuçları", Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2021/2, 40; s.330;338*

*4. Omran A.R. The epidemiologic transition: a theory of the epidemiology of population change. Milbank Mem Fund Q 1971; 49; 509_38.*

*5. Omran A.R. The epidemiologic transition theory.A preliminary update J Trop Pediatr 1983; 29: 305_16.*

*6. Omran A.R. The epidemiologic transition theory revisited thirty years later. World Health Stat Q. 1998; 99_119.*

*7. Johansson S.R. Health transition. In: Demeny P, McNicoll G, eds. The encyclopedia of population. New York: thompson and Gale; 2003, pp. 479_83.*

*8. Газета «Каспий», №122, от 10. 06. 1892 г. с. 16; 23*

*9. Газета «Каспий», №133, от 16. 06. 1910 г. с.12; 13*

*10. Шукюров А. С. "Демографический переход в Азербайджане". Москва: 2020, с. 29-38.*

**F. Rustamova**

## EPIDEMIOLOGICAL TRANSITION THEORY". CHARACTERISTICS OF THE EPIDEMIOLOGICAL TRANSITION IN NORTHERN AZERBAIJAN IN THE XIX-XX CENTURIES

## SUMMARY

There are various theories about the pace of demographic change, historical-demographic and statistical indicators of the nations of the world. The epidemiological transition theory to be discussed can be considered parallel to the "demographic transition theory" in a certain sense. The demographic transition theory was proposed to explain the statistical change indicators of the nations of the world. After the widespread and adoption of the theory of demographic transition, the elements of a new theory, which can be considered a branch of it - "epidemiological transition theory" were proposed. "logos" means "learning what happened to the population" by giving the meaning of learning. Epidemiology is defined as a branch of medical science that studies diseases in a population, as well as the factors that lead to their existence.

Consequently, epidemiological studies examine the dynamics between diseases and the population as a whole. It is this aspect that connects it with the study of the demographic history of peoples and the science of history. Abdel R. Omran first coined the term epidemiological transition in 1971 to describe the change in causes of disease and death within a population due to various demographic, economic, industrial, and sociological factors. Egyptian-American, public health expert, epidemiologist A.Omran explains the impact of disease and health indicators on demographic changes in his published article. The main idea of the theory is to explain the connection between the social, economic, demographic and ethno-cultural and political dynamics of the health and disease of the people.

**Keywords:** *epidemiology, epidemiological transition, demographic transition, explosion, A. Omran, cholera.*

Ф.Рустамова

# "ТЕОРИЯ ЭПИДЕМИОЛОГИЧЕСКОГО ПЕРЕХОДА" ХАРАКТЕРИСТИКА ЭПИДЕМИОЛОГИЧЕСКОГО ПЕРЕХОДА В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В XIX-XX ВВ.

## РЕЗЮМЕ

Существуют различные теории о темпах демографических изменений, историко-демографических и статистических показателях народов мира. Обсуждаемую теорию эпидемиологического перехода можно считать в определенном смысле параллельной «теории демографического перехода». Теория демографического перехода была предложена для объяснения показателей статистического изменения народов мира. После широкого распространения и принятия теории демографического перехода элементы новой теории, которую можно считать ее ответвлением, - «эпидемиологический переход теории». «Логос» означает «изучение того, что произошло с населением», придавая смысл обучения. Эпидемиология определяется как отрасль медицинской науки, изучающая заболевания в популяции, а также факторы, которые приводят к их возникновению.

Следовательно, эпидемиологические исследования изучают динамику между болезнями и населением в целом. Именно этот аспект связывает ее с изучением демографической истории народов и исторической наукой. Абдель Р.Омран впервые ввел термин «эпидемиологический переход» в 1971 г. для описания изменения причин болезней и смерти среди населения под действием различных демографических, экономических, производственных и социологических факторов. Американец египтянина, эксперт в области общественного здравоохранения, эпидемиолог А.Омран объясняет влияние заболеваний и показателей здоровья на демографические изменения в своей опубликованной статье. Основная идея теории заключается в объяснении связи между социальной, экономической, демографической и этнокультурно-политической динамикой здоровья и болезней людей.

**Ключевые слова:** *эпидемиология, эпидемиологический переход, демографический переход, взрыв, А.Омран, холера.*

UOT 94 (479.24)

# NADİR ŞAH ƏFŞARIN OSMANLI İMPERİYASI İLƏ SÜLHƏ NAİL OLMAQ VƏ MƏZHƏB AYRILIĞINA SON QOYMAQ TƏŞƏBBÜSLƏRİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

**NƏRMİN ATAYEVA**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun magistrantı*
*E-mail: nerminatayeva99@gmail.com*

Nadir şah Əfşarın (1736-1747) yaratdığı dövlət Azərbaycan Səfəvi dövlətinin varisi kimi həmin dövlətin sahib olduğu sərhədlərə sahib çıxmaqla Osmanlı imperiyası ilə münasibətlərdə, Səfəvilər dövründə bu münasibətləri şərtləndirən analoji çağırışlarla qarşılaşdı. 1736-cı ilin martında Muğan qurultayında şah seçilən Nadir şah Osmanlı sultanı ilə münasibətləri nizama salmaq və iki dövlət arasında məzhəb ayrılığına son qoymaq, mövcud qarşıdurmanı aradan qaldırmaq arzusunda idi.

Nadir xanın Osmanlı ordusuna qarşı döyüşlərdə əldə etdiyi uğurlar Osmanlı sultanını sülh danışıqlarına başlamağa vadar etdi. Sultan Mahmud tərəfindən Gəncə valisi olmuş Gəncəli paşa elçi təyin edildi. A.Ateş yazır ki, 1735-ci ilin noyabrında Gəncəli paşa, Hacı Hüseyn ağa Nadirin elçisi Mirzə Məhəmmədlə Tiflisə gəldi. Nadir Dağıstan səfərində olduğuna görə 1736-cı ilin yazına kimi gözləmək məcburiyyətində qaldı. Gəncəli paşa Dağıstan səfərindən sonra Nadir Muğanda qurultay çağırdığına görə o, da Muğana getməli oldu [5,178-179]. 1736-cı ilin fevralında Muğanda Gəncəli paşa ilə Nadirin elçisi Əbdülbaqi xan arasında danışıqlar başladı. Qeyd etmək lazımdır ki, Nadir Osmanlı dövləti ilə sülh müqaviləsinin imzalanmasına böyük əhəmiyyət verirdi. Sülh bağlanması ilə Nadir bir tərəfdən ölkənin qərbində və Cənubi Qafqazda əldə etdiklərini rəsmiləşdirməyə çalışırdı, digər tərəfdən də Osmanlı sarayı ilə daha yaxın münasibətlər qurmaq istəyirdi [18,308]. Nadirin elçisi Əbdülbaqi xan Muğanda Gəncəli paşa ilə ilk görüşü zamanı ondan hansı səviyyədə danışıqlar aparmağa səlahiyyətli olduğunu soruşmuş, Osmanlı elçisindən “IV Murad dövründə təsbit olunan iki dövlət arasındakı sərhədlərin bərpasını nəzərdə tutan sülhə” məmur edildiyi cavabını almış və bildirmişdi ki, “mənim də məqsədim budur, ancaq bir neçə əlavə təklifim də vardır” [5,188-189]. Sülh danışıqlarında Gəncəli paşa da öz şərtlərini irəli sürdü. IV Sultan Murad dövründə müəyyən edilmiş sərhədlərinin dəyişməz qalması, Rusiya ilə imzalanmış müttəfiqlik müqaviləsinin ləğv edilməsi və rusların Dağıstandan geri çəkilmələri nəzərdə tutulurdu [23,231]. Gəncəli paşa ilə danışıqlar zamanı Əbdülbaqi xan da özünün əlavə tələblərini bildirmişdi:

1. İranlılar özlərinin əvvəlki şiə məzhəbindən əl çəkirlər və sünniliyin yeni qolu olan İmam Cəfər qolunu seçirlər; 2. Kəbədə islamın dörd məzhəbinin mehrabı olduğu üçün təklif olunurdu ki, İmam Cəfər məzhəbi üçün də beşinci mehrab yaradılsın və Cəfərilər də Məscidi Haramda namaz qıla bilsinlər; 3. Hər il Məkkəyə yollanan İran zəvvarları üçün Həcc karvanlarının əmiri təyin edilsin və iranlı zəvvar karvanlarının əmirinin səlahiyyəti Misir və Şam karvanları əmirlərinin səlahiyyətinə bərabər tutulsun; 4. Hər iki tərəfdə saxlanılan əsirlər azad edilsinlər, həmin əsirlərin satılmasına və alınmasına imkan verilməsin; 5. Hər iki dövlətin digər dövlətin paytaxtında nümayəndə heyəti (konsulluqlar) təsis edilsin [16,31; 5,189; 8,77-78; 18,309]. Nadir şahın bu istəklərinə Gəncəli paşa “mən ancaq sərhəd məsələlərinə cavabdehəm, bu tələblərə cavab verə bilmərəm” söyləməsi Nadir şahı həmin tələbləri müzakirə etmək, şah seçildiyini Osmanlı sultanına çatdırması üçün etibarlı adamlarından Əbdülbaqi xanı, sədr-məmalik Mirzə Əbülqasım və Xorasan müdərrislərindən yeni baş molla seçilən Əli Əkbəri sultana, sədrəzəmə və şeyxülislama yazılmış məktublarla birlikdə Gəncəli paşa ilə İstanbula yola saldı [5,189-190; 18,309; 14,191-192]. Ərzuruma gələn elçi heyəti qapıçıbaşı Mustafa ağanın müşayiəti ilə 1736-cı il iyulun ortalarında İstanbula çatdı və iyulun 29-da Sultan Mahmudla görüşərək şahın məktubunu təqdim etdi [5,190]. Nümayəndə heyəti sultana Nadir şahın məktubunu çatdırandan sonra Cəfəri məzhəbinin mahiyyəti haqqında da ona məlumat verdi. Nümayəndə heyətində din xadiminin olması da Cəfəri məzhəbi ilə əlaqədar yarana biləcək suallara cavab verilməsi ilə bağlı idi [18,309].

Y.Qaradəniz yazır ki, Nadir şah taxt-taca yiyələndikdən sonra İslam məzhəbləri arasında birliyin yaradılmasını mühüm siyasi məqsəd seçmişdi. O, məzhəblə bağlı hərfi ixtilafdan qaynaqlanan və bir əsrə yaxın davam edən düşmənçiliyin sona çatmasını istəyirdi. Buna görə Muğanda keçirilən qurultayda bu pis əməldən əl çəkilməsini qurultay iştirakçılarından xahiş etdi və osmanlıların iranlıları kafir görməməsi üçün hərəkətə keçdi. O, Osmanlılar bunu qəbul et-

məsə, qılınc gücünə olsa da belə həyata keçirəcəyini və münaqişəni mütləq həll edəcəyini söylədi [11,73].

Buna görə də Nadir şahın bu mövzuda Muğan qurultayında Osmanlı səfiri ilə başladılan sülh danışıqlarını İstanbulda davam etdirilməsini münasib bildi. İstanbulda elçi Əbdülbaqi xanla danışıqları davam etdirmək üçün orduda olan rəisül-quttab İsmail əfəndi, tavukçubaşı Mustafa əfəndi və sabiq cizyə mühasibəçisi Mehmed Ragıb əfəndi İstanbula dəvət edildi [5,191]. A.Ateş yazır ki, Nadir şah tərəfindən irəli sürülən təklifləri müzakirə etmək məqsədilə Anadolu qazıəsgəri Leyli Əhməd əfəndi, həmin vəzifədə olan Muhsinzadə Abdullah əfəndi, əvvəllər Məkkə qazısı olmuş Fətva Əmini Abdullah əfəndi də danışıqlara qatıldı. Avqust ayında Muhsinzadə sarayında tərəflər arasında danışıqlar başladı, keçirilən səkkiz görüşdə Nadir şahın təklifləri müzakirə olundu [5,191]. Danışıqlar zamanı əsirləri dəyişdirmək və satılmasını qadağan etmək, hər iki ölkədə diplomatik nümayəndəliklər açmaq və İranın əmir-ül-həccinin təyin edilməsi barədə asanlıqla razılıq əldə olundu. Ancaq Nadir şahın dinlə bağlı irəli sürdüyü şərtlər qızğın mübahisələrə səbəb oldu [13,193; 17,86]. Türkiyə tarixçilərinin qənaətinə görə, Osmanlı nümayəndə heyəti Cəfəri məzhəbinin beşinci məzhəb kimi qəbul edilməsi təklifini Osmanlı imperatorluğu şəriət hökmləri ilə idarə edildiyinə görə dini narahatçılığa səbəb olacağını əsas gətirərək rədd etdilər. Osmanlı hökuməti Həcc ziyarətinə Suriya üzərindən deyil, Nəcəf və Lahza yolu ilə getməsinə razılıq verdi. Əgər Suriyadan getmək istədikləri təqdirdə zəvvar əmiri rütbəsindən istifadə etməmələrini xahiş etdi. Eyni zamanda Məkkədə Cəfəriliyə rükn (ibadət yeri) ayrılması da qəbul edilmədi. Bununla bağlı İran alimləri ilə görüşmək üçün iki Osmanlı aliminin göndərilməsi münasib bilindi [5,191-192; 14,193-194; 13,193; 1,80; 12,395]. İ.Külbilgenin fikrincə, Osmanlı nümayəndəsi İsmayıl əfəndi Məkkədə Cəfərilərə ibadət yeri ayrılmamasını bununla əsaslandırdı ki, “belə bir tələb son dərəcə əsassızdır. Çünki hətta Fatimilər dövründə də şiələrə Kəbədə bir rükn ayrılmadığı halda, indi belə bir rükn ayırmaq, şübhəsiz ki, mümkün deyildi. Osmanlı sultanı bunu qəbul etsə belə, Məkkə camaatı bunu qəbul etməzdi. Osmanlı sultanı hənəfi olsa da, Kəbədə Şafi fiqhi üzrə namaz qılınarkən Cəfərliyə rüknlər ayırmaq necə mümkün ola bilərdi? Cəfərilər Kəbədə təkbaşına namaz qıla bilərdi; lakin rükn ayrılması bir icmanın yaradılması demək olardı ki, bundan söhbət gedə bilməzdi” [15,258]. E.Kırcanın fikrincə, Osmanlı üləmasının və dövlət adamlarının Cəfəriliyi beşinci məzhəb kimi rəsmi qəbul etməməsinin əsas səbəbi Osmanlı sultanını Əhli-sünnənin və Hərəmeynin hamisi kimi görən sünni təbəələrə bunu izah edə bilməmək qorxusudur [12,397].

Danışıqlar zamanı tərəflərdən heç biri güzəştə getmək istəmədiyindən beş təklifdən üçündə razılığa gəlindiyi üçün həmin şərtlərlə müqavilə bağlamağa razı oldular. 1736-cı il sentyabrın 28-də tərəflər müqaviləni imzaladılar. Oktyabrın 17-də Əbdülbaqi xan, Əbdülqasım və Molla Əli Əkbər Divana dəvət edildi və müqavilə rəsmi surətdə onlara təqdim olundu. Üç maddədən və əlavədən ibarət olan müqavilənin girişində Nadir rəsmən şah kimi tanınırdı [17,86]. Türk tarixçilərinin fikrincə, müqaviləyə əlavədə qeyd olunurdu ki, a) iki dövlət arasında sərhədlər IV Sultan Murad dövründə imzalanmış Qəsri-Şirin müqaviləsi ilə müəyyən olunmuş sərhədlərə uyğun olmalıdır, b) Osmanlılar İran hacı və tacirlərinin təhlükəsizliyinə təminat verir, tacirlərdən Osmanlı qanunlarına uyğun şəkildə gömrük haqqı alınacaq, yanlarında satmaq üçün mal aparmayan şəxslərdən vergi alınmayacaqdır, c) İran torpaqlarından Osmanlı torpaqlarına, Osmanlı torpaqlarından İran ərazilərinə qaçanlar himayə edilməyəcək, istənildiyi zaman tərəflərin müəyyən etdiyi vəkillərinə təhvil veriləcəkdir [5,192-193]. İ.H.Uzunçarşılı yazır ki, bütün bunlara baxmayaraq, elçi Əbdülbaqi xan təsbit olunan maddələri Osmanlı ölkəsindəki bütün müftilər, qazilər və müdərrislərin qəbul edərək imzalamayacağı təqdirdə “söz kəsilməyəcək” deyərək direniş göstərmişdi [23,233]. A.Ateşin fikrincə, bu xüsusi rast gəlinən bir vəziyyət olmamaqla yanaşı, Nadir şahın elçilərinin israr etməsi onların Osmanlı dövlətinə güvənmədiyini göstərir. Buna görə də Nadir şahın qəbul edilməsini tələb etdiyi şərtləri yenidən müzakirə etmək və onun şah seçilməsini təbrik etmək üçün elçi göndərilməsinə qərar verildi [5,192--193].

Beləliklə, Gəncəli paşanın Üsküdarda Nadir şahın elçilərinə verdiyi ziyafətdən sonra onlar Divani Hümayuna dəvət olundular, şaha təqdim olunmaq üçün qiymətli hədiyyələr və sultanın məktubu Əbdülbaqi xana təqdim olundu. Noyabr ayının 14-də Əbdülbaqi xan Bağdad üzərindən İsfahana hərəkət etdi. Dekabrın 5-də Osmanlı elçisi Mustafa paşa da qiymətli hədiyyələr, sultanın, sədrəzəmin və şeyxülislamın məktubları ilə Bağdada yola düşdü. Elçi heyətləri 1737-ci ilin iyun ayının 5-də Bağdaddan İsfahana yola çıxdılar [15,261; 5,194-195; 13,194].

Bununla da, iki dövlət arasında davam edən müharibə vəziyyətinə son qoyuldu. Elçi heyəti İsfaha-

na gələn zaman Nadir şah Qəndəharın mühasirəsi ilə məşğul olduğuna görə onunla görüşə bilmədilər. Nadir şah elçilərin Nadirabada gətirilməsini bildirdiyi üçün onlar 1738-ci ilin mayın 9-da oraya gəldilər və mayın 11-də Nadir şah tərəfindən qəbul olundular. Osmanlı elçisi gətirdiyi hədiyyələri, sultanın məktubunu şaha təqdim etdi [15,264; 5,195; 1,80]. Sultanın göndərdiyi məktubun məzmunu Nadir şahı tam qane etməsə də, Osmanlı elçi heyəti böyük təmtəraqla qəbul edildi. Türkiyə tarixçilərinin fikrincə, elçi Mustafa paşanın Nadir şaha təqdim etdiyi məktubda I Sultan Mahmud iranlı zəvvarlar, səfirliklər və əsirlər məsələsinin tamamilə həll olunduğu və Cəfəri məzhəbinin qəbulu ilə Kəbədə ibadət yerinin ayrılması məsələsinin dini və siyasi nöqsanları bəyan edilmiş və bu məsələnin baş vəzir və şeyxülislamın göndərdiyi məktublarda izah edildiyi bildirilmişdi [15,264; 13,195; 1,80-81; 11,397].

Nadir şah Hindistan səfərinə hazırlaşdığına və Osmanlı dövləti ilə yenidən müharibəyə başlamaq istəmədiyinə görə Cəfəri məzhəbinin beşinci məzhəb kimi qəbul olunması və Məkkədə Cəfərilərə ibadət yerinin verilməsini müzakirə etmək məqsədilə Luristan bəylərbəyi Əli Mərdan xanı, Herat müftisi Molla Məhəmməd Muhsini və Quriyan hakimi Oğuz Əli xanı Osmanlı səfiri vəzir Mustafa paşa ilə birlikdə İstanbula göndərdi [24,100; 7,58]. Elçi heyəti oktyabr ayında Bağdadda vali Əhməd paşa tərəfindən qəbul edildi və onun təyin etdiyi mehmandarla birlikdə İstanbula hərəkət etdi. Lakin 1739-cu ilin yanvar ayında Əli Mərdan xan Sivasda vəfat etdi. Vəziyyət həm İstanbula, həm də Nadir şaha bildirildi. Elçi heyəti Nadir şahdan xəbər gələnə kimi yerləşmək üçün uyğun bir yerin təyin edilməsini xahiş etdi. Elçi heyətinin öncə Boluda, sonra isə İznikmiddə yerləşməsinə icazə verildi. Elçi heyəti bir müddət sonra Üsküdara gətirildi və Nadir şahın elçisi Hacı xanın gəlişinə kimi burada qaldı. Mustafa paşa onları İznikmiddə qoyaraq 28 iyul 1739-cu ildə İstanbula gəldi [15,266,267; 5,196; 11,397-398].

Türkiyə tarixçilərinin fikrincə, Osmanlı dövləti ilə Rusiya arasında müharibənin başlanmasından xəbər tutan Nadir şah bunun qarşısını almaq üçün vasitəçi olacağını bildirmək üçün Məhəmməd Rəhim xan Sədlu və Nəzərəli xanı 1738-ci ilin yazında İstanbula göndərdi. Onlar avqust ayında İstanbula çatdılar [5,196; 11,397].

İ.Külbilge yazır ki, Ragib əfəndi ilə Nadir şahın elçiləri arasında görüşdə sədrəzəmlə görüşmək arzusu bildirildi. Lakin sədrəzəm Rusiya ilə başlanan müharibə cəbhəsində olduğuna görə mümkün olmadı. Məhəmməd Rəhim xan gəlişinin səbəbini bildirdi: “Nadir şah Rusiya ilə Osmanlı imperiyası arasında gedən müharibədən xəbər tutdu və bu vəziyyəti düzəltmək üçün iki xanı Rusiyaya, bizləri isə Osmanlı imperiyasına göndərdi. Məhəmməd Rəhim xan bildirdi ki, onların məqsədi Osmanlı-Rusiya sərhədinə getmək və orada Rusiyaya göndərilən iki xanla görüşmək və rus səlahiyyətliləri ilə danışmaqdır. Nəzərəli xan da məqsədlərinin Osmanlıya kömək etmək və dost olduqlarını göstərmək olduğunu bildirdi. Amma məqsədəuyğun hesab olunmazsa, sərhədə getməyəcək, yenidən İrana qayıdacaqlar” [15,265].

Lakin Osmanlı sultanı Nadir şahın vasitəçilik tələbini qəbul etmədi. Rusiya Osmanlı imperiyası ilə imzalanmış müqaviləni pozaraq müharibəyə başladığına görə Osmanlı dövləti Rusiyaya layiq olduğu dərsi verməli və rus qoşunlarını öz torpaqlarından çıxarmalı idi və bu məqamda vasitəçiliyin nəticə verməyəcəyi açıq-aydın görünürdü. Rus sərkərdələri ilə danışıqlar aparmaq üçün Məhəmməd Rəhim xan Sədlunun Osmanlı-Rusiya sərhədinə göndərilməsinin mənası yox idi [15,265]. Noyabr ayının sonlarında Nadir şahın vasitəçilik tələbinə sultanın cavab məktubunu alan Məhəmməd Rəhim xan Sədlu vətənə yola salındı. Osmanlı sultanı məktubunda Nadir şaha təklifinə görə öz təşəkkürünü bildirir, “bu məsələdə olduğu kimi, başqa məsələlərdə də bundan sonra Osmanlı dövlətinə dostluqla yanaşacağına ümid etdiyini bildirirdi... Rusiyanın heç bir səbəb olmadan Osmanlı imperiyasına hücum etdiyi və Rusiya tərəfində müharibəyə girən Avstriyadan mühüm qalaların alındığı və Rusiya ordusunun Osmanlı sərhədindən uzaqlaşmaq məcburiyyətində qaldı. Sərhəd məsələləri həll olunmadığına görə İran nümayəndələrinin sərhəddə ruslarla görüşməsinin heç bir faydası olmayacaq. Rusiya Nadir şahın elçiləri ilə görüşmək istəməmiş və Fransa elçisinin vasitəçi olmasını tələb etmişdi” [15,265-266].

Yuxarıda qeyd etdiyimiz kimi, Nadir şah tərəfindən göndərilən elçi Əli Mərdan xan öldüyünə görə Hindistan səfərindən zəfərlə qayıdan Nadir şah əldə etdiyi qələbəni çatdırmaq və vaxtı ilə İstanbulda aparılan danışıqlarda yarımçıq qalan Cəfəri məzhəbinin beşinci məzhəb kimi qəbul edilməsi və Məkkədə onlar üçün rüknlər ayrılmasını müzakirə etmək məqsədilə 1740-cı ilin may ayında Hacı xanın başçılığı altında böyük elçi heyətini İstanbula yola saldı [5,197]. Türkiyə tarixçilərinin fikrincə, elçi heyəti xidmətçilərlə birlikdə üç min nəfərdən ibarət idi, özləri ilə

Osmanlı sultanına çoxsaylı qiymətli hədiyyələr və 10 fil aparırdı. Elçi heyəti Bağdaddan yola çıxaraq uzun yolçuluqdan – 9 aydan sonra 6 mart 1741-ci ildə Üsküdara çatmış və martın 11-də İstanbula daxil olmuşdu [15,268; 5,197]. İ.Külbilgenin fikrincə, Nadir şahın, bu qədər təmtəraqlı nümayəndə heyəti göndərməkdə məqsədi, yəqin ki, Hindistanı fəth etməsinin sübutu kimi inanılmaz miqdarda dəyərli hədiyyələr göndərmək və diplomatiya yolu ilə razı sala bilmədiyi sultanı qorxutmaqla Cəfəri məsələsini həll etmək istəyirdi [15,269].

1741-ci il martın 30-da elçi heyəti sədrəzəm tərəfindən qəbul edildi, ona ünvanlanmış məktublar təqdim edildi. 1741-ci il aprelin 4-də Hacı xanın rəhbərlik etdiyi nümayəndə heyətini I Sultan Mahmud qəbul etdi. Hacı xan Nadir şahın məktubunu və qiymətli hədiyyələri sultana təqdim etdi. Elçilərin şərəfinə verilən ziyafətdən sonra tərəflər arasında danışıqlar başladı. Danışıqların mövzusu Cəfərilik məzhəbinin beşinci məzhəb kimi qəbul olunması və bu məzhəbə Kəbədə bir məqam verilməsi idi [5,202]. Danışıqların gedişində Osmanlı üləması ehtiyatlı davranaraq Nadir şahın göndərdiyi məktubunda sülhmü, yoxsa müharibə istəklərinin bəlli olmadığını, sülh danışıqları aparmaq üçün elçiyə lazımı səlahiyyət verilmədiyini bəhanə edərək qəti cavab verməkdən imtina etdilər [5,202; 24,102]. Mayın 19-da Hacı xanın şərəfinə sədrəzəm tərəfindən ziyafət verilən zaman o, yenə həmin mövzuya qayıdaraq böyük bir heyətlə buraya gəlmişkən məsələnin həll edilməsini tələb etsə də, səlahiyyətli şəxsin İrana göndəriləcəyi, məsələnin orada həll ediləcəyi bildirildi [5,203]. Buna görə Hacı xan dərhal geri dönməyə qərar versə də, Osmanlı hökuməti onu daha iki ay İstanbulda saxladı. Türkiyə tarixçilərinin fikrincə, bunun iki səbəbi var idi: birincisi, zaman qazanaraq hərbi hazırlıqları tamamlamaq, ikincisi isə Nadir şaha göndəriləcək hədiyyələri Osmanlı dövlətinin nüfuzuna layiq şəkildə təşkil etməkdi [2,21; 5,203].

A.Ateş yazır ki, Nadir şahın elçisi Hacı xan 1741-ci ilin iyulunda qiymətli hədiyyələr və sultanın məktubu ilə yola salındı. Sultanın məktubunda Nadir şahın təklif etdiyi beş şərtdən üçünün qəbul edildiyi, digər iki tələbin isə əvvəllər də bildirildiyi kimi, Hacı xanla göndərilən məktubda da bir daha dini səbəblər önə çəkilərək qəbul edilmədiyi vurğulanır, iki dövlət arasında dostluq və qardaşlığın davam etməsi ümid edilirdi [5,203].

Türkiyə tarixçilərinin qənaətinə görə, Osmanlı sultanı I Mahmud Nadir şahın həqiqi niyyətini öyrənmək, bağlanan sülhə sadiq qaldığı təqdirdə dostluğu davam etdirməyə qərarlı olduğunu, yox əgər Osmanlı sərhədinə təcavüz etdiyi təqdirdə cavab verəcəklərini bildirmək məqsədilə Munif Mustafa əfəndi ilə Nazif Mustafa əfəndini elçi göndərdi [15,271; 3,70; 5,204; 7,61-62].

Osmanlı elçiləri 1742-ci lin yanvar ayında Dərbənd yaxınlığında Nadir şahın ordugahına gəldilər və I Mahmudun məktubunu şaha təqdim etdilər. Məktubda Nadir şahın tələblərindən ikisinin niyə qəbul olunmadığına aydınlıq gətirməyə çalışıldı [15,275; 3,71]. Osmanlı sarayı Cəfəri məzhəbinin təsdiq olunması barədə Nadir şahın təklifinin qəbul olunmadığına görə üzrxahlıq etdi və həmin təklifin əvəzində başqa bir təklifin irəli sürülməsini bildirdi. İ.Külbilge yazır ki, Nadir şah Osmanlı sultanının cavabından narazı qalaraq qəzəbləndi, sultana ünvanlanan məktubu ilə elçiləri yola saldı. Elçilər Qarsa gəldilər və Nadir şahın sultanın verdiyi cavabından qəzəblənənərək: “Sultan ya Cəfəriliyi qəbul edəcək, ya da bu iş qılıncla həll ediləcəkdi” söylədiyini bildirdilər [15,275; 6,80-81]. Göründüyü kimi, cavabında Nadir şah Osmanlı sarayını hədələməyə başladı və Osmanlı dövlətini yeni müharibəyə hazırlaşmağa çağırdı. Cavab məktubunda bildirilirdi ki, Dağıstan yürüşü başa çatan kimi Nadir şah qoşunları Osmanlı sərhədinə doğru hərəkətə başlayacaqdır. A.Ateşin fikrincə, Nadir şah sultanın məktubunda tələblərindən ikisinin qəbul edilməməsi barədə verilən cavabdan məmnun qalmadı, təklifində haqlı olduğunu və qəbul olunmasını istədi, əks halda Osmanlı torpaqlarına hücum edəcəyini bildirdi [5,204]. Bununla da, 1736-cı ildən Nadir şahın Osmanlı sultanı ilə davam edən diplomatik əlaqələri yenidən gərginləşdi. 1742-ci il aprelin 23-də Nadir şahın Munif Mustafa əfəndi ilə göndərdiyi məktub müzakirə olundu. Üləma Nadir şahın tələblərinin qəbuledilməz olduğunu bildirdi. “İran ordusu Osmanlı torpaqlarına hücum etsə, müharibə qaçılmaz olardı”. Amma iclasda ilk dəfə fərqli səslər eşidildi. Bəzi dövlət xadimləri Nadir şahla inadkarlığın maliyyə vəziyyətini çox çətin vəziyyətə saldığını bildirirdilər. “Teymur sayağı bir arzu olan Nadir şahın tələbi qəbul edilməli idi. Ölümündən sonra nə onun, nə də ona verilən vədin heç bir mənası qalmayacaq”. Lakin bu fikir qəbul olunmadı və aprelin 30-da müharibə üçün lazım olan fətvalar alındı. Anadolu valisi Həkimoğlu Əli paşa sədrəzəm təyin olundu, Bağdad valisi İraq sərəsgəri, Diyarbəkir valisi Kösə Əli paşa isə Azərbaycan tərəfinə sərəsgər təyin edildi [15,276-277; 5,206-207].

İ.Külbilge yazır ki, Osmanlı sultanını belə bir qərar almasına ruhlandıran Nadir şahın Dağıstanda keçirdiyi əməliyyatla bağlı aldığı kəşfiyyat məlumatı idi. “Nadir şah bu dəfə çoxlu əsgər itirmişdi və ordusunun qalan hissəsi acınacaqlı vəziyyətdə idi. O, ordusunu gücləndirmək üçün daim İrandan əsgər istəyirdi. Nadir şahın zəifliyindən istifadə edib onun işini bitirmək düşünülürdü” [15,277]. Osmanlı cəbhəsində müharibəyə hazırlıqlara başlanıldığı bir vəziyyətdə 1743-cü il fevralın 12-də Nadir şah Dağıstandan Muğana gəldi və sünni islamın təmsilçisi olan Osmanlı dövlətinin qəbul etmədiyi dini görüşlərinə hüquqi don geyindirmək üçün Molla Əli Əkbərin tanınmış din xadimlərindən təşkil etdiyi şuraya hazırlatdığı sənədi təsdiq etdirməkdən çəkinmədi. Digər tərəfdən, Nadir şah Ərzurumdakı Osmanlı ordusundakı şiə ünsürləri öz casusları vasitəsilə öz tərəfinə çəkməyə çalışarkən, 1742-ci il avqustun əvvəlində iki elçisini - Nəzər Əli xan və Mirzə Zəki adlı elçilərini Bağdad valisi vəzir Əhməd paşanın yanına göndərdi. Nadir şahın mesajı aydın idi. “O, altmış minlik bir ordunu Ərzuruma göndərəcək, özü də Kərkük üzərindən Diyarbəkirə getməyə hazırlaşırdı. O, Əhməd paşadan Osmanlı ordusunu məğlub edəcəyi təqdirdə Bağdadı təslim edəcəyinə dair sənədin verilməyəcəyi təqdirdə, baş verənlərdən Əhməd paşanın cavabdeh olduğunu bildirirdi” [15,277; 5,208; 7,72; 14,202; 13,197].

Nadir şahın təhdidləri qarşısında çıxılmaz vəziyyətdə olan Əhməd paşa bir tərəfdən Mehmet ağanı Nadir şahın yanına göndərərək istədiyini verəcəyini bildirərək vaxt qazanmağa çalışdı, digər tərəfdən vəziyyəti İstanbula çatdıraraq baş vəzirin səfərə çıxmasını münasib bildi [5,209]. A.Ateşin fikrincə, Nadir şahın istəklərini rədd etməsinə baxmayaraq, Osmanlı dövləti ölkənin şərqində sülhü qoruyub saxlamaq üçün gerçəkdən heç bir ciddi səy göstərmədi. Əksinə, Osmanlı dövləti tərəddüd etmədən başlayacaq müharibəyə hazırlaşmaq üçün tədbirlər görməyə başladı [5,209].

Bir dövlət xadimi olmaqla yanaşı, Nadir şah həm də bir müsəlman idi, özünün ifadəsinə görə bir abid, yəni Allaha ibadət edən bir qul idi. Və buna görə də o, İslam aləmində sülhün və qardaşlığın yaradılmasını və müsəlman-türk aləminin birləşdirilməsini özünün bir müsəlman kimi ən ümdə vəzifəsi hesab edirdi və Osmanlı dövlətini də müqabil tərəf kimi buna dəvət edirdi. Nadir şahın bu istiqamətdə siyasi iradəsi və fəaliyyəti Türkiyə tarixçiləri tərəfindən yüksək qiymətləndirilmişdir. Faruq Sümer “qövmi duyğuları qüvvətli, inqilabçı böyük şəxsiyyət” adlandırdığı Nadir şahın “... məsələni həll etmək üçün səmimiyyətlə hərəkətə keçdiyini... Osmanlı hökmdarı I Mahmuda göndərdiyi məktublarda Osmanlı xanədanlığının özünün də mənsub olduğu türkmən qövmünün ən böyük ailəsi olduğunu yazır və tez-tez qövmi qohumluqdan bəhs edirdi. Osmanlı divanından alınan məktublarda Nadirin bu duyğusunun paylaşıldığını göstərən bir ifadəyə rast gəlmirik. Çox ehtimal ki, nə Osmanlı hökmdarı I Mahmud, nə də onun dövlət xadimləri bu qohumluğun fərqində deyildi... Şübhəsiz ki, qəflət içində olan Osmanlı dövlət adamları bu böyük şəxsiyyəti qiymətləndirə bilməmişdilər” [19,155; 8,61]. Osmanlı dövlətinə dəfələrlə müraciət etmiş, məktublar göndərmiş Nadir şahın bu məsələdə nə dərəcədə israrlı və səmimi olduğu Osmanlı qaynaqlarındakı məlumatlar da təsdiq edir. Türkiyə tarixçisi Saim Arı Nadir şahın Hindistan səfərindən döndükdən sonra Bağdad valisi Əhməd paşaya göndərdiyi və Osmanlı müəllifi Mehmet Sübhinin əsərində yer alan məktubuna diqqət çəkərək yazır ki, Nadir şah məktubunda “qaliba sülhü nə dərəcə də arzu etdiyimiz məlumları deyildir; məlumları olsa dəxi, etimad etmirlər... Hər dürlü əməllərimiz cümləyə mütabiq olmaq şərtilə müsalihə işinə biz bu tərəfdən, kəndiləri ol tərəfdən səy edəlim. Umuri ibad cümləyə fərzdir, mabeyndən bu ədavət qalxsın. Ruzi fərda Tanrıya və Peyğəmbərinə cavab verilməz. Dövləti Aliyyədən bir-iki alim göndərsinlər, bizim üləmamız ilə bəhs etdirəlim. Füruatımızda xilafi şəri şərif və əimməyə ərbaai əqvalindən xaric nə var isə rəf edəriz”, - deyə təkid edirdi [3,75; 8,61-62].

Burada bir məsələyə aydınlıq gətirilməsini vacib sayırıq. Bu, hər şeydən əvvəl Nadir şahın 1736-cı ildən etibarən Osmanlı dövləti ilə münasibətləri nizama salmaq, iki dövlət arasındakı məzhəb çəkişmələrini aradan qaldırmaq təşəbbüslərinə Türkiyə tarixçilərinin münasibətini öyrənməkdir. E.Kırca yazır ki, Nadir şahın diplomatiya yolunu tərk edərək Osmanlı imperatorluğuna müharibə elan etməsi Osmanlı rəsmi dairələrində Nadir şaha və Cəfəriliyə münasibəti dəyişdi. 1736-1743-cü illər arasında Osmanlı sarayı ilə rəsmi yazışmalarında Nadir şahın Cəfərilər üçün rükn tələbi qəbul edilməsə də, onun ölkə əhalisini Əhli-sünnət məzhəbinə meyilləndirmək niyyətində olduğu güman edilirdi və bu səy müsbət qarşılanırdı; Əvvəllər rafizi və mürtəd kimi qələmə verilən iranlıların Həcc ziyarətinə getməsinə və əsirlərinin azad edilməsinə icazə verilir, hökmdarlara İran xalqı ilə sünni Osmanlı vətəndaşları kimi davranmaları barədə göstərişlər göndərilirdi [11,399]. Nadir şahın Os-

manlı torpaqlarına hücumundan sonra Osmanlı rəsmi yazışmalarında Nadir şah və Cəfəri təriqəti haqqında İran şahı olduğunu iddia edən Nadir şah şiələrin İmamiyyə qolundan olan və fiqh kitablarında rafizi qövmlərdən biri olduğu açıq şəkildə qeyd olunan Cəfəri adlı bir təriqəti təbliğ etmək bəhanəsi ilə Osmanlı torpaqlarına və Dağıstan vilayətlərinə hücuma keçdiyi bildirilir [11,399,400]. "İran şahı olduğunu iddia edən" ifadəsindən görünür ki, Osmanlılar siyasi cəhətdən Nadiri şah kimi tanımırlar; Osmanlılar tərəfindən Cəfəri məzhəbi də dini baxımından batil və rafizi bir təriqət hesab edilmiş, Nadir şahın bu məsələdə səmimi olmadığı, kin-küdurətini həyata keçirmək üçün Cəfəri məzhəbindən istifadə etdiyi, məqsədinin fırıldaqçılıq və hiylə olduğu və ona inanılmayacağına qərar verildi. Buna görə də Nadir şah döyüş yolunu seçməklə Osmanlı imperiyasında əvvəllər yaratdığı müsbət imicini və etibarını itirdi [11,400].

Cəmil Haqyeməz yazır ki, Nadir şahın əsas məqsədi öz ölkəsində şiə-sünni qütbləşməsinin qarşısını almaq, Osmanlı dövlətinin İrana qarşı düşmənçiliyini azaltmaq olsa da, son nəticədə hər iki dövlət üçün son dərəcə müsbət nəticələr verə biləcək bu cəhd Osmanlı imperiyasının məzhəb anlayışına görə nəticəsiz qaldı. Bu prosesdə şiə üləmasının açıq şəkildə olmasa da, cəfərilik vasitəsilə şiəlik və sünniliyin uzlaşdırılmasına çox da isti baxmaması da həlledici idi. Bundan əlavə, Nadir şahın bütün bu cəhdlərində hadisənin siyasi, teoloji və tarixi ölçülərini nəzərə almaması onun işini xeyli çətinləşdirirdi. Digər tərəfdən, Osmanlı sultanının sünniliyi İslamla eyniləşdirməsi onun həll edilməməsində aparıcı rol oynayıb [7,72].

Cəfəriliyin həm dövlət dini, həm də beşinci məzhəb kimi qəbul edilməsi üçün diplomatik yazışmalar və elçi mübadiləsi vasitəsilə Osmanlı hakimiyyəti ilə intensiv müzakirələr aparan Nadir şah istəklərinin qəbul edilmədiyinə əmin olduqda yuxarıda qeyd etdiyimiz kimi qarşısına qoyduğu məqsədi qılıncla gerçəkləşdirməyə israrlı idi. Şübhəsiz ki, onun Cəfərilik məsələsində qərarlı mövqeyi Osmanlı hakim dairələrini, xüsusən də üləmanı nəinki öz mövqeyindən çəkindirməyə razı sala bildi, əksinə tərəflər arasındakı gərginliyi müharibə vəziyyətinə çatdırdı.

**Açar sözlər:** *Nadir şah, Sultan I Mahmud, məzhəb məsələləri, siyasi əlaqələr.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Adıgüzel A., Yıldırım A. I. Mahmud Dönemi (1730-1754) Osmanlı-İran İlişkileri, //Eskişehir Osmangazi Üniversitesi İlahiyet Fakültesi Dergisi, c. 4, sayı 7, 2017, s. 59-96.*

*2. Aktepe M. İranda Nadir Şah ve Beşinci Mezheb Meselesi, E.D. sayı XXVI, (tarihsiz), s. 14-21.*

*3. Arı Saim. Osmanlı Arşiv Kaynakları Işığında Nadir Şah – I. Mahmud Dönemi Ehli Sünnet-Şii Diyalogu. Yayınlanmamış Doktora Tezi. Şahlıurfa: 2001.*

*4. Ata Mohamed Tabriz. "Safevî Devleti'nden Sonra İran'da Siyasî İktidarların Meşruiyet Arayışları", //Bilig, Güz 2022, sayı 103, s. 95-118.*

*5. Ateş A. Osmanlı-İran siyasi ilişkileri. (1720-1747). Altınpost Yayınları, İstanbul: 2012.*

*6. Əfşar C.H. Azərbaycan Nadir şah Əfşar dövləti. Bakı: 2014.*

*7. Gültekin H. Koca Ragip Paşa Münşeatında Nadir Şah ve Caferi tartışmalarına dair mektuplar, Türk Kültürü ve Hacı Bektaş Veli Araştırmalar Dergisi, 2015, sayı 76, s. 55-78.*

*8. Hakyemez C. Osmanlı-İran ilişkileri ve Sünni-Şii İttifakı, Kitap Yayınevi, İstanbul: 2014.*

*9. Hüseyn F. Osmanlı imperiyası ilə münasibətlərdə Nadir Şah Əfşarın təsis etdiyi qardaşlıq hüququ (Osmanlı mənbələri əsasında). //AMEA Sosial Elmlər, №1, Bakı: 2001, s. 59-65.*

*10. Karadeniz İ. İran ve Osmanlı Devleti Arasında Mezhebi İhtilafların Azaltılması ve İslam Birliği Teşebbüsleri (1555-1746). //Asia Minor Studues – International Journal Of Social Sciences, Cilt: 4, Sayı: 8, Temmuz 2016, s. 65-78.*

*11. Kırca E. Osmanlı-İran resmi yazışmalarına göre Osmanlı devletinin Nadir şah ve ceferilik mezhebine yaklaşımı (1736-1746). //Tokat Gaziosmanpaşa Üniversitesi Sosyal Bilimler Araştırmaları Dergisi, Aralık, 2020, s.392-408.*

*12. Kimya O., Qasımov C., Gök U. Yakın ve Orta Doğu'da Mezhepsel Çatışmaların Çözümü Bakımından Nâdir Şah Afşar'ın Faaliyetleri ve Necef Komisyonu, //Uluslararası Türk Dünyası Bilimsel Araştırmalar Degisi, Ankara: 2020, 1. (2), s. 186-198.*

*13. Kurtaran U. Yeni kaynakların ışığında Sultan I. Mahmud dönemi Osmanlı-İran ilişkileri (1731-1747). //History Studies, Volume 3/3, 2011, s.177-213.*

*14. Kurtaran U. Sultan Birinci Mahmud ve Dönemi (1730-1754). Selcuk Üniversitesi Sosial Bilimler Enstitüsü, Yayınlanmamış Doktora Tezi. Konya: 2012.*

*15. Külbilge İ. 18. Yüzyılın ilk yarısında Osmanlı-İran siyasi ilişkileri (1703-1747). Yayınlanmamış*

*doktora tezi. İzmir: 2010.*

*16. I. Mahmud-Nadir Şah Mektuplaşmaları (3 Numaralı Name-i Hümayıin Defteri), Baş Bakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı Yayın Nu: 136, İstanbul: 2014.*

*17. Mahmudov Y.M., Mustafazadə T.T. Nadir Şah Əfşar: tarixin gedişini dəyişdirən dahi sərkərdə. Bakı: Turxan NPB, 2019.*

*18. Süleymanov M. Nadir şah. Tehran: 2010.*

*19. Sümer F. Oğuzlar. Türk dilindən tərcümə edən Ramiz Əsgər. Bakı: Yazıçı 1992.*

*20. Şabani R. Efşariye ve Zendiye döneminde (h. 1135-1210/M.1723-1796) İran-Osmanlı ilişkileri. // Tarihten günümüze Türk-İran Sempozyumu, 16-17 aralık 2002, Konya. Konya: 2002, s.78-87.*

*21. Tahirzadə Ə. Nadir şah Əfşar (Tərcümeyi-hal oçerki). 2-ci nəşr, Bakı: "Çıraq" nəşriyyatı, 2005.*

*22. Tamburi Aritin. Tahmasb Kulu Hanın Tevarihi, çev. E.Uras. Ankara: 1942.*

*23. Uzunçarşılı İ.H. Osmanlı tarixi, IV c. I Bölüm, İstanbul: 1988.*

*24. Yetiş İ. Osmanlı-İran savaşları (1722-1746). Muğla Sıtkı Koçman Üniversitesi Sosial Bilimler Enstitüsü, Yayınlanmamış Yüksek Lisans Tezi, Muğla: 2014.*

**N.Atayeva**

**Nadir Shah Afshar's initiatives to achieve peace with the Ottoman Empire and end sectarian divisions in Turkish historiography**

**SUMMARY**

In 1736, Nadir Khan, elected Shah at the Mugan Congress, declared the Jafari sect the official sect of the state. He sought to end the centuries of sectarian conflict between the Safavids and the Ottoman Empire. For this reason, Nadir Shah attached great importance to the official recognition of the Jafari sect by the Ottoman state and to granting Jafari the right to publicly pray at the Kaaba. He also demanded the release of Safavid prisoners in the Ottoman Empire and Safavid pilgrims so that they could perform the Hajj as easily as other Muslims. The Ottomans accepted Nadir Shah's demands for prisoners and pilgrims, but did not accept his request for a sect. Ottoman scholars and statesmen believed that if Jafari were given the right to publicly pray at the Kaaba, this would cause dissension among fanatical people and undermine the authority of the state. They also believed that the Jafari sect was not a real sect.

Our goal in this article is to study the level of research in Turkish historiography of Nadir Shah's initiatives to settle relations with Sultan Mahmud I and conclude peace.

**Keywords:** *Nadir Shah, Sultan Mahmud I, interfaith issues, political relations.*

**Н.Атаева**

**Инициативы Надир-шаха Афшара по достижению мира с Османской империей и прекращению межконфессионального различия в турецкой историографии**

**РЕЗЮМЕ**

В 1736 году Надир-хан, избранный шахом на Муганском съезде, объявил секту Джафари официальной сектой государства. Он планировал положить конец много-вековому сектантскому конфликту между Сефевидами и Османской империей. По этой причине Надир-шах придавал большое значение официальному признанию секты Джафари Османским государством и предоставлению Джафари права публично молиться у Каабы. Он также потребовал освобождения заключенных Сефевидов в Османской империи и Сефевидских паломников, чтобы они могли совершать хадж так же легко, как и другие мусульмане. Османы приняли требования Надир-шаха о заключенных и паломниках, но не приняли его просьбу относительно секты. Османские ученые и государственные деятели считали, что если бы Джафари получили право публично молиться у Каабы, это вызвало бы разногласия среди фанатичных людей и подорвало бы авторитет государства. Они также считали, что секта Джафари не была настоящей сектой.

Наша цель в данной статье-изучить уровень исследования в турецкой истори-ографии инициатив Надир-шаха по урегулированию отношений с султаном Махмудом I и заключению мира.

**Ключевые слова:** *Надир-шах, султан Махмуд I, межконфессиональные вопросы, политические отношения.*

UOT 94 (479.24)

# AZƏRBAYCAN QARAQOYUNLU DÖVLƏTİNİN DÖYÜŞ SİLAHLARI

ÜLVİ ZƏRBƏLİYEV
*Gəncə Dövlət Universitetinin əyani doktorantı*
*E-mail: ulvizerbeliyev@gmail.com*

## Giriş

XV əsrin əvvəllərində Azərbaycan torpaqları Teymurilərin nəzarəti altında olan zaman mübarizə meydanına Qaraqoyunlu Qara Yusif (1389-1420) çıxmışdı. Hələ XIV əsrin sonlarında Qaraqoyunlu tayfa ittifaqına rəhbərlik edən Qara Yusif Cəlairi Sultan Əhmədin müttəfiqi kimi Əmir Teymur ordusuna qarşı mübarizə aparmış, lakin məğlub olaraq Bağdada çəkilmək məcburiyyətində qalmışdı. 1394-cü ilin yayında Teymurun ordusu Bağdad yaxınlarında qaraqoyunlu və cəlayirli birləşmiş qoşunlarını məğlub etdikdən sonra çarəsiz qalan Qara Yusif Sultan Əhmədlə birlikdə Osmanlı Sultanı İldırım Bəyazidin (1389-1402) himayəsinə sığınır. Əmir Teymur onların hər ikisini tələb etsə də, İldırım Bəyazid bundan qəti surətdə boyun qaçırır. Qara Yusif vəziyyəti daha da gərginləşdirmək istəmədiyi üçün Osmanlı dövlətini tərk edir.

1403-cü ildə Hillə yaxınlığında Qara Yusif Teymur ordusuna məğlub olduqdan sonra Misir Məmlük sultanına sığınmaq məcburiyyətində qalır. Misir Məmlük sultanı Fərəc Əmir Teymurun əmri ilə Qara Yusiflə Sultan Əhməd Cəlairini Dəməşqdə zindana atdırır. Qara Yusif Şam naibi Şeyx Mahmudi tərəfindən 1405-ci ilin yanvarında həbsdən azad edilərək Misir sultanı Fərəcə qarşı təşkil olunan yürüşə qatıldı. Qara Yusif və Şeyx Mahmudi ilk döyüşdə qalib gəlsə də, Qahirə yaxınlığında baş verən növbəti döyüşdə məğlub olaraq geri döndülər [28,62]. Əmir Teymurun ölümündən sonra Qara Yusif Azərbaycana qayıdaraq teymurilərə qarşı mübarizəyə başladı.

1406-cı ilin oktyabrın 14-də Naxçıvanın qərbində Araz çayı sahilində Qara Yusif Teymur Əbu Bəkrin ordusunu məğlub edərək onu qaçmağa məcbur etdi. Qara Yusif 1408-ci ilin aprelin 21-də Təbriz yaxınlığında Sərdrud döyüşündə Teymuri Əbu Bəkri ikinci dəfə ağır məğlub edərək onun atası Miranşahı öldürdü [23,61]. Qara Yusifin qazandığı bu zəfərin mühüm tarixi əhəmiyyəti vardı. Bununla da teymurilərin Azərbaycandakı ağalığına son qoyuldu. Bu zaman Azərbaycandakı real hakimiyyət tamamilə qaraqoyunluların əlinə keçdi. F.Sümer Qara Yusifin əldə etdiyi bu qələbə münasibətilə bağlı yazır: "Qara Yusifin Əbu Bəkrə qarşı qazandığı bu ikinci zəfər mühüm tarixi hadisədir. Bununla da, Teymurun qurmuş olduğu imperiyanın əhəmiyyətli bir parçası ilk dəfə kəskin şəkildə əldən çıxdı və burada Qaraqoyunlu dövləti quruldu" [28,76].

Azərbaycanda Teymuri ağalığına son qoyması və dövlətçiliyimizin bərpa olunması bilavasitə Qara Yusifin adı ilə bağlıdır. Teymuri ordusuna qarşı mübarizədə Qara Yusifin mükəmməl döyüş silahları ilə təchiz edilmiş süvari ordusu əhəmiyyətli rol oynamışdı. Bu məqaləmizdə Teymuri ordusuna qarşı döyüşlərdə Qara Yusif və varislərinin dövründə istifadə olunmuş döyüş silahlarından və onların istifadə edildiyi döyüşlərdən bəhs olunacaqdır.

## 1. Ox və yay

Döyüş və ov aləti kimi ox və yaydan istifadənin tarixi çox qədimdir. Elxanilər dövründə yazılmış ox atma risaləsində ox və yaydan istifadə tarixi kimi Hz. Adəm dövründə başlandığı qeyd edilmişdir [5,16; 25,443].

Ox və yay yüngül silahlanmış süvari və piyada əsgərlər tərəfindən daşınması asan silah olduğundan geniş istifadə edilirdi. Uzaqdan və yaxın məsafədən çox rahat istifadə edildiyi üçün təsirli bir silahdır.

Elxanilər və Cəlairilər dövründə olduğu kimi, Qaraqoyunlu ordusu da yüngül təchizat tələb edən süvari ordudan təşkil olunduğuna görə ox və yaydan geniş istifadə edirdi. Həsən bəy Rumlu Qara Yusiflə Teymuri Əbu Bəkr arasında Araz sahilində baş vermiş döyüşdən bəhs edən zaman Qaraqoyunlu əsgərlərinin ox və yayla silahlandığına diqqət yetirərək yazır: "O, xəyal kimi yüksəyə uçan oxlarının qorxusu ilə qartalları göyün zirvəsində pərən-pərən salan və əjdaha görkəmli nizələrinin heybəti ilə aslanları meşədən qaçmağa məcbur edən, seçkin və təcrübəli ərlərlə, döyüşdə sınaqdan çıxmış igidlərlə hərb meydanına yönəlib Mirzə Əbu-Bəkrin qarşısında səf çəkdi" [26,54]. Bu bir daha təsdiq edir ki, Qaraqoyunlu ordusunun əsasını süvari ordu təşkil etdiyinə görə qoşun yüngül silahlarla, ox və yay, qılınc, nizə və gürzlə silahlanmışdı. 1406-cı il oktyabrın 14-də Naxçıvanın qərbində Araz çayının kənarında baş verən döyüşün ilk günü tərəflər bir-birini yoxlamaq üçün əsasən ox atmaqla kifayətləndilər [28,73]. Bu Qaraqoyunlu ordusunun döyüş silahı kimi ox və yaydan geniş istifadə etdiyini göstərir.

Həsən bəy Rumlu 1421-ci ilin yayında Sultan Şahruhun Qaraqoyunlu İsgəndərə qarşı ilk döyüşündən

bəhs edən zaman təqdim etdiyi mənzum rəvayətdə Qaraqoyunlu ordusunu "Hamısı kaman çəkən, döyüşkən və ox atan, hamısı mübariz, dəmiri əridən və cövşən geyən" kimi təsvir edir: "[Qoşunlar] bir-birinə qarşı oxla, nizə ilə, xəncərlə hücuma keçdilər" [26,102]. Əbu Bəkr Tehrani Cahanşahın 1448-ci ildə Diyarbəkrə yürüş edərək Ağqoyunlulara qarşı apardığı mübarizəni təsvir edən zaman Qaraqoyunlu ordusunda oxlardan geniş istifadə edildiyini qeyd edir. O, baş verən döyüşdə Rüstəm Alpavut və Cahanşahın oxatanlarından səksən nəfərin Uzun Həsənə ox yağdırdığını bildirir [29,116; 25,443].

Əsaslı döyüşlərdə olduğu kimi, şəhər və qalalarda küçə döyüşlərində belə oxlardan istifadə edilirdi. 1406-cı ilin yayında Sultan Əhməd Cəlairi Təbrizi ələ keçirən zaman Əlincə qalasını Qazı İmadəddinə tapşırmış və o, qalada təmir işlərini başa çatdıraraq qısa müddət ərzində oranı əvvəlki halına geri qaytardı. Qala ətrafında yerləşən bəzi bölgələrin kələntərlərini və sərdarlarını köçürüb qalanın içinə apardı. Qara Yusif o qalanı heç vəchlə ala bilməyəcəyini başa düşdüyü üçün hökm yazdı ki, qala və oraya yaxın olan neçə-neçə yerlər qazıya verilsin, amma Əlincə qalasından nisbətən daha uzaqda yerləşən bölgələr öz oğlu İsgəndərə həvalə edilsin [26,60-61]. Qazı İmadəddin Naxçıvanın say-seçmə adamlarından idi. Ağıl və fərasətdə tay-tuşlarından üstün olduğuna görə bütün Naxçıvan tümənini ona həvalə etdilər. Lakin onun yeritdiyi siyasət ətrafındakı türkmanları təmin etmədiyinə görə qərara gəldilər ki, qazını aradan götürüb qalanı ələ keçirsinlər. Qalada qalmaqal və qovğa yüksəldikdə qazının qardaşı olan igid, cəsur və pəhləvan Tacülislam qılıncını çəkib evdən bayıra atıldı. O vaxt Şəhriyar öz kamanına bir ox qoymuşdu və həmin oxu onun sinəsinə elə vurdu ki, oxun ucu onun kürəyindən çıxdı. Qazının digər qardaşı Şahmahmud ox və yayla başqa bir qapıdan ayağını bayıra qoydu. Hacı Qorçu onun işini bir oxla bitirdi. Bir az döyüşdükdən sonra Qazı İmadəddin və tərəfdarları da öldürüldü. Qala ələ keçirilərək Qara Yusifin oğlu İsgəndərə təhvil verildi [26,61]. İlkin mənbənin verdiyi məlumatdan aydın olur ki, Əlincə qalası uğrunda baş verən münaqişədə də məhz oxlardan sərras istifadə həlledici rol oynamışdı.

İlkin xristian qaynaqlarında bəzi türk tayfaları – qədim hunlar, avarlar və daha sonra monqollar və türklər çox zaman "oxçu qövmlər" adı ilə təqdim edilmişlər. Türklərin oxçuluqda məharəti bir çox araşdırmaçı tərəfindən təqdir edilmiş və bu mövzuda müstəqil əsərlər qələmə alınmışdır [bax: 34; 14, 20; 25,443, qeyd 11].

Qeyd etmək lazımdır ki, dövrün ermənidilli qaynaqlarında Qaraqoyunlulardan çox zaman "oxçu xalq" kimi bəhs olunur, Qaraqoyunlu hökmdarı Cahanşah isə "... Oxatan ümmətdən Əmir Cahanşah" kimi təqdim olunur [bax: 2,105, 127]. Bu bir dana təsdiq edir ki, sələflərində olduğu kimi Qaraqoyunlu ordusunda da ox və yaydan geniş istifadə edilmişdi.

Döyüşdə oxlardan geniş istifadə edilirdi və hətta dəqiq atılmış oxdan yaraqlar da döyüşçüləri qoruya bilmirdi. Dəqiq atılmış "ox qaftan və zirehdən keçdi və üç barmaq dərinliyinə onun çiyninə batdı" [16,108; 10,263].

Orta əsrlərdə ox əsasən xüsusi ağac növü olan xədəngdən hazırlanırdı. Əslində ox və xədəng o qədər sinonimdir ki, çox zaman mətnlərdə ox əvəzinə xədəng sözü işlədilir [17,94; 26,101]. İlk mənbələrdə xədəng "ağcaqayın ağacı" kimi təqdim olunur və qeyd olunur ki, "xədəng ruslar ölkəsində olur... oxlar düzəltmək üçün xədəngdən yaxşı ağac yoxdur... onun qabığından ox qabları düzəldirlər" [1,99; 10,264].

Orta əsrlərdə ox və yayın formalarında müəyyən fərqlər mövcud idi [bax: 9,78-87]. Lakin mənbələrdəki məlumatlar səthi olduğundan Qaraqoyunlular dövründə ox və yay növlərini təyin etmək üçün daha ətraflı məlumat əldə etmək müəyyən çətinliklər yaradır. Buna baxmayaraq, ilkin qaynaqlarda Qaraqoyunlu ordusunda istifadə olunan oxlar barədə müəyyən məlumat əldə etmək mümkündür. Həsən bəy Rumlu 1419-cu ildə Ərzincan hakimi Pir Ömərlə Ağqoyunlu Qara Osman Bayandur arasında Tərcan vilayətində Humək adlı yerdə baş verən döyüşdə dörd qanadlı oxlardan istifadə edildiyini bildirərək yazır: "Dörd qanadlı oxlar kaman yuvasından uçub, bahadırların kinlə dolu sinələrinə oturdu" [26,91]. İlkin mənbədə 1421-ci ilin iyulunda Teymuri hökmdarı Sultan Şahruxla Qaraqoyunlu hökmdarı Qara İsgəndər arasında baş verən Ələşkerd döyüşündən bəhs olunan zaman döyüşdə dörd qanadlı oxlardan istifadə edildiyi bildirilir: "Pərakəndə etdilər tirkeşi xədəngin qorxusundan" [26,101].

Orta əsrlər dövründə türklərin istifadə etdiyi oxlar arasında fitli oxlar daha çox məşhur idi. Düz, yivli və ya dəmir ucluqlu oxlar türk ordularının əvəzsiz silahı idi. Polad ucluqlu oxlar isə müvafiq məsafələrdə qalxanları, zirehləri və hətta dəbilqələri də deşə bilirdi. Teymuri ordusunda istifadə olunan oxların uçuş məsafəsi 660-846 metr arasında idi [18,273]. Uzun illər davam edən Teymuri-Qaraqoyunlu qarşıdurmasını, Əmir Teymurun və oğlu Sulatan Şahruxun Azərbaycana hərbi səfərlərini, baş verən döyüşləri nəzərə alsaq, qarşı tərəfin istifadə etdiyi döyüş silahlarından geri qalmamaq üçün Qaraqoyunlu ordusunun təchizatında

olan oxların da uçuş məsafəsinin Teymuri oxlarından geri qalmadığı qənaətinə gəlmək mümkündür.

Qaraqoyunlu ordusunda kompozisiyalı (çoxqatlı) yaylardan istifadə edilmişdi. Birqatlı yaylar istisna olmaqla bütün yaylarda yapışqan və ya yapışqan funksiyasını yerinə yetirən bir bağlayıcı maddə var. Əgər təbəqələrin təsnifatında buna məhəl qoymasaq, deyə bilərik ki, üç kateqoriya yaylar var: "bir qatlı", "iki qatlı" və "çox qatlı". Digər tərəfdən, yapışqanı ayrıca bir təbəqə hesab etsək (yapışqan yayın fiziki tutumuna təsir edən maddədir), bir qatlı yaylardan sonra yaranan bütün formalar ən azı üç təbəqəyə malik olacaqdır. Bu halda "bir qatlı" və "çox qatlı" yaylar olaraq iki qrup olacağını söyləyə bilərik [30,17]. Çox qatlı yaylar kompozisiyalı yaylar kimi tanınmışdır.

Tədqiqatçılar çox zaman quruluş etibarı ilə yayları insanla müqayisə edirlər. Y.Yadin yazır: "Kompozisiyalı yayın quruluşu insandan fərqli deyil. İnsan bədəni əsas elementlərdən – sümüklərdən, ətdən, damarlardan və qandan ibarətdir. Kompozisiyalı yay da eyni dörd elementə malikdir: ağac – onun skeleti; buynuzlar – onun əti; vətərlər – onun arteriyaları; yapışqan – onun qanıdır. İnsanın kürəyi və qarnı olduğu kimi, yay da belədir. Necə ki, insan qabağa əyilə bilər, amma çox geriyə əyilməklə özünə zərər verə bilər, kamanın işləməsi də elədir" [33,7; 34,4].

Qaraqoyunluların döyüşdə istifadə etdikləri yaylara gəldikdə isə qeyd etmək lazımdır ki, görünür digər türk dövlətlərində olduğu kimi Azərbaycan Qaraqoyunlu dövlətində də döyüşdə istifadə olunan yaylar arasında ikiqat əyri refleksli yaylar, qarışıq yaylar və çarpaz yaylı qarışıq yaylar üstünlük təşkil etmişdi [18,273-274]. Qarışıq yayın uzunluğu 80-100 sm-ə qədərdir. Boyu qısa olmasına baxmayaraq, tağının genişliyinə görə daha çox uzanma qabiliyyətinə malik idi. O, eyni çəkidə ağacdan hazırlanmış yaylardan iki dəfə uzaq məsafəyə ox atmaq qabiliyyətinə malik idi. Qarışıq yayının oxatan tərəfində böyük təzyiqləri aradan qaldıran mal-qaranın qarın təbəqəsi var idi. Yayın arxa tərəfi gərginliyə davamlı sinirlərlə örtülmüşdü. Bunlar yapışqanla yapışdırılır və ağac qabığı və ya dəri ilə örtülür, sonra hava şəraitindən qorumaq üçün rənglənir və ya laklanırdı. Ordunun atlı oxatanları oxu daha çox uzatmaq üçün barmaqlarına tuncdan üzüklər taxırdılar. Qarışıq yay digər yaylardan daha sürətli və daha sərfəli idi [bax: 24,131-149]. İ.Barbaro Təbrizdə Uzun Həsənlə görüşü zamanı Hindistandan göndərilmiş qiymətli hədiyyələr arasında yay çəkmək üçün barmağa taxılan qızıl üzüyün olduğunu qeyd edir [3,73].

Orta əsrlərdə dövlətlər silah istehsalı üçün lazım olan materialları, ilk növbədə, öz ərazilərindən əldə edirdilər. Klavixo Səmərqəndə səfəri zamanı Əmir Teymurun xəzinələrinin yerləşdiyi qəsrdə min nəfərin çox yaxşı çalışan usta olduğunu və bu ustaların il boyu ordu üçün ox və yay, eləcə də digər döyüş silahlarının hazırlanması ilə məşğul olduqlarını bildirir [6,244-245].

Mənbələrdə Qaraqoyunlular dövründə ox və yay istehsalı haqqında məlumat yoxdur. Bununla belə, ehtiyac duyulduqda lazım olan silahları xaricdən də gətirə bilirdilər. Qaraqoyunluların silah idxal etdiklərini Basibrinalı Addayın nəql etdiyi rəvayətdən də görmək mümkündür. O, qeyd edir ki, "Qara Yusifə Hələbdən, Dəməşqdən və başqa yerlərdən material, ərzaq və silah gələcək"di [4,28]. Erməni müəllifi Toma Metsopski 1408-ci ildə Qara Yusifin Bitlis əmiri Şəmsəddinlə görüşü zamanı onun Qara Yusifə "yemək, qatır, at, silah və hər cür döyüş texnikası" verdiyini yazır [22,27].

Qaraqoyunlu ordusu digər türk orduları kimi ox atmaqda çox məharətli idi. Qaraqoyunlu oxatanları oxları o qədər güclü və dəqiq atırdılar ki, onların hər cür zirehləri deşmək məharəti var idi. Zəmanəsinin heç bir hökmdarının qoşunu Qara Yusifin ordusu qədər yaxşı silahlarla təmin edilməmişdi. Hafiz Əbru yazır ki, dövrünün heç bir sərkərdəsi Qara Yusif qədər əsgərinə hərbi təlim keçməmiş, onu silahla təmin etməmişdi. Onun əsgərləri at çapmaqda və ox atmaqda ad-san qazanmışdılar [28,113].

## 2. Qılınc

Qılınc türklərin ox və yaydan sonra istifadə etdiyi ən mühüm döyüş silahıdır [12,318]. Qılıncın əsas döyüşlərdə istifadə edilən silahlardan biri olması onun küləkli havada hədəfini itirmə ehtimalı olan ox və nizə kimi silahlardan daha faydalı olması ilə əlaqədardır [13,175].

Orta əsr İslam dünyasında fərqli qılınclardan istifadə edilirdi. Qılınclar adətən istehsal olunduğu yer, metalın növü və ustaların adları ilə adlandırılırdı [bax: 9,100-101]. Hind qılıncları orta əsrlərdə çox məşhur idi. Hind qılınclarından Qaraqoyunluların sələfləri olan Böyük Səlcuqlular, Türkiyə Səlcuqları və Elxanilər istifadə etmişdilər. Qaraqoyunluların müasiri olan Teymurilər də hind qılınclarından istifadə edirdilər [9,101]. Əbubəkr Tehrani Ağqoyunlularda da ikiağızlı hind qılıncının istifadə olunduğunu yazır [29,99]. İlkin qaynaqlar Qaraqoyunlular tərəfindən polad qılınclardan istifadə edildiyini göstərir [29,66]. Söndürülmüş poladdan hazırlanmış qılınclar, ümumiyyətlə, hind qılıncları adlanırdı [32,145]. Bu məlumat bizə hind qılıncının Qaraqoyunlular dövründə istifadə olunduğunu göstərir.

Dəməşq qılıncları orta əsrlərdə çox məşhur idi. Çox güman ki, Qaraqoyunlular da Dəməşq qılınclarından istifadə etmişlər. Yuxarıda Qara Yusifin Hələb və Dəməşqdən ləvazimat və silah aldığını qeyd etmişdik. Bu, Qaraqoyunluların Dəməşq qılınclarından da istifadə etdiklərini təsdiq edir.

Orta əsrlərin digər ordularında olduğu kimi, Qaraqoyunlu ordusunda da qılıncdan geniş istifadə edilirdi. Qılınc dövrün farsdilli mənbələrində tig və şəmşir [bax: 29,205; 26,52, 59], ərəbdilli qaynaqlarda isə seyf və hüsam [bax: 11,267,306,323,335,336,337,353] kimi qeydə alınmışdır. Qaraqoyunlu ordularında istifadə olunan qılınc forma etibarı ilə qıvrılmış aslan quyruğuna bənzəyirdi [19,255-257]. Dehxuda lüğətində qılınc (şəmşir) belə təsvir edilir: "İti kənarlı, uzun və meyilli bir tiyəsi olan polad bir silahdır. Tiyə (şəm) və dəstək (şir) adlı iki fərqli parçadan meydana gəlir. Şəm quyruq və ya pəncə mənalarını verir və hər iki mənada istifadə edilə bilir. Buna görə də bu silah aslanın quyruğu və ya aslanın pəncəsi mənasını verir" [bax: 19,246-247; 25,444]. Hafiz Əbru qılıncın "dəstək", "ucluq", "qın" kimi hissələrdən təşkil olunduğunu göstərir [16,122,189; 10,279].

Bəzi mənbələrə görə, əyri qılınclar ilk dəfə türklər tərəfindən hazırlanmışdır [15,113]. Əyri qılıncla düz qılınc arasındakı fərqlərdən biri bütün gücün qılıncın ucuna yaxın əyridə cəmlənməsi idi. Beləliklə, qılıncın kəsici gücü daha qabarıq olardı. Onun düz qılıncdan başqa bir fərqi, yalnız bir tərəfdən iti olması idi. Əyri qılınclarda bilək hərəkəti vacib idi. Bununla belə, düz qılınclar ağır idi və onların istifadəsi daha çox bilək gücünə əsaslanırdı. Buna görə də əyri qılıncdan istifadə etmək xüsusi çeviklik tələb edirdi. Türk qılınclarının digər mühüm xüsusiyyəti onların nazik olması idi. Türk ordularının yüngül süvari birləşmələrindən ibarət olması onların uzun qılınclardan istifadə etməsinə səbəb olmuşdur. Qısa qılınclardan daha çox ağır piyadalar istifadə edirdi. Buna görə də sürətli hərəkət edən süvari hissələrin istifadə edə biləcəyi qılınclar uzun olurdu. Qələbə qazanılmasında uzun qılınclardan istifadənin böyük rolu vardı [12,319-320].

Qılınc orduların əlbəyaxa döyüşlərdə ən çox istifadə etdiyi silahdır. Küləkli havada ox və ya nizə kimi hədəfindən yayınma ehtimalı olmadığı üçün yaxın döyüşdə də daha təsirli silahdır. Buna görə də döyüşçülərin ən çox üstünlük verdiyi silah qılıncdır. Əslində, orta əsrlərdə türklərin istifadə etdiyi qılınclar, ümumiyyətlə, dəstəyə yaxın düz, ucuna yaxın isə bir qədər əyri idi.

Həlledici döyüşlərdə Qara Yusifin qoşununun qılınclardan geniş istifadə etdiyini və döyüşün taleyini həll etdiyini ilkin qaynaqlar təsdiq edir. Həsən bəy Rumlu 1406-cı ilin oktyabrında Qara Yusiflə Teymuri Əbu Bəkr arasında Naxçıvan yaxınlığında baş verən döyüşlə bağlı yazır: "Qara Yusif Türkmanın ordusu bacarıqlı ərlərin yardımı ilə səy göstərib, qılınc və xəncər zərbəsi ilə səhranın səthini [qanla] Ceyhun [çayına] çevirdilər" [26,54].

Həsən bəy Rumlu 1408-ci ilin aprelində Sərdrudda Qara Yusiflə Teymuri Əbu Bəkr arasında baş vermiş ikinci döyüşü təsvir edərkən yazır: "Qara Yusif, Mirzə Əbu-Bəkrin mərkəzə həmlə edəcəyini düşündüyü üçün oradan çıxıb digər bir qoşuna qatıldı və fikirləşdi ki, əgər mərkəzin köməyə ehtiyacı olsa, dərhal oraya yardım edərəm. Bu əsnada Əmir Bistam və digər böyük əmirlər kin qılıncını qından sıyırıb Mirzə Əbu-Bəkrin sol və sağ cinahlarına həmlə etdilər. Cani Qurbaninin adamları o həmlə qarşısında tab gətirməyib məğlubiyyətə uğradılar. Türkman bahadırlarının bir dəstəsi mərkəzə yönəldi. Mərkəzin önündə olan Baba Hacı bəy Gavərudi müdafiə olunmağa və müqavimət göstərməyə başladı. Türkman qoşunları kəsici qılınc və can alan nizə zərbələri ilə Baba Hacı bəyin qoşununun bir dəstəsini zillət torpağı üzərinə sərdilər. Mərkəzdən kimsə köməyə çatmadığı üçün Baba Hacı bəy məğlub olub mərkəzə çəkildi" [26,61].

Əbu Bəkr Tehrani 1457-ci ilin noyabrında Cahanşahın Astrabada yürüşündən bəhs edərək yazır ki, Teymuru Sultan İbrahimlə baş verən döyüşdə Cahanşah rüstəm Zal kimi vuruşurdu və hay çəkib əmirlərinə deyirdi: "Biz burada ya ölməli, ya da sağ qalmalıyıq. Ürəkli olun, bu gün mərdlik günüdür". Bu sözləri deyib şir kimi nərə çəkirdi və qılınc çalırdı" [29,186]. Həmin döyüşdən bəhs edən Həsən bəy Rumlu yazır: "Müzəffər bayraqlı türkman ordusu cağatay ordusunun arxasına keçib onları amansızlıqla qılıncdan keçirdi" [26,215].

Dövrün qaynaqlarında döyüşdə göstərdiyi igidliyə, rəşadətə görə döyüşçülərə hədiyyə qismində qılınc verildiyi kimi, tanınmış əmirlərə və hətta hökmdarlara da "daş-qaşla bəzədilmiş qılınc" hədiyyə edildiyi barədə məlumatlar vardır. Qılıncın bənzərsiz bir hədiyyə olduğununu təsdiq edən Zeynəddin bin Həmdullah Qəzvini yazır ki, Məlik Əşrəf Qarabağda olan zaman Şirvanşah Kavus onun yanına gəldi. Məlik Əşrəf ona "kəmər, papaq və qiymətli daş-qaşla bəzədilmiş qılınc verdi" [21,19; 10,279]. Bu məlumat hələ XIV əsrdə də hədiyyə kimi qılıncın verildiyini təsdiq edir. Əbubəkr Tehrani yazır ki, Uzun Həsən Qoyluhisara qayıdan zaman Cahanşah tərəfindən Eynal adlı bir elçi gəldi və hədiyyə kimi qızıl qılınc kəməri və çoxlu parçalar gətirdi [29,205].

Qaraqoyunlular dövründə Azərbaycanda qılınc istehsalı haqqında qaynaqlarda ətraflı məlumatın olmaması, o demək deyildi ki, ölkədə qılınc istehsal edilməmişdi. Qara Yusif dövründə Qaraqoyunlular 50 minlik süvari orduya sahib idi və bu ordunun əsas döyüş silahlarından biri də qılınc olmuşdu. Qaraqoyunlulara qədər Təbriz şəhəri Elxanilər və Cəlairilər dövlətinin, eləcə də Əmir Teymur və varislərinin paytaxtı olmuşdu. Qaraqoyunluları əvəz edən Ağqoyunlu sülaləsi dövründə də dövlətin paytaxtı yenə də Təbriz şəhəri olmuşdu. Təbriz həm Elxanilər, həm də Ağqoyunlulqr dövründə əhəmiyyətli bir silah istehsal mərkəzi idi. Təbrizdə poladı işləyə biləcək yüksək oxdanlı yanacağın və daş kömürünün bu şəhərdə olması Təbrizi əhəmiyyətli bir polad mərkəzinə çevirmişdi [32,144]. Ağqoyunlular dövründə də Təbriz silah istehsalı mərkəzi idi. Venesiya diplomatı İ.Barbaro Təbriz ətrafında “Beşköy” adlı kənddə dövlətin silah emalatxanasının olduğunu, burada süvarilər üçün dəmir zirehin və silahların hazırlandığını qeyd edir [3,83-84]. Həsən bəy Rumlu 1410-cu ildə Sultan Əhməd Cəlairin Təbrizə yürüşündən xəbər tutan Qara Yusifin Ərzincandan Təbrizə hərəkət etdiyini xəbər verərək yazır: “Qara Yusif... polad geyimli, dəmir libaslı ordu ilə dəmirə qərq olmuş halda, hay-küylü bir şəkildə Təbrizə doğru hərəkətə gəldi və “Səpələnmiş çəyirtkələr kimi” qırx köç mənzilindən sonra Şənbi-Qazan ətrafında dayandı” [26,69]. Bu, Qaraqoyunlu ordusunda istifadə olunan döyüş silahları ilə yanaşı, süvari ordunun lazımı şəkildə zirehlə təmin edildiyini təsdiq edir.

Görünür, Ağqoyunlular dövründə olduğu kimi, Cahanşah dövründə özünün yüksəliş dövrünü keçirən Azərbaycan Qaraqoyunlu dövlətində də Təbrizdə qılınc və zireh istehsalı üçün lazımlı mədənlərin olması paytaxtın silah istehsalının mühüm mərkəzi olduğunu söyləməyə imkan verir.

### 3. Xəncər

Xəncər ortalama 30-35 sm. uzunluğunda əyri, iti uclu, iki tərəfi iti bir döyüş alətidir. Bir qayda olaraq, xəncər tiyəsi “qın” adlanan bir futlyara qoyular və qəbzəsi asanlıqla ələ gələ biləcək şəkildə bel qurşağına taxılır və ya kəmərə asılaraq daşınardı. Xəncərdən daha çox əlbəyaxa döyüşlərdə istifadə olunurdu [8,548].

İlkin qaynaqlar Qaraqoyunlu ordusunun döyüşdə xəncərdən istifadə etdiyi barədə məlumat verirlər. 1406-cı ilin oktyabrında Qara Yusifin Əbu Bəkrlə döyüşü zamanı qaraqoyunlular qılıncla yanaşı, xəncərdən də istifadə etmişdilər [26,54; 25,445]. Həsən bəy Rumlu 1412-ci ilin dekabrında Qara Yusifin Kür qırağında Şirvanşah İbrahim və müttəfiqləri ilə baş verən döyüşündə digər döyüş silahları ilə yanaşı, xəncərdən də istifadə edildiyini qeyd edərək yazır: “Nilufər rəngli xəncərin üzü gürcülərin çöhrəsində zəfəran rənginə boyandı” [26,79]. Qaraqoyunlu İsgəndərlə Sultan Şahrux ordusu arasında 1421-ci ildə Ələşkerddə baş verən döyüşdə də xəncərdən istifadə edildiyi ilkin mənbələr təsdiq edir. Həsən bəy Rumlu yazır: “Qoşunlar bir-birinə qarşı oxla, nizə ilə, xəncərlə hücuma keçdilər” [26,102].

Qaraqoyunlu döyüşçüləri kimi, hökmdarlar da döyüşdə qılınc və xəncərdən istifadə edirdilər. 1438-ci ildə Əlincə qalasında Qaraqoyunlu İsgəndərə qarşı oğlu Şah Qubad sui-qəsd hazırlayan zaman İsgəndərin arvadı onun qılıncını və xəncərini gizlətmiş, oğlu sui-qəsdçilərlə onun yataq otağına daxil olaraq onu öldürmüşdü [26,146; 25,445].

### 4. Nizə (Mizraq)

Nizə “dürtmək, atmaq və deşmək” mənasını verən döyüş alətinin adıdır. Nizə sərt və əyilməz uzun nazik ağacdan hazırlanır və ucuna sümükdən, misdən, tuncdan, dəmirdən və ya poladdan hazırlanmış ucluq bərkidilirdi. O, dəlici, deşici yaxın döyüş silahı kimi birbaşa hədəfə atılmaqla uzaq məsafəli silah kimi də istifadə olunurdu [31,30; 25,445].

Azərbaycan Qaraqoyunlu dövlətinin döyüş silahları arasında ox və yay, qılıncdan sonra ən çox istifadə olunan soyuq silah nizə idi. Əbdürrəzaq Səmərqəndi Teymurlu hökmdarı Sultan Şahruxun qarşısına çıxan Qara Yusufin əsgərlərini təsvir edərkən, “Türkman əsgərlərinin ox-yay, nizə və qılıncla silahlandığını” qeyd edir [27,280; 25,445].

1421-ci ilin iyuluna Qaraqoyunlu İsgəndərlə Teymuru sultanı Şahrux arasında baş verən Ələşkerd döyüşündə Qaraqoyunlu süvari ordusunda ox və yay, qılıncla yanaşı, nizədən də geniş istifadə olunmuşdu [29,69; 26,102]. Əbubəkr Tehrani yazır: “İsgəndər mirzə qılıncını çəkib dəryaların nəhəngi kimi cövlana gəldi. Hər tərəfdən qan arxları Araz çayı kimi axırdı.... İsgəndər mirzənin cinahı məğlub oldu. İsgəndər mirzə öz sol cinahını görüb qəzəbləndi, qəlbi alovlandı, özünü Şahrux mirzənin önündə düzülən fillər və kamanlı piyadaların düz ortasına vurdu və Baysunqur, Əmir Şah Məlik və Şeyx Loğmanı məğlub etdi, qoşunun ön dəstəsini dağıtdı, çoxlu əsir aldı. Piyadaların çoxu onların nizələrinə tuş gəldilər, atlıların çoxu həlak oldu” [29,69].

### 5. Toppuz (gürz) və balta

Toppuz orta əsrlərdə əhəmiyyətli döyüş silahların-

dan biri idi. Bu döyüş alətinin müəyyən bir ağırlığa sahib olması düşmən üzərindəki təsirini artırmaqdaydı. Toppuz farsdilli qaynaqlarda gürz, ərəbdilli qaynaqlarda isə amud adlarıyla təqdim olunur [7,327; 9,121]. Qaraqoyunlu ordusunda toppuz (gürz) və baltadan istifadə edildiyini Abdullah əl-Bağdadi İsfahan mirzənin 1433-cü il aprelin 9-da qardaşı Şah Məhəmmədi Bağdadda mühasirəyə aldığı zaman əsgərlərinin toppuz və baltadan istifadə etdiyini qeyd etmişdir [11,288]. Həsən bəy Rumlu Qaraqoyunlu əmiri Rüstəm Tərxanla Uzun Həsən arasında baş verən döyüşdə də ağır toppuzdan (gürz) istifadə edildiyini bildirərək yazır: "Ağır gürz dikbaşların boynunu qırırdı. Ölüm ahəngli ox atla süvarini bir-birinə tikirdi [26,205].

## Nəticə

Azərbaycan Qaraqoyunlu dövlətində ordu əsasını süvari qoşunlar təşkil etdiyindən yüngül döyüş silahlarından geniş istifadə olunmuşdu. İlkin mənbələrin məlumatlarına görə, Qara Yusif və varisləri dövründə Qaraqoyunlu ordusu özünün döyüş nizamı, ayrı-ayrı döyüşlərdə göstərdiyi şücaət və qəhrəmanlıqlarla ad-san qazanmışdılar. Bu, hətta onların başlıca rəqibləri olan Teymuri hökmdarlarını, o cümlədən Sultan Şahruxu da narahat etmişdi. Yüz minlik ordu ilə Azərbaycana yürüşə çıxan Teymuri hökmdarı Qaraqoyunlu süvari ordusunun döyüş silahlarından mükəmməl şəkildə istifadə edərək ayrı-ayrı döyüşlərdə göstərdiyi yenilməzliyi, şücaəti qiymətləndirmək məcburiyyətində qalmışdı. Say etibarı ilə az olmasına baxmayaraq, qaraqoyunlu əsgərlərinin göstərdiyi rəşadət qarşı tərəfi o dərəcədə qorxuya salırdı ki, məğlub olmalarına baxmayaraq, düşmən çox zaman onları təqib etməkdən çəkinirdi.

İlk mənbələrin verdiyi məlumatdan aydın olur ki, ağır silahlanmış Qaraqoyunlu süvari kompleksi dəbilqə, yaraq, ox, yay, nizə, şeşpər və qılıncdan ibarət olmuşdu. Bir qayda olaraq döyüşdə uzaqdan oxlar atılır, yaxınlaşandan sonra nizə, sonra isə qılınc və şeşpərdən istifadə olunurdu.

**Açar sözlər:** *Qaraqoyunlu dövləti, Şərqi-Anadolu, ox və yay, qılınc, nizə.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Аджа'иб ад-дунйа (Чудеса мира). Критич. Текс, пер. с перс., введ., комментари и указатели Л.П. Смирновой. Москва: Наука, 1993.*

*2. Andreasyan H.D. "XIV ve XV. Yüzyıl Türk Tarihine Ait Ufak Kronolojiler ve Kolofonlar", İstanbul Üniversitesi Edebiyat Fakültesi Tarih Enstitüsü Dergisi, sayı 3, 1973, s. 83-149.*

*3. Barbaro J. Anadolu'ya ve İran'a Seyahat. Çeviri ve Notlar: Tufan Gündüz. Yeditepe Yayınevi, İstanbul: 2005.*

*4. Basibrinalı Adday. Basibrinalı Adday Vakayinamesi, Terc. Kutlu Akalın. Peywend, İstanbul: 2015.*

*5. Beyhakî Şucâ'u'd-Din Dorûd-Bâşî-yi. Câmi'u'l-Hidâyet fî 'İlmi'r-Rimâyet (Okçuluk Sanatı), Terc. İbrahim Duman. Büyüyen Ay Yayınları, İstanbul: 2020.*

*6. Clavijo Ruy Gonzales. Timur'un Hayatı-Kadiz'den Semerkant'a Seyahatler, Çev. Zeynep Ertan. Pozitif Yay., İstanbul: 2008.*

*7. Çoruhlu T. "Gürz", DİA, İstanbul: TDV Yayınları, 1996, 44 Cilt, 14: s. 327-328.*

*8. Çoruhlu T. "Hançer", DİA, İstanbul: TDV Yayınları, 1997, 44 Cilt, 15: s. 548-550.*

*9. Duman İ. Büyük Selçuklu Ordusunda Kullanılan Savaş Aletleri. Selenge Yayınları, İstanbul: 2020.*

*10. Əhmədov S.Ə. Azərbaycan silahları IX-XVII əsrlərdə: təkamül və inkişafı. Bakı: 2017.*

*11. Əl-Bağdadi Abdullah b. Fəthullah. Əl-Düvəlü'l-İslamiyyə fî əl-Şərq, (Tarixü'l Qıyasi).Tah. Tarık Nafi' əl-Həmdani. Beyrut: Dar və Məktəbətü'l-Hilal, 2010.*

*12. Göksu E. Türkiye Selçuklularında Ordu, Türk Tarih Kurumu Yayınları, Ankara: 2010.*

*13. Göksu E. Türk Kültüründe Silah. Ötüken Neşriyat, İstanbul: 2015.*

*14. Göksu E. Okla Yükselen Millet, Okçular Vakfı Yayınları, İstanbul: 2018.*

*15. Gumilöv L.N. Hazar Çevresinde Bin Yıl, Çev. Ahsen Batur, Selenge Yayınları, İstanbul: 2000.*

*16. Хафих Абру. Зайл-и джами ат-таварих-и Рашиди. Пер. с перс., пред., коммен., примеч. и указатели Э.Р.Талышханова. Баку: Нафта-Пресс, 2007.*

*17. Хунджи Рухбихан ибн Фахлуллах. Тарих-и алам-ара-йи Амини. Перевод с английского на русский Т.А.Минорской. Баку: Елм, 1987.*

*18. Kafesoğlu İ. Türk Milli Kültürü. Ötüken Yay., İstanbul: 2011.*

*19. Khorasani M.M. "İran Shamshir'nin (Şimşir) Tarihi", /Tarihe Yön Veren Silah Kılıç, Ed. Tolga Akay-Süleymen Tekir, İdeal Kültür Yayıncılık, İstanbul: 2019, s. 245-272.*

*20. Klopsteg E.P. Türk Okçuluğu, Erdem Yayınları, İstanbul, 2019.*

*21. Qəzvini Zeynəddin bin Həmdullah. Zeyl-e tarix-e qozide (Seçilmiş tarixə əlavə). Fars dilindən tərcümə, müqəddimə, qeydlər və göstəricilər M.D.Kazı-*

*mov və V.Z.Piriyevindir. Bakı: Elm, 1990.*

*22. Metsopski Toma. Timurlenk ve Haleflerinin Tarihi, Terc. Gürsoy Solmaz. Elips Kitap, Ankara: 2009.*

*23. Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı: Çaşıoğlu, 2012.*

*24. Özden S., Gündüz G.O., Sadettin M. "Türklerde Yay Yapımı ve Ağaç Kullanımı", Düzce Üniversitesi Ormancılık Dergisi, Haziran 2009, V/ I, s. 131-149.*

*25. Paydaş K., Korkmaz A. "Kara-Koyunlu Devleti'nde Silah Teknolojisi: Orduda Kullanilan Silah Ve Teçhizat", //Ortaçağ Araştırmaları Dergisi, III/II, Aralık 2020, s. 442-450.*

*26. Rumlu Həsən bəy. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Fars dilindən tərcü-mə və şərhlər: AMEA-nın müxbir üzvü, t.e.d., prof. Oqtay Əfəndiyev, t.ü.f.d., dos. Namiq Musalı. Kastamonu: 2017.*

*27. Səmərqəndi Əbdürrəzzaq. Mətləüs-səadeyn və məcməül-bəhreyn. Ba ehtemami: Ə.Nəvai. II c. Tehran: 1383.*

*28. Sümer F. Kara Koyunlular (Başlanğıcdan Cihan – Şaha kadar). I cilt. Türk Tarih Kurumu Basımevi, Ankara: 1984.*

*29. Tehrani Əbubəkr Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən, ön söz və şərhlərin müəllifi Rahilə Şükürova. Bakı: Elm, 1998.*

*30. Temizkan A. ve Çoban R.E. "Dedem Korkut Kitabındaki Silah Terminolojisi Üzerine Bir İnceleme" // Türk Dünyası İncelemeleri Dergisi, sayı 15, 2015, s.15-28*

*31. Terzi Mustafa Zeki. "Mızrak", TDV İA, TDV Yayınları, İstanbul, 2005, c. 30, s. 3-4.*

*32. Uyar M. İlhanlı (İran Moğolları) Devleti'nin Askerî Teşkilâtı, Doktora Tezi: Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2010.*

*33. Yadin Y. The Art of warfare in Biblical lands in the light of Archaeological discovery. Kudus: International Publishing Company, 1963.*

*34. Yücel Ü. Türk Okçuluğu. İstanbul: Atatürk Kültür Merkezi, 2015.*

**Ульви Зарбалиев**

**Боевое вооружение азербайджанского государства Гара-Гоюнлу**

**РЕЗЮМЕ**

Гара-Гоюнцы правили Восточной и Юго-Восточной Анатолией, Ираном, Ираком и Южным Кавказом почти столетие. Во многих областях они находились под влиянием организационной структуры своих предшественников Джалаирли и Тимуридов, а также продолжили наследие этих государств в области оружейных технологий. Используя традиционное средневековое оружие и снаряжение со своей легкой кавалерией, они стали доминирующей силой в этой географии. Первоначально основанный на легкой кавалерии, тип полевого воина позже был оснащен тяжелым оружием и осадными орудиями.

В этом исследовании мы попытаемся осветить классическое оружие, унаследованное от предшественников Гара-Гоюнлу, которые стали важной боевой силой в Восточной Анатолии, Иран, Ирак и Южным Кавказом с XV века, а также их использование в отдельных сражениях в свете первоисточников. Будут подробно описаны сражения, в которых широко использовалось боевое оружие, используемое в армии Гарагоюнлу - стрелы и луки, мечи, копья и топоры.

**Ключевые слова:** *Государство Карагоюнлу, Восточной Анатолией, лук и стрела, меч, копья.*

**Ulvi Zarbaliyev**

**Combat weapons of the Azerbaijani state of Qara Qoyunlu**

**SUMMARY**

The Qara-Qoyunlu dominated Eastern and South-Eastern Anatolia, Iran, Iraq and the South Caucasus for nearly a century. In many areas, they were influenced by the organizational structure of their predecessors Jalairli and Timurids, and also continued the legacy of these states in the field of weapons technology. Using traditional medieval weapons and equipment with their light cavalry, they became the dominant force in this geography. Initially based on light cavalry, the field warrior type was later equipped with heavy weapons and siege weapons.

In this study, we will try to highlight the classic weapons inherited from the predecessors of the Qara-Qoyunlu, who became an important fighting force in Eastern Anatolia, Iran, Iraq and the South Caucasus since the 15th century, as well as their use in individual battles in the light of primary sources. The battles in which the combat weapons used in the Qara-Qoyunlu army - arrows and bows, swords, spears and axes - were widely used will be described in detail.

**Key words:** *State of Qara Qoyunlu, Eastern Anatolia, bow and arrow, sword, spears.*

UOT 021.93/94

https://orcid.org/0000-0001-5191-0870

# KİTABXANA İNNOVASİYALARI AZƏRBAYCAN KİTABXANA İŞİ TƏDQİQATLARINDA YENİ MÖVZU KİMİ

**NƏRMİNƏ ABDULLAYEVA**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, doktorant,*
*UNEC,Kitabxana İnformasiya Mərkəzi, 3 saylı kitabxananın müdiri*

*E-mail: abdullaevanarmina@gmail.com*
*narmina-abdullayeva@unec.edu.az*

Azərbaycan kitabxanaşünaslığında kitabxana innovasiyalarının tədqiqi məsələlərinin bəzi məqamlarına müəyyən dərəcədə BDU-nun Fəxri professoru, tarix üzrə elmlər doktoru A.A.Xələfovun (əsərlərindən 3 hissədən ibarət "Azərbaycanda kitabxana işinin tarixi", "Kitabxanaların kompüterləşdirilməsinin əsasları" dərsliklərini, "Heydər Əliyev və Azərbaycanda kitabxana işi", "Kitabxana və cəmiyyət" monoqrafiyaları), o cümlədən respublikamızın tanınmış kitabxana işi tədqiqatçılarından tar.ü.e.d. professor X.İ.İsmayılovun ("Kitabxana menecmentinin əsasları" adlı dərs vəsaiti və "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000-ci illər)" adlı monoqrafiyası, "Kitabxana-informasiya texnologiyaları" adlı dərs vəsaiti), filologiya üzrə elmlər doktoru A.İ. Əliyeva-Kəngərlinin ("Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar" adlı monoqrafiya) BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dosentləri R.Ə.Kazımovun ("Kitabxana işinin iqtisadiyyatı") və Ə.M.Rüstəmovun ("İnformatika (İnformasiya proseslərinin təşkili və avtomatlaşdırılması) adlı dərs vəsaiti) elmi əsərlərində müxtəlif aspektlərdə yer ayrılmışdır.

İlk öncə, innovasiya fəaliyyətinin mahiyyətinə nəzər salaq. İnnovasiya fəaliyyəti deyərkən istehsal, kommersiya, idarəetmə və sosial proseslərin səmərəliliyini artıran elmi tədqiqatların və təcrübi-konstruktor işlərinin nəticələrinin praktiki tətbiqi nəzərdə tutulur. İnnovasiya prosesi nəticəsində yeni və ya təkmilləşmiş məhsul, xidmət təklif olunur. Eyni zamanda innovasiya texnoloji prosesləri, idarə və təşkil etmə proseslərində tətbiq oluna bilər. Beləliklə, innovasiya fəaliyyəti cəmiyyətin intellektual fəaliyyətinin təkmilləşdirilməsinə yönələn nəticədir. [4, s.10]

Nəzəriyyəyə əsaslanaraq qeyd etmək olar ki, kitabxana işində innovasiyalar - dəyişikliklərdir, onların əsas təyinatı - kitabxana fəaliyyətinin təkmilləşdirilməsi, oxucuların sorğu və tələbatına uyğun informasiya təminatının həyata keçirilməsidir. Kitabxanaşünaslıq elmində innovasiyalar kitabxana fəaliyyətinin (elm, təcrübə, təhsil) bütün sferalarının inkişafının əsas amili rolunu oynayır [13, s. 56-70].

Rus alimi Kaçanova E.Y. (Качанова Е.Ю. Инновации в библиотеках. 2003) *"Kitabxanalarda innovasiyalar"adlı əsərində* [11, s. 34-48] innovasiyaya dair terminoloji bazanın izahını aşağıdakı kimi vermişdir:

*İnnovasiya* kitabxananın fəaliyyətində müsbətə doğru olan dəyişikliklərin nəticəsidir. Bu dəyişikliklər özünü onda göstərir ki, elmi ideya və ya texniki ixtira təcrübədə istifadə mərhələsinə qədər gətirilib çıxarılır. Müəssisənin inkişafına təsir göstərən iqtisadi səmərə verməyə başlayır. Görünür ki, elə buna görə də elmi nəşrlərin müəllifləri, innovativ menecment dərsliklərinin və rəsmi sənədlərin tərtibçiləri "innovasiya" anlayışını müəyyən edərkən "obyekt" yanaşmasını əldə rəhbər tuturlar. *İnnovasiya* – kitabxanada mövcud olan məhsul və xidmətlərin, onun texnologiyasının, xidmətin forma və metodlarının yenilənməsi, digər kitabxanalarla rəqabətliliyin artmasıdır.

*İnnovasiya prosesi* isə kitabxananın fəaliyyətini irəliyə doğru inkişaf etdirəcək ideyanın yaranmasından yeniliyin istifadəsinə qədər olan zaman kəsiyində ardıcıl görülən işlərdir.

*İnnovasiyalaşdırma* - yeni ideyaların yaradılması və tətbiqi hesabına kitabxananın iqtisadi və ya sosial potensialında məzmunlu, məqsədyönlü dəyişikliklərin həyata keçirilməsi fəaliyyətidir. İnnovasiyalar məhsullara və proseslərə olan tələbatların, iqtisadiyyatın müxtəlif sahələrində və ümumiyyətlə, bazar iqtisadiyyatında olan dəyişikliklərin, demoqrafik inkişafın və yeni biliklərin nəticəsi olaraq meydana çıxa bilər.

*Kitabxana innovatikası* - kitabxanaşünaslığın yeni bir istiqaməti kimi kompleks elmdir və fənlərarasıdır, özündə müxtəlif elmlərin nailiyyətlərini (innovasiya və elmşünaslığın, pedaqogika və psixologiyanın, idarəetmənin (menecment) və marketinqin, kitabxanaşünaslığın və informatikanın ümu-

mi nəzəri əsaslarını) birləşdirir, respublikanın müasir hərtərəfli inkişafı şəraitində kitabxanaların innovasiya fəaliyyətinin təcrübi effektivliyinin artırılması məqsədi daşıyır. Kitabxana innovatikası kitabxana fəaliyyətinin effektiv dəyişilməsi prosesini araşdırıb öyrənməlidir. Bu proses, müasir ictimai tərəqqi dövründə kitabxana işinin səmərəli inkişafına təkan verən ideyaların hazırlaması (kitabxanaşünaslıqda və onunla sıx əlaqəli elmlərdə), onların kitabxana fəaliyyətinin (tətbiqi elmi tədqiqatlar vasitəsilə) konkret şəraitinə uyğunlaşdırılmasından başlamış, həmin ideyaların dəyişikliklərin gerçək obyektinə tətbiq edilməsinə, kitabxana sahəsində və əlaqədar sferalarda innovasiya layihələrinin geniş yayılmasına qədər və s. məsələləri əhatə edir.

Kitabxana innovatikasının obyekti - bir sosial institut kimi kitabxananın fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş, onların qarşısında duran vəzifələrin, sosial məsələlərin səmərəli həllinə imkan verən elmi tədqiqatların və müstəqil araşdırmaların nəticələridir. Onun predmeti isə - qazanılmış elmi nailiyyətlərin kitabxana təcrübəsində, təhsildə və fasiləsiz təhsildə reallaşdırılması xüsusiyyətləri və irəliləyiş yollarıdır.

Kitabxana innovatikası kompleks və fənlərarası elm olub, cəmiyyətin ümumi inkişafı şəraitində kitabxanaların innovativ fəaliyyətinin təcrübi əhəmiyyətinin yüksəldilməsi məqsədi daşıyır. O, cəmiyyətin inkişafının müasir şəraitində kitabxana işinin produktiv tərəqqisinə səbəb olan yeni ideyaların işlənib hazırlanmasından (kitabxanaşünaslıq və digər əlaqədar elm sahələrində), onların təcrübi araşdırmalardan sonra iş fəaliyyətinə tətbiq olunması və innovativ işlərin kitabxana işi və ona yaxın olan sahələrdə geniş təbliği və yayılmasına qədər və s. prosesləri öyrənməlidir.

İnnovativ kitabxana fəaliyyətinin problematikası ilə oxucunu tanış etmək zərurəti ona əsaslanır ki, sosial-iqtisadi çevrilişlər, elm və təhsil sisteminin fasiləsiz inkişafı, müasir elmi-texnoloji və humanitar tərəqqinin, əmək bazarında rəqabətin təsiri altında kitabxana innovatikasının mahiyyəti, məqsədi və vəzifələri kitabxanalarda yeniliklər onların fəaliyyəti üçün həyati əhəmiyyət kəsb edən uğurlu inkişafın başlıca amilidir.

Kitabxana innovatikasının məqsədi innovativ kitabxana işinin təşkilati-idarəetmə təminatının mahiyyəti, prinsipləri, forma və metodları haqqında bilik, informasiya verməkdir. Kitabxana işi sahəsində innovativ layihələrin məzmunu, hazırlanması və idarə olunmasında sistemli təsəvvür, bacarıq və vərdişlərin formalaşdırılmasıdır. [12, s.26-32]

Müasir şəraitdə heç bir müəssisə və təşkilat öz fəaliyyətinin müxtəlif tərəflərdən daim təkmilləşdirmədən inkişaf edə bilməz: yeni xidmət və ya məhsulların təqdim olunması, yeni texnologiyalardan istifadə olunması, müəssisənin və işçi heyətin idarə olunması metodlarının yenilənməsi və s.

İnnovasiyalar - inkişafın vacib elementidir: onlarsız kitabxanaların sosial əhəmiyyətli müəssisə kimi qalması, rəqabətədavamlı xidmətlər göstərməsi, bazar iqtisadiyyatı şəraitində öz mövqelərini möhkəmlətməsi mümkün deyil. Kitabxana işində uğurlu innovasiya fəaliyyətinin 3 əsas şərti vardır.

1. İnnovasiya fəaliyyəti geniş biliklər, bacarıq və uyğunlaşmaq qabiliyyəti tələb edən işdir. Belə ki, kitabxana innovasiyalarının icraçıları çalışqan, inadkar və məqsədyönlü olmalıdırlar. Qəbul olunan qərarların məsuliyyəti öz gücünü qiymətləndirməyi tələb edir.

2. Uğur qazanmaq üçün yenilikçilər öz enerji və bacarıqlarına arxalanmalıdırlar. Bütün bu keyfiyyətlər olmadan innovasiyaları tətbiq etmək mümkünsüzdür.

3. Yeniliklər insanın fəaliyyət prosesinə təsir etməklə cəmiyyətə təsir göstərir. [9, s. 40-44]

*Kitabxana işində innovasiyalar öz obyektlərinə və dəyişiklik göstəricilərinə görə təsnifləşdirilir:*

1. Kitabxananın xidmət və məhsulları:

-Sahələrarası şaxələnmədən istifadə əsasında kitabxananın xidmət və məhsul çeşidlərinin genişləndirilməsi, kitabxana sahəsi üçün ənənəvi olmayan xidmət növlərinin işlənib hazırlanması (istifadəçilərin təklifi, kitabxanaçıların təşəbbüsü, marketinq planı)

-Xidmətin fərqləndirilməsi əsasında kitabxananın xidmət və məhsul çeşidlərinin formalaşdırılması (yeni potensial istifadəçi kateqoriyasının müəyyən edilməsi)

-Digər kitabxanaların iş təcrübəsindən yeni məhsul və xidmətlərin götürülməsi (qabaqcıl kitabxana təcrübəsinin tətbiqi)

-İxtisaslaşmanın müxtəlif növlərindən istifadə (sahəvi, janr, funksional)

-Sahəvi şaxələnmənin müxtəlif növlərindən istifadə: Horizontal və konsentrik

2. Kitabxananın istehsal prosesinin vasitələri:

- İnformasiyanın axtarışı, işlənməsi və təqdim olunması və xidmət prosesinin təkmilləşdirilməsi

üçün yeni texniki vasitələrin tətbiqi hesabına kitabxananın resurs bazasının genişləndirilməsi

- İş prosesinə informasiya daşıyıcılarının yeni növlərinin cəlb olunması hesabına resurs bazasında struktur dəyişikliklər
- Fondların mühafizəsi və kataloqlaşdırma, o cümlədən müəs-sisənin digər daxili proseslərinin təkmilləşdirilməsi üçün informasiyanın (sənədlərin) uçot-qeydi, işlənməsi və nizamlanmasının yeni avtomatlaşdırılmış kitabxana-biblioqrafiya vasitələrinin tətbiqi
- Kitabxana proseslərinin mexanikləşdirilməsi vasitələrinin tətbiqi

3. Texnoloji proseslər:

- Xidmətdə yeni texnoloji üsul və metodların istifadəsi, kitabxana xidmətləri və məhsullarına rahat əlyetərliliyinin təminatı (oxucuların uçot-qeyd üsulları, stasionar və qeyri-stasionar xidmət, tələbatların öyrənilməsi, müxtəlif xidmət növlərinin təklif olunması, müxtəlif məqsədli və oxucu təyinatlı kitabxana proqramlarının təşkili
-İnformasiya mühitinin (oxucuların fondda, məlumat-axtarış aparatında, kitabxana binasında yönləndirilməsinin informasiya vasitələri) təşkilinin, komplektləşdirmənin, sənəd kolleksiyalarının təşkili və mühafizəsinin və s. yeni (və ya digər kitabxanaların iş təcrübəsindən götürülmüş) üsul və metodlarının işlənib hazırlanması, uyğunlaşdırılması və tətbiqi;
- Komplektləşdirmə, fondun işlənməsi və mühafizəsi kimi (fondun uçot-qeydi, mühafizəsi, yerləşdirilməsi, kataloqlaşdırma, sənədlərin biblioqrafiyalaşdırılması və s.) əsas texnoloji proseslərin rentabelliyini və effektivliyini təmin edən üsullarının tətbiqi.

4. Kitabxananın təşkilati inkişafı:

- Struktur dəyişikliklər: yeni şöbələrin, bölmələrin, xidmətlərin, müvəqqəti kollektivlərin (komanda) yaradılması; kitabxananın struktur şöbələrinin ənənəvi funksiya və vəzifələrinin dəyişdirilməsi (genişləndirilməsi və ya ləğv olunması)
- Kitabxana işinin planlaşdırılması təcrübəsində dəyişikliklər, strateji planlaşdırma və layihələrin inkişafından istifadə, konsepsiyaların, biznes-planların, sosial layihələrin, strateji planların və inkişaf proqramlarının tərtibi, hazırlanması
- istifadəçi tələb və sorğularının, resursların (imkanların) öyrənilməsi və qiymətləndirilməsi metodikasında dəyişikliklər
- Kitabxananın ictimaiyyətlə əlaqələrinin üsul, metod və vasitələrinin tətbiq və istifadəsində dəyişikliklər (reklam, publicity və public relations, fandreyzinq və s.)
- Kitabxana sərvətinin, ənənələrin, iş prinsiplərinin dəyişdirilməsi

5. İnnovasiya proseslərinin sosial bazası:

- İşçilərin əməyinin və yaradıcı fəallığının stimullaşdırılması sistemində dəyişikliklər: imtiyaz və əlavələrin tətbiqi, işçi heyətin təşəbbüslərinin və maraqlarının stimullaşdırılması vasitələrinin, kitabxanaçıların yaradıcı təşəbbüslərinin öyrənilməsi üsullarının genişləndirilməsi
- Liderlikdə, mexanizmlərin formalaşması təcrübəsində dəyişikliklər, kitabxana (struktur) rəhbərlərinin bacarıqlarının inkişafı, kollektivlə qarşılıqlı əlaqənin formalarının hazırlanma xüsusiyyətləri.
- Kitabxananın təşkilati "mühit"ində olan dəyişikliklər: münaqişələrin qarşısının alınmasının yeni metodları, yüksək ixtisaslı işçilərin işə cəlb olunması, təşkilati davranışın norma və qaydaları, ənənələrə və ideallara sadiqlik, təşkilat mədəniyyəti ideyalarının ötürülməsi üçün yeni idarə mərasimlərinin keçirilməsi və s.
- İxtisasın artırılması sistemində dəyişikliklər, əməkdaşların peşəkar inkişafının uçotu, öyrənilməsi və stimullaşdırılmasının yeni forma və vasitələri, liderlik təməlinin formalaşdırılması, kitabxananın innovativ potensialının inkişafı.
- Kitabxana əməkdaşlarının davranışında dəyişikliklər: qərarqəbuletmə və təşəbbüskarlığın, təhsilə həvəsin fəallaşdırılması, iş keyfiyyətinin yaxşılaşdırılması (əməkdaşların dövrü mətbuatda, konfrans, seminar, radio və televiziya proqramlarında, iclaslarda, müəssisədaxili tədbirlərdə davamlı çıxışları və s.)

Azərbaycanda dövlətin kitabxana işi sahəsində apardığı innovativ siyasətə nümunə olaraq demək olar ki, Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev kitabxana-informasiya sahəsinin inkişafı sahəsində bir sıra fərman, sərəncam və dövlət proqramlarına imza atmışlar. Bunlar: H.Əliyevin 1998-ci il 29 dekabr tarixdə imzaladığı "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu kitabxana işinin bütün sahələrini əhatə edərək onun qanuni tənzimlənməsinə şərait yaratmış, 1998-ci il 3 aprel tarixində imzaladığı "İnformasiya, İnformasiyalaşdırma və İnformasiyanın Mühafizəsi Haqqında" Azərbaycan Respublikasının Qanunu və 2003-cü

il 17 fevral tarixdə imzaladığı "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" müasir informasiya texnologiyalarının Azərbaycanda bütün elm və sənaye sahələrində, o cümlədən kitabxanalarda tətbiqi sahəsində strateji vəzifələri müəyyənləşdirmişdir. İlk dəfə olaraq məhz bu sənəddə dövlətin innovasiya inkişafında elmin rolu önə çəkilmiş, elmtutumlu yeni texnologiyaların inkişafı məsələsi zəruri tələb kimi əksini tapmışdır. Prezident İlham Əliyevin 2008-ci il 6 oktyabr tarixində imzaladığı “Azərbaycan Respublikasında Kitabxana-İnformasiya Sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”, 2015-ci ldən isə bu dövlət proqramın davam etdirəcək daha bir layihə əlaqədar qurumlar tərəfindən hazırlanmaqdadır. Hər bir müəssisə və təşkilatın innovativ siyasətinin başlıca vəzifəsi perspektiv innovasiyaların növlərini dəqiqləşdirməyə imkan verən dəyişikliklərin obyektini doğru seçməkdir [6, s.38-59].

Kitabxanada innovativ fəaliyyətin həyata keçirilməsinin ən vacib amili onun innovativ proqnozlarının, inkişaf strategiyası, proqramı və layihələrinin hazırlanması üçün zəmin olan innovativ siyasətidir. İnnovasiya fəaliyyəti profilindən, miqyasından və statusundan asılı olmayaraq, istənilən kitabxana üçün mühüm şərtdir. Buna görə də, kitabxananın inkişafının innovativ siyasətinin işlənilməsinin zəruriliyi istənilən tip kitabxana rəhbərliyi qarşısında duran ən ümdə məsələlərdən biridir. [10, s. 28]

İnnovasiya siyasəti dedikdə, kitabxanaların davamlı inkişafının stimullaşdırılmasına yönəldilmiş, dolğun, təşkilati-struktur cəhətdən yenilənməsi, bütün proseslərin texnoloji cəhətdən müasirləşdirilməsi, həmçinin personalın peşəkar şüurunda pozitiv dəyişikliklərin meydana gəlməsi hesabına həyata keçirilən fəaliyyət başa düşülür. Onun aparıcı elementləri olaraq kitabxanaların daxili və xarici əlaqələri, personalın innovasiya mədəniyyətinin formalaşması, kitabxanaçılara və kitabxananın tərəfdaşlarına təkan verilməsi sistemindən istifadə aydın nəzərə çarpır. Bu halda innovasiya mədəniyyəti dedikdə, personalın mütəmadi peşəkar inkişafı, əməkdaşların yaradıcı potensialının artırılması mexanizmlərinin mövcudluğu başa düşülür. Kitabxanaçıların kollektiv və fərdi psixologiyası üzrə yeniliklərin idarə edilməsinin nəzərə alinmasının vacibliyinə və rəhbərin kitabxana heyətinin yaradıcılıq resursundan düzgün istifadə etmək bacarığına mühüm əhəmiyyət verilir.

Yenilikçi ideyalar “boş yerdən” formalaşmır, innovativ fəaliyyətin müxtəlif kateqoriyalı iştirakçılarının təkliflərinin təhlilinin nəticəsidir. Kitabxananın innovativ inkişafının əsasını son illər informasiya-kommunikasiya texnologiyaları və onların proqram təminatı hesab edilir.

Kitabxana işçiləri innovasiyaları irəli sürən əsas qrupu təşkil edir. Hər bir kitabxana əməkdaşı özünün peşəkar inkişafına məsuliyyət daşıyır. Kitabxananın işçi heyətinin inkişafı, təhsili, təkmilləşmə məsələləri sistemli plana daxil edilməli, bu məsələ müəssisənin sosial siyasətinin əsas tərkib hissəsinə çevrilməlidir.

Kitabxanalarda innovasiya fəaliyyətinin inkişafına təkan vermək üçün yeni ideyaların verilməsi mexanizmi işlənilib hazırlanmalıdır. Onun yaradılması şərtləri bunlardır: [10, s.33-45]

• Kitabxanada müəssisədaxili xoş, əlverişli mühit olması, yaradıcı fəallıq və yarış atmosferinin mövcudluğu;

• Kitabxananın məqsədi, vəzifələri və iş istiqamətləri, yenilikçilik fəaliyyətinin mahiyyəti və qazanılan nəticələr barədə kitabxananın işçi heyətinin məlumatlı olması;

• İnnovativ ideyaların müəlliflərinin təşviqat sisteminin mövcudluğu, əməkdaşların nailiyyətləri və təşviqat formaları barədə maarifləndirmə işinin aparılması;

• Əməkdaşların ixtisaslarının artırılması və attestasiyası qaydalarının işlənməsi və onun nəticələrinin xüsusi hesabat formalarında hazırlanması;

• Kitabxanada yeni ideyaların qeydə alınması və təqdimatı sisteminin olması;

• “İdeyalar bankı”, “Yaradıcı ideyalar yarmarkası”, “Təkmilləşdirici işlərin hərracı” kimi müsabiqələrin təşkili və s. [3, s. 75-80].

Yeni ideyaların verilməsi, əgər onlar ümumiləşdirilib yekunlaşdırılmasa, təsnifləşdirilməsə, prioritetlər müəyyən olunmasa, sistemləşdirilməsə və tətbiq mərhələsinə keçməsə, heç bir əhəmiyyət kəsb etməz. Heç də bütün innovativ ideyalar perspektivli və təcrübədə tətbiq oluna biləcək səviyyədə olmur. Seçilən ideyalar nizamlanmalı, prioritetlər müəyyənləşdirilməli və sonra reallaşdırılmalıdır. Müəyyən etmək lazımdır ki, hansı innovativ ideyaya potensial, hansına real tələbat var. Və innovasiya ehtiyatlarını ilk növbədə nəyə yönəltmək lazımdır ki, dəyişikliklərin nəticəsi kitabxananın yaxın gələcəkdəki inkişafına müsbət təsir göstərsin.

Kitabxana-innovasiya infrastrukturunun formalaşdırılması kifayət qədər innovasiya potensialı olan böyük kitabxanaların, mədəniyyət universitetlərinin

bazasında innovasiya təşkilatlarının yaradılmasını tələb edir. Bu gələcəkdə kitabxanaların innovasiya fəallığının stimullaşdırılmasına yönələn tədbirlərin həyata keçirilməsi və onlara innovativ layihə müsabiqələrinin əsasında qrantların verilməsi və inkişaf proqramlarının dəstəklənməsilə maliyyə yardımı göstərilməsi məqsədi daşıyır. Bu infrastrukturun effektiv elementi kitabxananın ixtisaslaşdırılmış bölmələri, bütün innovasiya dövriyyəsinin kompleks işlərinin yerinə yetirilməsini təmin edə biləcək sərbəst innovativ qurumlar yaradılmalıdır. Beləliklə də, müasir kitabxanaların innovativ fəaliyyətinin inkişafında əsas şərti innovasiya infrastrukturunun gələcək inkişafı və innovasiya fəaliyyətinin iştirakçıları ilə səmərəli innovativ münasibət və əlaqələrin qurulmasıdır [8, s. 206-220].

Kitabxana işinin inkişafında, təkmilləşdirilməsində, innovasiyaların yeri və rolunun nə qədər əhəmiyyətli olduğunu müəyyən qədər əsaslandırmağa çalışdıq. Sonda bu qənaətə gəlmək olar ki:

1. Müasir dövrdə heç bir idarə və ya müəssisə öz fəaliyyətini müxtəlif istiqamətlərdən mütəmadi olaraq təkmilləşdirmədən inkişaf edə bilmir.

2. Yeni xidmət və məhsul növlərinin təqdim olunması, innovativ texnologiyaların tətbiqi, iş proseslərinin və işçi heyətin idarə edilməsində müasir metodlardan istifadə edilməsi mütləqdir.

3. İnnovasiyalar inkişafın ən vacib elementidir. Onlar olmadan kitabxana sosial əhəmiyyətli təşkilat olaraq qala bilməz, rəqabətə davamlı xidmətlər göstərə bilməz.

4. Bazar iqtisadiyyatı şəraitində öz mövqeyini möhkəmlədə bilməz.

İnnovativliyin əsas paradiqmaları: Öyrənməkdən və dəyişməkdən qorxmamaq;Özünü digərlərindən ağıllı hesab etməmək; Digərlərindən ideya götürmək və özünə uyğunlaşdırmaq; Tətbiq etmək, dəyişdirmək və yenə də tətbiq etmək və s.-dir.

Sonda onu qeyd edək ki, Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən Azərbaycan Respublikasının İnnovasiyalı inkişaf strategiyası Proqramının Layihəsi işlənib hazırlanıb. Proqramın strateji məqsədi – iqtisadiyyatın dayanıqlı sosial-iqtisadi inkişafını, əhalinin həyat keyfiyyətinin yüksəldilməsi və ekoloji müdafiəni təmin edən xarici bazarlarda yüksək rəqabət qabiliyyətinə malik, elmtutumlu, resurslara qənaət edən sosialyönümlü, innovasiyalı iqtisadiyyatın yaradılmasıdır. Bu layihə qəbul edilib icraya verilsə, kitabxana işinin inkişafında da mühüm rol oynayacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI


***Azərbaycan dilində***

*1. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı". Bakı: 2008.*

*2. Abdullayeva N.D. Azərbaycan kitabxanaşünaslığında prioritet məsələ - kitabxana innovatikasi, müasir vəziyyəti və inkişaf perspektivləri // Kitabxanaşünaslıq və informasiya:elmi nəzəri və praktiki jurnal.- B.: BUN, 2013, № 2 (11). –S. 132-137*

*3. Abdullayeva N.D. Kitabxana innovatikasının elmi-nəzəri və təcrübi məsələləri: Monoqrafiya / N.D. Abdullayeva.-B.:AF Poligraf, 2015.- 178 s.*

*4. Əzizova G.A. Dövlətin investisiya-innovasiya siyasəti/ Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı 2012. - 212 səh.*

*5. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan.-1999.-14 mart.*

*6. Xələfov, A.A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir /A.A.X ələfov,- B., 2009.-185 s.*

***Rus dilində***

*7. Абдуллаева Н.Д. Инновации и новые тенденции в библиотечном деле // Актуальные вопросы современной науки: Материалы XVI Международной Научно–практической конференции(30 июля 2012 г.): Сборник научных трудов.- М.: Издательство «Перо», 2012.-с. 205-213*

*8. Власова И.Н. Традиции и инновации в библиотеке//Библиотека.-1999.- №6.- с.39-44.*

*9. Гусева Е.Н. Успешное инновационное развитие: научно-методические подходы // Библиотечное дело - XXI век. - 2009. - № 2. - С.35-50*

*10. Качанова Е.Ю. Инновации в библиотеках/ Е.Ю. Качанова; науч. ред. В.А. Минкина; СПбГУКИ. - СПб.: Профессия, 2003.-318 с. -(Серия « Библиотека»)*

*11. Чуприна Н. Т. Инновационная политика библиотеки: региональный аспект // Библиография. - 2003. - № 6. - С. 25 - 34.*

*12. Толканюк Н.А. Инновационные процессы в библиотечном деле / Н.А. Толканюк // Культура и общество: Возникновение новой парадигмы /Кемеров. гос. акад. культуры и искусств. Кемерово, 1995 .- С.189 -192.*

## XÜLASƏ

Bu gün geniş kitabxana-informasiya şəbəkəsinə malik Azərbaycanda 12 mindən çox müxtəlif tipli kitabxana mövcuddur. Müasir Azərbaycan cəmiyyətinin informasiya təminatının həyata keçirilməsində ölkə kitabxanalarının tutduğu mühüm yer mədəniyyətin bu sahəsində informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq, innovasiyaların, o cümlədən, müasir texnologiyaların tətbiqini zəruri edir. Azərbaycan kitabxanaşünaslığı tarixində müasir dövrün tələblərinə uyğun, kitabxana işinin inkişaf amillərini özündə əks etdirən tədqiqat, dissertasiya mövzuları çox işlənmişdir. Lakin konkret kitabxana işində innovasiyalarla bağlı dissertasiya işi ilk dəfə olaraq 2012-ci ildən araşdırılmağa başlanmışdır. Bu işin işlənməsində Rusiya kitabxanaşünaslarının nəzəriyyəsindən, o cümlədən Belarus Milli Kitabxanasının, Polşa Milli Kitabxanasının qabaqçıl iş təcrübəsindən yararlanaraq Azərbaycan kitabxana işi ilə qarşılıqlı təhlili nəticəsində müəyyən nəticələr əldə edilmişdir.



**Açar sözlər:** *kitabxana-informasiya elmi, Azərbaycanda kitabxana işi, innovativ kitabxana xidməti*



**Нармина Абдуллаева**


## БИБЛИОТЕЧНЫЕ ИННОВАЦИИ КАК НОВАЯ ТЕМА ИССЛЕДОВАНИЙ В АЗЕРБАЙДЖАНЕ


## РЕЗЮМЕ

Сегодня в Азербайджане насчитывается более 12 тысяч различных типов библиотек с широкой библиотечно-информационной сетью. Важное место библиотек страны в осуществлении информационного обеспечения современного азербайджанского общества обусловливает необходимость применения инноваций, в том числе современных технологий, в соответствии с требованиями информационного общества в этой сфере культуры. В истории азербайджанского библиотечного дела много разрабатывались исследовательские и диссертационные темы, отражающие факторы развития библиотечной работы в соответствии с требованиями современной эпохи. Однако диссертационная работа по инновациям в конкретном библиотечном деле исследуется впервые с 2012 года. При разработке данной работы использовались теории российских библиотекарей, а также передовой опыт работы Национальной библиотеки Беларуси и Национальная библиотека Польши, некоторые результаты были получены из взаимного анализа с библиотечной работой Азербайджана.



**Ключевые слова:** *библиотечно-информационная наука, библиотечное дело в Азербайджане, инновационное библиотечное-информационное обслуживание.*



**Narmina Abdullayeva**


## LIBRARY INNOVATION AS A NEW RESEARCH TOPIC IN AZERBAIJAN


## SUMMARY

Today, there are more than 12,000 different types of libraries in Azerbaijan with a wide library-information network. The important place of the country's libraries in the implementation of the information provision of the modern Azerbaijani society necessitates the application of innovations, including modern technologies, in accordance with the requirements of the information society in this field of culture. In the history of Azerbaijani librarianship, research and dissertation topics reflecting the development factors of library work in accordance with the requirements of the modern era have been elaborated a lot. However, the dissertation work on innovations in specific library work has been investigated for the first time since 2012. In the development of this work, using the theory of Russian librarians, as well as the advance work experience of the National Library of Belarus and the National Library of Poland, some results were obtained as a result of mutual analysis with the library work of Azerbaijan.



**Keywords:** *library-information science, librarianship in Azerbaijan, innovativ library service.*

UOT: 378.48:339.92

# XXI ƏSRDƏ QLOBAL ÇAĞIRIŞLAR KONTEKSTİNDƏ SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN İNKİŞAF DRAYVERLƏRİ

**ŞƏFA ƏLİYEV**
*Sumqayıt Dövlət Universitetinin professoru, iqtisad elmləri doktoru*
*E-mail: shafa.aliyev@sdu.edu.az*

Qeyd edək ki, 21-ci əsr intellektual bir əsrdir. Bu əsrdə ənənəvi sənaye sahələrinin və sənaye inqilablarının gətirdiyi texnoloji üstünlüklər daha dərin inkişaf edəcək və həm cəmiyyətdə, həm də təhsil sistemində yeni çağırışlar sürətli bir məcrayə keçəcəkdir. 21-ci əsr təkcə texnologiyaların inkişafı yox, həm də intellektual resursların iqtisadiyyat sahələrində hegemon rolunu ön plana çəkəcəkdir. Belə ki: 1) intellektual resursların mobilizasiyası; 2) bilik iqtisadiyyatının müxtəlif istiqamətlərinin formalaşdırılması; 3) qeyri-maddi istehsal sahələrinin genişlənməsi və bu sahədə əlavə dəyər mənbələrinin yaradılması; 4) süni intellektin belə maliyyə və əlavə dəyər dövriyyəsinə cəlb edilməsi və bununla da yeni fəaliyyət istiqamətlərinin formalaşdırılması prosesləri daha sürətlə gedəcəkdir.

Resursların tükənməsi, yanacaq enerji resurslarında olan qeyri-proporsional bölgü dünyada son 10 illiklərdə xeyli çətinliklər yaratmışdır. Əksər dünya ölkələri yeni enerji resursları axtarmaqdadır. Lakin mənbələr nə qədər tapılsa belə, hesab edirik ki, bu resurslar artmaqda olan dünya əhalisinin tələbatını ödəməyə kifayət etməyə də bilər və bu çətinliklər qabarıq şəkildə özünü büruzə verir. Ona görə də hər bir zəka mərkəzinin, bilik mərkəzinin, yəni universitetlərin inkişaf etdirilməsi, universitetlərin qlobal çağırışlara uyğun təkmilləşdirilməsi və onların fəaliyyətinin şaxələndirilməsi dünya səviyyəsində çox böyük aktuallığı ilə diqqəti cəlb edir [1]. Açığını deyək ki, dünya səviyyəsində universitetlərin müəyyən mənada artıq öz yerini tutması, müəyyən reytinqlər üzrə bölünməsi və hansı istiqamətlərdə fəaliyyət göstərməsi, rəqabətli universitetlərin sıralanması çoxdan məlumdur və bununla bağlı hesab edirəm ki, artıq yeni yanaşmaların vaxtı çatmışdır [2].

Belə ki, iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrdəki universitetlər bu imkanlarını uzun dövr ərzində formalaşdırmışlar və onlar texnoloji biliklərin mənimsənilməsi, onların təcrübə-sınaq proseslərindən çıxarılması və istehsal proseslərinə cəlb edilməsində böyük təcrübə toplamışlar. Dünyanın aparıcı universitetlərində çoxşaxəli və müxtəlif funksiyaları yerinə yetirən elmi-texniki mərkəzlər, texnoparklar fəaliyyət göstərirlər və bunlar yetişdirilən kadrların daha geniş zəkaya və intellektə, həm də yüksək peşəkarlıq səviyyəsinə çatmaq üçün lazım olan biliklərin əldə edilməsinə imkan verir.

Lakin dünya yerində dayanmır. İnkişaf etməkdə olan ölkələr öz inkişaf templərini hər il artırmaqdadırlar. Şübhəsiz bu təhsil sahəsinə də, universitetlərə də aiddir. Artıq dünyanın aparıcı və iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrinin əksəriyyəti öz inkişaf parametrlərinə, texnoloji və innovasiya bazarlarının inkişaf etməsi səviyyəsinə, eyni zamanda təhsil sisteminin təkmilləşdirilməsi və universitetlərin reytinqinin sürətlə artması hesabına iqtisadi cəhətdən inkişaf etmiş ölkələr səviyyəsində fəaliyyəti ortaya qoymaqdadırlar [3]. Bu gün heç də sirr deyildir ki, Çin universitetləri və alimləri, tədqiqatçılar ordusu və Çində olan innovasiya mərkəzləri, innovasiya sisteminin çoxşaxəli fəaliyyəti onun ABŞ-la rəqabətində ən böyük və aparıcı qüvvə kimi çıxış etməkdədir və yaxud digər iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrdə texnoloji elm mərkəzlərinin yaradılması və müasir universitetlərin formalaşdırılması, bilik iqtisadiyyatı sisteminin inkişafının sürətləndirilməsi, təkmilləşdirilməsi, yeni biliklərin mənimsənilməsi və bunların istehsal sahələrinə əlaqəli şəkildə tətbiq etdirilməsi, bazar iqtisadiyyatının tələblərinə uyğun və əmək bazarının inkişaf etməsi istiqamətlərində yüksək peşəkarlıq səviyyəsinə malik kadrların hazırlanması istiqamətlərində qlobal çağırışlardan irəli gələn vəzifələrin yerinə yetirilməsi baxımından böyük təcrübə toplamışlar. Analoji misallara bir sıra digər iqtisadi cəhətdən inkişaf etmiş ölkələri göstərmək olar. Hindistan, Braziliya və Rusiyada bir çox universitetlər heç də zəif olmayan elmi potensial formalaşdıra bilmiş və dünyanın aparıcı universitetləri ilə rəqabət etmək üçün təcrübə toplamaqdadırlar.

Məlumdur ki, Azərbaycan keçmiş SSRİ-nin dağılmasından sonra özünün müstəqilliyini bərpa

etmiş və bu geniş mənada ölkədə intellektual resursların formalaşdırılmasının inkişaf etdirilməsi, milli innovasiya sisteminin yaradılması və onun çoxşaxəli fəaliyyətinin təmin edilməsi istiqamətində müstəqil addımların atılmasına səy göstərmişdir. Müstəqilliyin ilk illərində xaotik şəkildə yaranan və qeyri-səmərəli fəaliyyət göstərən universitetlərin əksəriyyəti artıq rəqabət bazarında və təhsil sistemində olan rəqabətə tab gətirməyərək sıradan çıxmış və hazırda fəaliyyət göstərən universitetlərimizin əksəriyyəti müəyyən mənada özlərinin həm struktur baxımından, həm ixtisaslaşması nöqteyi-nəzərindən, eyni zamanda strateji inkişaf baxımından 21-ci əsrdə fəaliyyət istiqamətlərini və inkişaf drayverlərini müəyyənləşdirmişlər.

Ölkəmizin universitetləri öz reytinqlərini artırmaq üçün davamlı şəkildə tədbirlər görməkdədirlər və bu istiqamətdə kompleks tədbirlərin görülməsi, sistemli yanaşmaların ortaya qoyulmasının şahidi oluruq. Bir çox universitetlərimiz artıq dünya səviyyəsindəki tədbirlərin iştirakçısı olmaqla bərabər, həm də müəllim-professor heyətinin fəaliyyətinin gücləndirilməsi, tədqiqatçılar komandasının yaranması və səmərəli fəaliyyət göstərməsi istiqamətində önəmli addımlar atmışlar. Dünyanın nüfuzlu elmi platformalarında əmsallaşdırılan jurnallarda məqalələrin dərc edilməsi, monoqrafiyaların nəşr olunması, ümumiyyətlə tədqiqatların intensiv və maraqlı aparılması baxımından universitetlərimizin fəallığını qeyd etmək olar [4].

Sumqayıt Dövlət Universiteti kifayət qədər gənc bir universitetdir və baxmayaraq ki, hələ sovetlər birliyi dövründə universitetin bazası formalaşmış, texniki elmlər üzrə, xüsusilə kimya və neft-kimya, elektroenergetika istiqamətlərində ixtisaslaşan bir institut kimi fəaliyyət göstərmişdir. 2000-ci ildən başlayaraq Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə çoxfunksiyalı və müxtəlif ixtisaslara malik Sumqayıt Dövlət Universiteti yaradılmışdır. Sumqayıt Dövlət Universitetində müxtəlif ixtisaslar üzrə fəaliyyətin təşkili və yüksəkixtisaslı kadrların hazırlanması üçün kifayət qədər perspektivlərə malik olan potensialın olduğu qənaətindəyik. Universitetdə fəaliyyət göstərən 7 fakültənin hər birinin özünün potensialı və inkişaf istiqamətlərinin olduğunu da qeyd etmək lazımdır və demək olar ki, ölkəmizin müxtəlif iqtisadiyyat, xüsusilə qeyri-neft sektoru sahələrində, təhsil sistemində lazım olan ixtisaslı kadrların hazırlanması, yetişdirilməsində universitetin perspektivlərinin daha geniş olduğunu qeyd etmək mümkündür.

Digər tərəfdən, Sumqayıt Dövlət Universitetinin yerləşdiyi ərazinin paytaxt Bakıya yaxın olmaqla bərabər, eyni zamanda regional bir xarakter daşıyır. Xüsusilə, Şimal zonasının və burada olan 6 rayonda yaşayan insanların övladlarının və gənc nəslin təlim-tərbiyəsində, ixtisaslı kadrlar kimi yetişməsində ciddi rol oynaya bilmək potensialına malikdir. Universitetin müəyyən ənənələrinin formalaşmasını və müxtəlif ixtisaslar üzrə kifayət qədər güclü potensiala malik olan müəllim-professor heyətinin formalaşdırılmasını da qeyd etmək olar. Lakin hesab edirik ki, Sumqayıt Dövlət Universiteti 21-ci əsrin qlobal çağırışlarına və inkişaf drayverlərinə uyğun olan fəaliyyət strategiyası ortaya qoymalıdır. Bunun üçün çox iş görülməli, universitetin maddi-texniki bazasının gücləndirilməsi, xüsusilə müasir biliklərə və intellektə malik olan müəllim, professor tədqiqatçı heyətinin formalaşdırılması tələb olunur. Yaxın perspektivdə Sumqayıt Dövlət Universitetinin qlobal çağırışlar kontekstində bir qrup inkişaf drayverlərinin ümumiləşdirmişik: 1. Sumqayıt Dövlət Universitetinin maddi-texniki bazası müasir dövrün tələbləri səviyyəsinə gətirilməli, universitetin xüsusi və çoxfunksiyalı fəaliyyəti təmin edə biləcək ayrıca korpusu və yaxud da olduğu ərazinin modern şəkildə maddi-texniki bazasının yaradılması tədbirləri görülməlidir. 2. Universitetin elmi-tədqiqatyönlü istiqamətinin formalaşdırılması və inkişaf etdirilməsi strategiyası ayrıca olaraq işlənilməli və uzunmüddətli dövr üçün təsdiq edilməlidir. Burada Universitetdə müxtəlif elmi tədqiqatların, həm Sumqayıt və onun sahə potensialı, eyni zamanda ölkəmizdə qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi, ayrı-ayrı iqtisadiyyat sahələrinin imkanlarının artırılması, ölkəmizdə demokratik quruculuğunun sürətləndirilməsinə imkan verən kadrların hazırlanması istiqamətində potensialın reallaşdırılması yönlü uzunmüddətli perspektivli tədbirlərin müəyyənləşdirilməsi və strateji fəaliyyət istiqamətləri baxımından daha da dəqiqləşdirilməsi tələb olunur [5]. 3. Sumqayıt Dövlət Universitetinin tələbə kontingentinin artırılması istiqamətində çox ciddi addımlar atılmalıdır. Belə ki, hazırda universitetin tələbə kontingenti universitetin həm yerləşdiyi ərazi və həm də strateji inkişaf baxımından olduqca azdır. Hesab edirik ki, 2030-cu ilədək olan dövrdə universitetin tələbə kontingenti ən azından 10 min nəfər

səviyyəsinə çatdırılmalıdır və bunun üçün real imkanların olduğu qənaətindəyik. 4. Sumqayıt Dövlət Universitetinin innovativ baxımdan inkişaf etdirilməsi üçün atılan addımlar təqdirəlayiqdir. Lakin bu istiqamətdə daha təsirli tədbirlərin görülməsi və sənaye müəssisələri sırasından önəmli partnyorların müəyyənləşdirilməsi, əməkdaşlıq əlaqələrinin yaradılması, müvafiq investisiya-innovasiya fondlarının bu işə cəlb edilməsi və çoxfunksiyalı işlək innovasiya mərkəzinin, yaradıcılıq yönümlü innovasiya evinin yaradılması vacibdir. Hesab edirik ki, bu halda universitetin nüfuzunun qaldırılması üçün əlavə stimullar və üstünlüklər əldə etmək olar. 5. Universitetin tələbə kontingentinin artırılması üçün artıq Azərbaycanda yeni reallıqlara uyğun strategiyanın ortaya qoyulması daha məqsədəuyğundur. Məsələn, işğaldan azad olunmuş ərazilərin sürətlə bərpa edilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının intensiv olaraq dirçəldilməsi, müasir infrastruktur və istehsal şəbəkəsinin formalaşdırılması, burada yeni qurumların yaradılması, innovasiyayönümlü iqtisadiyyat, “ağıllı” və yüksək texnologiyalar əsaslı iqtisadiyyat quruculuğunun sürətləndirilməsi proseslərini nəzərə alsaq, bu regionda, yəni Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yüksəkixtisaslı kadrların hazırlanması hədəflərinə çatmaq mümkündür [6]. Bütün bu perspektivlər nəzərə alınmaqla, Füzuli Beynəlxalq Hava Limanının yaxınlığında Universitetin filialının yaradılması, həm yataqxana kompleksinin istismara verilməsi və eyni zamanda universitetin buradaki filialının bazasında yüksək və “ağıllı” texnologiyalar əsaslı texnoparkının yaradılması hesab edirəm ki, universitetin strateji inkişafı baxımından çox böyük önəm kəsb edə bilər. Burada yaxın illərdə Böyük Qayıdışın reallaşdırılması, məskunlaşdırılmanın sürətləndirilməsi kontekstində, həmçinin Bərdə, Tərtər, Goranboy, Ağdam, Füzuli, Ağcabədi, İmişli, Beyləqan və s. rayonlarda olan məzunlarımızın məhz ali təhsil alması üçün həmin filialı seçməsi ehtimalı xeyli yüksəkdir. Digər tərəfdən, həmin filialın fəaliyyətinin yüksək səviyyədə təşkil olunması, innovasiya yönümlü infrastrukturun yaradılması, yüksək texnologiyaların tətbiqi baxımından əməkdaşlıq əlaqələrinin formalaşdırılması, müasir texnologiyalar əsaslı tədrisin təşkil edilməsi və şəffaf tədris mühitinin yaradılması - hesab edirik ki, gənclərin universitetə marağının artırılmasına və həmin filiala üst tutmasına əlavə stimullar yarada bilər. Eyni zamanda, ailə büdcəsi o qədər də çox olmayan və ya orta səviyyədə olan əhalinin xeyli hissəsi hesab edirəm ki, məhz Sumqayıt Dövlət Universitetinin bu ərazidə yaradılacaq filialında övladlarının təhsil almasını böyük həvəslə qarşılaya və böyük məmnunluqla bundan istifadə edə bilərlər. Digər tərəfdən, yaxın perspektivdə hesab edirik ki, universitet tələbələrinin, magistrlərinin, doktorantlarının beynəlxalq səviyyədə təmsil olunması, beynəlxalq olimpiadalarda iştirak etməsi, aparıcı universitetlərində təcrübələr keçməsi, birgə tədbirlərdə iştirak etməsi təcrübəsi olmalıdır. 6. Universitetin xarici ölkələrdən tələbə cəlb etmək istiqamətində xüsusi fəaliyyət strategiyası və konsepsiyası işlənməli, və həyata keçirilməlidir. Dünyanın müxtəlif ölkələrindən Sumqayıt Dövlət Universitetində təhsil almaq üçün cəlb etmək imkanları hesab edirəm ki, xeyli genişdir. Şəhərin dəniz kənarında yerləşməsi, müasir infrastrukturunun olması və burada Sumqayıt Dövlət Universitetinin yeni tələbə evi, yaxud da qonaq evinin tikilməsi imkanları üçün torpaq sahələrinin mövcudluğu və digər bu kimi üstün amillərin olması baxımdan hesab edirik ki, Sumqayıt Dövlət Universiteti beynəlxalq əməkdaşlıq istiqamətində daha geniş işlər görməli, daha çox tələbələr, magistrlər və doktorantlar cəlb etməli, elmi tədqiqat baxımından dünyanın aparıcı və qabaqcıl universitetləri ilə əməkdaşlıq əlaqələri daha konkretləşdirilməli və müqavilələr, beynəlxalq sazişlər əsasında fəaliyyət göstərməlidirlər [7]. 7. Universitetin inkişafının sürətləndirilməsi nöqteyi-nəzərindən universitetdə tədqiqat yönümlü fəaliyyətin gücləndirilməsi təklif olunur və bununla bağlı elmi tədbirlərin keyfiyyət göstəricisinə daha ciddi önəmin verilməsi və müxtəlif elmi-tədbirlərin keçirilməsi zamanı məqsədli tədqiqatların ön plana çəkilməsi və bununla da elmi tədqiqatlara cəlb olunan tələbələrin, magistrlərin yüksək nəticələr uğrunda istiqamətlənməsi önəmli yer tutur. Universitetdə müxtəlif istiqamətlər üzrə tədqiqat mərkəzlərinin yaradılması və yaxın perspektivdə, "beyin mərkəzi"nin formalaşdırılması istiqamətində fəaliyyətin gücləndirilməsi də kifayət qədər tələb olunan və yeni çağırışlar kimi də qiymətləndirilə bilər. 8. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, hazırda universitetin fəaliyyət göstərən kitabxanasının texnoloji imkanları və ümumiyyətlə, xidmət imkanları olduqca aşağı səviyyədədir. Universitetin 24 saat ərzində elektron xidmətlər hesabına fəaliyyət göstərməsi və daim tələbələr üçün açıq olması, uni-

versitet alimlərinin tədqiqatlarının elektron formada yerləşdirilməsi, dünyanın müxtəlif elmi platformalarında nəşr olunan kitab və jurnallara, elmi saytlara inteqrasiyasının təmin edilməsi, elmi mübadilənin sürətləndirilməsi üçün bu istiqamətdə kitabxana fondunun zənginləşdirilməsi və elektron resurslardan istifadənin sadələşdirilməsi tədbirlərinə ehtiyac vardır. 9. Universitetin elmi potensialının artırılması istiqamətində və beynəlxalq səviyyədə nüfuzlu jurnallarda elmi məqalələrin dərc olunması üçün universitetdə elmə olan marağın artırılması, elmi tədqiqat istiqamətli tədbirlərin yüksək səviyyədə təşkili, müxtəlif elmi platformalarda universitet alimlərinin əsərlərinin indeksləşdirilməsi istiqamətində sistemli və ardıcıl işlər görülməli və universitet alimlərinin reytinqlərinin elmmetrik bazasının yaradılması, dünya elminə inteqrasiyası baxımından məqsədli tədbirlərin görülməsinə ehtiyac vardır.

Yaxın perspektivdə Sumqayıt Dövlət Universitetində 21-ci əsrin çağırışlarına uyğun şəkildə fəaliyyətin formalaşdırılması və inkişaf etdirilməsi baxımından hələ ki, axtarış proseslərinin gedəcəyini və bu proseslərin daha da intensivləşəcəyini proqnozlaşdıra bilərik. Bunların sürətləndirilməsi üçün Sumqayıt Dövlət Universitetinin bütün resurslarının cəlb olunması və 21-ci əsrin qlobal çağırışlarına uyğun strateji fəaliyyətin formalaşdırılması istiqamətində daha optimal inkişaf drayverlərinin müəyyənləşdirilməsi və həyata keçirilməsi üçün təsirli tədbirlərin görülməsi lazım gələcəkdir.

## YEKUN

Beləliklə, qlobal pandemiyanın təsirindən yaranan yeni çağırışlar və ümumilikdə dünyada ali təhsil sistemində gözlənilən dəyişikliklər bir sıra məsələlərə xüsusi diqqət yetirməyi tələb edir [8]. Dünya universitetlərinin fəaliyyəti ilə bağlı olaraq, beynəlxalq reytinqlərin təhlili göstərir ki, ilk 20-də və ya top 30-da olan universitetlərin əksəriyyəti bir çox ümumi xüsusiyyətlərə malikdir və ümumilikdə dünya universitetlərində, ali təhsil sistemində bu məsələlər, problemlər, tendensiyalar və çağırışlar daha çox diqqət mərkəzindədir:

- Çoxlu sayda istedadlıların cəmləşməsi, yəni istedadlı müəllim və tələbələrin böyük faiz təşkil etməsi;
- Qabaqcıl tədqiqatların aparılması və idarəetmənin təşkili, yüksək səviyyəli təhsil üçün keyfiyyətli şəraitin yaradılması ilə bağlı kifayət qədər resurs təminatının olması;
- Ali təhsil müəssisələrinin innovativ və çevik strateji yanaşmalarının mövcudluğu;
- Elmi-tədqiqat və layihə-konstruktor işlərinin ali təhsil müəssisələrində güclü komponent kimi olması və bunun onların nüfuzlarına müsbət təsir göstərməsi ("Beyin mərkəzləri" rolunu aparması);
- Biznes və innovasiya sistemləri ilə sıx institusional əlaqələrin olması;
- Tələbələrin təhsil proseslərinin və tədris proqramlarının yüksək səviyyədə çevik və tarazlı olması, müasir çağırışları özündə əks etdirməsi;
- Universitetlərin çevik olaraq qlobal bazarın çağırışlarına reaksiyalar verməsi;
- Yeni tədris planları və proqramlarının hazırlanması, yeni mərkəzlər və şöbələrin yaradılması, yeni ideyalara və novatorluğa malik professor-müəllim heyətinin formalaşdırılması, müəllim-professor heyəti arasında sağlam və şəffaf rəqabət mühitinin formalaşdırılması və motivasiyanın artırılması, reytinq sisteminin tətbiq olunması;
- Tələbə həyatının müxtəlifliyi və rəngarəngliyinin təmin olunması, auditoriya müəllimlərinin tədrislə bağlı keyfiyyət məsələlərinin ön plana çıxarılması və universitetin onlayn təhsil strategiyasının və strukturunun formalaşdırılması;
- Hazırda ingilis dili dünya elm və təhsilində əsas alətlərdən biridir, eyni zamanda dünya alimlərinin və tələbələrinin formal və qeyri-formal ünsiyyətlərində əsas yeri tutur. Nüfuzlu elmi jurnallar ingilis dilindədir. Hər bir universitetdə bununla bağlı reallıqların nəzərə alınması, "Web of Science" və "Scopus" bazası ilə bağlı dərc olunma strategiyasının olması təmin edilməlidir;
- Müasir "rəqəmsallaşma inqilabı", böyük ölçüdə istehsalın və ictimai həyatın bütün sahələrində geniş həcmdə kompüter texnologiyalarından istifadəni nəzərdə tutur və buna görə də rəqəmsal texnologiyaların tətbiqi üzrə strategiyanın olması vacibdir;
- Mühazirə deyən müəllimlərlə tələbələr arasındakı münasibətlərdə "monoloq" formatı ikincilərdə psixoloji komplekslər yaratdığından, mühazirələrin daha yaradıcı üslübda çatdırılmasına ciddi önəm verilməlidir, belə ki, müasir insanın yetkin ağılı mühazirələrin ləng prosedurlarına qarşı etiraz edir, tələbələr ləng deyilən mühazirələrə qulaq asmaq istəmirlər və uzun-uzadı izahlar tələbəni hövsələdən çıxarır, mühazirə yeni biliklərin ötürülməsi üçün rahat bir forma deyildir və kifayət qədər prinsipial

olaraq texnoloji nöqsanlara malikdir, mühazirələr - əvvəlki dövrdə olduğu qədər dəyərə malik deyillər, bu mühazirələrdə deyilənlərin hamısını sərbəst şəkildə internetdə oxumaq mümkündür;

- Mühazirələrin keçirilməsində dəyişikliklər qaçılmazdır, buna görə də mühazirələrdə ənənəvi yanaşma ilə bərabər, ayılan vaxtın bir hissəsi dialoq və diskussiyaya tövsiyə olunmalıdır, mühazirələr mütləq şəkildə müasir yenilikləri və çağırışları özündə əks etdirməlidir və tələbələr üçün maraq kəsb etməlidir;

- Distant təhsilin effekt həcminin "işə düşməsi"nə dünya iqtisadiyyatının qloballaşma proseslərinin növbəti addımı kimi baxmaq olar;

- Əgər əvvəllər qloballaşma kimi daha çox istehsal sahələri baxılırdısa, indi qloballaşma qeyri-istehsal sahələrində genişlənməyə başlayır, o cümlədən ali təhsil sahəsində başlamaqdadır;

- Bu gün böyük əminliklə 2 tip universitet təhsilinin mövcudluğundan danışmaq olar: 1) ənənəvi, yəni əyani təhsil sistemi və 2) distant, yəni virtual təhsil, buna görə də universitetlər bu reallığı ciddi şəkildə dəyərləndirməli və müvafiq innovativ yanaşmalar formalaşdırılmalı, infrastruktur yaradılmalıdır;

- Universitet kitabxanada 24 saat əlçatan olan elektron resurslar və asan yüklənən resurslar yaradılmalıdır və tədris olunan hər bir kursun proqramına uyğun ədəbiyyat yerləşdirilməlidir;

- Tədris olunan fənnlər üzrə imtahanlarin testlərlə keçirilməsi məqsədəuyğundur;

- Professor-müəllim heyətinin rəqabətqabiliyyətliliyinin artırılması üçün qiymətləndirmə mexanizminin – reytinq sisteminin tətbiqi zəruridir;

- İngilis dilinin dünya elmində və təhsil sistemində əsas yeri tutması səbəbindən, bu istiqamətdə universitetdə görülən işləri daha da dərinləşdirmək lazımdır. Professor-müəllim heyəti üçün akademik ingilis dili səviyyəsinə çatmaq əsas məqsəd olmaqla, 2 illik müvafiq tədrisin təşkili (həftədə 3 dəfə 2 akademik saat) məqsəduyğundur;

- Universitetdə müasir çağırışlara uyğun tədqiqat mərkəzlərinin yaradılması gecikdirilmədən həll edilməli, cəmiyyətdə, ölkədə, dünyada baş verən hadisələr təhlil olunmalı, fundamental tədqiqatlar aparılmalı və elmi müzakirələr təşkil edilməlidir;

- Alimlərin "Web of Science" və "Scopus" bazasında olan nüfuzlu elmi jurnallarda dərc olunmaları üzrə motivasiyanın və stimullaşdırmanın gücləndirilməsi tədbirləri görülməlidir;

- Professor-müəllim heyətinin İKT texnologiyalarının mənimsənilməsi səviyyəsinin artırılması üçün əlavə tədbirlərin görülməsi vacibdir;

- Professor-müəllim heyəti ilə tələbələr arasında sosiallaşma və ünsiyyətin dərinləşdirilməsi üzrə xüsusi strategiyanın işlənib hazırlanması və həyata keçirilməsi səmərəli ola bilər və s.

**Açar sözlər:** *Azərbaycan, Sumqayıt, Sumqayıt Dövlət Universiteti, ali təhsil, universitetin strateji inkişafı, elmi tədqiqatlar.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Əliyev, Ş.T. Sumqayıtın sosial-iqtisadi inkişafının dünya səviyyəsinə qaldırılmasında İlham Əliyev modeli // Geostrategiya, Bakı, 2019, №5, Səh. 127-133. http://geostrategiya.az/pdf/2019/0553so19.pdf.*

*2. Zahid F. Mamedov, Shafa T. Aliyev. Modern universities: new challenges, trends, paradigms and expectations Konfrans məqaləsi 70th International Scientific Conference on Economic and Social Development / Azerbaijan State University of Economics (UNEC), Faculty of Management University of Warsaw and Faculty of Law, Economics and Social Sciences Sale - Mohammed V University in Rabat and Polytechnic of Medimurje in Cakovec. Baku, Azerbaijan 25-26 June, 2021, p. 85-94, Web of science. https://www.proquest.com/openview/46456612f9ad65c31dcdac7864de9d27/1?pq-origsite=gscholar&cbl=2033472.*

*3. Aliyev, Sh.T. (2010). The Problems of the Variety of Formation and Functioning of the Special Economic Zones in Azerbaijan in the Context of the World Experience. Marketing and Management of Innovations, 1, 144-148. https://doi.org/10.21272/mmi.2010.1-18.*

*4. Məmmədov, Z.F., Əliyev, Ş.T. Müasir dövrdə universitetlər: yeni çagırışlar, trendlər, paradiqmalar və gözləntilər məqalə Journal of Educational Studies. Baku, 2020, Vol. 691, Issue II p. 99–115. https://www.academia.edu/50373976/M%C3%BCasir_D%C3%B6vrd%C9%99_Universitetl%C9%99r_Yeni_%C3%87a%C4%9F%C4%B1r%C4%B1%C5%9Flar_Trendl%C9%99r_Paradiqmalar_v%C9%99_G%C3%B6zl%C9%99ntil%C9%99r_Universities_in_the_modern_age_New_challenges_trends_paradigms_and_expectations_.*

*5. Aliyev, Sh.T. Strategic aspects of diversification and export potential increase of the non-oil industry in Azerbaijan / Economic and Social Development-55th International Scientific Conference on Economic and Social Development. Varazdin Development and Entrepreneurship Agency and University North in cooperation with Azerbaijan State University of Economics (UNEC) Faculty of Management University of Warsaw Faculty of Law, Economics and Social Sciences Sale - Mohammed V University in Rabat Polytechnic of Medimurje in Cakovec. 18-19 June 2020, Volume 4. p. 30-39 (Web of science). https://www.proquest.com/openview/6e3b4feeb1bdf05baed60721eb258f6d/1?pq-origsite=gscholar&cbl=2033472.*

*6. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана // "Вопросы истории", Москва, 2022 №06,с.148-155. https://elibrary.ru/item.asp?id=48808624 (Web of science; Scopus).*

*7. Sumqayıt Dövlət Universitetinin Strateji Planı. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://www.sdu.edu.az/userfiles/image/news/strateji_plan.pdf.*

*8. Əliyev, Ş.T. Pandemiya və postpandemiya dövründə Azərbaycanda iqtisadi təhlükəsizliyin aktual məsələləri // "Xəbərlər", AMEA İqtisadiyyat İnstitutu, 2020,№5, Səh. 5-12. http://economics.com.az/index.php/kitabxana/bizim-s-rl-r/jurnalla/xeberler/item/2126-amea-n-n-khaebaerlaeri-izhtisadiyyat-seriyas-zhurnal-n-n-2020-5-say.html. http://economics.com.az/images/fotos/xeberler_pdf/2020_5/1.Shafa.pdf.*

## РЕЗЮМЕ

**Драйверы развития Сумгаитского Государственного Университета в XXI веке в контексте глобальных вызовов**

В статье исследованы драйверы развития Сумгаитского Государственного Университета в XXI веке в контексте глобальных вызовов. С этой целью раскрываются концептуальные подходы и основы интенсивного развития университетов в мировой практике. Отмечается важность совершенствования действующих механизмов в организации учебного процесса и научно-исследовательских работ. Рассматриваются важнейшие направления развития университетов в долгосрочной перспективе. Подготовлены рекомендации и даны предложения по модернизации существующих подходов к развитию Сумгаитского Государственного Университета на рубеже XXI века.

**Ключевые слова:** *Азербайджан, Сумгаит, Сумгаитский Государственный Университет, высшее образование, стратегическое развитие университета, научные исследования.*

## SUMMARY

**Drıvers for the development of Sumgaıt State University ın the 21st century ın the context of global challenges**

The drivers of the development of Sumgait State University in the 21st century in the context of global challenges are considered in the article. The conceptual approaches and foundations for the intensive development of universities in world practice are disclosed for this purpose. The significance of improving the existing mechanisms in the organization of the educational process and research work is noted. The most important areas of development of universities in the long term are considered then. Recommendations and proposals for the modernization of existing approaches to the development of Sumgait State University in the 21st century are given in the end of article.

**Key words:** *Azerbaijan, Sumgait, Sumgait State University, higher education, strategic development of the university, scientific research.*

**UOT: 519**

# İQTİSADİ EFFEKTLİKDƏ İNNOVASİYA TƏSİRLƏRİNİN TƏHLİLİ VƏ MÜVAZİNƏTİN TƏŞKİLİ

**DAĞBƏYİ ALLAHVERDİYEV**
*AR ETN-nın İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, i.e.d, dosent,*

*E-mail: dagbeycahani@gmail.com*

## GIRIŞ

Mövcud siyasi-iqtisadi şəraitin iqtisadi tərəqqi innovasiya siyasəti ilə əlaqəli olub haqsız rəqabətə qarşı iqtisadi müqaviməti şərtləndirən antiinhisarçılıq prinsiplərini səciyyələndirir. Belə ki, innovasiyalı təsirlərin tənzimlənməsi iqtisadi sistemin prinsipləri kimi Azərbaycanın Konstitusiyasında əks olunmuşdur: "Xalqının hec bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayət hesab edilir"(3).

Bununla yanaşı, mövcud iqtisadi-siyasi mühütdə haqsız rəqabətə və inhisarçılığa şərait yaradan subyektlər xüsusi innovasiyalı metodlarla ölkədə milli mənəvi dəyərləri və iqtisadi tarazlığı balanslaşdırması səciyəvidir. Ölkənin iqtisadi təhlükəsizliyin balanslaşdırılması fəaliyyətdə olan innovasiyalı iqtisadi tərəqqinin əsasları kimi rəqabətə davamlı iqtisadi metodlarla tarazlığ təzələnməsi zəruri hesab edilir.

Beləliklə, mövcud iqtisadi sistem metodunun əsası tədiyə balansının metodoloji əsasları ilə tənzimlənməsi səciyyəvi hesab edilir. Belə ki, iqtisadiyyatın əsas strateji mənbəyi maddi və təbii resursları istehsal prosesində iştirak edən meyarlarla tarazlaşır. Bununla da insan kapitalının quruluşu bir çox meyar əsasında formalaşması siyasi-iqtisadi mənzərənin reallıqlarına uyğun modeli şərtləndirir. Bu fikirlərdən belə məntiqi nəticə yaranır ki, insan kapitalının formalaşmasında və tərəqqisində həlledici meyar şəxsiyyət faktorudur. Bu istiqamətdə cəmiyyətin iqtisadi tərəqqisi əsasən istehsal və mövcud siyasi-iqtisadi formasiyanı səciyyələndirir.

Bununla da iqtisadi təhlükəsizlik, cəmiyyətin mütərəqqi iqtisadi, ictimai-siyasi sabitliyini, əlverişli xarici və daxili meyarları yüksək müdafiə qabiliyyətini, səmərəli idarə olunmasını və iqtisadi maraqların qorunması kimi mövcud siyasi- iqtisadi şəraitin tələbi kimi səciyyələnir. Belə ki, dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin əsas mexanizmlərdən biri insan rifahın gücləndirilməsidir. Burada insan kapitalının təkrar istehsal sistemində təhsil və elm sahələrinin tərəqqi zəruriliyi səciyyəvi hesab edilir. Bununla yanaşı, cari ildə artımı şərtləndirən əsas makroiqtisadi meyarlar aşağıdakı kimi təsvir edilir:

**Cədvəl 1**

**Əsas makroiqtisadi meyarlar**

| Tarix | Ümumi daxili məhsul (ÜDM) | | ÜDM-in deflyatoru | Qeyri-neft ÜDM | | Əsas kapitala investisiya | | Əhalinin nominal gəlirləri | | Nominal orta aylıq əmək haqqı | | İstehlak qiymətləri indeksi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi, mln. Manat | Artım tempi, % | | Cəmi, mln. manat | Artım tempi, % | Cəmi, mln. manat | Artım tempi, % | Cəmi, mln. manat | Artım tempi, % | Cəmi, manat | Artım tempi, % | əvvəlki aya nisbətən, % | orta illik, % |
| 2011 | 52082,0 | 100,1 | 117,8 | 21974,3 | 109,4 | 12799,1 | 127,3 | 30524,6 | 119,7 | 364,2 | 109,9 | 1,9 | 7,9 |
| 2012 | 54743,7 | 102,2 | 101,5 | 26165,4 | 109,7 | 15407,3 | 118,9 | 34769,5 | 113,8 | 396,0 | 109,7 | 0,7 | 1,9 |
| 2015 | 54380,0 | 101,1 | 91,1 | 34500,9 | 101,1 | 15957,0 | 88,9 | 41744,8 | 105,7 | 464,4 | 109,5 | 4,3 | 5,9 |
| 2016 | 60425,2 | 96,9 | 114,7 | 35951,2 | 95,6 | 15772,8 | 78,3 | 45395,1 | 108,7 | 459,7 | 107,9 | 3,4 | 12,9 |
| 2017 | 70337,8 | 100,1 | 159,7 | 40312,3 | 102,8 | 17430,3 | 102,8 | 49187,9 | 108,3 | 528,2 | 105,9 | 1,5 | 12,9 |
| 2018 | 80092,0 | 101,4 | 111,5 | 41588,7 | 105,9 | 17244,9 | 95,7 | 53103,7 | 109,5 | 544,1 | 102,7 | 0,9 | 3,19 |
| 2019 | 81899,7 | 159,7 | 99,7 | 44459,7 | 104,9 | 18159,7 | 105,5 | 56759,7 | 107,4 | 759,7 | 159,7 | 0,5 | 2,7 |
| 2020 | 72578,1 | 95,7 | 92,3 | 4597,8 | 97,5 | 17926,1 | 92,7 | 55754,1 | 98,2 | 719,7 | 159,7 | 1,9 | 2,8 |
| 2021 | 93203,2 | 105,6 | 121,9 | 51122,2 | 109,7 | 16195,5 | 95,5 | 57181,5 | 102,6 | 732,9 | 109,5 | 1,9 | 7,5 |
| 2022 | 133825,8 | 104,6 | 137,3 | 61619,5 | 109,5 | 18972,3 | 105,5 | 78559,7 | 120,7 | 839,5 | 195,7 | 1,9 | 10,9 |

*Mənbə: Mərkəzi Bankın və DSK məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Burada ölkənin iqtisadi nailiyyəti insan kapitalının elm və təhsil meyarı ilə müəyyən edilir. Dövlətin elm və təhsil siyasəti ölkənin davamlı tərəqqisini müəyyən edən zəruri meyarlar kimi səciyyələnir. Beləliklə, insan kapitalının keyfiyyəti müəyyən dərəcədə demoqrafik meyarların tərkib hissəsi kimi şərtlənir. Bütün sahələrdə insan kapitalının keyfiyyəti davamlı inkişafın təmin edilməsi üçün ilkin şərti, keyfiyyət və kəmiyyət parametrlərinin ümumi mənzərəsində əks olunur, eləcə də insan meyarı təbii və fiziki kapital növləri ilə səciyyələnir.

Belə ki, iqtisadiyyatda tələb, təklif prinsipi davamlı iqtisadi tərəqqi prinsipləri, konseptual bir yanaşma kimi ümumi siyasi-iqtisadi kontekstdə reallaşan fəlsəfi mənanı əks etdirir. Beləliklə, siyasi-iqtisadi məntiqi yanaşmada bu fikirlə razılaşmaq olar, bu konseptual baxışda müəyyən həqiqətlər mövcuddur. Davamlı iqtisadi tərəqqi və siyasi-iqtisadi nailiyyət insan rifahını və makroiqtisadi sabitliyin təminatı kimi vətəndaşda dövlətə inamın artımını şərtləndirir. Belə şəraitdə və siyasi-iqtisadi sahədə kadrların davranışı, onların sosial-iqtisadi bacarıqları səciyyəvi hesab edilir. Davud hesab edir ki, siyasi-iqtisadi subyektlər aşağıda qeyd olunan meyarları və vərdişləri bacarmalıdırlar:

İqtisadi idarə etmə bacarığı,

Nəticələrə yönəlmək bacarığın mənzərəsi,

Siyasi məsuliyyət vərdişi,

Kadrların təvazökarlığı.

Beləliklə, müqayisəli təhlilə əsasən, 1970-80-ci illər Azərbaycanda elmin inkişafı ən yüksək nailiyyətli mərhələ kimi xarakterizə olunur. Bu iqtisadi nailiyyət əsasən Üçüncü Sənaye İnqilabı ilə reallaşmışdır. Belə ki, həmin illərdə elm məsrəflər 7 dəfədən çox, əhalinin hər 10 min nəfərə nisbətində elmi işçilərin sayı 519 nəfər təşkil etmişdir.

Belə meyarlar dünyada mövcud olan bütün mütərəqqi nailiyyətləri əks etdirmişdir. Belə ki, dünya ölkələrinin elm fəaliyyətinin təhlili qeyd etməyə əsas yaradır ki, qeyd edilən illərdə dünyanın heç bir ölkəsində elm məsrəflərində və digər elm meyarlarda durğunluq müşahidə edilməmişdir. Belə müqayisə nəticəsində elm nailiyyətlərin yüksək meyarı İsrail dövlətində olduğu müəyyənləşmişdir. Belə ki, 1983-ci ildə Azərbaycanın elmi məsrəfləri İsraildən xeyli çox olması, həm həcmində, həm də ÜDM-da pay nisbətində əks olunmuşdur. Təhlillərə əsasən, 1983-ci ildə İsraildə elm və tərəqqiyə 379 milyon dollar yönəltmişdirsə, 2022-ci ildə bu məsrəflər 26,7 milyard dollar təşkil etmişdir. Azərbaycanda isə həmin dövr ərzində elm məsrəflər 785 milyon dollardan 519 milyon dollara olmuşdur. Əhalinin say tərkibinin artmasına baxmayaraq elmi işçilərin sayı 22 mindən 19-u əhatə etmişdir.

Cədvəl 1-in məlumatlarından göründüyü kimi 2022-ci ilin birinci rübündə dövlət büdcəsinin gəlirləri 3 milyard 591,9 milyon manat təşkil edib, büdcənin icrasında 1 milyard 951 milyon manatlıq və ya ümumi daxili məhsulun 10,5 faizi qədər profisit yaranıb. 2022-ci il dövlət büdcəsinin gəlirləri dövlət borcu və zəmanəti üzrə öhdəliklərin təminatına daxilolmalar da nəzərə alınmaqla 2 milyard 759,5 milyon manat, xərcləri isə 2500 milyon manat təşkil edib. Büdcə vəsaitlərinin 27,9 faizi sosial müdafiə və sosial təminat, 19,9 faizi müdafiə və milli təhlükəsizlik tədbirlərini, 12,7 faizi ümumi dövlət xidmətləri təşkil edib.

**İnnovasiyalı iqtisadi təsirlərin təhlili**

Dünyada innovasiya məhsullarına tələb, mövcud istehsalın texniki səviyyəsini və iqtisadi səmərəliliyinin artırılması məqsədi, tipoloji keyfiyyəti, mahiyyəti istehsal olunan məhsulların yeniləşdirilməsində haqsız rəqabət və ya rəqabət qabiliyyətli məmulatların istehsal prosesindən sıxışdırılması real iqtisadi mənzərənin formasıdır. Belə ki, innovasiyalı məhsulun işlənib hazırlanması və onun reklam etdirilməsi formal sifarişlər çərçivəsində həyata keçirildiyinə baxmayaraq bu proses istehsal formasının səviyyəsinə uyğun tərtib edilən inhisarçılıq əməliyyatı hesab edilir. İnnovasiya siyasətinə yönəldilmiş forma məhsulunu xarakterinə görə fərdi istehsalın məhsulu satışı xalis inhisarçı əlamətin mənzərəsində və bu şəraitdə satıcılar qiymətə əhəmiyyətli təsir etmək imkanında olduğu səciyyəvidir. Beləliklə, innovasiyalı iqtisadi şəraitdə mövcud olan qanunauyğunluqlar "kaşlok" əməliyyatı kimi xarakterizə edilərək iqtisadi obyektlərin digər innovasiyalı iqtisadi obyektə nüfuz edilməsi (yəni iqtisadi mənbə kimi "kaşlok"un hədiyə edilməsidir) ilə xarakterizə edilmişdir (4). Belə innovasiyalı iqtisadi əməliyyatlar mövsümü xarakterli olub müvəqqəti yaranmış və süni yaradılmış, planlaşdırılmış istehlakçı birliyi qısa müddətdə iqtisadi mənbənin özünü dərk etməsi nəticəsində yeniləşməsi zəruri olan ittifaq hesab edilir. Belə ki, bütün dövrlərdə xüsusi innovasiya subyeklərinin dövriyyədən çıxarılması və ya onların inhisarçı plan, niyyətləri dövlətin antiinhisar siyasətinin reallaşması nəticəsində yaradılmış süni istehlakçı ittifaqını dağıdır və ya istehlakçı mənbə, azad "kaşlok" əməliyyatının iflasını nəticələndirir (7). Belə xüsusi innovasiyalı subyektlərin inhisarçılıq təcrübəsi iqtisad elminə məlumdur ki, innovasiyalı iqtisadi təsirlər və ya azad "kaşlok" əməliyyatlı ittifaqa cəhdi, Azərbaycan dövlətinin çevik antiinhisar siyasəti nəti-

cəsində nələrə səbəb olduğu riyazi iqtisadi formada əhatəli şərhini aktuallaşdırmışdır.

Bununla əlaqədar olaraq beynəlxalq təşkilatlar və BMT-nın Baş Assambleyası tərəfindən insan hüquqları haqqında Ümumi Bəyannaməsində də xüsusi innovasiya subyektlərinin məsuliyyət hissinin artırılması, fəaliyyətlərində nöqsan və pozuntuların tənzimlənməsi barədə qərar qəbul edilmişdir (2). Dünya ölkələrində xüsusi innovasiyalı subyektlərin səlahiyyətdən sui-istifadə, süründürməçilik, vətəndaşlarda haqlı narazılıq və azad inhisarçı əməllər yaradan hallar ötən ildə innovasiya subyektlərini qərəzli, haqsız rəqabətə təhrik edən istehsal və istehlakçı sahəsində inhisarçı fəaliyyətlər müşahidə edilmişdir.

Belə ki, innovasiyalı inhisarçılıq istehsal və kapitalın haqsız rəqabətinin nəticəsi kimi iqtisadi məkan mənbənin müəyyən edilən azad "kaşlok" əməliyyatı, innovativ təsirlərlə yaradılmış süni ittifaqın formal xarakteri ilə səciyyələnmişdir (5). Burada inhisarçı və innovasiyalı ittifaq təhrikçilik formasında məcburi olaraq yaradılmış haqsız rəqabət mühütündə insan rifahının xüsusi təmərgüzləşməsi kimi şərtlənmişdir. Beləliklə, xüsusi innovasiyalı təhrikçilərin və inhisarçı istehsalın məkan agentliyinin azad "kaşlok" əməliyyatı nəticədə inhisarlaşmaya səbəblər müəyyən olunmuşdur. Burada xüsusi innovasiyalı istehsal, istehlak formasında yaradılmış hədlər və maneələrin təhlili dövlətin antiinhisar siyasətində iqtisadi elminin çevik proseslərə müdaxiləsi və tənzimlənməsi ilə şərtlənir. Belə ki, mövcud qanunvericilikdə qeyd olunan prinsiplər istehsal və istehlakda yaradılan xüsusi innovasiyalı inhisarçılıq subyektləri üçün müvafiq bəndlər onların innovativ əməllərinin qiymətləndirilməsini zəruri etmişdir.

Belə ki, Azərbaycanın iqtisadi fəaliyyət strukturunun istehsal qabiliyyəti innovasiya sahəsində bilavasitə proporsional asılılıq mövcuddur. Beləliklə, iqtisadi fəaliyyətinin bütün funksional sferalarında innovativ inhisarçılığın yaradılması məqsədi planlaşdırmada, yararsız və keyfiyyətsiz istehsal məhsullar dövriyyədə istismara səbəb olur. Belə innovativ inhisarçı subyektlərin Azərbaycan dövlətimizin həyata keçirdiyi mövcud siyasi-iqtisadi reallıqla uzlaşmır və belə fəaliyyət ölkədə monopoliyanın yaranmasına rəvac verir, dövlətimizin iqtisadi təhlükəsizliyi üçün riskli hesab edilir. Belə şərait innovativ istehlak mallarının dövriyyəsi artdıqca onların keyfiyyəti və satış şərtləri ilə bağlı müştərilərdə haqlı narazılıqlar formalaşdırır. Bu barədə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin fəaliyyəti də, xüsusi innovasiyalı inhisarçı ünsürlərin fəaliyyətinin tənzimlənməsini və ya riyazi iqtisadi qiymətləndirməni şərtləndirir. Beləliklə, innovasiyalı inhisarçı şəbəkələrin müştəri hüquqlarının pozulması hallarının daha çox keyfiyyətsiz malların geri qaytarmalı və ya qaytarılan əmtəələr barədə düzgün məlumatın verilməməsi, müşahidə edilən qanun pozuntuları kimi səciyyələnir. Beləliklə də, istehsalçı subyektlərin qeyri sabitliyə fokuslaşdırılmış innovasiyalı fəaliyyət səlahiyyətdən sui-istifadə məsuliyyət yaradır.

İnnovasiyalı təsnifat, beləliklə, təsnifləşdirmə innovasiyalı iqtisadi əlamətlərə uyğun olaraq aparılması səciyyəvidir. Belə şəraitdə innovasiyalı inhisarçılar müxtəlif mənbələrlə təsnifləşir və məkan mənbəsinin "kaşlok"un azad inhisarçı alətinə çevrilməsi mənzərəsi, əlamətlərə əsasən müvəqqəti xarakterli hesab edilir. Belə ki, real iqtisadi mənzərənin müşahidə və tədqiqatı azad inhisarçıya çevirən innovasiya subyektinin məkan mənbəsinin "kaşlok" aləti kimi istifadə olunması istehsal və istehlak təsnifatının təhlilini zəruri etmişdir. Bu şəraitdə məkan mənbəsi "kaşlok" aləti real innovasiyalı subyektlərin inhisarçı əməllərini dərk etdikdə istehsal və istehlak prosesində qeyri-effektli hesab edilir. Belə şəraitdə azad inhisarçının "kaşloku" olduğunu dərk edən məkan mənbəsi yaradılmış innovasiyalı ittifaqın pozulması ilə proqnozlaşır. Davud hesab edir ki, innovasiyalı inhisarçılıq təsnifatı əlamətlərinə görə 5 qrupa ayrılır, yeniliyin tipinə görə, innovasiyanın mahiyyətinə görə, qeyri effektliyinə görə, tətbiqin həcminə və səmərəsizliyinə görə və s, həyata keçirilən məqsədyönlü xüsusi innovasiyalı əməliyyat metodu əsasən belə təsnifləşir.

İqtisad elmi innovasiyalı yeniliyin tipinə görə, maddi-texniki səmərəsizliyi və sosial əhəmiyyətsizliyin iqtisadi mənzərəsini qeyd olunanlar kimi ifadə edir.

İnnovasiyanın mahiyyətinə görə, fokuslaşdırılmış ittifaq, zonbiləşmiş mənzərə, model effektsizliyi kimi xarakterizə edilir.

Özünə münasibət forması, əvəzedici, ləğvedici proses özünə qayıdışı əks etdirir.

Tədqiq obyektinə görə, innovasiyalı sistem fokusu, səmərəsiz innovativ istehsal inhisarçılığı, əməyin məsrəfə uyğunsuzluğunu ifadə edir.

## İNNOVASİYALI İQTİSADİ MAHİYYƏTİN RİYAZİ QİYMƏT MODELİ

Mövcud siyasi-iqtisadi şəraitdə tərəqqinin mühüm şərtini innovasiyalı inhisarçılığın aradan qaldırılması, tarazlığın təmin edilməsində tənzimlənməni şərtləndirir. Bu prinsiplər əsasında innovasiyalı inhisarçılığı

yaradan səbəb və nəticə əlaqələrinin müəyyənləşdirilməsi mühüm faktorlar kimi səciyyələnir. Belə ki, xüsusi innovasiya subyektlərində kadr faktoru mühüm əhəmiyyəti ilə yanaşı antiinhisarçılıq mühitinin formalaşmasında və haqsız rəqabətə, inhisarçılığa şərait yaradan istehsal və istehlakçı münasibətlərinin müəyyənləşdirilməsi səciyyəvidir. Belə şəraitdə innovasiyalı iqtisadi mahiyyətin riyazi modelinin tətbiqi antiinhisar siyasətin çevikliyi ilə inhisarlaşmanı müəyyənləşdirməkdə əhəmiyyətli hesab edilir. İqtisadi mahiyyətin riyazi modeli dünya ölkələrində istehsal olunan ÜDM-un dəqiq innovasiyanın pay nisbətini və azad inhisarçı münasibətlərində yararsız məhsulun təşkilindən müəyyənləşən əlavə dəyərin əsasını elmi riyazi, iqtisadi metodlarla müəyyənləşməsi zəruridir. Belə innovasiyalı inhisarlaşma metodunun təcrübə əsası əfsanələşdirilmiş dəyərin daha çox təbii ehtiyatlar fondunda fokuslaşdığı müəyyənləşir. Beləliklə, müasir şəraitdə istehsal müəssisəsinin haqsız rəqabətə sövq edilməsi, davamlı inkişafının təmin edilməsi üçün inhisarçı innovasiya subyektlərin fəaliyyətinin mahiyyəti real siyasi-iqtisadi mənzərədə müəyyən edilir.

Belə ki, bəşəriyyət daim inkişafdadır və kainatda hər şey müntəzəm olaraq müşahidə edilləndir. Beləliklə, cəmiyyətin iqtisadi tərəqqi mərhələsi daş dövründən (neolit) başlayaraq sənaye inqilabına kimi təsərrüfatın tərəqqi mərhələsi yaşayan cəmiyyət istehsalı evdə və əl dəzgahlarında həyata keçirməsi "Neolit inqilabı"nı şərtləndirmişdir. Belə mərhələdə insanların iqtisadi fəaliyyətinin əsası istehsal təsərrüfatına daxil olan əkinçilik və maldarlıq təşkil etmişdir. Belə iqtisadi mahiyyəti insanların kənd təsərrüfatı cəmiyyətində nailiyyətləri ticarət həyatının və pul dövriyyəsinin artımına səbəb olmuşdur. Mövcud şəraitdə innovasiyalı iqtisadi mahiyyət haqsız rəqabəti və inhisarçılığı iqtisadi-riyazi metodlarla tənzimlənməsini şərtləndirir. Belə ki, Azərbaycanda mövcud olan qanunvericilik inhisarçı bölgüsü, yaxud onların inhisarçı rolunun bazara mənfi təsirlərinin neytrallaşdırılması ilə bağlı qaydaların tətbiqini zəruri edir.

Beləliklə, real şəraitin iqtisadi mənzərəsində riyazi metodların tətbiqi elmi məqalədə innovasiya subyektinin azad inhisarçı arasında əlaqələri müəyyən etməkdən ibarətdir, bunun üçün Azərbaycan Dövlət Statistika Komitəsinin (ADSK), Birləşmiş Millətlər Təşkilatının (BMT) və Dünya Bankının (DB) statistik göstəricilərinin təhlili səciyyəvi hesab edilmişdir.

Tədqiqatda innovasiyalı iqtisadi mahiyyətin inhisarçı arasında korrelyasiya əmsalını müəyyən etmək üçün aşağıdakı düsturdan istifadə edilir. Burada iqtisadi mahiyyətin riyazi təsvirindən göstəricilərin təhlili zamanı ÜDM-də göstəricilər üçün loqarifmik xüsusiyyətlər tətbiq edilmişdir. Məqsəd inhisarçılığa şərait yaradan innovativ subyektlə obyektin səbəb-nəticə əlaqəsini müəyyən etməkdir. Burada, Eviews tətbiqi proqramında tərəqqi tənliyi aşağıdakı kimi təsvir edilmişdir.

$$D = \frac{ND+GD+ƏD}{Dİ + EVM}$$

Əlamətlərdə D dövlətin mənfəət gəliri və sərvəti, antivirus proqramıdır. ND+GD+ƏD uzunömürlü elm-təhsil meyarı, iqtisadi mənafelərin artım şərti, vicdanlı kadr perspektivi kimi şərtlənir. Dİ+EVM istehsal və istehlak mayakı, mənfətli sərvət vahidləri hesab edilir.

Beləliklə, innovasiyalı iqtisadi mahiyyətin riyazi qiymət modelində Azərbaycanın dünya miqyasında siyasi-iqtisadi nüfuzunu xarakterizə edən antiinhisar siyasətin meyarları bir vahid artımı şərtləndirir. Beləliklə, Azərbaycanda UDM-in 5,19 vahidin artmasına, daxili investisiyaların həcm meyarlarının bir vahid artması isə UDM-un 1,9 vahid artımı şərtləndirir.

Təyin edilmiş bu modelə əsasən, innovasiyalı inhisarçılığı yaradan forma və fərdi təşəbbüskarlıq nəticəsində mütəşəkkil və haqsız rəqabətin aradan qaldırılması şəraitini formalaşdıran obyekt kimi səciyyələnir.

Məlum olduğu kimi, Eviews tətbiqi proqramına əsasən qeyd edilən meyarlara uyğun olan innovasiyalı iqtisadi mahiyyətin riyazi qiymət modeli mənfəətli artımı şərtləndirir.

Dİ faktor iqtisadi mahiyyətin əlamət göstəricisinin (şəraitə uyğun) qiyməti, innovasiyalı inhisarçılığa qarşı antiinhisar meyarın nəticə göstərici tətbiqi məqsədəuyğun hesab edilir.

Beləliklə, region iqtisadiyyatının tarazlı inkişafını konseptual olaraq cədvəl 1-də təqdim olunan struktur və tərtib edilmiş iqtisadi mahiyyətin riyazi modeli əsasında göstərmək olar. Bu metod ölkənin innovasiyalı iqtisadi mahiyyəti və tərəqqi potensialının iqtisadi tarazlığa təsirin riyazi modelə müəyyənləşir. Tərtib etdiyimiz riyazi model regionun innovasiya meyarı ilə iqtisadi mahiyyətin tarazlı inkişafının qarşılıqlı əlaqəsinin mövcudluğu haqqında nəticənin müəyyənləşməsini şərtləndirir. Belə ki, region iqtisadiyyatının tarazlı inkişafını təmin etməyə yönəlmiş tənzimlənən qərarların reallaşdırılması üçün metodoloji əsası və onun təcrübədə reallaşdırılması regionun iqtisadi in-

kişafının mühüm istiqamətlərini özündə əks etdirir. Beləliklə, mövcud şəraitdə Azərbaycanda regionların iqtisadi tarazlı inkişafının təmin edilməsi dövlətin siyasi-iqtisadi prinsiplərinin əsas şərtlərindəndir. Bu istiqamətdə Azərbaycanın regional iqtisadiyyatın mahiyyət tarazlığı tərəqqini və artım şərtləri inkişafın təmin edilməsini zəruri hesab edir.

**Təsvir 1**

**Ümumi milli gəlirin tərkibi, cari qiymətlərlə, milyon manatla**

| Meyarlar | 2005 | 2015 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| İşçilərin əmək haqqı | 2 819,7 | 10 951,9 | 19 749,7 | 20 891,9 | 22 195,1 | 27 191,9 |
| İstehsal idxalı | 1 071,9 | 5 519,7 | 7 919,5 | 7 319,7 | 9 389,7 | 5 531,9 |
| məhsul idxalı | 27,9 | 197,9 | 155,9 | 159,1 | 155,9 | 159,9 |
| Ümumi mənfəət | 95159,7 | 38 168,7 | 54 139,7 | 51951,9 | 62 519,5 | 59751,9 |
| Ümumi milli gəlir | 45 919,7 | 52 619,5 | 78 791,5 | 79 519,7 | 91513,1 | 97 159,7 |

*Mənbə: DSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.*

Beləliklə, innovasiyalı iqtisadi inhisarçılığın, haqsız rəqabətin aradan qaldırılması üçün iqtisadi mahiyyətin dünya təsərrüfat sisteminə səmərəli artımın təşkilində ölkə iqtisadiyyatının əsasını təşkil edən tərtib edilmiş riyazi modelin tətbiqi səciyəvidir. Azərbaycanda formalaşan iqtisadi siyasət, iqtisadi mahiyyətin artım tempinin təmin olunması konsepsiyası ilə uyğunlaşmış riyazi model hesab edilir. Ölkəmizdə iqtisadi inhisarçılığın və iqtisadiyyatının inkişaf mahiyyəti, dünya iqtisadiyyatında layiqli mövqeyi kimi riyazi iqtisadi metoda əsaslanır.

Belə ki, tərtib edilən riyazi model nəticəsində yaranan ideyalar, innovasiyalı iqtisadi mahiyyətin makro və mikroiqtisadi sahələrdə inhisarçılığı və haqsız rəqabəti formalaşdıran xüsusi innovasiyalı subyektlərin plan və niyyətlərinin təsvirini xarakterizə edir. Beləliklə, bu prinsiplər əsasında Azərbaycanda antiinhisar siyasəti aktuallaşmalı və haqsız rəqabəti, innovasiyalı inhisarçılığı neytrallaşdırmanı səciyyələndirir.

Real innovasiyalı iqtisadi mahiyyətin riyazi qiymət modeli sistemi özündə ölkə üçün səciyyəvi olan və innovasiya proseslərinə təsir göstərən maliyyə, iqtisadi informasiya mənafelərinin məcmusu kimi ifadə olunur. Belə ki, iqtisadi mahiyyətin riyazi qiymət meyarı əsas fəaliyyət və istiqamətlər kimi innovasiyalar bir sıra baza elementlərini təşkil edir. Belə şəraitdə hər bir iqtisadi istiqamət vahid innovasiya sistemində özünəməxsus metodu formalaşdırmalı və iqtisadi mahiyyətin strukturuna uyğunlaşması ilə səciyyəvi hesab edilir (4). Davud hesab edir ki, davamlı iqtisadi tərəqqini şərtləndirən mahiyyətin riyazi qiymət modeli istehsal formasında və inkişafı istiqamətində innovasiya strukturlarının əsas istiqamətləri aşağıdakı prinsiplərin reallaşdırılması ilə şərtləndirir.

İqtisadi mahiyyətin struktur vahidinin kəmiyyət və keyfiyyət cəhətdən yenidən qurmaq və istehsal olunan məhsulların artımını təşkil etməkdir,

Elmi-təhsil tərəqqi nailiyyətləri riyazi metodların tətbiqi ilə yeni iş yerlərinin yaranmasını və müəssisənin iqtisadi meyarlar əsasında artımın təşkili zərurəti,

İqtisadi mahiyyətin riyazi qiymət modeli innovasiya subyektlərin formasının fəaliyyət istiqamətini təşkil etməlidir,

Davudun fikirlərinə əsasən, dövlətin innovasiya siyasətində məqsədi riyazi qiymət modelini fokuslaşdırılmalıdır. Belə ki, dünyada mövcud qlobal dəyişmələrin təməl faktoru kimi innovasiyalı iqtisadi mahiyyətin riyazi qiymət modelə xarakterikdir. Burada qlobal informasiya təcrübəsi, münasibətlərə əsaslanan, mövcud elmi qəbul etməli və iqtisadi mənzərənin fərqləndirməsi səciyyəvi hesab edilir. Beləliklə, innovasiyalı iqtisadi mahiyyətin riyazi qiymət modeli mövcud şəraitdə torpaq, əmək və sərmayə kapitalist iqtisadiyyatının təməl istiqamətinin təşkilini əks etdirir.

Bununla da innovasiyanın iqtisadi mahiyyəti riyazi qiyməti haqsız rəqabət əsasında formalaşan əməliyyatı kimi səciyyələnir. Belə ki, innovasiyalı təsərrüfat subyektləri iqtisadi mahiyyətin qiymət meyarını çox əhəmiyyətli bir vasitə hesab etmişlər ki, bu da haqsız rəqabətin xarakterik formasıdır. Beləliklə, yeni dünya nizamında elmi-informativ biliklər tərəqqinin mühüm meyarına və innovasiyalı təsərrüfat yeniliklərin başlıca təminatına çevrilmişdir. Belə ki, elməsaslı informasiya bazasına nail olmaq, biliklərin reallığa tətbiqi iqtisadi mahiyyətdə riyazi qiymət modelini şərtləndirir. Bu meyarlar iqtisadi artımın və makroiqtisadi sabitliyin təmin olunmasında, iqtisadi təhlükəsizliyin rəqabət qabiliyyətinin təmin edilməsində, iqtisadi mənafelərin həllində, ölkənin investisiya siyasətində tətbiqi zəruridir. Beləliklə, riyazi qiymət modeli iqtisadi artımı və iqtisadiyyatın tarazlı inkişafını təmin etmək məqsədilə investisiyaları iqtisadiyyatın prioritet sahələrinə yönəldilməsini, iqtisadiyyatda elmi sahələrin payının artırılmasını şərtləndirir. Bu konteksdən yanaşdıqda iqtisadi mahiyyətin riyazi qiymət modelinin dövlətin investisiya, innovasiya siyasətində tətbiqini əks etdirir.

Belə ki, investisiya mahiyyəti iqtisadi qiymət modeli azad iqtisadi mənbələri, elmi innovasiyaya yönələn iqtisadi əməliyyat kimi müəyyənləşmişdir.

Burada qiymət modeli ümumilikdə ölkənin iqtisadi mahiyyət siyasətinin tərkib hissəsini və struktur, maliyyə-kredit, qiymət, gəlir və digər siyasətləri özündə əks etdirir. Beləliklə, iqtisadi siyasəti, istehsal, mübadilə, istehlak, idxal, ixrac və s. sahələrdə innovasiyalı forma tərəfindən həyata keçirilən tədbirlər məcmusudur. Bu qiymət modelinin təhlilindən belə bir nəticə formalaşır ki, mövcud siyasi-iqtisadi şəraitin əsası iqtisadi təhlükəsizlik problemi kimi haqsız rəqabətə sövq edilən innovasiyalı inhisarçılıqdır.

## GEOİQTİSADİ MAHİYYƏT

Real siyasi-iqtisadi ideyalardan fərqli olaraq mövcud geosiyasət coğrafi relyef ideyasına əsaslanaraq, bəşəriyyətin mövcudluğunun bu kontekstdə səciyyələnir. Beləliklə, iqtisadi mahiyyət kimi geosiyasət də ehtimallarda, real siyasi-iqtisadi şəraitin müxtəlif təzahürlərin ifadəsi, iqtisadi ideyalarda isə həmişə ehtimalların və siyasi reallıqların şərhində, siyasi-iqtisadi mahiyyətdə özünü əks etdirir. Beləliklə mövcud innovasiyalı iqtisadi əməliyyatın mahiyyəti nəticə etibarı ilə gələcəyi proqnozlaşdırılmayan, real mənzərəni əks etdirməyən, geoiqtisadi meyarların təzahürü kimi səciyyələnir.

Belə ki, geosiyasətdə əsas insanın məkanda mövcud olan innovasiyalı calaq iqtisadi mənzərənin real formasında özünü əks etdirir. Bu nəticələrin innovativ tətbiq metodları, dərk olunan meyarlar və tezislər əhatəli iqtisadi planlaşdırmada məkan mənbəsinin real qanunauyğunluqları ilə müşahidə edilməsi və innovasiya formanın mənbəsi "kaşlok" əməliyyatı ilə calandığı siyasi-iqtisadi mənzərədən məlum olur. Beləliklə, məkan mənbəsinin geosiyasi mənzərədə "kaşlok" alətinə çevrilməsi innovativ iqtisadi əməliyyatın funksional obrazı kimi xarakterizə olunmuşdur (3). Bu səbəbdən, geoiqtisadi siyasət ümumilikdə dünyanın siyasi-iqtisadi reallığı, xalqların mənəvi zövqü nəzərə alınmadan bəsit formada sosial-iqtisadi mənbənin aləti kimi innovasiyada planlaşdırıldığı xarakterizə edilmişdir. Belə ki, hələ II Dünya müharibəsindən sonra Almaniya iqtisadiy tərəqqisi üçün ABŞ-ın keçmiş dövlət katibi və müdafiə naziri Marşalın planında əks olunan tədbirlərdə, inhisarçılıq və inhisarçılığa qarşı mübarizə mühüm prinsip kimi şərtlənirdi. Geoiqtisadiyyatda xüsusi innovasiyalı inhisarçılıq cəmiyyətdə gərginlik yaradır, tərəqqiyə mane törədən əsas faktor kimi səciyyələnir.

Bu kontektsdə inhisarçı mahiyyət isə ölkə daxilində məhsulların satışına qiyməti müəyyən edən innovasiyalı formasiya, Marşalın qiymət konsepsiyasında gəlirlərin səviyyəsi ilə müəyyənləşən real iqtisadi mənzərə hesab edilir. Bu konteksdə Marşalın qiymət nəzəriyyəsi, iqtisad elmində konkret həqiqətlərin məcmusunu özündə əks etdirir.

## NƏTİCƏ

Beləliklə, iqtisadi təhlükəsizlik, cəmiyyətin mütərəqqi inkişafını, iqtisadi, ictimai-siyasi sabitliyini, əlverişli xarici və daxili meyarları yüksək müdafiə qabiliyyətinin səmərəliliyini və iqtisadi maraqların qorunması mövcud siyasi-iqtisadi tələbləri kimi səciyyələnir. Belə ki, dövlətin iqtisadi təhlükəsizliyin təmin edilməsinin əsas mexanizmlərindən biri də xüsusi innovasiya formanın təxribat pozuculuq fəaliyyətlərinin neytrallaşdırılmasından ibarətdir. Beləliklə, insan kapitalı məkan mənbəsi ilə "kaşlok" alətini iqtisadi köklərdən qoparmaq və özgələşdirmək əməliyyatı fiyasko ilə nəticələnəcəyi proqnozlaşdırılmış və təkrar istehsal sistemində təhsil və elm sahəsində tərəqqi zəruriliyi iqtisad elmində fundamental ictimai-hümanitar elmin tərkibi kimi şərtlənmişdir. Burada xüsusi innovasiyalı subyektlərin təxribatı, iqtisad elminə laqeyd münasibət Azərbaycan elminə yönəlik inhisarçı forma kimi müəyyənləşmişdir.

Belə ki, dünyada ölkələrin iqtisadi nailiyyəti insan kapitalının elm və təhsil meyarı ilə müəyyən edilir. İqtisadi mahiyyətin tərtib edilən riyazi model nəticəsində yaranan ideyalar, innovasiyalı iqtisadi mahiyyətin makro və mikroiqtisadi sahələrdə inhisarçılığı və haqsız rəqabəti formalaşdıran xüsusi innovasiyalı subyektlərin plan və niyyətlərinin təsvirini xarakterizə edir. Beləliklə, bu prinsiplər formasında Azərbaycanda antiinhisar siyasəti aktuallaşmalı və haqsız rəqabəti, innovasiyalı inhisarçılığı neytrallaşdırmalıdır.

Beləliklə, istehsal kapitalının keyfiyyəti müəyyən dərəcədə demoqrafik meyarların tərkib hissəsi kimi səciyyələnir. Bütün sahələrdə insan kapitalının keyfiyyəti davamlı inkişafın təmin edilməsi üçün ilkin şərti, keyfiyyət və kəmiyyət parametrlərinin ümumi mənzərəsində müəyyənləşir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. İlham Əliyev "İnkişaf məqsədimizdir", 12-cu kitab, Azərnəşr.*

*2. H. Allahverdiyev "İqtisadi dövlət tənzimlənməsi", Dərs vəsaiti, Bakı 2008.*

*3. Ə. Əlirzayev, "İqtisadi rifah və siyasi idarəetmənin əsas prinsipləri". Bakı, 2020*

*4. D.İ.Allahverdiyev, "Dünya iqtisadiyyatı:İqtisadi mənafeylər, mövcud reallıqlar və perspektivlər" Bakı 2022.*

5. *Abbasov. V.H, "İqtisadiyyatın əsasları", Bakı, 2022.*
6. *İ.Hüseynoğlu "İqtisadi tərəqqi modelinin formalaşması prinsipi", Baki 2022.*
7. *N.İ.Məmmədov "Geosiyasətə giriş", Bakı 2022.*

## XÜLASƏ

Tədqiqatın məqsədi dövlətin iqtisadi siyasətində milli sərvətin tərəqqi istiqamətinin mahiyyəti və mövcud şəraitdə təhlili, iqtisadi rifahın qiymət meyarını təşkili təhlil edilmişdir. Beləliklə, ölkənin iqtisadi və sosial-siyasi tərəqqisinin əsas meyarı kimi rifahı kontekstində araşdırılmışdır. Mövcud şəraitdə ölkənin siyasi-iqtisadi məhsuldarlığı və tərəqqisini səciyyələndirən gəlirlərin bərabərliyi, makroiqtisadi göstəricilərin təhlili qiymətləndirilmişdir. İqtisadi tarazlığın təmin olunmasında ümumi daxili məhsulun tempi tədqiq edilmişdir. Bununla yanaşı, mövzunun aktuallığını əks etdirən, sosial-iqtisadi sahədə inhisarçılığa və haqsız rəqabətə şərait yaradan səbəb-nəticə əlaqəsinin iqtisadi mahiyyəti araşdırılmışdır.

**Açar sözlər:** *iqtisadi innovasiya, iqtisadi siyasət, iqtisadi tərəqqi, insan rifahı, artımlı iqtisadiyyat.*

## ANALYSIS OF THE EFFECTS OF INNOVATION IN ECONOMIC EFFICIENCY AND ORGANIZATION OF BALANCE

**DSc in economics, docent Dagbayi Allahverdiyev**
***Leading researcher of the Institute of Economics of the Ministry of Science and Education of Azerbaijan***

## SUMMARY

The purpose of the research is to analyze the nature of the progress direction of the national wealth in the economic policy of the state and the analysis in the current conditions, to form the price criterion of economic well-being. Thus, the context of the welfare of the country as the main criterion of its economic and socio-political progress was analyzed. In the current conditions, the equality of incomes, which characterize the country's political-economic responsibility and progress, and the analysis of macroeconomic indicators were assessed. The rate of gross domestic product was studied in order to ensure economic balance. At the same time, the economic nature of the cause-and-effect relationship between the subject and the object, which reflects the relevance of the topic and creates conditions for monopoly and unfair competition in the socio-economic field, has been investigated.

**Keywords:** *economic innovation, economic policy, economic progress, human welfare, growth economy.*

## АНАЛИЗ ВЛИЯНИЯ ИННОВАЦИЙ НА ЭКОНОМИЧЕСКУЮ ЭФФЕКТИВНОСТЬ И ОРГАНИЗАЦИЯ БАЛАНСА

**Доктор экономических наук, доцент**
**Дагбай Аллахвердиев**
***Ведущий научный сотрудник Института экономики Министерства науки и образования Азербайджана***

## РЕЗЮМЕ

Цель исследования - проанализировать характер направленности поступательного движения национального богатства в экономической политике государства и анализ в современных условиях сформировать ценовой критерий экономического благополучия. Таким образом, был проанализирован контекст благосостояния страны как основного критерия ее экономического и социально-политического прогресса. В текущих условиях оценивались равенство доходов, характеризующих политико-экономическую ответственность и прогресс страны, и анализ макроэкономических показателей. Для обеспечения экономического баланса изучался показатель валового внутреннего продукта. При этом исследована экономическая природа причинно-следственной связи между субъектом и объектом, которая отражает актуальность темы и создает условия для монополизма и недобросовестной конкуренции в социально-экономической сфере.

**Ключевые слова:** *экономические инновации, экономическая политика, экономический прогресс, благосостояние людей, рост экономики.*

UOT 336.027

# AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNDƏ DAXİLİ RESURS POTENSİALI: TƏHLİL, QİYMƏTLƏNDİRMƏ VƏ REALLAŞDIRMA

**TALEH ƏKBƏROV**
*Bakı Biznes Universitetinin dosenti, i.ü.f.d.*
*E-mail: akberovtaleh@yahoo.com*

## GİRİŞ

Məlum olduğu kimi, 2020-ci il Azərbaycanın şanlı tarix səhifələrində zəfər ilinə çevrildi. Ölkə Prezidenti cənab İlham Əliyevin başçılığı ilə xalqımızın birliyi və rəşadətli ordumuzun yenilməz gücü ilə torpaqlarımız işğaldan azad edildi, tarixi ərazi bütövlüyümüz bərpa olundu. Ərazilərimizin bərpası üçün 2030-cu illərə kimi hədəflərimizi nəzərdə tutan Milli Prioritetlər arasında "İşğaldan Azad Olunmuş Ərazilərə Böyük Qayıdış"ın mühüm əhəmiyyəti vardır. Cənubi Qafqaz regionunda yeni beynəlxalq və regional səviyyəli nəqliyyat-logistika dəhlizinin bərpası nəticəsində Azərbaycanın dünya bazarlarına çıxış imkanlarının artması təmin ediləcəkdir. İşğaldan azad edilmiş ərazilərin bərpa olunması prosesində xarici və milli sahibkarlıq subyektlərinin iştirakının mühüm rolu olacaq. Beləliklə də bu ərazilərdə formalaşdırılacaq və yenidən qurulacaq istehsal və xidmət sahələrinin uğurlu fəaliyyəti nəticəsində bütövlükdə ölkə iqtisadiyyatının sürətli artımı təmin ediləcəkdir.

Müasir şəraitdə işğaldan azad olunmuş ərazilərimizdə sahibkarlığın maliyyə təminatında güzəştli maliyyə resurslarına çıxış imkanlarının təkmilləşdirilməsi probleminin elmi-nəzəri və praktiki araşdırılması, bu aspektdə sahibkarlıq subyektlərinin daha təkmil inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi yaxın və orta perspektivdə maliyyə imkanlarının genişləndirilməsi üçün optimal variantın tapılmasına imkan verəcəkdir.

Tədqiqat işinin aparılmasında əsas məqsəd işğaldan azad olunmuş bölgələrimizdə sahibkarların güzəştli maliyyə resurslarına çıxış imkanlarını təhlil edib qiymətləndirməklə, yerli və beynəlxalq səviyyəli dövlət və özəl maliyyə-kredit qurumlarının rolunu müəyyənləşdirməkdən, bu istiqamətdə müvafiq təklif və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

1. İşğaldan azad edilmiş ərazilərdə erməni vandalizminin izləri

Tarixi qələbədən sonra Qarabağ regionunda, həm də ona daxil olan 7 regionda ölkə iqtisadiyyatının əlavə dəyər formalaşdırmaq, həmçinin investisiya potensialının çoxaldılması imkanlarından səmərəli şəkildə istifadə edilməsi strateji vəzifə kimi qarşıda dayanır. Bu rayonlar hələ sovetlər birliyi dövründə respublikamızın iqtisadiyyatında vacib yer tutmuşdur və əsasən də kənd təsərrüfatının, həmçinin aqrar-sənaye kompleksinin inkişaf etdirilməsində, turizm-rekreasiya potensiallarından istifadədə mühüm nailiyyətlər əldə edilmişdir. Bildiyimiz kimi, hər bir müharibənin sonu olur və sülhün bərqərar olunmasından sonra, dirçəliş və yaradıcılıq işlərinin reallaşdırılması tələb edilir. İşğaldan azad edilmiş regionlarda dirçəlişin və bərpa işlərinin maksimal formada nizamlı və mütəşəkkil şəkildə reallaşdırılmasının prinsip və meyarları müəyyən edilməli və indiki şəraitə uyğun formada mükəmməlləşdirilməlidir. Artıq qeyd etmək olar ki, respublikamız bu istiqamət üzrə başlıca konseptual yanaşma və konkret fəaliyyət istiqamətinin dairəsinin müəyyən edilməsi və icra olunması fazasına daxil olmuşdur. Bu məsələlərə dünya praktikasından yanaşdıqda başlıca ünsürlərdən biri kimi, postkonflikt regionların bərpa olunmasına dövrün tələbi cəhətdən, həmçinin obyektiv reallıq bazasından yanaşılması mühüm şərtlərdən biridir [1]. Məsələ burasındadir ki, erməni vandallarının işğal zamanındakı vəhşiliklərinin və faşist davranışlarının sərhədi olmamışdır. İnsanlığa qarşı cinayətləri ilə xislətini bütün dünyaya göstərən bu cəlladlar Qarabağ, həm də işğal edilən digər 7 rayon ərazisində talançılıq və viranćılıqla məşğul olaraq həzz almış və bu ərazilərdə bir salamat belə tikililər, həmçinin insan qəbirləri qalmamışdır.

Erməni faşistlərinin hərbi təcavüzü zamanı işğal olunmuş rayonlarımızda 900 yaşayış məntəqəsinin, 150 min evin, 7 min ictimai binanın, 693 məktəbin, 695 tibb müəssisəsinin, 855 uşaq bağçasının, 6 min sənaye və kənd təsərrüfatı müəssisələrinin dağıdılmasının şahidi olmuşuq. Bundan başqa, 2670 km avtomobil yolunun, 160 körpünün, 2,3 min km su xəttinin, 2 min km qaz kommunkiasiyasının, 15 min km elektrik xəttinin dağıdılması və sıradan çıxarılmasını, torpaq sahələrinin deqradasiyaya uğradılmasını,

su mənbələrinin zəhərlənməsi və meşələrin yandırılmasını tarixi qaynaqlarda görə bilərik. Əkinə faydalı torpaqlar terrora uğramış, başdan –başa minalanmış, bir sözlə, insanlığa sığmayan cinayətin hər üzünü və formasına burada şahidlik etmək olar [2]. Zamanında güclü iqtisadi gücə malik olan Ağdam və Füzuli əraziləri bom-boz biyabana çevrilmiş və demək olar ki, bu ərazilərdə bir dənə salamat tikili və ya infrastruktur obyekti mövcud deyildir. Başqa rayonların da taleyi buna bənzərdir, bina və tikililər, evlər təməlinə qədər məhv edilmiş, təsərrüfat və meşə sahələri əvvəldə vurğuladığımız kimi dağıdılmış, torpaq əraziləri yararsız formaya salınmış, mineral ehtiyatlarının, su mənbələrinin, filiz və qeyri-filiz yataqlarının vəhşicəsinə istismar edilməsinin, yaxud dağıdılmasının şahidi olmuşuq.

Vurğulayaq ki, müasir zamanımızda qlobal problemlər olduqca çoxdur və dünya əhalisi, ölkələri qlobal çətinliklərin təsirini nisbətən aşağı salmaq üçün səylərə cəhd edirlər. Digər tərəfdən də pandemiyanın yaratdığı yeni şərait çərçivəsində yaranan çətinliklər 100 milyonlarla əhalinin həyatını təhlükəyə atmış olur. Qeyd olunanlar böyük resurslar, həmçinin maliyyə resursları tələb edir, həyat fəaliyyəti və iqtisadi inkişafı prosesləri bərpa edilməli, iflic vəziyyətində olan iqtisadi sahələr canlandırılmalıdır. Böyük ölkələr və güclü iqtisadi imkanlarına, maliyyə vasitələrinə malik ölkələr belə qlobal çətinliklər qarşısında acizdir, minilliyin qlobal çətinliklərinin həll edilməsindən söhbət belə gedə bilməz, həmçinin iqlim dəyişiklikləri mədəniyyət üçün real çətinliklər yaratmaqdadır, ac və işsiz insanların sayında azalma müşahidə olunmur və bütün bu qeyd olunanlar olduqça qorxulu proseslərdir. Sivilizasiya və dünya ölkələrinin başlıca vəzifəsi daha çox əməkdaşlıq etmək, inkişaf və inteqrasiya potensiallarından bəhrələnmək, hər bir regionun inkişaf potensialını dəyərləndirmək üçün çalışırlar, əməkdaşlıq üçün addımlar atırlar. Belə bir zamanda ermənilər və onların dayaqları heç cür işğalçılıqdan əl çəkmək istəmir, təslimçilik aktına imza atmaqlarına baxmayaraq, hələ də revanşist xülyalarla yaşayırlar. Bəzi aparıcı dünya ölkələri və beynəlxalq təşkilatlar isə beynəlxalq hüququmuzu tapdalamaqda davam edir və biz bunun açıq nümünəsini 30 ildə Qarabağın işğalı ilə əlaqədar məsələlərdə şahidi olduq.

2. Qarabağ regionunda bərpa proseslərinin aparılması üçün tələb edilən maliyyə resurslarının miqyasının müəyyən edilməsi

Bu səbəbdən də, öz torpaqlarımızı geri almaqla birgə, onların sürətli formada inkişaf etdirilməsini, infrastrukturunun daha tez bərpa olunmasını, sosial-iqtisadi inkişaf proseslərinin tarazlığının təmin olunmasını həyata keçirməliyik. Bu cəhətdən, respublikamızın regional siyasətində müasir mərhələnin başlanıldığını bu cür vurğulamalıyıq və şübhəsiz, bu zaman ənənəvi regional iqtisadi inkişaf mexanizminin müasirləşdirilməsi, əsasən də Qarabağ zonasının dirçəldilməsi prosesinin müasir hədəfinə uyğun olan fəaliyyət modelləri və mexanizmlərinin işlənib hazırlanaraq reallaşdırılması zərurəti meydana çıxmışdır. Qeyd edildiyi kimi, bunların bəzilərinə və pilot layihələrin icrasına başlanılmışdır. Bu cəhətdən qürurla qeyd edə bilərik ki, respublikamız bu vurğulanan strateji fəaliyyətlərlə müasir zamanda Qarabağın geri alınmasından sonra, özünün başqa bir şərəfli vəzifələrini, postkonflikt zonaların bərpa olunması və yeniləndirilməsini təmin edərək 700 minə yaxın soydaşımızın öz ata-baba yurduna böyük qayıdışına nail olunmalıdır.

Ərazinin bərpa proseslərinin sürətləndirilməsi, əhalinin yaşayışına rəvac verən şəraitin formalaşdırılması, ilk əvvəl işğaldan azad edilmiş zonalarda infrastruktur obyekt şəbəkəsinin sürətli və daha intensiv formada təşkili, həmin regionlarda elektrik enerjisinin, içməli suyun, təbii qazın təminatının gücləndirilməsi tələb edilir. Bu isə yeni investisiyalarla əlaqədardır və investisiya potensialının çoxaldılması vacib şərt kimi diqqət çəkməkdədir. Hal-hazırda bu regionların bərpa olunmasına külli miqdarda maliyyə mənbələri və investisiya resurları vacibdir, lakin hesab olunur ki, zaman gələcək bu ərazi respublikamızda dinamik və güclü inkişaf edən əraziyə çevriləcək və daimi olaraq investisiya potensialının çoxaldılması imkanlarına malik olacaq. Belə ki, ərazilər daha sürətli bərpa və yenidənqurma imkanları olan resurslarla zəngindir və təbiət bu ərazidən heç nə əsirgəməmişdir. Qeyd olunan ərazilərdə enerji infrastrukturunun təşkil olunması ilə əlaqədar geniş şəkildə işlərin reallaşdırılması, bərpa edilən enerji üzrə əsas potensialın aşkar edilməsi və həyata keçirilməsi imkanları mövcuddur. İşğaldan azad edilən regionların hidroenerji, külək, günəş, bioenerji və geotermal enerji kimi bərpa edilən güclü enerji resursları vardır və onların potensialının müəyyən edilməsi üçün ölçü müşahidə stansiyasının quraşdırılaraq, texniki imkanlar və iqtisadi faydalılığının qiymətləndirilməsi tədbirləri həyata keçirilməkdədir [3]. Bu re-

sursun təsərrüfat və kommersiya dövriyyəsinə cəlb olunması, ümumi olaraq iqtisadiyyatın investisiya imkanından faydalı istifadənin yaranmış yeni reallıqlara uyğun formada modelləşdirilməsi, əlavə dəyər meydana çıxaran iqtisadi sahələrin perspektiv imkanlarından yararlanması mühüm məsələlər kimi qeyd olunurlar. Lakin bu proseslərin maliyyələşməsi, qeyd olunan layihələrin zamanında reallaşdırılması davamlı formada investisiya resurslarını və cəlb edilməsini şərtləndirir. Ərazinin iqtisadi sahələr inkişaf etdikcə, bir tərəfdən artıq məhsuldarlığı olan əlavə dəyər formalaşdıran iqtisadi sahələrin inkişafının tezləşəcəyini gözlədiyimiz kimi, başqa tərəfdən də bu sahə və istiqamətlərdə yeni investisiya resurslu mənbələrin reallaşdırılacağını proqnozlaşdırmaq olar. Bunu ərazidə aparılan bərpa işlərinin gündən-günə artması da göstərir, məsələn, işğaldan azad edilmiş sahələrdə inventarlaşmaların aparılması, minalardan təmizlənərək təftiş olunması, vacib infrastruktur şəbəkələrinin yaradılması, operativ tədbirlərin həyata keçirilməsini bunlara misal kimi göstərmək olar [4].

"Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında "Azərbaycan Respublikası Prezidentinin 20.11.2020-ci il tarixli Sərəncamı"na əsasən dəmiryolu xəttinin inşasına başlanılmış və bu nəqliyyat infrastrukturu ərazidə nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsinə, yükdaşıma dövriyyələrinin artırılmasına səbəb olacaqdır [5].

Digər bir mühüm nəqliyyat infrastruktur layihəsini də qeyd etmək olar, bu Füzuli-Şuşa beynəlxalq magistral avtomobil yoludur və həmin layihənin reallaşdırılması üçün vacib investisiyalar, ilk əvvəl respublikamız tərəfindən istiqamətləndirilib, amma yaxın zamanda digər nəqliyyat-logistika layihələrinə uyğun investisiya mənbələrinin formalaşdırılacağını, daxili investisiyalarla birgə, xarici investisiyaların cəlb edilməsini proqnozlaşdırmaq olar. Belə ki, ərazinin sosial-iqtisadi inkişafının tezləşdirilməsi ilə bir çox iqtisadi sahələrin, həmçinin beynəlxalq turizmin intensiv inkişaf etdirilməsinə şərait yaradacaqdır. Bundan başqa, aqrar sahənin ərazidə ənənəvi potensialından səmərəli istifadə olunması bərpa edilməklə yanaşı, yüksək texnologiya əsaslı aqrar-sənaye kompleksinin inşa edilməsi, aqroparklar, xüsusi iqtisadi zonalar, sənaye klasterləri, turizm-rekreasiya zonalarının inşası istiqamətində investisiya resursu imkanlarının artacağını və daha fəal xarakter alacağını proqnozlaşdırmaq olar.

3. Qarabağ zonasında bərpa proqramlarının reallaşdırılması üçün mövcud yerli investisiya potensialından istifadə xüsusiyyətləri

Qeyd etməliyik ki, investisiya potensialının formalaşdırılması və çoxaldılması, daha çox real sərmayəçilərin regiona gəlməsinin aktivləşdirilməsi, ixtisaslaşdırılan beynəlxalq investisiya və maliyyə şirkətlərinin sərəncamına müəyyən investisiya-innovasiya proyektlərinin əsaslandırılaraq bəyan edilməsi böyük xeyir verə bilər. Bu məqsədlə Qarabağ zonasında mövcud olan böyük və məhsuldar olan təbii və iqtisadi qüvvənin daha obyektiv qiymətləndirməyə uyğun gələn tədbirin görülməsi mühüm hesab olunur. İşğaldan geri qaytarılmış zonaların özünüinkişafetdirmə xüsusiyyətinin dərindən mənimsənilməsi, fundamental araşdırmaların aparılması, mövcud investisiya resurslarının obyektiv olaraq dəyərləndirilməsi, bu resurslardan əlverişli istifadəni təchiz edə biləcək vəziyyətin yaradılması, vacib fəaliyyət mexanizminin və alətlərinin tətbiq olunması vasitələri görülməlidir. Qarabağ zonasında respublikamızın meşə ərazisinin 25 % potensialı, həmçinin su ehtiyatlarımızın yarısı cəmlənmişdir, digər tərəfdən keçmiş SSRİ zamanında ölkəmizin kənd təsərrüfatı məhsullarının təqribən 40 %-i bu zonalarda istehsal olunurdu. Ağdam və Fuzuli ərazilərində taxılçılıq və pambıqçılıq, üzümcülük, Cəbrayılda və Zəngilanda üzümcülük, Qubadlıda, Laçın və Kəlbəcərdə isə heyvandarlığın inkişaf etdirilməsi üçün hər bir resurslar olmuşdur. Bu ərazilərdə xeyli kənd təsərrüfatı məhsulu emal edən orta emal şirkətləri fəaliyyət göstərirdilər. Çoxlu sayda üzüm məhsulu istehsal edən şərab zavodu və pambıq məhsullarını emal edən pambıq zavodları var idi. Amansız düşmən bunları yer üzündən silmiş və heç nə qalmamışdır. Gözlənilən idi ki, bir çox iqtisadçı alimlər işğaldan azad edilmiş zonalarda yüksək potensialın mövcudluğunu bildirirlər. Bu cür fikir yaranmışdır ki, Qarabağ ərazisində güclü iqtisadi və təbii resursların mövcudluğu, ehtiyatların olması, həm də müvafiq fəaliyyət vəziyyətinin güzəştli şərtlər daxilində və bürokratiyasız olaraq reallaşdırılması yerli və xarici investorlar üçün maksimal dərəcədə cəlbedicilik kəsb edəcəkdir. Tədqiqatçı E.Süleymanova görə: "Bu ərazilərin aqrar istehsal və ixrac potensialı kifayət qədər böyükdür. Xüsusilə, Şuşa, Füzuli, Kəlbəcər və Zəngilan əraziləri böyük turizm potensialına malikdir" [6].

İşğal edilmiş ərazilərin faşist ermənilərdən bo-

şaldılması milli iqtisadiyyatımızın potensialını artırmaqla bərabər, iqtisadiyyatımızın investisiya gücünün, həm də rəqabətinin gücləndirilməsinə, yüksək texnologiyalar əsaslı iqtisadi sahələrin formalaşdırılmasına, möhkəm iqtisadi artım qaynaqlarının formalaşdırılmasına, milli gəlirin artırılmasına, münasib iş yerlərinin yaranmasına, sosial-iqtisadi çətinliklərin həll olunması üçün maliyyə mənbələrinin təşkilinə və qeyd olunduğu kimi, əraziyə daha çox maliyyə mənbələrinin cəlb olunmasına şərait yaradacaqdır. İqtisadçı-ekspert V.Qasımlı qeyd edir: "Qarabağın inkişaf strategiyasının reallaşdırılması nəticəsində, respublika iqtisadiyyatının investisiya cəlbediciliyi çoxalacaq və yeni iqtisadi artım drayverləri formalaşacaqdır" [7]. Bu isə sahibkarlığın inkişaf etdirilməsi, ərazidə biznes mühitinin səmərəli şərtlərlə reallaşdırılması baxımından mühüm hesab olunur. Ərazinin iqtisadi fəaliyyət strukturunun tədqiqi göstərir ki, burada iqtisadiyyatda çoxşaxəliliyin təmin olunması üçün yetəri qədər güclü resurs potensialı mövcuddur. Professor T.N.Əliyev qeyd edir: "İşğaldan azad edilmiş rayonlarda sahibkarlığın təşkil olunması, idarə olunması və inkişafı üçün müasir dövrün tələbinə cavab verən, qabaqcıl beynəlxalq praktikanı özündə ehtiva edən, sistemli yanaşmalara əsaslanan kompleks xüsusiyyətli hüquqi, təşkilatı-iqtisadi, texniki-texnoloji, sosial, ekoloji və s. xarakterli tədbirlərin işlənilməsi və reallaşdırılması tələb olunur" [8].

Digər bir tərəfdən, Qarabağ zonasının bərpası proseslərinin tezləşdirilməsi, bununla əlaqədar əraziyə maliyyə və investisiya resurslarının cəlbinin intensivləşdirilməsi nəzərə alınan bərpa proqramlarının daha əlverişli şəkildə reallaşdırılmasına şərait yaradacaqdır. Bu isə özlüyündə işğaldan azad edilmiş torpaqlara yeni ruh verəcək, fəal məşğulluq proqramları icra ediləcək, region iqtisadiyyatının bərpa və yenidənqurulması respublika iqtisadiyyatının inkişafına əlavə imkanlar formalaşdıracaqdır [9]. Lakin qeyd olunduğu kimi, bunların reallaşdırılması üçün respublika iqtisadiyyatının investisiya imkanı möhkəmləndirilməli və analoji resursun daha fəal formada postkonflikt dövrün tələbinə uyğun olaraq bərpa prosesinin aparıldığı sektorlara cəlb olunması təmin edilməlidir. Qarabağ zonasında dirçəliş tədbirləri və bərpa layihələrində xarici dövlətlər, beynəlxalq qurumlar və təşkilatların ayrı-ayrı istiqamətli yardımlarından, investisiya şirkətlərinin yatırımlarından, səmərəli və güzəştli kredit və qrantlardan istifadə edilməsi məsələsi xüsusi diqqətdə saxlanılmalıdır [9].

Qeyd olunmalıdır ki, işğaldan azad edilmiş zonaların bərpası regional xüsusiyyətlər və yanaşmalar nəzərdə tutulmaqla daha mükəmməl formada öyrənilərək və əsaslandırılaraq, müvafiq layihə, proqram formasında həyata keçirilməlidir. Bu məqsədlə bir çox ünsürlər xüsusi diqqətdə saxlanılaraq ilk növbədə, respublikanın optimal işğaldan sonra olan siyasəti reallaşdırılmalıdır. Respublikanın Qarabağ zonasında apardığı sosial-iqtisadi bərpa siyasəti bundan sonra intensiv faza müstəvisinə keçir və hər bir istiqamətdə geniş həcmli işlər həyata keçirilməkdədir. Dövlət və cəmiyyət, keçmiş köçkünlərlə respublika rəhbərliyi arasında əlaqənin yaradılması, birliyin təmin olunması işğal olunmuş zonaların daha tez bərpa olunmasında vacib rol oynaya bilər. Bu zaman dövlət və strukturları daha etibarlı və operativ, həm də münbit istifadə üçün mobilizasiya olunmaqda az çətinliklərlə üzləşərlər. Müharibədə həlak olmuş şəhid və mülki əhalinin ailə üzvlərinin sosial müdafiə tədbirlərinin möhkəmləndirilməsi və dövlət qayğısı mexanizmlərinin əhali arasında məmnunluq hissi ilə qarşılanması əsas şərtlərdəndir və Qarabağ zonasının inkişaf etdirilməsində hər bir resursun birləşdirilməsi proseslərində bu ünsürün vacib mənəvi və siyasi dəstəyi mövcuddur.

Məlum olduğu kimi, ərazilərin minalardan təmizlənməsi, habelə böyük qayıdışın təmin edilməsi məqsədilə başqa təhlükəsizlik tədbirlərinin hərtərəfli şəkildə həyata keçirilməsi, işğaldan azad edilmiş ərazilərin pasportlaşdırılması, həmin ərazilərin idarəetmə mexanizmlərini yaratmaq və gücləndirmək tədbirləri görülməlidir. Bundan başqa, narahatlıq doğuran məqamlardan biri də işğal və vəhşilikdən dəyən zərərin dəqiqliklə hesablanması və qiymətləndirilməsi prosedurlarının başa çatdırılması, müvafiq hüquq çərçivəsində beynəlxalq məhkəmələrə çıxışın qarşılanmasıdır.

Bu problemlərlə bərabər, postkonflikt ərazilərin bərpası, eləcə də dirçəldilməsi üzrə layihələrin işlənib hazırlanması, müvafiq dövlət orqanları tərəfindən əlaqələndirilərək razılaşdırılması, ərazilərə keçmiş köçkünlərin böyük qayıdışı məqsədilə hazırlıq mərhələlərinin və qrafiklərinin tərtib edilməsi, adekvat tədbirlərin görülməsi, bölgələrdə institusional bazanın formalaşdırılması, həmçinin, regionun sosial-iqtisadi inkişafı məqsədilə maliyyə təminatı mexanizmlərinin, habelə investisiyaların cəlbi mühitinin bərqərar edilməsi vacib şərtlərdən sayılır. İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı

proseslərinə cəlb edilmiş yerli və xarici şirkətlərin, biznes subyektlərinin fəaliyyətinin təşkili məqsədilə şəffaf və stimullaşdırıcı xarakterli investisiya-innovasiya mühitinin qarşılanması tədbirləri görülməli, bu yönümdə beynəlxalq əməkdaşlıq strategiyasının işlənib hazırlanması, xarici sərmayələrin cəlbi üçün daha effektiv mexanizmlərin tətbiqi vacibdir.

Bundan başqa, Qarabağ bölgəsində və ətraf azad edilmiş rayonlarda böyük miqyaslı layihələrin reallaşdırılması iri məbləğdə maliyyə resursları, habelə investisiya yatırımı tələb edir. Artıq məlum olduğu kimi, 2021-ci il ərzində dövlət büdcəsindən həmin məqsədlərlə bağlı 2,2 mlrd. manat vəsait ayrılıb [10]. Bununla yanaşı, Qarabağ Dirçəliş Fondu təsis edilib və postkonflikt ərazilərdə reallaşdırılacaq önəmli layihələr hazırlanmaqda və reallaşdırılmaqdadır [11]. İnvestisiya potensialından istifadə baxımından yanaşdıqda, birmənalı olaraq qeyd etməyi lazım bilirik ki, Qarabağda böyük imkanlar vardır, xüsusən də təbii ehtiyatlar, o cümlədən də filiz və qeyri-filiz ehtiyatları hesabına geniş emal şəbəkəsi şirkətlərinin yaradılması və əlavə dəyər gətirən mənbələrin formalaşdırılması mümkün sayılır. Kəlbəcər rayonunda ənənəvi heyvandarlıqla yanaşı, dağ-mədən sənayesinin təkamül etdirilməsi məqsədilə güclü filiz, habelə qeyri-filiz yataqları mövcuddur. Kəlbəcər, Şuşa və Laçın inzibati rayonlarında isə çox möhtəşəm turizim-rekreasiya kompleksləri yaratmaq və dünyanın ən cazibədar turizim regionlarından birinə çevirmək potensialı mövcuddur. İnvestisiya potensialının artırılması baxımından yanaşdıqda aydın olur ki, Qarabağ regionunun tamamilə yenidən qurulacağı, bunun üçün “tikinti bumu”nun qaçılmazlığı amilini də diqqətdə saxlamaq gərəkdir. Digər tərəfdən, işğaldan azad edilmiş ərazilərdə “ağıllı kənd”, “ağıllı şəhər” layihələrinin önəmliyi intensiv investisiya kanallarının, o cümlədən də xaricdən cəlb olunan investisiya axınlarının olması vacibliyini ön planda saxlamaqdır [12].

4. İşğaldan azad olunmuş iqtisadi rayonlarda sosial-iqtisadi inkişafın əsas prioritetləri və onların reallaşdırılması mexanizmləri

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən işğaldan azad olunmuş iqtisadi rayonlarda sosial-iqtisadi inkişafın əsas prioritetləri aşağıdakı kimi müəyyən edilmişdir [13]:

**Qarabağ iqtisadi rayonu üzrə:**

- istehsal, emal və xidmət sahələri yaratmaq və ya genişləndirmək;
- aqrar sektorda emal müəssisələri yaratmaq və mövcud emal müəssisələrini modernləşdirmək və ya genişləndirmək;
- aqropark və fermer təsərrüfatları yaratmaq və ya genişləndirmək;
- ətlik və südlük istiqamətində cins iribuynuzlu və digər heyvandarlıq kompleksləri yaratmaq və ya genişləndirmək;
- müasir suvarma sistemləri və s. müasir texnologiyalar tətbiq etməklə əkinçilik, intensiv bağçılıq, habelə toxumçuluq-tingçilik təsərrüfatları yaratmaq və ya genişləndirmək;
- qurudulmuş və dondurulmuş meyvə-tərəvəzlər istehsalı, qüvvəli yem, habelə ət kəsimi müəssisələri yaratmaq və ya genişləndirmək;
- baramaçılıq və üzümçülük təsərrüfatları yaratmaq;
- baramaqurutma, yun və dəri qəbulunun məntəqələrini yaratmaq və ya genişləndirmək;
- startap layihələrini dəstəkləmək;
- şərabçılıq və mineral sular müəssisələri yaratmağı dəstəkləmək;
- turizmin inkişafı üzrə layihələri dəstəkləmək;
- logistik mərkəz, soyuducu və taxıl anbarı kompleksləri, yaşıl market və fermer mağazaları yaratmaq və ya genişləndirmək;
- innovativ texnologiyalara əsaslanan istehsal, emal və xidmət sahələri üzrə (yüngül, yeyinti, kimya, maşınqayırma sənayesi, tibbi, təhsil və məişət xidməti və s.) müəssisələr yaratmaq və ya genişləndirmək;
- dağ-mədən sənayesinin inkişafına yönəlik layihələri dəstəkləmək;
- ənənəvi və milli xarakterli qədim xalq sənətlərini inkişaf etdirmək məqsədilə xalçaçılıq, suvenir istehsalı kimi sahələri dəstəkləmək;
- kütləvi informasiya vasitələrinin inkişafına yönəlik layihələri dəstəkləmək;
- rəqəmsal iqtisadiyyat, internet, telekommunikasiya xidmətləri üzrə inkişaf layihələrini dəstəkləmək;
- bərpa oluan enerjinin tətbiqinə, bu sahədə xidmətlərin göstərilməsinə, avadanlıq və qurğular istehsalının reallaşdırılmasına yönəlik layihələri dəstəkləmək;
- ekoloji tarazlığı təmin edən, eləcə də tullantıların təkrar xammala çevrilməsi layihələrini dəstəkləmək;
- qeyri-neft sektoru üzrə sosial-iqtisadi inkişaf yönümlü biznes layihələrini dəstəkləmək və s.

**Şərqi Zəngəzur iqtisadi rayonu üzrə:**

- istehsal, emal və xidmət sahələri yaratmaq və ya genişləndirmək;
- aqrar sektorda emal müəssisələri yaratmaq və mövcud emal müəssisələrini modernləşdirmək və ya genişləndirmək;
- aqropark və fermer təsərrüfatları yaratmaq və ya genişləndirmək;
- ətlik və südlük istiqamətində cins iribuynuzlu və s. heyvandarlıq kompleksləri yaratmaq və ya genişləndirmək;
- müasir suvarma sistemləri və s. müasir texnologiyalar tətbiq etməklə əkinçilik, toxumçuluq-tingçilik, intensiv bağçılıq təsərrüfatları yaratmaq və ya genişləndirmək;
- qurudulmuş və dondurulmuş meyvə-tərəvəzlər istehsalı, qüvvəli yem, habelə ət kəsimi müəssisələri yaratmaq və ya genişləndirmək;
- baramaçılıq və üzümçülük təsərrüfatları yaratmaq;
- baramaqurutma, yun və dəri qəbulunun məntəqələrini yaratmaq və ya genişləndirmək;
- startap layihələrini dəstəkləmək;
- şərabçılıq və mineral sular müəssisələrini yaratmağı dəstəkləmək;
- turizmin inkişafı üzrə layihələri dəstəkləmək;
- logistik mərkəzi, soyuducu və taxıl anbarı komplekslərini, yaşıl market və fermer mağazalarını yaratmaq və ya genişləndirmək;
- innovativ texnologiyalara əsaslanan istehsal, emal və xidmət sahələri üzrə (yüngül, kimya, yeyinti, tibbi, maşınqayırma sənayesi, məişət xidməti və təhsil və s.) müəssisələr yaratmaq və ya genişləndirmək;
- dağ-mədən sənayesinin inkişafına yönəlik layihələri dəstəkləmək;
- ənənəvi və milli xarakterli qədim xalq sənətlərini inkişaf etdirmək üçün xalçaçılığı, suvenir istehsalını və s. sahələri dəstəkləmək;
- kütləvi informasiya vasitələri üzrə inkişaf layihələrini dəstəkləmək;
- rəqəmsal iqtisadiyyat, internet, telekommunikasiya xidmətləri üzrə inkişaf layihələrini dəstəkləmək;
- bərpa olunan enerjinin tətbiqinə, bu sahədə xidmətlərin göstərilməsinə, avadanlıq və qurğular istehsalının reallaşdırılmasına yönəlik layihələri dəstəkləmək;
- ekoloji tarazlığı təmin edən, eləcə də tullantıların təkrar xammala çevrilməsi layihələrini dəstəkləmək;
- qeyri-neft sektoru üzrə sosial-iqtisadi inkişaf yönümlü biznes layihələrini dəstəkləmək və s.

İşğaldan azad edilmiş bölgələrimizin bərpası məqsədilə dövlət başçısı tərəfindən 2021-ci ilin 28 mayında verilmiş fərmanla 190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkı yaradılıb. Sənaye Parkının prioritet istiqamətlərindən biri kimi tikinti materiallarının istehsalı, aqrar sahə məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, yem, gübrə istehsalının və emalının, həmçinin, xidmət sahələrinin inkişafı, soyuducu kameraların və s. bu kimi məsələlərin təşkili müəyyənləşdirilib. Park yaradılandan bəri, orada işlərin görülməsi mərhələli, planauyğun şəkildə reallaşdırılır.

İlk olaraq Parkın ərazisinin tam olaraq minalardan, habelə hərbi sursatlardan tam təmizlənməsi həyata keçirildi. Rezidentlərin sənaye parkında fəaliyyətə başlaması üçün parkda bütün lazımı şəraitin yaradılmasına yönəlik istiqamətdə işlər görülməkdədir. Belə ki, burada çalışacaq heyətin rahatlılığının təmin edilməsi üçün sənaye parkında səfərbərlik şəhərciyi salınıb. Mobil şəhərciyin ərazisində konteyner tipli 8 ədəddən ibarət yataqxananın (40 nəfərlik), tibb məntəqəsinin, 2 ədəd ofisin, ərzaq və təsərrüfat marketlərinin, aptekin, yeməkxana və camaşırxananın, idman meydançasının və 2 ədəd sanitar qovşağının inşası təmin olunub. Sənaye parkının ərazisində inşaat aparılacaq sahənin su ilə təminatı məqsədilə 350 metr dərinliyində artezian quyusu qazılıb. Əraziyə 10 kilovoltluqda elektrik xətti çəkilmiş və 630 kilovoltluq transformator məntəqəsinin quraşdırıldığı yer ayrılıb. Belə ki, işğaldan azad edildikdən sonra Ağdam şəhəri üzrə ilk elektrik enerjisi, habelə su təchizatı sisteminin Ağdam Sənaye Parkının ərazisində quraşdırılması təqdirəlayiq haldır. Sənaye parkının işıqlandırılması mədsədilə günəş enerjisindən qidalanan panellərin istifadəsi təmin edilib.

Artıq sənaye parkının rezidentlərinin onlar üçün ayrılmış ərazilərdə torpaq işləri aparılır, avqust ayından etibarən inşaat işlərinə başlanması planlaşdırılıb. 190 hektar əraziyə malik Ağdam Sənaye Parkında hazırda 9 rezidenti fəaliyyət göstərir və bu rezidentlərin sənaye parkında 50 milyon manatdan artıq investisiyalaşmanın həyata keçirilməsi və 1000-dən çox daimi iş yerinin yaradılması proqnozlaşdırılır. Bundan əlavə, İqtisadi Zonaların İnkişafı Agentliyi üzrə Ağdam Sənaye Parkının rezidenti kimi fəaliyyət göstərmək üçün sahibkarlar tərəfindən təqdim olunan investisiya dəyərinin 60 milyon manatdan

artıq olan 15 layihəsi nəzərdən keçirilir və həmin layihələrin reallaşdırılmasının nəticəsi olaraq 800 nəfərin daimi işlə təmin edilməsi gözlənilir.

Azad edilmiş ərazilərdə yaradılmış Ağdam Sənaye Parkının, eləcə də Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı tez bir zamanda dolacağı proqnoz edilir.

Qeyd etdiyimiz kimi, Ağdam Sənaye Parkında hazırda 9 rezidenti mövcuddur və qeydiyyatı keçirilmiş bu layihələr üzrə şirkətlərin tikintisinə yaxın vaxtlarda başlanılması planlaşdırılır. İlk şirkətin (ilk istehsala başlanılması) fəaliyyətə başlaması isə 2024-2025-ci illərə təsadüf edəcəkdir.

Dövlət başçısının 2021-ci ilin 4 oktyabrında imzaladığı fərmanla Cəbrayıl rayonunda 200 ha ərazini əhatə edən "Araz Vadisi İqtisadi Zonası" adlı Sənaye Parkı yaradılıb. Sənaye Parkının ərazisində logistika və ticarət mərkəzinin, anbar komplekslərinin, topdan və pərakəndə satış obyektlərinin, TIR parkının, gömrük, yanacaqdoldurma, avtomobil və s. texnikaların təmiri məntəqələrinin inşası planlaşdırılır. Məhz həmin sənaye parkı üzrə Ağdam Sənaye Parkında olduğu tək ilk olaraq ərazi minalardan, habelə partlamamış hərbi sursatlardan tamamilə təmizlənib. Hazırda Sənaye Parkının 1 hektarı rezidentlərin istifadəsi məqsədilə mobil tipli şəhərciyin salınması ilə diqqəti cəlb edir. Yaxın günlər ərzində şəhərciyin salınması işlərinin başa çatdırılacağı nəzərdə tutulub.

Ölkə sahibkarlarının "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına marağı çox böyükdür. Sənaye parkı üzrə artıq bir sahibkarlıq subyekti ("KAMAZ Lizinq Azərbaycan" MMC) rezidentlik statusuna layiq görülüb. Hazırda İqtisadi Zonaların İnkişafı Agentliyi üzrə 10-dan çox layihədə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti olmaq üçün nəzərdən keçirilir. Sözügedən layihələrdə dezinfeksiyaedici, maye yuyucu, ağardıcı məhsullar, dəmir əritmə və dəmir məmulatları, pambıq iplik, beton boru, kirəmit və kərpic istehsalının, texniki xidmət mərkəzinin təşkilinin və yük avtomobillərinin yığımının, TIR parkının və ofisin təşkili layihələri diqqət mərkəzindədir.

Digər sənaye parklarında olduğu kimi Ağdam, habelə "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları üzrə sahibkarların rahatlıqla və maneəsiz fəaliyyəti məqsədilə əlverişli biznes və investisiya mühiti yaradılıb. Hazırda ölkədə fəaliyyəti təmin edilən sənaye parklarında tətbiq olunan vergi və gömrük güzəştlərinin Ağdam və "Araz Vadisi İqtisadi Zonası"nda tətbiq edilməsi proqnoz edilir. Belə ki, parkların rezidentlərinin qeydiyyata alınması tarixindən 10 il müddətinə onlar əmlak vergisi, torpaq vergisi, gəlir və ya mənfəət vergisi, istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular idxal edilərkən ƏDV və 7 il müddətinə gömrük rüsumları ödəməyəcəklər. Həmçinin rezidentlər dövlət vəsaitinin hesabına hazır infrastruktur sistemiylə təmin olunacaqlar.

Bundan əlavə, qeyd etmək istərdik ki, ölkə başçısı tərəfindən 2021-ci ilin 10 dekabrında işğaldan azad olunmuş ərazilərdə iqtisadi inkişafı sürətləndirmək-lə bağlı bəzi tədbirlər barədə imzalanan Sərəncam əsasında bu ərazilərdə özəl təşəbbüsləri stimullaşdırmaq, investisiyaların təşviqi mexanizmlərini təkmilləşdirmək, həmin ərazilərdə təsərrüfat fəaliyyəti həyata keçirən sahibkarlara xammal və materialların idxala görə gömrük və vergi güzəştləri müəyyən etmək, istehsal fəaliyyəti ilə məşğul sahibkarlar üçün kommunal xidmətləri üzrə güzəştlər müəyyənləşdirmək, sahibkarların maliyyə resurslarına çıxış imkanlarını genişləndirmək və bu istiqamətdə lazımi dövlət dəstəyini gücləndirmək və s. kimi əlavə güzəştlər də vermək planlaşdırılır.

Beləliklə, tez bir zamanda işğaldan azad olunmuş ərazilərdə, o cümlədən də Ağdamda sahibkarlara yönəlik əlavə güzəşt mexanizmləri hazırlanacaq və bu ərazilərin investisiya cəlbediciliyi artırılacaqdır.

Artıq bu regionda bir sıra layihələrə start verilib, Füzuli-Şuşa beynəlxalq avtomobil magistralının işə salınması, həm də Füzuli və Zəngilan rayonları üzrə beynəlxalq aeroportların inşası, dəmir yolu xətlərinin bərpası, digər yeni yolların çəkilməsi, infrastruktur obyektləri şəbəkəsinin yaradılması reallaşıb. Bütün bunlar Qarabağ regionunda və Şərqi Zəngəzurda investisiya potensialından səmərəli istifadə səviyyəsini xeyli yüksəltməyə imkan verəcək. Hesab edirik ki, ölkəmizdə strateji əhəmiyyətə malik bu regionların investisiya potensialını artırmaq üçün güclü resurs təminatının və real imkanların mövcudluğu şübhə doğurmur. Yaxın illərdə başlıca prioritet bu cür məsələlər kontekstində sistemli və ardıcıl olaraq yüksək səviyyədə reallaşdırılmasından və ölkəmiz üçün əhəmiyyət kəsb edən Qarabağ və Şərqi Zəngəzur regionlarında sağlam investisiya mühitinin formalaşdırılmasından, sahibkarların güzəştli maliyyə resurslarına çıxış imkanlarının təmin edilməsindən və investisiya axınlarının intensivləşdirilməsinə şərait yaratmaqdan ibarət olmalıdır.

## NƏTİCƏ

İşğaldan azad olunmuş bölgələrin sosial-iqtisadi profilinin təhlili nəticəsində müəyyən olundu ki, bu regionların iqtisadiyyatının inkişaf etdirilməsi kontekstində çox böyük potensial mövcuddur. Azad olunmuş ərazilərin ənənəvi sosial-iqtisadi inkişaf istiqamətlərini nəzərə almaqla istehsal və xidmət sahələrinin inkişaf etdirilməsi gələcəkdə sahibkarlığın bu yöndə intensiv inkişafını tələb edir. Bunun üçün isə sahibkarlığın daha güzəştli şərtlərlə maliyyələşdirilməsi məsələsi meydana çıxır.

Lakin qeyd edək ki, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi prosesinin uzun zaman alması həmin ərazilərin potensialından aqrar-sənaye kompleksinin məqsədləri və ixrac potensialını artırmaq məqsədi ilə istifadəsi də uzunmüddətli fəaliyyətin və resursların tələb olunacağı anlamına gəlir. Bu ərazilərdə istehsal və xidmət sahələrinin inkişaf etdirilməsi isə müasir innovativ alətlərdən istifadəni tələb edir ki, bu isə istər-istəməz güzəştli maliyyə resurslarına çıxış imkanlarının tapılmasını gündəmə gətirib.

Bölgələrin iqtisadiyyatının müvafiq sahələrinin inkişaf etdirilməsi prosesində həmin regionlar üzrə "ağıllı kənd" və " ağıllı şəhər" yanaşmalarını nəzərə almaq, istehsalı və xidmət sferasını ən müasir texnologiyalar əsasında formalaşdırmaq və inkişaf etdirmək vacibdir. Qeyri-neft ixracı potensialını artırmaq məqsədilə bu ərazilərdə kiçik ailə-fermer təsərrüfatlarını, iri taxılçılıq, meyvəçilik və tərəvəzçilik təsərrüfatları yaratmaq mümkündür. Həmin bölgələr üzrə ekoloji təmiz xammal potensialı əsasında yun, gön-dəri, konserv və ət emalı müəssisələri yaratmaq da onların ixrac imkanlarını xeyli artıra bilər. Araşdırmaların nəticəsi kimi, mövcud təbii-iqlim şəraiti imkanları nəzərə alınmaqla, regionlarda intensiv arıçılıq təsərrüfatları yaratmaq və yüksək ixrac potensialını təmin edə bilən təbii bal istehsalı və ixracı təşkil etmək təklif olunur.

İşğaldan azad olunmuş ərazilərdə sahibkarların iri, orta və kiçik həcmli investisiya layihələrinin imkanları qiymətləndirilərkən, həyata keçirilən hərrac və tenderlərdə şəffaflığın və hesabatlılığın təmin edilməsi son dərəcə vacibdir.

İşğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinə və iqtisadiyyatın yenidən qurulması və bərpasına istər yerli və istərsə də əcnəbi sahibkarların cəlb edilməsi məqsədilə mövcud qanunvericilikdə zəruri stimullaşdırma mexanizmlərinin beynəlxalq standartlara uyğun təsbit olunmasına dövri olaraq yanaşılmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Müzəffərli, N., İsmayılov E. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar. Bakı, Qafqaz nəşriyyat evi, 2010. - 270 s.*

*2. Ermənistan Respublikasının hərbi təcavüzünün nəticələri: [Elektron resurs] / URL: https://mod.gov.az/az/ermenistanin-herbi-tecavuzunun-neticeleri-statistika-412/.*

*3. İşğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji üzrə dəqiq potensialın hesablanması sahəsində görüləcək işlər müzakirə edilib. 08-12-2020. AR Energetika Nazirliyi: [Elektron resurs] / URL: https://minenergy.gov.az/az/xeberler-arxivi/isgaldan-azad-edilmis-erazilerde-berpa-olunan-enerji-uzre-deqiq-potensialin-hesablanmasi-sahesinde-gorulecek-isler-muzakire-edilib.].*

*4. İşğaldan azad olunmuş rayonlarda inventarlaşdırma işləri davam etdirilir. 31.01.2021: [Elektron resurs] / URL: https://www.economy.gov.az/article/i-shgaldan-azad-olunmush-rayonlarda-inventarlashdirma-ishleri-davam-etdirilir/31508*

*5. Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 24 noyabr 2020-ci il.*

*6. İşğal olunmuş ərazilərin azad edilməsi Azərbaycan iqtisadiyyatına nə vəd edir? 31.10.2021: [Elektron resurs] / URL: http://www.iqtisadiislahat.org/news/isgal_olunmus_erazilerin_azad_edilmesi_azerbaycan_iqtisadiyyatina_ne_ved_edir-1059.*

*7. Qasımlı, V. Qarabağ Azərbaycanda iqtisadi artımın yeni drayveri olacaq. 24 noyabr 2020: [Elektron resurs] / URL: https://vergiler.az/news/economy/10954.html.*

*8. Əliyev, T.N. Azərbaycanın işğaldan azad edilən ərazilərində sahibkarlığın inkişaf istiqamətləri. 28.12.2020: [Elektron resurs] / URL: http://economics.com.*

*9. Musayev, A.F. Qarabağın bərpası və inkişafı prosesində xarici dəstək mühüm amildir: [Elektron resurs] / 27.01.2021. // A.Musayev, M.Zeynalov URL: www.science.gov.az/news/open/15789.*

*10. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 dekabr 2020-ci il: [Elektron resurs] / URL: https://president.az/articles/49859.*

11. *Qarabağ Dirçəliş Fondunun strateji və fəaliyyət planları hazırlanacaq. 12 Mart 2021: [Elektron resurs] / URL: https://report.az/daxili-siyaset/qarabag-dircelis-fondunun-strateji-ve-fealiyyet-planlari-hazirlanacaq/.*

12. *Ağıllı şəhər (Smart City) və Ağıllı kənd (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. / – Bakı şəhəri, 19 aprel 2021-ci il.*

13. *https://www.economy.gov.az/az*

## XÜLASƏ

Məqalədə işğaldan azad edilmiş Azərbaycan ərazilərində erməni vandalizminin izləri araşdırılmış, Qarabağ regionunda bərpa proseslərinin aparılması üçün tələb edilən maliyyə resurslarının miqyası müəyyən edilmişdir. Müəllif tərəfindən region ərazisinin bərpa proqramlarının reallaşdırılması üçün mövcud yerli investisiya potensialından istifadə xüsusiyyətləri aşkara çıxarılmış, işğaldan azad olunmuş iqtisadi rayonların sosial-iqtisadi inkişafının əsas prioritetlərinə uyğun olaraq, onların reallaşdırılmasının icra mexanizmləri əsaslandırılmışdır.

**Açar sözlər:** *işğaldan azad edilmiş Azərbaycan əraziləri, Qarabağ regionu, daxili resurs potensialı, bərpa proqramları, sosial-iqtisadi inkişafın əsas prioritetləri*

**Akbarov Taleh Balaga oglu,**
***Associate Professor of Baku Business University,***

### Internal resource potential in the liberated territories of Azerbaijan: analysis, evaluation and implementation

## SUMMARY

The article examines the traces of Armenian vandalism in the territories of Azerbaijan freed from occupation, and determines the scale of financial resources required for carrying out restoration processes in the Karabakh region. According to the author, the characteristics of using the existing local investment potential for the realization of regional territory restoration programs have been revealed, in accordance with the main priorities of the socio-economic development of the economic regions freed from occupation, the implementation mechanisms of their realization have been substantiated.

**Keywords:** *territories of Azerbaijan freed from occupation, Karabakh region, internal resource potential, recovery programs, main priorities of socio-economic development.*

**Акбаров Талех Балага оглы,**
***Доцент Бакинского Университета Бизнеса, к.э.н.***

### Внутренний ресурсный потенциал на освобожденных территориях Азербайджана: анализ, оценка и реализация

## РЕЗЮМЕ

В статье исследуются следы армянского вандализма на освобожденных от оккупации территориях Азербайджана, определяются масштабы финансовых ресурсов, необходимых для проведения восстановительных процессов в Карабахском регионе. Автором выявлены особенности использования имеющегося местного инвестиционного потенциала для реализации региональных программ восстановления территорий, в соответствии с основными приоритетами социально-экономического развития освобожденных от оккупации экономических районов, была обоснована механизмов их реализация.

**Ключевые слова:** *территории Азербайджана, освобожденные от оккупации, Карабахский регион, внутренний ресурсный потенциал, восстановительные программы, основные приоритеты социально-экономического развития.*

UOT: 7:7.092:338.46

# SOSİAL-İQTİSADİ İNKİŞAF PROSESLƏRİNDƏ İDMANIN SƏMƏRƏLİ TƏNZİMLƏNMƏSİ ÜZRƏ BEYNƏLXALQ TƏCRÜBƏ

**SEVİNC ƏLİYEVA**
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının baş müəllimi*
*E-mail: sevinc-aliyeva-80@list.ru*

Dünya ölkələrində iri idman yarışlarının, xüsusilə Olimpiya oyunlarının, kütləvi idman növləri üzrə dünya çempionatlarının keçirilməsi uğrunda çox gərgin rəqabət aparılır. Məhz bu rəqabət nəticəsində yeni infrastrukturun yaradılması, yeni idman qurğularının tikilməsi və xidmət sektorunun yaxşılaşdırılması, hətta ölkədə müəyyən istiqamətlərdə islahatların aparılması belə təmin edilir. Göründüyü kimi, idmanın inkişaf etdirilməsinin nə dərəcədə böyük əhəmiyyəti vardır. Hətta müxtəlif iri dünya çempionatlarının və Olimpiya oyunlarının keçirilməsi zamanı ölkədə olan makroiqtisadi və makromaliyə sabitliyi çox ciddi şəkildə nəzərə alınır [1].

Bütün bunları əsas götürməklə qeyd etmək olar ki, məhz idmanın inkişaf etdirilməsi, onun fundamental şəkildə olan əsaslarının nəzərə alınması və sosial istiqamətlərdə fəal inkişaf proseslərində onun tənzimlənməsi dövlətin əsas vəzifələrindən biridir [2]. Dövlət idman üzrə siyasətini təkmilləşdirərkən bu məsələlərə ciddi fikir verməli və eyni zamanda idmanın tənzimlənməsi ilə bağlı vaxtında tədbirlər görülməlidir. Dövlət tərəfindən idmanın sistemli şəkildə inkişaf etdirilməsi, idmanın ayrı-ayrı növlərinin inkişaf etdirilməsi ilə bərabər, eyni zamanda milli xüsusiyyətləri ilə fərqlənən və inkişaf qanunauyğunluqları ilə seçilən idman növlərinə daha çox üstünlük verilməlidir [3]. Həmçinin ölkə regionlarında müxtəlif idman növlərinin hansının daha yüksək səviyyədə sosial-iqtisadi inkişafa təsir edəcəyi məsələləri dəqiqləşdirilməli və bununla bağlı əlavə tədbirlər görülməlidir. Hesab edirik ki, hər bir ölkənin özünün idman siyasəti və sosial-iqtisadi inkişafda idmanın rolunun artırılması ilə bağlı olaraq konseptual yanaşmaları olmalıdır və bu istiqamətlərdə beynəlxalq təcrübə ciddi şəkildə nəzərə alınmalıdır [4].

Beynəlxalq təcrübədən yanaşsaq, ölkədə idmanın inkişafı üzrə sosial-iqtisadi inkişaf proseslərinə idmanın təsiri nəzərə alınmaqla, onun bir iqtisadiyyat sahəsi kimi inkişaf etdirilməsi istiqamətində əsas strateji yanaşmaları və konseptual vəzifələrinə bunları aid etmək olar:

1) İlk növbədə, ölkədə bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olmaq və onun inkişafı üçün ardıcıl tədbirlərin görülməsi təmin edilməlidir.

2) Uşaqlar, yeniyetmələr və gənclər arasında sağlam həyat tərzinin təmin olunması və bununla bağlı davamlı tədbirlərin görülməsi vacibdir.

3) İdmanın bir iqtisadiyyat sahəsi kimi formalaşmasına xüsusi diqqət yetirilməlidir.

4) İdman və bədən tərbiyəsinin genişləndirilməsi yolu ilə müxtəlif yaş qruplarından olanların idman qurumlarına cəlb edilməsi və onların daha yüksək səviyyədə fiziki hazırlığına nail olunmalıdır.

5) Yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda böyüməsi və xüsusilə orduya hazırlıq səviyyəsinin artırılmasında idmanın rolunun gücləndirilməsi təmin edilməlidir.

6) Müxtəlif iş yerlərinin yaradılması hesabına məşğulluq problemlərinə idmanın töhfəsinin verilməsi və ölkədə sosial-iqtisadi inkişafın bir istiqaməti kimi burada fəaliyyətin gücləndirilməsi ön plana çıxarılmalıdır.

7) Bədən tərbiyəsi və idman siyasətinin genişləndirilməsi hesabına ölkənin imicinin yüksəldilməsi və ölkədə sosial-iqtisadi durumun yaxşılaşdırılması, xidmət sektorunun inkişaf etdirilməsi və s. bu kimi tədbirlər görülməlidir.

8) Müxtəlif çempionatların, xüsusilə dünya çempionatlarının keçirilməsi vasitəsilə yüksək gəlirlərin əldə edilməsi üçün fürsətlərdən bəhrələnmək və bununla bağlı olaraq idman infrastrukturunun genişləndirilməsi və idman menecmentinin gücləndirilməsi məsələlərinə baxılmalıdır.

İdmanın təşkili və tənzimlənməsi bir iqtisadiyyat sahəsi kimi inkişaf etdirilməsi dünya ölkələrində son onilliklərdə intensivləşmişdir [5]. Xüsusilə, idman iqtisadiyyatı iqtisadi cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə bir çox hallarda iqtisadiyyatın müxtəlif sahələrinə təsir etmək imkanına malik olan çoxfunksiyalı və multipilkativ təsirə, effektə malik olan iqtisadiyyat sahəsi kimi qiymətləndirilir. Belə ki, idmanın inkişaf etdirilməsi idman infrastrukturunun yaradılması həm sosial-iqtisadi inkişafa güclü təkan verir, həm də həmin regionların

sosial-iqtisadi imkanlarını artırır, yeni iş yerlərinin yaradılmasına, əlavə dəyər mənbələrinin formalaşdırılmasına imkan verir. Bunlarla bərabər, idmanın inkişafının sürətlənməsi tikinti sektorunun və xidmət sektorlarının inkişafına səbəb olur. Bundan əlavə, televiziya yayımları və reklam sahəsində də önəmli inkişaf tendensiyaları məhz idmanla bağlıdır. İdmandan əldə olunan gəlirlər, eyni zamanda ölkənin imicinin artmasına müsbət təsir göstərir.

Hazırda dünya səviyyəsində məşhur olan idmançılar elə yüksək gəlirlər alırlar ki, bəzən bu gəlirlər dünyanın müxtəlif ölkələrinin dövlət büdcəsinə belə bərabər ola bilər və yaxud da bir çox kasıb ölkələrin büdcəsindən belə çoxdur, əldə etdikləri gəlirlər isə kifayət qədər yüksəkdir və bu gəlirlər, həmçinin onların vətəndaşı olduğu ölkələrə xeyli gəlirlər gətirir [6]. İdman iqtisadiyyatı dünya səviyyəsində özünün müxtəlifliyi və spesifik yanaşmaları ilə seçilir. Məsələn, ABŞ-da bir çox idman növləri üzrə, xüsusilə komanda idman növləri üzrə çox böyük büdcəyə malik olan çempionatlar, federasiyalar, turnirlər vardır. Bu turnirlərdə yüz milyonlarla dollar vəsait dövriyyə edir və ümumi vəsaitlərin həcmi milyardlarla dollardır.

Bütün bunlar əvvəldə qeyd etdiyimiz kimi həm yeni iş yerlərinin yaradılmasına, eyni zamanda iqtisadiyyatın inkişafına təkan verir. Sosial-iqtisadi inkişafa isə kifayət qədər müsbət təsir göstərir. Yüksək gəlir əldə edən idmançılar həm öz ailələrinin, həm yaxınlarının, həm də müxtəlif mənada xidmət sektorunun inkişafının canlandırılmasına əlavə təsir göstərirlər.

ABŞ-da bir çox idman növləri üzrə çempionatlar kifayət qədər yüksək gəlirliyi ilə fərqlənirlər və buna görə də yeni infrastrukturun qurulması, idman qurğularının istismara verilməsi, idman yarışlarının keçirilməsi, xidmət sektorunun canlandırılması və digər sahələrin inkişaf etdirilməsi üçün böyük potensial formalaşdırılır.

Avropa Birliyi ölkələrində də idmanın inkişafı və idman infrastrukturunun genişləndirilməsi əvvəldə qeyd etdiyimiz kimi, ilk növbədə komanda idman növlərinin inkişaf etdirilməsi əsasında böyük gəlir qazanılır [7]. Bu gün hər kəsə məlumdur ki, Avropanın bir sıra futbol çempionatlarında dövriyyə edən vəsaitlər dünyanın əksər ölkələrinin iqtisadiyyatında belə yoxdur. Yüz milyonlarla, milyardlarla dollar vəsaitin bu çempionatlarda dövriyyə etməsi bir tərəfdən müxtəlif komandaların yerləşdikləri şəhərlərin inkişafına, digər tərəfdən isə əhalinin sosial-iqtisadi inkişafına, iş yerlərinin yaradılmasına, gəlirlərin artmasına müsbət təsir göstərir [8].

Eyni zamanda, idman iqtisadiyyatının formalaşdırılmasına və ümumi daxili məhsulda idman iqtisadiyyatının payının artmasına gətirib çıxarır. Demək olar ki, ABŞ və iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə hər il idmanın inkişafına və idman infrastrukturunun yaradılmasına yüz milyardlarla vəsait yönəldilir və maraqlıdır ki, bu vəsaitlərin əhəmiyyətli hissəsi məhz özəl sektorun və biznes strukturlarının payına düşür.

Hazırda dünyanın iş adamları, iri şirkətlər və biznesmenlər, kompaniyalar dünyanın önəmli komandalarını və idmançılarını öz sıralarına qatırlar və ya sponsorluq etməklə həm idmanın təşkilinə, onun genişləndirilməsinə töhfə verirlər, digər tərəfdən isə özləri də yüksək gəlirlər əldə edirlər. Almaniya, Böyük Britaniya, Fransa, İtaliya kimi iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə idman infrastrukturları və potensialı kifayət qədər böyükdür [9]. Burada yüz milyonlarla insanlar məhz idman sahəsində çalışırlar, belə ki, idmana həvəs böyükdür və bu da idman klublarının yaradılması və demək olar ki, bütün yaş qruplarından olan turnirlərin təşkil olunması və bütün bunlar böyük maliyə dövriyyəsinin hərəkətinə və investisiyaların yönəldilməsinə səbəb olur. Bunlar isə öz növbəsində həm yerli, həm regional, həm də dövlət büdcəsinə gəlirlər gətirirlər.

Son illərdə bir sıra Asiya ölkələrində, xüsusilə Cənubi Şərqi Asiya ölkələrində və Çin başda olmaqla bu regionda idmanın inkişafına, idmanın kütləviliyinə, gəlirlərin əldə edilməsinə, idman iqtisadiyyatının inkişafına sosial-iqtisadi inkişaf proseslərində idmanın rolundan daha səmərəli istifadə edilməsinə maraq artmışdır. Məhz idman sahələrinin inkişaf etdirilməsi, turnirlərin keçirilməsi, dünya çempionatlarının təşkili böyük gəlirlər gətirir. Bəzən idman yarışlarında, xüsusilə futbol üzrə dünya çempionatlarının keçirilməsi zamanı demək olar ki, dünyada hər üç dörd nəfərdən biri məhz həmin idman yarışlarına ciddi şəkildə maraq göstərir və milyonlarla insanlar hər gün həmin idman yarışlarını izləyirlər. Bunlar isə şübhəsiz böyük məbləğdə vəsaitlər və reklam məhsulları, eyni zamanda süvenirlərin və geyimlərin satılması, xidmət sahəsinin inkişaf etməsi, iaşə sektoruna böyük vəsaitlərin axını və xidmətin keyfiyyətinin artırılması üçün əlavə şəraitin yaradılması, otellər şəbəkəsinin və digər xidmət sektoru

sahələrinin daha çox müştəri cəlb etməsinə gətirib çıxarır və nəticədə sosial-iqtisadi istiqamətləri üzrə yeni imkanlar formalaşır və əldə olunan vəsaitlər isə sosial-iqtisadi inkişaf tədbirlərinə, eyni zamanda hər bir ölkənin özünün tərəqqisinə, iqtisadi gücünün artmasına yönəldilir [10].

Bir çox müsəlman ölkələrində, həmçinin türkdilli dövlətlərdə də idmanın inkişafında, idman iqtisadiyyatının formalaşdırılmasında xeyli gəlirlər əldə edirlər. Maraqlıdır ki, həm də idmanın təşkili, gənclərin vətənpərvərlik ruhunda inkişaf etdirilməsi, möhkəmlənməsi, ordu quruculuğunun və inkişaf etdirilməsində, eyni zamanda alternativ müasir iqtisadiyyat sahələrinin yaradılması baxımından sosial-iqtisadi inkişafın sürətləndirilməsinin yeni multipilkativ mexanizminin formalaşdırılması maraq doğurur [11]. Türkiyədə idmanın komanda növləri üzrə, xüsusilə futbol, güləş, voleybol, basketbol üzrə yüzlərlə qurumlar fəaliyyət göstərirlər. On minlərlə idman dərnəkləri, infrastruktur obyektləri istismara verilmiş və idman qurğuları tikilmişdir. Yüz minlərlə insanlar bu idman növləri ilə məşğul olurlar. Digər tərəfdən, başqa müsəlman dövlətlərində də idmanın inkişafı ilə bağlı geniş həcmli işlər görülür və son onilliklərdə həm dövlət tərəfindən yönəldilən investisiyalar, həm də özəl sektor subyektləri tərəfindən bu sahəyə qoyulan sərmayələr artmaqdadır.

Maraqlıdır ki, keçmiş SSRİ-nin süqutundan sonra yeni yaradılmış Müstəqil Dövlətlər Birliyi ölkələrində də idmana maraq böyükdür və yeni iqtisadi inkişafa təsir göstərə biləcək idman sahələrinin inkişaf etdirilməsi diqqət mərkəzinə düşmüşdür. Azərbaycanda bu proseslər bir xeyli müddət dövrdə inkişaf səviyyəsindən geri qalmışdır, xüsusilə 1990-cı illərin əvvəllərində bununla bağlı ciddi problemlər olmuşdur. Dövlət büdcəsinin gəlirlər hissəsi xeyli azalmış və sosial-iqtisadi inkişaf sahələrinə, o cümlədən idmana yönəldilən vəsaitlər xeyli ixtisar edilmişdir. Digər tərəfdən, hələ bazar iqtisadiyyatı münasibətləri formalaşmamışdır.

Lakin, tədricən ölkəmizdə bu il 100 illiyi bütün dünyada qeyd olunan Ümummilli Liderimiz Heydər Əliyevin tarixi xidmətləri nəticəsində makroiqtisadi və makromaliyyə sabitliyi yaradıldıqdan sonra, bütün sahələrdə olduğu kimi, idmanın inkişafı ilə bağlı da xeyli işlər görülmüşdür. Müasir idman qurğularının tikilməsi üçün əsaslı zəmin yaradılmışdır.

Bu proseslər ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında daha geniş vüsət almışdır. İlham Əliyev hələ dövlət başçısı seçilməmişdən əvvəl Milli Olimpiya Komitəsinin sədri kimi və bir çox beynəlxalq federasiyalarda və olimpiya idman hərəkatının inkişaf etdirilməsində böyük nüfuza malik olmuşdur. Dövlət başçısı işlədiyi dövrlərdə isə idmanın inkişafının genişləndirilməsi məqsədilə iri şəhərlərlə yanaşı, regionlarda da iri idman qurğularının tikilməsinə xüsusi önəm verilmişdir [12]. Azərbaycan dünyanın çox nadir ölkələrindəndir ki, bu qədər olimpiya kompleksləri fəaliyyət göstərir. Regionlarda müasir dünya səviyyəsində olimpiya komplekslərinin tikilməsi və burada idmanın əksər növləri üzrə səmərəli şəkildə fəaliyyətin təmin edilməsi mümkündür. Buna görə də, hesab edirik ki, hazırda ölkəmizdə idmanın sosial-iqtisadi inkişafa təsiri xeyli böyükdür və digər tərəfdən gənclərimizin güclü, sağlam olaraq böyüməsi və vətənpərvərlik ruhunda inkişaf etməsinə əlavə stimullar verir. Azərbaycan milli ordusunun əzmkarlığını və iradəsini daha da gücləndirir və onun rəqabət qabiliyyətinin artmasına gətirib çıxarır.

Son illərdə idman klublarının inkişaf etdirilməsi məqsədilə bir sıra dövlət proqramları işlənib hazırlanmış və fəaliyyət strategiyaları müəyyənləşdirilmişdir. Belə ki, dövlət tərəfindən idmana xeyli vəsait ayrılmışdır. Lakin bununla belə artıq bazar iqtisadiyyatı münasibətlərinin idman sənayesinə keçdiyini də qeyd etmək mümkündür. Müxtəlif sponsorlar və digər iş adamları tərəfindən idman klublarının yaradılmasına maraq artmışdır. Müxtəlif çətinliklərə baxmayaraq Azərbaycan da komanda idman növlərinin də inkişafında son illər müəyyən nəticələr əldə etmişdir [13].

Təsadüfi deyildir ki, uzun illər ərzində "Qarabağ" futbol klubunun Avropa səviyyəsinə çıxması Azərbaycanda bu kütləvi idman növünün genişləndirilməsinə və bu idman növünə kifayət qədər kütləvilik və gəlirli idman növü olan futbola marağın artmasına səbəb olmuşdur. Eyni zamanda, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması baxımından da bu futbol klubu simvolik və faktiki olaraq geniş rol oynamışdır.

## YEKUN

Ölkəmizin ərazisində idman klublarının yaradılması, idman infrastrukturunun təşkil edilməsi və idmanın inkişafı istiqamətində əsaslı tədbirlərin görülməsinə baxmayaraq, həm də problemlərin olduğunu qeyd etmək istərdik. Hələ də komanda növləri üzrə

ölkəmiz yüksək nəticələr əldə etməkdə çətinlik çəkir. Bir çox milli xüsusiyyətlərə malik olan idman növlərinin inkişaf etdirilməsi üçün geniş imkanlar olmasına baxmayaraq onlardan zəif istifadə olunur.

Yaxın illərdə Azərbaycanda sosial-iqtisadi inkişafın manevrləşdirilməsində və sürətləndirilməsinə idmanın rolunun artırılması üçün bir sıra tədbirlərin görülməsinə ehtiyac vardır:

- idmanın sosial-iqtisadi inkişafa təsirinin obyektiv olaraq qiymətləndirilməsi və bununla bağlı fundamental tədqiqatların aparılmasına ehtiyac vardır;
- ölkəmizin iri şəhərlərində və regionlarında fəaliyyət göstərən olimpiya komplekslərindən maksimum səmərəli istifadə edilməsi üçün işlək mexanizmlərin hazırlanması və tətbiqi tələb olunur;
- ölkədə idmanın müxtəlif növlərinin inkişaf etdirilməsi, dünya təcrübəsinin dərindən öyrənilməsi və bununla bağlı məqsədli tədbirlərin görülməsinə ehtiyac vardır;
- dövlət tərəfindən ayrılan vəsaitlərlə yanaşı, özəl şirkətlərin idman sahələrinə maraq göstərməsi, müxtəlif idman klublarına sponsorluq etməsi və idmanın inkişafı üzrə idman iqtisadiyyatının yaradılması və gəlir götürülməsi istiqamətində tədbirlərin görülməsinə ehtiyac vardır və s.

**Açar sözlər:** *idman, idman üzrə dövlət siyasəti, idmanın inkişaf prioritetləri, idmanın səmərəli təşkili üzrə dünya təcrübəsi, idman iqtisadiyyatı, idman iqtisadiyyatının problemləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Hill, J. The European Commission's White Paper on Sport: a Step Backwards for Specificity? International Journal of Sport Policy, vol. 1, no 3, 2009- pp. 253–266.*

*2. Нуреев, Р.М., Маркин Е.В. Издержки и выгоды Олимпийских игр // Общественные науки и современность. – 2010. № 2, – с. 88-104.*

*3. Генусов, Б.Л. Экономический эффект от организации и проведения крупных международных спортивних соревнований // Изв. СПб. ун-та экономики и финансов. – 2010. № 1, – с. 74-76.*

*4. Ляшенко, В.И. Экономические аспекты проведения крупных международных спортивных мероприятий // Управление экономикой: теория и практика. 2010. №2, –с. 7-29.*

*5. Зуев, В.Н., Попова, И.М. Европейский подход к управлению в сфере спорта: ценности, нормы и интересы // Вестник международных организаций: образование, наука, новая экономика. 2018. №1,- с.51-65.*

*6. UEFA Club Licensing and Financial Fair Play Regulations. http://www.uefa.com/MultimediaFiles/Download/Tech/uefaorg/General/02/26/28/41/2262841_DOWNLOAD.pdf.*

*7. Inthorn, S. Europe Divided, or Europe United? German and British Press Coverage of the 2008 European Championship. Soccer & Society, vol. 11, no 6, 2010, pp. 790–802.*

*8. Остроухов, С.А. Управление развитием спортивных организаций как предпринимательски-ориентированных структур. Диссертация канд. экон. наук. Москва 2017, – 147 с.*

*9. Солнцев. И., Осокин Н., Власов, А. Финансирование спорта: зарубежная практика. Мировая экономика и международные отношения, 2019, т. 63, № 1, сс. 67-74. https://doi.org/10.20542/0131-2227-2019-63-1-67-74.*

*10. Панков, Д.А. Репкин, С.Б. Актуальные направления научных исследований в области экономики и менеджмента спорта // Вестник Полоцкого Государственного Университета. Серия D, – 2013. №05, – с. 24-29.*

*11. Cəfərli, M. İdman iqtisadiyyatının inkişafı. 17 Oktyabr 2021. https://sportal.az/news/130968.*

*12. İdman iqtisadiyyatı, nəzəri aspektlər və inkişaf perspektivləri. Ölkənin iqtisadiyyatında idmanın rolu. 04.03.2021. https://thermik.ru/az/ekonomika-sporta-teoreticheskie-aspekty-i-perspektivy-razvitiya/.*

*13. Aslanlı, G.M. Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafında dövlət siyasəti (2003-2013-cü illər). Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferat. Baki – 2018, – 28 s.*

## РЕЗЮМЕ

**Международный опыт по эффективному регулированию организации спорта в процессах социально-экономического развития**

В статье исследован международный опыт по эффективному регулированию организации спорта в процессах социально-экономического развития страны. С этой целью раскрыта сущность государственной политики в сфере спорта. Рассмотрены и обобщены приоритеты разви-

тия спорта в стране. Отмечена необходимость повышения эффективности организации спорта, которая может существенно способствовать повышению эффективности процессов социально-экономического развития. Рассмотрены актуальные проблемы развития спорта в экономическом контексте. Подготовлен ряд рекомендаций и предложений по эффективному использованию международного опыта в процессах регулирования организации спорта в Азербайджане.

**Ключевые слова:** *спорт, государственная политика в сфере спорта, приоритеты развития спорта, международный опыт по эффективной организации спорта, экономика спорта, проблемы экономики спорта.*

**SUMMARY**

**International experience in the effective regulation of the organization of sports in the processes of socio-economic development**

The article explores international experience in effectively regulating the organization of sports in the processes of socio-economic development of the country. To this end, the essence of state policy in the field of sports is revealed. Priorities for the development of sports in the country are considered. The need to increase the efficiency of the organization of sports is noted, which can significantly contribute to increasing the efficiency of the processes of socio-economic development. The current problems of sports development in the economic context are considered. A number of recommendations and proposals on the effective use of international experience in the processes of regulating the organization of sports in Azerbaijan are prepared.

**Key words:** *sports, state policy in the field of sports, priorities of sports development, international experience in effective organization of sports, sports economy, problems of sports economy.*

UOT 332.132; 911.3

# "VƏTƏN MÜHARİBƏSİNDƏ İŞĞALDAN AZAD OLUNMUŞ BÖLGƏLƏRDƏ KADR SİYASƏTİ"

**RƏŞİD RƏŞİDLİ**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi*
*magistrant*

*E-mail: rashidrashidli98@gmail.com*

İşğaldan azad olunmuş ərazilərimizin dirçəlişi Azərbaycan Respublikasının qarşısında duran ən vacib məsələlərdən biri hesab olunur. Buna sübut kimi, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiqlədiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" iqtisadi-sosial dövlət proqramını misal göstərmək olar. Qarabağın iqtisadi inkişaf məsələsi Azərbaycanın gələcək illərdə 5 ən prioritet məsələlərindən biri hesab edilir. Bu nüans bir daha ölkə rəhbərliyinin məsələyə nə qədər ciddi yanaşdığını göstərir. Mövzunun aktuallığına dair qeyd etmək istəyirəm ki, bölgədə nəzərdə tutulacaq investisiyalar, şirkətlərin kadr siyasəti, dövlət nəzarət tədbirləri yaxın gələcəkdə həyata keçiriləcək (Hazırda minalanmış ərazilərin təmizlənilməsi prosesi və s. görə). Artıq azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa işlərinə başlanılmışdır. Bərpa-quruculuq işlərinin həyata keçirilməsi üçün 2021-ci ilin dövlət büdcəsində 2,2 milyard manat vəsait də ayrılmışdır. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə Qarabağ Dirçəliş Fondu da təsis olunmuşdur [1]. Fondun yaradılmasında əsas məqsəd işğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsidir. Bu quruluş fonunda aktual məsələlərdən biri də Qarabağda məşğulluğun həlli, iqtisadi fəal əhalinin cəlb olunma strukturunun formalaşmasıdır. Azərbaycan Respublikasında son illərdə aparılan islahatlar iqtisadiyyatda əsaslı, keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur. Bu da dinamik iqtisadi inkişafı təmin etmişdir. Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də əmək bazarının inkişafı və işçi qüvvəsindən səmərəli istifadə edilməsidir.

Regionların iqtisadi inkişafının təmin edilməsi, əhalinin sosial rifahı və həyat səviyyəsinin daha da yüksəldilməsi, ölkə iqtisadiyyatının inkişafı, xüsusilə qeyri- neft sektorunun inkişafı istiqamətində çox ciddi tədbirlər həyata keçirilmişdir. Əhalinin məşğulluğunu təmin etmək məqsədilə yeni iş yerləri açılmış, yeni müəssisələr, infrastruktur obyektləri və s. yaradılmışdır.

Nəinki Qarabağ regionunda, həmçinin respublikamızda bazar iqtisadi münasibətlərinin formalaşması əmək bazarı və məşğulluğun qarşılıqlı əlaqəsi ilə bağlı problemlərin aktuallığını şərtləndirmişdir. Əmək bazarı, işsizlik və məşğulluq problemlərinin həlli bütün dövrlərdə hər bir dövlətin qarşısında duran ən mühüm məsələlərdəndir. Əmək bazarı və məşğulluğun bir-biri ilə qarşılıqlı əlaqələrinin tədqiqi iqtisadçı alimlərin bir çoxunun əsərlərində yer almışdır. İqtisad elmində əmək bazarı nəzəriyyəsinin əsasını klassik məktəbin nümayəndələri olan iqtisadçı alimlər A.Smit, D.Rikardo və J.B.Sey qoymuşlar. Sonralar bu məsələlər müxtəlif ölkələrin görkəmli iqtisadçıları tərəfindən tədqiq edilmişdir. Əmək bazarı və məşğulluq heç vaxt öz əhəmiyyətini itirmir. Son illərdə əmək bazarı, məşğulluq və işsizlik problemlərinin elmi, nəzəri və praktiki həlli yolları ilə bağlı respublikamızın görkəmli iqtisadçı alimlərindən T.Ə.Quliyev, Z.Ə.Səmədzadə, A.K.Ələsgərov, Ş.M.Muradov, Ə.Q.Əlirzayev, R.K.İsgəndərov, S.S.Mehbalıyev və başqaları tərəfindən mühüm tədqiqat işləri yerinə yetirilmişdi. Aparılan araşdırmalarda daha çox əmək bazarı və məşğulluğun nəzəri-metodoloji aspektləri, formaları, müxtəlif tərəfləri və elementləri tədqiq edilmişdir. Odur ki, bazar iqtisadiyyatı şəraitində əmək bazarı və məşğulluğun qarşılıqlı əlaqəsinin kompleks tədqiqinin aparılması zəruri hesab olunur.

Məlumdur ki, ordumuz tərəfindən Qarabağ torpaqlarının işğaldan azad edilməsi ilə bu regiona yeni həyat gələcəkdir. Yenidənqurma, abadlıq, yeni infrastruktur imkanlarının işğaldan azad olunmuş ərazilərimizdə tətbiqi ciddi investisiya, maliyyə və kadr axını tələb edir. Hazırki dövrdə iqtisadi fəal əhalinin böyük hissəsinin paytaxt ətrafında cəmləşdiyini nəzərə alsaq, insan kapitalının işğaldan azad olunmuş regionlara axınının tənzimlənməsi, əmək bazarının formalaşma strukturu, müəssisələrin bu yöndə aparacağı stimullaşdırma mexanizmləri hələ də sual olaraq qalmaqdadır [2].

Məqalənin məqsədi işğaldan azad olunmuş regionlarda əmək bazarı və məşğulluğun qarşılıqlı fəaliyyətinin elmi-nəzəri əlaqələrini tədqiq etməkdən, ölkə-

mizdə işsizlik və məşğulluq səviyyəsini təhlil edərək qiymətləndirməkdən və səmərəli məşğulluğun təmin edilməsi istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqatın məqsədinə uyğun olaraq aşağıdakı vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

- Əmək bazarı və məşğulluğun sosial-iqtisadi əsaslarının tədqiqi;
- Bazar iqtisadi münasibətləri şəraitində əmək bazarı və məşğulluğun əsas meyillərinin müəyyənləşdirilməsi;
- Məşğulluq sahəsində dövlət siyasətinin işsizliyin aşağı salınmasına təsirinin qiymətləndirilməsi;
- Əmək bazarına təsir edən amillərin qiymətləndirilməsi;
- İnsan resurslarının idarə edilməsində əmək bazarının rolunun əsaslandırılması;
- Qarabağda səmərəli məşğulluğun təmin edilməsinin ölkənin dayanıqlı iqtisadi inkişafına təsirinin müəyyənləşdirilməsi.

İşğaldan azad olunmuş ərazilərə qayıdış, bu ərazilərə investisiya cəlb edilməsi hazırda mühüm ölkə dəyərlərindən biri hesab olunur və dövlətin əsas prioritet istiqamətlərindən biridir. Qarabağ regionunda həyatın yenidən bərpa edilməsində bu bölgəyə kadrların cəlb edilməsi vacib aspektlərdən biri kimi qiymətləndirilir. Dissertasiya işinin əsas tədqiqat obyekti kimi bölgələrə kadr axınının təmin olunmasında, planlaşdırılmasında tətbiq edilə biləcək insan resursları siyasəti qiymətləndirilmişdir.

İşğaldan azad olunmuş ərazilərdə işçi planlaşdırılması və işçi seçimi prosesində müəssisələrin qarşısına qoyduğu hədəflərdən prioriteti işçilərin bura qısa müddətli tramplin kimi baxmamalarıdır. Şərqi Asiyanın iqtisadi cəhətdən hegemon ölkəsi sayılan Yaponiya uzun müddət zəlzələ və sunami fəlakətlərindən zərər çəkmişdir. Sözügedən dövlətin dağılmış, məhv edilmiş ərazilərə investisiyasında istifadə edilmiş və görülmüş tədbirlər Azərbaycan Respublikası üçün böyük təcrübə olardı.

Yaponiya dövlətinin zərərgörmüş ərazilərdə gördüyü quruculuq işləri zamanı cəlb olunan işçilərə münasibətdə müəssisələr belə bir psixoloji əmək davranışı həyata keçirirdilər: "İşçiyə elə bir əməkhaqqı tətbiq edilməlidir ki, işçi öz işini itirməkdən qorxsun". Bu, bir mənada şirkət daxilində işçilərə yaradılmışdır.

Kadrlarla aparılan iş məcmu iş sistemlərindən ibarətdir. Bu zaman idarəetmə quruluşu, idarəetmə məqsədləri, metod və prinsipləri, həcmi, idarəetmə funksiyaları və s. nəzərdə tutlmalıdır. Çünki bunun əsasında idarəetmə orqanı üçün gərəkli olan işçilər, onların strukturu - peşə və vəzifə tərkibi müəyyənləşdirilir. Bundan sonra da hər bir idarəetmə strukturunda işləyən vəzifəli şəxsə qarşı başlıca tələblər, onun nəyi bilməyi və bacarmağı, kadrların qəbul edilməsi, yerləşdirilməsi və irəli çəkilməsi məsələsi qarşıya qoyulur. Bu zaman konkret vəzifələr və şərtlər çərçivəsində onların qəbul edilməsi və irəli çəkilməsi yerinə yetirilir. Kadrların qəbul edilməsi müəyyən modellər, əlamətlər və prinsiplər əsasında icra edilir. Bu problem ən çətin və prinsipial önəmə sahib olan fəaliyyət sferasıdır. Çünki kadrların qəbul edilməsi nəticə etibarilə idarəedən sistemin formalaşmasını-onun hazırkı vəziyyətini və gələcəyini müəyyən edir.

Kadrlarla aparılan iş onların hazırlanmasını və ixtisasının artırılması məsələləri ilə də bağlıdır. Onlardan istifadə edilməsi məsələsi də ən mühüm problemlərdən biridir.

Kadrlarla aparılan iş sistemi müəyyən səviyyədə hərtərəfli xarakterə malikdir. Ona görə ki, bu kadrların yerləşdirilməsi və onların inkişafı problemi vahid bir qayda əsasında həll etməyə şərait yaradır. Bununla bərabər hər bir sahənin kadrlarla təmin edilməsi, onların iş metodları, onlara qarşı konkret spesifik tələblər də nəzərdə tutulur. Kadrlarla aparılan iş zamanı onlar sistem və kompleks halında araşdırılır və qiymətləndirilir. Sistemlik və kompleks tələbləri, prinsipləri xüsusən rəhbər işçilərin müəyyən edilməsi və irəli çəkilməsi zamanı da nəzərdə tutulmalıdır. Kadrlarla aparılan işdə hüquqi-normativ aktlar mühüm əhəmiyyətə malikdir. Hüquqi-normativ aktlar işçilərin seçilməsində özbaşınalığın, mənfi halların aradan qaldırılmasında mühüm rol oynamalıdır. Hüquqi-normativlər aktlar həmçinin kadrlarla iş sisteminin yaranması və bu işlərin leqallaşdırılması üçün xüsusi əhəmiyyətə malikdir. Belə olan halda əmək haqqındakı qanunlar toplusu, ölkələrin əmək barəsində qanunvericiliyin əsasları, daxili əmək qaydalarının səciyyəvi qaydaları xüsusi rola malikdir. Burada zaman əmək münasibətlərinin tənzimlənməsi, işçilərin işə qəbul edilməsi və işdən çıxarılması, bu istiqamətdə müdiriyyətin və işçilərin hüquq və vəzifələri və s. məsələlər konkret formada əks olunur. Müasir dövrdə kadrlarla iş sistemi, həmçinin onların hazırlanması sistemini, kreativliyinin artırılmasının təşkil edilməsini, kadr ehtiyatının formalaşdırılmasını, tədris metodlarını, kadrların attestasiya məsələlərini də özünə aid edir. Kadr siyasətinin əsasını işçilərin işə qəbul edilməsi, yerləşdirilməsi və tərbiyə edilməsinin əsas prinsipləri təşkil etməlidir [3].

Kadrların qəbul edilməsi və yerləşdirilməsinin psixo-fizioloji aspekti. Bəllidir ki, müxtəlif istehsal prosesləri, əmək fəaliyyəti bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Bu səbəbdən də hər bir iş sahəsi, əmək fəaliyyəti üçün işçiləri işə qəbul edərkən bu

cəhət hökmən nəzərə saxlanılmalıdır. Bu zaman əsas cəhət işçinin psixofizioloji keyfiyyətinin, iş qabiliyyətinin əmək fəaliyyətinə uyğun gəlməyinin təmin olunmasıdır. Bu isə hər bir iş, peşə-ixtisas üzrə işçilərə olan tələblər və bu tələblərdən asılı olaraq peşə müəyyən etmə, peşə təmayülü və onların konkret iş sahələri üzrə yerləşdirilməsi mexanizmi vasitəsilə yerinə yetirilir. Belə ki, işçilər işə qəbul edilərkən, onların peşəsini, ixtisasını və təhsilini nəzərə almaq kifayət etmir. Belə olan halda onların psixo-fizioloji keyfiyyəti də əsas götürülməlidir. Peşəseçmə və peşə təmayülü məsələsi insan resurslarının əməyindən istifadə edilməsində xüsusi əhəmiyyətə malikdir [4]. Bu həm də müəssisələrdə əməyin təşkilinin mühüm mexanizmidir. Bu mexanizmdə müxtəlif əmək fəaliyyətinin və peşələrin qarşılıqlı xüsusiyyətlərinin araşdırılması, onlara və kadrlara olan tələblərin nəzərdə tutulması, bu əmək növü üçün kadrların işə qəbul edilməsi mühüm yer tutur. Bu zaman ən çətin məsələlərdən biri iş fəaliyyəti üçün kadrların müəyyən edilməsidir. Kadrlar müəyyən edilən zaman aşağıdakı psixomotor tələblər nəzərdə tutulmalıdır:

1. İş prosesində tələb edilən hərəkət tempi, tələb edilən hərəkətverici reaksiyanın sürəti;
2. İş prosesində ahəngdarlığın durumu;
3. Hərəkətin tələb edilən qaydada uyğunlaşdırılması, hərəkətin daimiliyi;
4. Hərəkətin dəqiq olması.

Kadrlar işə qəbul edilərkən aşağıdakı fizioloji tələblər əsas götürülməlidir: tələb edilən fiziki səylər, gözün tələb edilən görmə qabiliyyəti, tələb edilən yaddaş qabiliyyəti, qulağın tələb edilən eşitmə qabiliyyəti, orqanizmlərin hissetmə qabiliyyəti, fiziki və zehni fəaliyyətə, iş rejiminə dözümlülük qabiliyyəti. Bundan əlavə, işçilərin intellektual qabiliyyətinə qarşı da müəyyən tələblər qoyulmalıdır. Həmin tələblər müasir elmi-texniki tərəqqi dövründə daha da mühümdür. Bu tələblər aşağıdakı kimidir: tələb edilən diqqətlilik, müşahidəçilik qabiliyyəti, kreativ və qeyri-kreativ düşüncə, təfəkkürün konkretliliyi səviyyəsi, ümumi əqli inkişaf, iqtisadi, texniki və başqa elmləri dərketmə qabiliyyəti. Qeyd edilən psixo-fizioloji tələblər müəyyən peşələrin iş fəaliyyətinə müvafiq olaraq müəyyən edilməsi, onun əsasında peşə proqramının tərtib olunması üçün əsasdır. Bu, nəticədə işçilərin iş qabiliyyətinin müəyyən olunması, əməyin səmərəliliyinin yüksəldiməsi, kadrların təlimləndirilməsinin inkişaf etdirilməsi üçün də zəruridir.

Müəssisələrdə kadrlarla iş planı hazırkı və perspektiv dövrdəki planların tərtib edilməsi ilə əsaslandırılır. Müəssisə, firma və nazirliklərin iş təcrübəsində işçilərlə iş planı dörd mərhələdə yerinə yetirilməlidir:

– birinci mərhələdə müəssisə rəhbərlərinin, MTİ-lərin tərbiyə olunması onların keyfiyyətcə strukturunun yaxşılaşdırılması, ehtiyat kadrların formalaşdırılması, kadrların yeniləşməsi, onların attestasiyadan keçirilməsi, gənc mütəxəssislərlə iş, onların müəssisələrdə yerləşdirilməsi məsələləri;

– ikinci mərhələdə işçilərin (əsas və əlavə tələbata uyğun olaraq), hazırlıq formaları ilə bağlı olan bütün məsələlər,

– üçüncü mərhələdə elmi-texniki tərəqqi ilə bağlı olaraq kadrların yenidən hazırlanması və ixtisaslarının yüksəldilməsi üzrə işlər;

– dördüncü mərhələ isə işçilərin müəssisə və idarədaxili strukturlar üzrə yerləşdirilməsi, onlardan istifadə edilmənin təhlili göstərilir [5].

Kadr siyasəti gələcək dövrün kadr siyasəti, kadr planlaşdırılması ilə sıx əlaqədardır.

Hər bir müəssisənin “mission statement”ı olur ki, işğaldan azad olunmuş ərazilərdə tətbiq olunacaq kadr siyasəti bu statementin əsas ünsürlərindən hesab olunmalıdır. Çünkü bölgədə işlə təminat, Azərbaycan Respublikasının digər ərazilərində işsizliyin azalmasına təkan və Qarabağa investisiyanın möhkəmlənməsində ixtisaslı kadrların axını həm də dövlətin əsas prioritet hədəflərindən biri hesab olunur.

Xüsusi qeyd edərək bildirmək olar ki, işğaldan azad olunmuş bölgələrə kadr axını üçün onlara xüsusi stimullaşdırıcı təkliflər yerinə düşərdi. Bu təkliflər nə ola bilər?

1) İşçilərin sosial sığorta təminatının qarşılanması. Hətta bu siyasəti nəinki işçilərə, onların ailə üzvlərinə də şamil etmək effektiv olardı.

2) İşçinin çalışacağı yerdə maksimum şəkildə mənəvi rahatlığına yol verilməli. Misal olaraq, işçilərin yeməklə təminatı, xidməti ezamiyyələrin komfort təşkili, yol servisi ilə təminatı, ara-sıra şirkət hesabına istirahətlə təminat və s.

3) İşçiyə elə bir əməkhaqqı tətbiq olunmalıdır ki, işçi öz işini itirməkdən qorxsun. Bu daha çox psixoloji aspekt hesab olunur və düşünürəm ki, işçiyə verilən daha yuxarı maaş onu işinə daha məsuliyyətli köklənməyinə səbəb olacaq.

4) İşçini yüksək mütəxəssis roluna hazırlamaq. İşçini yerli və beynəlxalq standartlarla tanış etmək, təlimlərə göndərmək, öz sahəsində ən yaxşı olmağa doğru yönəltmək və s.

5) Şirkətdaxili işçilər arasında olan isti münasibətin qorunması, konfliktlərin qarşısının mümkün qədər alınması.

6) Bonus və mükafat sistemlərinin tətbiqi. Əmək haqqı işçi üçün əsas motivasiya mənbəyi hesab oluna bilər. Bonus mükafat sistemlərinin tətbiqi həm işçinin

daha effektiv çalışması ilə nəticələnə, həm də işəgötürənin hədəfinə daha tez çatmasına kömək edə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Strateji yol xəritəsi*

*2. Bazarov T. Y., Yerem B.L. redaktorluğu ilə, (2012) (tərcümə) "Heyətin idarə edilməsi", Bakı, İqtisad Universitet, 506 səh.*

*3. İsmayılzadə Ə.A. (2012) "İnsan resurslarının idarə edilməsi və sosial inkişafı" monoqrafiya, Bakı Gənclik, 471 səh.*

*4. Qeybullayev Q.R. (2010). "İdarəçiliyin-menecmentin əsasları". Bakı. "Elm və təhsil" nəşriyyatı, 298 səh.*

*5. Ömərova İ. (2020) "İnsan resurslarının inkişaf etdirilməsi istiqamətləri", Bakı Mühəndislik Universiteti. Bakı, "Azərbaycan" 38 səh.*


## XÜLASƏ


Tədqiqatın aktuallığı: İşğaldan azad olunmuş bölgələrə investisiya labüd hesab edilir. Bununla belə, investisiyanın əsas təşviqedici və ayrılmaz hissəsi hesab edilən ixtisaslı kadrların digər bölgələrdən axını istər dövlət səviyyəsində, istərsə də yerli müəssisələr səviyyəsində görülən tədbirlərin ən başlıcası hesab edilir.

Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi Qarabağ bölgəsində kadr axınının bərpa edilməsi yönündə həyata keçirilməsi vacib olan stimullaşdırıcı amillərin tapılıb öyrənilməsidir.

İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat zamanı sistemli yanaşma, statistik qruplaşdırma, normativ və pozitiv yanaşma, bundan başqa, deduktiv, induktiv metod və axtarış metodlarından istifadə edilmişdir.

Tədqiqatın informasiya bazası: Tədqiqatın informasiya bazasının formalaşması əsasında insan resurslarının idarə edilməsi sahəsində xarici və yerli iqtisadçıların nəzəriyyələri, bu sahədə konfrans materialları, elmi məqalələr təşkil edir.

Tədqiqatın məhdudiyyətləri: Tədqiqatın məhdudiyyəti kimi onu göstərə bilərəm ki, Azərbaycan Respublikası müstəqillik illərindən sonra ilk dəfə işğaldan azad olunan ərazilərdə yenidəndirçəliş siyasəti tətbiq edəcəyindən yerli təcrübə xarakterli ədəbiyyat mənbələri və iqtisadi sosial göstəricilərin əldə olunmasında çətinlik yaranmışdır.

Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: İşğaldan azad olunmuş ərazilərə qayıdış, bu ərazilərə investisiya cəlb edilməsi hazırda mühüm ölkə dəyərlərindən biri hesab olunur və dövlətin əsas prioritet istiqamətlərindən biridir. Qarabağ regionunda həyatın yenidən bərpa edilməsində bu bölgəyə kadrların cəlb edilməsi vacib aspektlərdən biri kimi qiymətləndirilir. Dissertasiya işinin əsas tədqiqat obyekti kimi bölgələrə kadr axınının təmin olunmasında, planlaşdırılmasında tətbiq edilə biləcək insan resursları siyasəti qiymətləndirilmişdir.

Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqat işinin nəticə və təkliflərindən ölkəmizdə əmək bazarının tənzimlənməsi, səmərəli və məhsuldar məşğulluğun təmin edilməsi, işsizliyin aşağı salınması və bütövlükdə əmək bazarı və məşğulluğun qarşılıqlı əlaqələrinin nizamlanması ilə bağlı görüləcək tədbir və proqramların həyata keçirilməsində istifadə edilə bilər. Tədqiqatın nəticələri işğaldan azad olunmuş ərazilərimizə investisiya edən müəssisələrin işçi ehtiyatlarının Respublika daxilində digər regionlardan buraya gəlməsində, həmçinin digər müəssisələrdən transfer edilməsində, insan kapitalının yetişdirilməsində yarana biləcək çatışmazlıqların aradan qaldırılmasında vacib rol oynayır.



**Açar sözlər:** *Qarabağ, kadr axını, stimullaşdırma mexanizmləri, səmərəli məşğulluq, əmək bazarı.*


## SUMMARY


The actuality of the subject: Investment in the liberated territories is considered necessary. However, the influx of qualified personnel from other regions, which is the main stimulus and integral part of investment, is considered to be the most important measure, both at the state level and at the level of local enterprises.

Purpose of the research: The main purpose of the study is to identify and study the incentives that are important for the restoration of staff flow in the Karabakh region.

Used research methods: Systematic approach, statistical grouping, normative and positive approach, as well as deductive, inductive method and search methods were used during the research.

The information base of the research: Based on the formation of the information base of the research, theories of foreign and local economists in the field of human resource management, conference materials in this field, scientific articles are organized.

Limitations of research: As a limitation of the research, I can point out that for the first time since the years of independence, the Republic of Azerbaijan will apply a policy of reconstruction in the liberated territories, which has made it difficult to obtain local sources of literature and economic and social indicators.

The novelty and practical results of investigation: Returning to liberated areas, attracting investment in these areas, is now considered one of the most important country values in the world and is one of the

government's main priorities. The rehabilitation of life in the region is viewed as one of the most important aspects of the region. Human resources policies have been evaluated as a major research object in the field of human resources flow and planning.

Scientific-practical significance of results: Areas where the results can be used: The results and recommendations of the research can be used in the implementation of measures and programs to regulate the labor market in our country, ensure effective and productive employment, reduce unemployment and regulate the labor market and employment as a whole. The results of the study play an important role in the influx of labor resources of enterprises investing in our liberated territories from other regions within the country, as well as the transfer of other enterprises, the elimination of shortcomings in the develoPİEent of human capital.

**Key words:** *Karabakh, staff flow, stimulation mechanisms, effective employment, labour market.*

## РЕЗЮМЕ

Актуальность исследования: Необходимы инвестиции в освобожденные от оккупации регионы. Однако важнейшей из мер, принимаемых как на государственном уровне, так и на уровне местных предприятий, считается приток квалифицированных кадров из других регионов, который считается основным стимулом и неотъемлемой частью инвестиций.

Цель исследования: Основной целью исследования является поиск и изучение стимулирующих факторов, которые важно реализовать в направлении восстановления потока кадров в Карабахском регионе.

Используемые методы исследования: системный подход, статистическая группировка, нормативно-позитивный подход, дедуктивный, индуктивный метод и поисковые методы.

Информационная база исследования: на основе формирования информационной базы исследования организованы теории зарубежных и отечественных экономистов в области управления человеческими ресурсами, материалы конференций и научные статьи в этой области.

Ограничения исследования: В качестве ограничения исследования могу отметить, что поскольку Азербайджанская Республика впервые за годы независимости будет осуществлять политику возрождения на территориях, освобожденных от оккупации, стало трудно получить литературу. источники местного опыта и экономические и социальные показатели.

Научная новизна и практические результаты исследования: Возвращение территорий, освобожденных от оккупации, привлечение инвестиций на эти территории в настоящее время считается одной из важных национальных ценностей и одним из главных приоритетных направлений государства. В восстановлении жизни в Карабахском регионе привлечение кадров в этот регион считается одним из важных аспектов. В качестве основного объекта исследования дипломной работы была оценена кадровая политика, которая может быть применена при обеспечении и планировании кадровых потоков в регионы.

Области, где могут быть использованы результаты: Результаты и предложения исследовательской работы могут быть использованы при реализации мер и программ, связанных с регулированием рынка труда в нашей стране, обеспечением эффективной и продуктивной занятости, снижением безработицы и регулированием взаимодействия рынка труда и занятости в целом. Результаты исследования играют важную роль в привлечении трудовых ресурсов предприятий, инвестирующих в наши освобожденные территории, из других регионов в пределах Республики, а также в их переводе с других предприятий, в устранении недостатков, которые могут возникнуть при возделывании человеческого капитала.

**Ключевые слова:** *Карабах, кадровый поток, механизмы стимулирования, эффективная занятость, рынок труда.*

UOT 338.48

# AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN BƏRPASI SAHƏSİNDƏ ƏLDƏ EDİLMİŞ UĞURLARIN ŞƏRQİ-ZƏNGƏZUR İQTİSADİ ZONASINDA TURİZMİN İNKİŞAFINA MÜSBƏT TƏSİRİ

**KƏRİM ƏLİYEV**
*Azərbaycan Turizm və Menecment Universiteti, magistrant*
*E-mail: kerim.eliyev.99@gmail.com*

## Giriş

Şərqi Zəngəzur iqtisadi zonasının dünyada tanıdılmasına ehtiyac var. Rəşadətli Azərbaycan Ordusu tərəfindən ərazi bütövlüyümüz tam bərpa olunduqdan sonra bölgəyə ziyarətçi axını müşahidə olunacaqdır. Xalqımızın Qarabağa və Şərqi Zəngəzur rayonlarına marağı çox böyükdür. Bu, daxili turizmin inkişafına gətirib çıxaracaq.

Şərqi Zəngəzur iqtisadi rayonunda turizm sürətlə inkişaf edəcəkdir. Qarabağ zonası Azərbaycanın mədəniyyət mərkəzi, milli mədəniyyətin beşiyi hesab olunur. Azərbaycanın ərazi bütövlüyü bərpa olunandan və bu ərazilərin təhlükəsizliyi təmin edildikdən sonra turizm marşrutlarının təşkili zəruridir. Şərqi Zəngəzur rayonunda turizmin müxtəlif növlərini inkişaf etdirmək olar. Məsələn, ekoturizmin inkişafı üçün hər cür şərait var. Eyni zamanda müxtəlif kateqoriyalı otellər tikilməlidir. İşğaldan əvvəl Azərbaycanda məşhur turizm bölgələri Xankəndi, Şuşa, Kəlbəcər, Ağdam olub. Sovet ölkələrindən ora çoxlu sayda turist gəlirdi. Sanatoriya turizmi də inkişaf etmişdir. Turistlər sanatoriyalarla yanaşı fərdi evlərdə də qalmışdılar, bu da yerli əhalinin gəlirlərinin artmasına səbəb olmuşdur. Ona görə də bu ərazilərdə turizmin inkişafı gözlənilir.

Şərqi Zəngəzur rayonu təbii sərvətlərlə zəngindir. Bu ərazilərdə termal turizmin inkişafı üçün də əlverişli şərait var. Azərbaycan tam işğaldan azad edildikdən sonra bu ərazidə torpaqlar, infrastruktur, o cümlədən turizm yaradılmalıdır. Müxtəlif istiqamətlərdə fəaliyyət göstərməklə, hərtərəfli işlər aparmaqla Şərqi Zəngəzur iqtisadi rayonunu tez bir zamanda turizm məkanına çevirmək olar. Azərbaycan dözləti bu əraziyə sərmayə qoyuluşu üçün şərait yaradacaqdır.

Qarabağın işğaldan azad olunması, şübhəsiz ki, turizm sahəsi üçün yeni imkanlar yaradır. Hazırkı dönəmdə bu sahəyə yatırılacaq investisiyalar ölkə iqtisadiyyatına gələcək dövrdə böyük töhfə verəcəkdir. Ərazinin əlverişli coğrafi şəraiti də turizm əhəmiyyətli olduğundan, eyni zamanda tarixi abidələrlə zəngin olması bölgəyə turist axınının da çox olacağını deməyə əsas verir.

Şərqi Zəngəzurun təbiəti turizmin inkişafı üçün böyük potensial yaradır. Hələ antropogen proseslərlə əhatə olunmamış Şərqi Zəngəzur landşaftlarının müxtəlifliyi, unikallığı, cəlbediciliyi və genişliyi çox böyükdür. Şərqi Zəngəzurun böyük ekoloji və mədəni dəyərə malik təbiət abidələri və geniş ərazilər qorunub saxlanılmışdır ki, bu da turizmi bölgədə ən populyar istirahət formasına çevirir [2,s.84].

Yeni taradılan milli və təbiət parkları Amerika milli parklarından nümunə götürərək unikal landşaftlarda və təbiətin mənzərəli guşələrində yaradılır və cəmiyyətin rekreasiya, ekoturizm və ekoloji maarifləndirməyə olan ehtiyaclarını ödəmək üçün nəzərdə tutulub.

Hələ işğaldan əvvəl təkcə mədənçıxarma, metallurgiya, yeyinti, emal, əczaçılıq, taxılçılıq sektorları ilə deyil, həm də geniş potensialı ilə seçilən Qarabağda və ona bitişik ərazilərdə Ermənistanın işğalı nəticəsində yaranan təhlükəsizlik problemləri, turizm və rekreasiya sahəsində inkişaf, habelə bu ərazilərdə infrastrukturun məhv edilməsi indiki mərhələdə turizmin təşkilini mümkünsüz edir.

Təbii ki, Şərqi Zəngəzurun və ətraf rayonların turizm imkanlarından tam istifadə etmək yalnız üç əsas amil təmin edildikdən sonra mümkün olacaq. Bunlar aşağıdakılardır:

- təhlükəsizlik;
- əhalinin qayıtması;
- infrastrukturun yaradılması.

Şübhə yoxdur ki, yaxın gələcəkdə bütün bu məsələlər həll olunandan sonra Şərqi Zəngəzur və Azərbaycan turizm sektorunda lider mövqe tutacaq. Əminliklə demək olar ki, Şərqi Zəngəzur regional, daha sonra qlobal əhəmiyyət kəsb edən turizm mərkəzinə çevriləcək.

Azərbaycan Səyahət Agentlikləri Assosiasiyasının Ekspert Şurasının sədri Gökdəniz Qəhrəmanov hesab edir ki, Şərqi Zəngəzurda turizmin bir çox növlərinin - ekoloji, dağ, qış, ovçuluq, sağlamlıq tu-

rizminin inkişafı üçün böyük imkanlar var [4,s.72].

Onun sözlərinə görə, Azərbaycanın qədim tarixə, özünəməxsus flora və faunası, mətbəxi, tarixi-mədəni və dini abidələri, qədim qalaları, körpüləri, meşələri, bulaqları, eləcə də digər görməli yerləri olan bu bölgəsi turistləri özünə cəlb edəcək.

Azərbaycan Otellər və Restoranlar Assosiasiyasının İdarə Heyətinin sədri Samir Dübəndi Şərqi Zəngəzurda turizmin sürətlə inkişaf edəcəyinə əmindir.

Turizmi bu ərazilərin gələcəyi hesab edən Dübəndi hesab edir ki, təbii sərvətlərlə zəngin Şərqi Zəngəzurda müxtəlif növ ekstremal turizm, aqroturizm, "ekoloji" turizm təşkil etmək mümkündür.

Turizm eksperti Fariz Hacıyev Şərqi Zəngəzurda bir çox turizm layihələrinin həyata keçirilməsini mümkün hesab edir. Onun sözlərinə görə, bu məqsədlər üçün Şərqi Zəngəzurun füsunkar təbiətindən istifadə etmək olar. Şərqi Zəngəzurda gözəl istirahət mərkəzləri yaratmaqla turizmi inkişaf etdirmək olar.

Belə zəngin təbii şəraitə və faydalı qazıntı ehtiyatlarına malik olan iqtisadi və ekoloji ərazilər iqtisadi və ekoloji gərginlik şəraitində idi. Təəssüf ki, təmiz hava, meşələr, mineral su və bulaqlar, tarixi tikililər və s. erməni işğalçıları tərəfindən dağıdılmış, talan edilmiş və ixtisar edilmişdir. 20 ildən artıqdır ki, işğal altında olan meşələrdə sənaye əhəmiyyətli ağaclar birdən-birə kəsilir, Ermənistana daşınır, daha sonra emal olunur və təsərrüfat baxımından istifadə olunurdu. Ərazidən axan çaylar müxtəlif maddələrlə çirklənib. Çirklənmiş su ətraf ərazilərin əhalisi və təsərrüfatları üçün ciddi təhlükə yaradır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində gedən müharibə burada ekoloji vəziyyəti daha da ağırlaşdırıb. Ərazidə aparılan hərbi əməliyyatlar quruya, meşələrə və su ehtiyatlarına böyük ziyan vurub. Uzun illər zəngin mineral ehtiyatlardan istifadə edilməməsi iqtisadi rayonların inkişafına mənfi təsir göstərir. Ermənistan qoşunlarının törətdiyi yanğınlar rayonların ekosistemlərində və cəbhəyanı təsərrüfatlarda fəsadlar törədib [3,s.91].

Yuxarıda göstərilənlərə əsasən qeyd etmək olar ki, Şərqi Zəngəzur ən zəngin təbii ehtiyatlara görə turizm üçün açıqdır. Bölgədə turizmin inkişafı potensialının böyük perspektivləri var.

Lakin buna baxmayaraq, regionun qorunan ərazilərində turizmin inkişafı ilə bağlı vəziyyət qeyri-müəyyən və çox problemli olaraq qalır. Bölgədə turizmin inkişafına mane olan əsas problemlər arasında mini-mehmanxanaların və düşərgələrin tikilməsi, təchiz olunmuş ekoloji cığırların yaradılması, turistlər üçün turizm üçün infrastrukturun zəif inkişafı və ya çatışmazlığını qeyd etmək olar.

Turizmin ekoloji, aktiv, ekstremal, tarixi və koqnitiv növləri ən fəal şəkildə inkişaf edir. İşgüzar turizm də geniş vüsət alır. Dünya turizminin inkişaf etdirilməsi təcrübəsi göstərir ki, bütün dövlətlər, ilk növbədə, gəlmə və daxili turizmin inkişafında maraqlıdır, çünki birinci növ dövlətin xəzinəsinə valyuta gəlirlərini, ikincisi isə maliyyə resurslarını toplamağa imkan verir.

Dediklərimiz əsasında belə bir nəticəyə gəlmək olar ki, Şərqi Zəngəzurda turizmin inkişafı üçün kifayət qədər əlverişli şərait, turizmin inkişafına şərait yarada bilən potensial mövcuddur. Bu sahəyə diqqəti bir qədər artırmaqla Şərqi Zəngəzurda da turizmin inkişafına nail olmaq, turizm üzrə yeni məhsulun istehsalını həyata keçirmək və dünya bazarında onun tanınmasını, eləcə də həmin məhsula qarşı zəruri olan tələbi formalaşdırmaq mümkün olacaqdır [1,s.75].

Turizmin inkişaflı və uzunömürlü fəaliyyətinin təmin olunmasında əsas məsələ turizm məhsuluna olan tələbi formalaşdırmaqdır. Bunun üçün isə turistin marketinq biliyinin formalaşdırılması əsas amillərdən birinə çevrilməlidir.

Turizmin yaradılmasında və inkişaf etdirilməsində başqa bir amil isə bu fəaliyyət sahəsinin kifayət qədər rentabelli olması ilə izah olunur. Digər tərəfdən isə turizm üzrə xərc amilləri də bir o qədər çoxluq təşkil etmədiyindən gəlirlərin böyük əksəriyyəti mənfəət formasında təşkilatçı müəssisəyə və yaxud da dövlətin büdcəsinə axır.

Turizm bütün dünyada iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biridir. Turizm sənayesinin həm bütövlükdə dünya iqtisadiyyatına, həm də ayrı-ayrı ölkələrin və regionların iqtisadiyyatına təsirinin durmadan artması, dünya iqtisadiyyatının formalaşması və inkişafını müşayiət edən daimi və uzunmüddətli tendensiyalardan biridir.

Turizm hazırda iqtisadiyyatın mühüm müstəqil sektoruna çevrilib, onun inkişafı büdcəni doldurmaqla yanaşı, infrastrukturun və əlaqəli sənaye sahələrinin inkişafına, əhalinin rekreasiya xidmətlərinə olan tələbatının ödənilməsinə, iş yerlərinin yaradılmasına imkan verəcək ki, bu da ölkələr üçün xüsusilə vacibdir.

Turizm mərkəzlərinin təbii ehtiyatlarının inkişafına, mühafizəsinə və bərpasına yönəlmiş tədbirlər kompleksinin işlənib hazırlanması da vacibdir.

Şərqi Zəngəzur iqtisadi zonasında turizm sahəsində böyük inkişaf perspektivləri var. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində 2020-ci ilə qədər turizm infrastrukturunun inkişafı, turizm xidmət sahələrinin beynəlxalq standartlara uyğun genişləndirilməsi, sektorun rəqabət qabiliyyətinin artırılması və digər məsələlər nəzərdə tutulub

Şərqi Zəngəzur iqtisadi zonasında turizmin hazırkı vəziyyətinin təhlili göstərir ki, son illər bu sahə sabit və dinamik inkişaf edir. Daxili turizmdə hər il artım var.

Şərqi Zəngəzur həm daxili turizmin inkişafı, həm də xarici səyahətçilərin qəbulu üçün böyük potensiala malikdir. Burada sizə lazım olan hər şey var - nəhəng ərazi, landşaft zənginliyi baxımından müxtəlif, zəngin və maraqlı tarixi-mədəni irs, bəzi bölgələrdə isə qədim abidələr mövcuddur.

Şərqi Zəngəzur bölgəsi böyük turizm potensialına malikdir. Bu potensialın reallaşdırılması üçün mühüm işlər görülməlidir. Qarabağ bölgəsində enliyarpaqlı meşələr (palıd, fıstıq, qarağac), meşə-çöl bitkiləri yayılmışdır. Yüksək dağlıq ərazilərdə alp və subalp çəmənlikləri, faunasından isə dağ keçisi, cüyür, qonur ayı, çöl donuzu, dələ, qar xoruzu, saqqallı, qartal vardır. Tarixi eramızdan əvvəl IV-III minillikləri əhatə edən qazıntılar zamanı buradan tapılmış çoxsaylı mağaralar, qayaüstü rəsmlər, müxtəlif ov və məişət alətləri, eyni zamanda, Kəlbəcər qədim türk mədəniyyətinin beşiyidir. Tunc dövrünə aid Kür-Araz mədəniyyəti də aşkar edilmişdir.

Bunun üçün, ilk növbədə, Qarabağda yenidənqurma və bərpa işləri aparılmalı, infrastruktur məsələləri həll olunmalıdır. Bunsuz turizmdən danışmaq olmaz. Həm də təkcə bu sahələrdə deyil. Hazırda minalardan təmizləmə prosesi gedir. İnfrastruktur işləri aparılmalıdır. Bu gün Qarabağın bəzi rayonlarına hər hansı turun təşkilindən danışmaq tezdir. Bu vəzifələr əvvəlcə tamamlanmalıdır. Ən əsası isə tarixi memarlıq abidələrinin vəziyyəti öyrənilməlidir. Onlara yenidən baxılmalıdır. Bir sıra alimlər Qarabağda yerləşən tarixi abidələri tədqiq etsə də, 30 il keçib. Təbii ki, onları nəzərdən keçirmək lazımdır. Onları bərpa etmək lazımdır. Turist marşrutları, turist cığırlarını çəkmək və işarələmək lazımdır. Turizm xəritələrinin hazırlanması və digər işlər aparılmalıdır [2,s.70].

Mədəni-tarixi irsə və əlverişli təbii şəraitə malik Şərqi Zəngəzurun turizm sahəsində böyük inkişaf perspektivləri var. Bölgədə turizmin əksər növləri üzrə (kənd təsərrüfatı, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, ticarət, idman və s.) turizmin inkişafına dair dövlət proqramlarının icrası nəticəsində turizmin inkişafı üçün münbit şərait yaradılmışdır. Bu sahənin dinamik inkişafı, beynəlxalq turizm bazarına inteqrasiyanın əsası qoyulmuş və turizm kompleksinin milli rəqabət qabiliyyəti təmin edilmişdir.

Növbəti illərdə biz bunun öhdəsindən gələcəyik. Bu işi bir sıra idarə, nazirlik və qurumlar həyata keçirməlidir. Müxtəlif qurumlar və institusional strukturlar tərəfindən həll edilməli olan məsələlər var. Ümumiyyətlə, Qarabağ bizim üçün yeni ekoturizm məkanına çevriləcək. Əlbəttə ki, bu istiqamətlərin təhlükəsizliyini təmin etmək lazımdır.

**Nəticə**

İqtisadi rayonlaşdırmanın yeni prinsipləri ölkə üzrə iqtisadi fəallığın və dövlət investisiyalarının artırılmasına, ölkənin regionlarında sahibkarlığın və iqtisadiyyatın inkişafına, sosial-iqtisadi inkişafın sürətləndirilməsinə, əhalinin gəlirlərinin şaxələndirilməsinə və həyat şəraitinin daha da yaxşılaşdırılması üçün imkanlar yaradır. Xüsusilə, mövcud qlobal təhlükəni və COVID-19 pandemiyasının yaratdığı vəziyyəti nəzərə alaraq, iqtisadi sektorun sürətli bərpası, iqtisadi tənəzüllərin aradan qaldırılması və səmərəliliyin daha da yüksəldilməsi önəm kəsb edir. Digər tərəfdən, xüsusi iqtisadi zonaların yenilənməsi və Vətən müharibəsində qələbədən sonra formalaşan obyektiv reallıq buna təsir edəcək. Bununla da xalq təsərrüfatından azad edilmiş iqtisadi rayonların bölgüsünün yenilənməsini, rayonların iqtisadiyyatından və ehtiyatlarından daha dəqiq və səmərəli istifadəni və bölgüsünü təmin etmək mümkün olacaq.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1) E.Q. Məmmədov Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri. Bakı, 2013.*

*2) Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının qurulmasının strategiya aspektləri // Jurnal "Geostrategiya", Bakı, 2021, № 4. – s.67-72.*

*3) E.Q. Məmmədov Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri. Bakı, 2013.*

*4) Abadov M. Azərbaycan turizmi və onun inkişaf problemləri.Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2014, 248 səh.*

5) *İqtisadçı alim: Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları ölkənin inkişaf etmiş bölgələrinə çevriləcək. 24.07.2021.*

*https://azertag.az/xeber/Iqtisadchi_alim_Serqi_Zengezur_ve_ Qarabag_iqtisadi_rayonlari_olkenin_inkisaf_etmis_regionlarina_chevrilecek-1837307.*

## XÜLASƏ

Azərbaycan ordusunun hazırda Ermənistanın işğalından azad etdiyi ərazilərin bir hissəsinin turizmin inkişafı baxımından böyük perspektivləri var. Söhbət SSRİ dövründən turistlər arasında məşhur olan Şərqi Zəngəzur, Şuşa, Laçın, Kəlbəcər, Ağdam və s. rayonlarından gedir. Ölkəmizin ərazi bütövlüyü bərpa edildikdən sonra bu rayonlar yenidən turizm məkanına çevriləcəkdir.

Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunandan sonra Şərqi Zəngəzur iqtisadi zonasında turizm bölgəsi kimi bütün dünyada təbliğ edilməlidir. Sovet dövründə bu ərazilər 80-ci illərdə Ağdamda çoxsaylı sanatoriyalar, pioner düşərgələri, turizm potensialı inkişaf etdirilmişdir.

**Açar sözlər:** *Şərqi Zəngəzur, işğal, turizm, bərpa, Qarabağ*

## POSITIVE IMPACT OF THE SUCCESSES ACHIEVED IN THE RESTORATION OF THE TERRITORIAL INTEGRITY OF AZERBAIJAN ON THE DEVELOPMENT OF TOURISM IN THE EAST-ZANGAZUR ECONOMIC ZONE

## SUMMARY

Part of the territories liberated by the Azerbaijani army from the occupation of Armenia have great prospects in terms of tourism development. We are talking about Eastern Zangezur, Shusha, Lachin, Kalbajar, Aghdam, etc., which have been popular among tourists since the time of the USSR. goes from the regions. After the territorial integrity of our country is restored, these regions will again become a tourist destination.

After the territorial integrity of Azerbaijan is fully restored, East Zangezur economic zone should be promoted as a tourism region all over the world. During the Soviet period, these areas were developed in Agdam in the 80s with numerous sanatoriums, pioneer camps, and tourism potential.

**Key words:** *Eastern Zangezur, occupation, tourism, restoration, Karabakh*

## ПОЛОЖИТЕЛЬНОЕ ВЛИЯНИЕ УСПЕХОВ В ВОССТАНОВЛЕНИИ ТЕРРИТОРИАЛЬНОЙ ЦЕЛОСТНОСТИ АЗЕРБАЙДЖАНА НА РАЗВИТИЕ ТУРИЗМА В ВОСТОЧНО-ЗАНГАЗУРСКОЙ ЭКОНОМИЧЕСКОЙ ЗОНЕ

## РЕЗЮМЕ

Часть территорий, освобожденных азербайджанской армией от оккупации Армении, имеют большие перспективы в плане развития туризма. Речь идет о Восточном Зангезуре, Шуше, Лачине, Кельбаджаре, Агдаме и др., которые пользуются популярностью у туристов еще со времен СССР. идет из регионов. После восстановления территориальной целостности нашей страны эти регионы вновь станут туристическим направлением.

После полного восстановления территориальной целостности Азербайджана Восточно-Зангезурская экономическая зона должна продвигаться как туристический регион во всем мире. В советский период эти территории получили развитие в Агдаме в 80-е годы с многочисленными санаториями, пионерскими лагерями, туристическим потенциалом.

**Ключевые слова:** *Восточный Зангезур, оккупация, туризм, восстановление, Карабах.*

**UOT 339.9**

# DÜNYA ÖLKƏLƏRİNƏ İNTEQRASİYANIN ADƏT VƏ ƏNƏNƏLƏRİMİZƏ TƏSİRİ

**ƏFŞAN QASIMOV**
*Azərbaycan Turizm və Menecment Universiteti*
*E-mail: efsanqasimov9@gmail.com*

Hər bir milləti tanıdan və onu digər xalqlardan fərqləndirən ən önəmli xüsusiyyətlərindən biri onun adət və ənənələri və bu müstəvidə yüksək mənəvi dəyərlər sisteminə malik olmasıdır. Bu baxımdan, qloballaşan dünyada milli adət və ənənələr və onun əsasında formalaşdırılan yüksək mənəvi dəyərlər sistemi hər bir millətin mənəvi, mədəni simasını göstərir [2, s.54].

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan özünün zəngin milli, əxlaqi və mənəvi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr verərək özünəməxsus adət və ənənələri, yüksək mənəviyyatı ilə diqqəti cəlb edib. Min illər boyu formalaşan və Azərbaycan xalqının yüksək mənəvi dəyərlərə malik olduğunu göstərən təkraredilməz adət və ənənələr millətimizin keçmişi ilə bu günü və gələcəyi arasında sarsılmaz bir mənəvi körpü rolunu oynamaqdadır. Təsadüfi deyil ki, adət və ənənələrin hər bir millətin həyatında oynadığı əvəzsiz rolunu yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyev "Milli adət və ənənələr hər bir xalqın milli mədəniyyətinin zənginliyindən, qədim tarixi kökə malik olmasından xəbər verir" – deyib [1, s.62].

Təbii ki, bütün dövrlərdə mütərəqqi adət və ənənələrin yaradıcısı, eyni zamanda, onu qoruyub zənginləşdirən və gələcək nəsillərə çatdıran xalqdır. Bayram adət-ənənələri, toy, yas mərasimləri, islam dininin bəşəri hissləri təbliğ edən dəyərləri xalqımızın milli-mənəvi simasının aynası hesab edilir. Bu müstəvidə də zəngin adət-ənənələrimizi özündə cəmləşdirən milli mənəvi dəyərlər sistemində Novruz bayramı özünəməxsus yer tutur. Novruz süfrəsi adət və ənənələrimizin zənginliyini göstərir. Belə ki, çərşənbələrdə, istərsə də Novruz axşamında süfrədə milli xörəklərimiz, ən başlıcası isə plov olmalıdır. Şəkərbura, paxlava, şəkər çörəyi və digər şirniyyatlar, kişmiş, püstə, badam, boyanmış yumurtalar süfrələrimizi bəzəyir. Çərşənbələrdə olduğu kimi, Novruz axşamında da tonqal qalanır, evlərdə ailə üzvlərinin hər birinin adına şam yandırılır.

Azərbaycanda toy şənlikləri də qədim və zəngin xalq adət-ənənələrinə söykənir. Elçi getmə, nişan taxma və toy adətlərinin dərin kökləri vardır.

Yas mərasimləri ilə bağlı da azərbaycanlıların bir maraqlı adət və ənənələri var. Qadınlar zinət əşyaları taxmır, qara paltar geyinir, qara yaylıq bağlayırlar. Bu günlər ərzində qohumlar bayram keçirməməli, toy etməməli, musiqi alətlərində çalmamalıdırlar.

Nəhayət, adət və ənənələrin milli mənəvi dəyərlər sistemində oynadığı əvəzsiz rollardan biri də hər bir ənənənin müəyyən əxlaqi məna daşıması ilə bağlıdır. Belə ki, adət və ənənələrimiz hər bir insan nəslinin yaratdığı əxlaqi dəyərləri qoruyub, yeni nəslə çatdırmaq vasitəsi kimi çıxış edir [4, s.113].

Adət-ənənələrimiz və onların formalaşdırdığı milli dəyərlər sistemi ilə güclü dövlətçilik quruculuğu arasında sıx vəhdət var. Belə ki, hər bir dövlətin gücü, ilk növbədə, adət və ənənələrin cəmiyyəti əxlaqi, milli vətənpərvərlik baxımından düzgün istiqamətə yönəltməsindən, onları saf təməllər üzərində tərbiyə etməsindən asılıdır. Bu baxımdan, bütün dövrlərdə adət və ənənələr hər bir dövlətin qüdrətli və uzunömürlü olmasında on minlərlə əsgərin görə bilmədiyi əvəzsiz bir iş görür. Bir sözlə, adət və ənənələr insan münasibətlərinin tənzimləyici və istiqamətvericisi funksiyasını yerinə yetirərək, öz lideri ətrafında möhkəm birləşən güclü və qüdrətli dövlətin meydana çıxmasında önəmli rol oynayır. Məsələnin bu tərəfinə diqqəti cəlb edən Heydər Əliyev deyib: "Azərbaycan xalqının milli mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız Qurani-Kərimdə öz əksini tapıbdır. Ancaq bununla yanaşı, Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar. Bu, bizim adət və ənənələrimizdir" [3, s.21].

Bütün bunlar da Ulu Öndərin adət və ənənələrimizi, mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirdiyini bir daha sübut edir.

Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni

irsinə və mənəvi dəyərlər sisteminə qayğı ilə yanaşan görkəmli dövlət xadimi yaxşı başa düşürdü ki, milli dövlətçilik və milli-mənəvi dəyərlər sistemi ilə sıx daxili vəhdətdədir. O, bu çərçivədə də gənc nəsli saf əxlaqi ruhda tərbiyələndirməyin dövlətimiz qarşısında ən zəruri vəzifələrdən biri olduğunu dönə-dönə vurğulayırdı. Çünki adət və ənənələr yetişməkdə olan gənc nəsildə güclü təsir buraxaraq onların vətən, millət, xalq sevgisi ruhunda tərbiyə olunmasında əsl həyat məktəbi rolunu oynayır. Bu adət və ənənələr mənəvi baxımdan nə qədər zəngin olsa, həmin gənclər də o qədər cəmiyyət üçün xeyirli şəxs kimi yetişir və dövlətin daha da güclü olmasına öz töhfəsini verir.

Ümummilli Lider Heydər Əliyev siyasi kursunun davamçısı İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində dövlətçilik ənənələri, milli ənənələri nəzərə alaraq ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatın bütün sahələrində ciddi dəyişikliklər edildi və uğurlar qazanıldı. Azərbaycan bu gün dünyada ən sürətlə inkişaf edən, iqtisadi sahədə dünyada ən böyük nailiyyətləri əldə edən ölkə olaraq dünyada söz sahibinə çevrilib, etibarlı tərəfdaş kimi də özünü təsdiq edib. Dünyaya inteqrasiya olunduğumuz zamanda Azərbaycan milli-mənəvi dəyərləri, sənəti, mədəniyyəti, incəsənəti ilə heyrət doğura bilib. Bu dəyərlərin əsasında xalqın tarixi köklərini, tarixini, mədəniyyətini, qəhrəmanlığını, məişətini, sosial həyatını əks etdirən faktorlar dayanır. Belə bir tarixi irsin daşıyıcısı olan xalqın qürurla səhifələdiyi vərəqlər zənginləşir, Azərbaycanın dünyaya töhfələr verən abidəsi olduğunu sübut edir. Təbii ki, bu abidələr fərdlər tərəfindən milli düşüncənin məhsulu olaraq ortaya qoyulur. İlham Əliyev tərəfindən ardıcıl olaraq imzalanan sərəncamlarda bu ifadə təsdiqini bir daha tapır. Prezidentin sərəncamı ilə Bakıda Beynəlxalq Muğam Mərkəzinin tikilməsi, Xalça Muzeyinin inşası, regionlarda yeni muzey və musiqi məktəblərinin yaradılması və s. qədim və zəngin mədəni irsə olan diqqətdir. Eləcə də ölkə başçısının Azərbaycanın dünyaya inteqrasiya tempinin artmasına töhfələrini verən, milli-mənəvi dəyərlərin keşiyində duran və onun inkişafına ömrünü həsr edən ziyalıların yubiley mərasimlərinin keçirilməsi, fəxri ad və mükafatların verilməsi ilə bağlı imzaladığı sərəncamlar milli dəyərlərimizə verilən qiymətin bariz nümunəsidir.

Dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı iyirminci yüzilliyin sonlarında yenidən müstəqilliyini bərpa etdi. Çoxəsrlik tarixi olan Azərbaycanın dövlətçilik tarixində mürəkkəb mərhələlər çox olsa da, bütün çətinliklərə rəğmən heç bir qüvvə xalqımızın dövlətçilik arzularını, ənənələrini məhv edə bilməmiş, müstəqil respublika yaratmaq yönündə səylərin qarşısını almaq cəhdi qeyri-mümkün olmuşdur [6, s.41].

Azərbaycan dövlətinin yaradıcısı və qurucusu olan Ulu Öndər Heydər Əliyevin ölkənin ictimai-siyasi vəziyyətinin olduqca kəskin bir dövründə hakimiyyətə qayıdışı müstəqil dövlətin dayaqlarını möhkəmləndirməklə yanaşı, onu inkişaf etdirdi, dövlətçilik tariximizin müasir mərhələsinin təmin edilməsi kimi şərəfli vəzifəni yerinə yetirdi. Azərbaycan mədəniyyətinin, milli-mənəvi dəyərlərinin, adət və ənənələrinin inkişaf etdirilməsinə xüsusi önəm verdi. “Biz nadir irsin varisiyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır” - deyən Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirdi. Dövlət müstəqilliyinin bərpası Azərbaycanda klassik irsin yeni meyarlarla dəyərləndirilməsinə təsirsiz ötüşmədi. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi altında “Kitabi-Dədə Qorqud” eposunun 1300 illik, Məhəmməd Füzulinin 500 illik yubileylərinin geniş miqyasda keçirilməsi və hər iki tədbirin zirvə toplantılarında dünyanın bir sıra dövlət başçılarının iştirakı azad Azərbaycanda ədəbiyyatın, mənəviyyatın, bütün mədəniyyətin parlaq təntənəsinə çevrildi. Füzulinin 500 illiyi təkcə Azərbaycanda deyil, Türkiyə, İran, İraq, Rusiya, Özbəkistan, Çin və başqa ölkələrdə də geniş qeyd olundu. Bu və ya digər istiqamətdə milli dəyərlərimizin təqdimi istiqamətində görülən işlər dünya dövlətləri tərəfindən maraqla qarşılandı.

Ümummilli Lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində dövlətçilik ənənələri, milli ənənələr nəzərə alınaraq ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatın bütün sahələrində ciddi dəyişikliklər edildi və uğurlar qazanıldı. Azərbaycan bu gün dünyada ən sürətlə inkişaf edən, iqtisadi sahədə ən böyük nailiyyətlər əldə edən ölkə olaraq dünyada söz sahibinə çevrilib, etibarlı tərəfdaş kimi də özünü təsdiq edib. Dünyaya inteqrasiya olunduğumuz zamanda Azərbaycan milli-mənəvi

dəyərləri, sənəti, mədəniyyəti, incəsənəti ilə heyrət doğura bilib. Bu dəyərlərin əsasında xalqın tarixi köklərini, tarixini, mədəniyyətini, qəhrəmanlığını, məişətini, sosial həyatını əks etdirən faktorlar dayanır. Belə bir tarixi irsin daşıyıcısı olan xalqın qürurla səhifələdiyi vərəqlər zənginləşir, Azərbaycanın dünyaya töhfələr verən abidəsi olduğunu sübut edir. Təbii ki, bu abidələr fərdlər tərəfindən milli düşüncənin məhsulu olaraq ortaya qoyulur. Cənab İlham Əliyev tərəfindən ardıcıl olaraq imzalanan sərəncamlarda bu ifadə təsdiqini bir daha tapır. Prezidentin Sərəncamı ilə Bakıda Beynəlxalq Muğam Mərkəzinin tikilməsi, Xalça Muzeyinin inşası, regionlarda yeni muzey və musiqi məktəblərinin yaradılması və s. qədim və zəngin mədəni irsə olan diqqətdir. Eləcə də ölkə başçısının Azərbaycanın dünyaya inteqrasiya tempinin artmasına töhfələrini verən, milli-mənəvi dəyərlərin keşiyində duran və onun inkişafına ömrünü həsr edən ziyalıların yubiley mərasimlərinin keçirilməsi, fəxri ad və mükafatların verilməsi ilə bağlı imzaladığı sərəncamlar milli dəyərlərimizə verilən qiymətin bariz nümunəsidir [5, s.74].

Elmin inkişafı sahəsində görülən tədbirləri də qeyd etməliyik. Məhz dövlətin həyata keçirdiyi elm sahəsindəki yeniliklər inkişaf edən Azərbaycanın elmi potensialını gücləndirib. Son 11 ildə həyata keçirilmiş islahatlar Azərbaycan elminin inkişafında keyfiyyətcə yeni mərhələ açmış, bu sahənin fəaliyyətini tənzimləyən qanunvericilik aktları müasirləşdirilib. Cənab İlham Əliyevin “Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında”, “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramının təsdiq edilməsi haqqında”, “Elmin İnkişafına Yardım Fondunun yaradılması haqqında” sərəncamları məhz elm inkişafında önəmli sənədlərdir.

Qloballaşan dünyada milli dövlətçilik ideyalarının yeni nəsillərə daim aşılanması, dövlətin mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası prosesi kimi ali dəyərlərə xüsusi olaraq diqqət yetirilir. Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümummilli Lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək və onun Azərbaycançılıq məfkurəsinin təbliği istiqamətində Heydər Əliyev Fondu böyük layihələr həyata keçirir. Fondun prezidenti, Azərbaycanın birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan muğamı, Novruz bayramı, aşıq sənəti, xalçaçılıq, tar ifaçılıq sənəti və s. YUNESKO-nun maddi-mədəni irs siyahısına daxil edilib. Bu, Azərbaycan xəzinəsinə ayrılan diqqətdir. 26 Avqust Beynəlxalq Muğam Günü kimi qeyd olunur. BMT tərəfindən Novruz bayramı Beynəlxalq Gün kimi qəbul edilib. Azərbaycan mədəniyyətini və incəsənətini əks etdirən xalça, kilim, antik mis qablar və əşyalar, milli musiqi alətləri, ölkənin müxtəlif məkanlarını əks etdirən fotolar, milli geyimlər və s. Azərbaycanın tarixinin, bu gününün təqdimidir.

Qərb və Şərq sivilizasiyalarının kəsişməsində yerləşən Azərbaycanın mədəniyyətinə, milli dəyərlərinə bu şəkildə yanaşma yetişən nəsildə mövcud dəyərlərə məhəbbət yaradır. Qərblə Şərqin qovuşuğunda yerləşən Azərbaycan və onun paytaxtı Bakı bir çox dövrlərdə dünya mədəni irsinə layiqli töhfələr vermişdir. Bu proses indi də davam edir. Bu gün Bakı Şərqin bütün gözəlliklərini özündə əks etdirən Qərb şəhəri kimi, yaxud da Qərb cazibəsini özündə əks etdirən Şərq paytaxtı kimi qəbul olunur.

Ölkəmizdə beynəlxalq tədbirlərin keçirilməsi, dinindən, irqindən asılı olmayaraq, saysız insanların Azərbaycana səfəri bu diyarın sivilizasiyaların qovuşuğunda yerləşdiyinə əsaslanır və müxtəlif tədbirlərin Azərbaycanda təşkili ölkəmizin beynəlxalq nüfuzunu daha da artırır. Mehriban xanım Əliyevanın “Beynəlxalq mədəni əlaqələr, qarşılıqlı mədəni inteqrasiya Azərbaycanın dövlətlərarası siyasətlərinin əsas prioritetlərindən biridir”, - deməsi bu fikrimizi əsaslandırır. Azərbaycanda Beynəlxalq Muğam Festivalı, Mstislav Rostropoviç adına Musiqi Festivalı, VI Beynəlxalq “Qız Qalası” İncəsənət Festivalı, İkinci Beynəlxalq Aşıq Festivalı, Üzeyir Hacıbəyli, Dmitri Şostakoviç, Bülbül kimi dahi bəstəkarlar və ifaçıların yubileylərinə həsr olunmuş beynəlxalq festivallar təşkil olunub.

Fondun təşəbbüsü ilə Fransanın San-Trope şəhərində “Azərbaycanın mədəni zənginlikləri” adlı sərgisi, Fransanın Mejev şəhərində, Afinada, Hannoverdə və başqa məkanlarda Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi, Parisdə Reza Deqatinin Azərbaycana həsr olunmuş fotosərgisinin açılışı və s. Azərbaycan milli dəyərlərinin, tarixi irsinin təbliğində əhəmiyyətlidir.

**Açar sözlər:** *adət-ənənələr, inteqrasiya, dünya ölkələri, milli yemək, mənəvi dəyərlər.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Abbasov N. Elmi araşdırmalar, IV toplu, Filologiya, tarix, incəsənət. Bakı, "Elm", 2001.*

*2. Abdullayev O. Sosial fəallıq və yeni adət-ənənələr. Bakı, Azərnəşr, 2012.*

*3. Azərbaycan folkloru antologiyası. Bakı, Elm, 2010.*

*4. Həsənova X. Dünya xalqlarının qida mədəniyyəti, adət-ənənələri, Dərs vəsaiti. Bakı: 2021, 282 s..*

*5. Hüseynov İ. Adət və ənənələr mənəvi əxlaqi dəyərlər kimi (metodik vəsait), Bakı, "Nərgiz", 2000.*

*6. К.Т.Каракашлы. Материальная культура азербайджанцев. Баку, 1964,185 с.*


**THE EFFECT OF INTEGRATION INTO COUNTRIES OF THE WORLD ON OUR CUSTOMS AND TRADITIONS**

**SUMMARY**


The article deals with the fact that the people of Azerbaijan, one of the oldest nations in the world, have made invaluable contributions to human civilization with their rich national, moral and spiritual value system, and attracted attention with their unique customs and traditions and high spirituality. Issues were touched upon such as the unrepeatable customs and traditions, formed over thousands of years and showing that the Azerbaijani people have high moral values, play the role of an unbreakable moral bridge between the past and the present and future of our nation.

It has been shown that the historical development of the people of Azerbaijan, which is among the nations with the oldest traditions of statehood in the world, has from time to time led to the progress of our culture, traditions, science and education, and literature. The people of Azerbaijan as a nation loyal to the history and traditions of statehood, created great cultural events on those foundations.

At the same time it is reviewed that the great leader Heydar Aliyev, the creator and founder of the state of Azerbaijan, returned to power in a very acute period of the country's socio-political situation, while strengthening the foundations of the independent state, as well as developing it, fulfilling the honorable task of ensuring the modern stage of our statehood history. The importance of the contribution of our people to the world with the development of Azerbaijani culture, national and spiritual values, customs and traditions was emphasized.



**Keywords:** *traditions, integration, countries of the world, national food, moral values.*


**ВЛИЯНИЕ ИНТЕГРАЦИИ В СТРАНЫ МИРА НА НАШИ ОБЫЧАИ И ТРАДИЦИИ**

**РЕЗЮМЕ**


В статье говорится о том, что азербайджанский народ, один из древнейших народов мира, внес неоценимый вклад в человеческую цивилизацию своей богатой национальной, нравственной и духовной системой ценностей, привлек внимание своими уникальными обычаями и традициями, с его высоким моральным духом. Были затронуты такие вопросы, как неповторимые обычаи и традиции, формировавшиеся на протяжении тысячелетий и свидетельствующие о том, что азербайджанский народ обладает высокими нравственными ценностями, играют роль нерушимого нравственного моста между прошлым, настоящим и будущим нашего народа.

Показано, что историческое развитие азербайджанского народа, входящего в число народов с древнейшими традициями государственности в мире, время от времени приводило к прогрессу нашей культуры, традиций, науки и образования, литературы. На этих основах азербайджанский народ как народ, верный истории и традициям государственности, создавал большие культурные события.

В то же время рассматривается, что великий лидер Гейдар Алиев, создатель и основатель Азербайджанского государства, вернулся к власти в очень острый период общественно-политической ситуации в стране, укрепляя основы независимого государства, выполняя почетную задачу обеспечения современного этапа истории нашей государственности. Была подчеркнута важность вклада нашего народа в развитие азербайджанской культуры, национальных и духовных ценностей, обычаев и традиций.



**Ключевые слова:** *традиции, интеграция, страны мира, национальная еда, нравственные ценности.*

UOT 338.48

# QUBADLI RAYONUNUN TURİZM POTENSİALI

**SÜLEYMAN ƏKBƏROV**
*Azərbaycan Turizm və Menecment Universiteti*
*E-mail: ekberov-s@list.ru*

Düşmən əsarətindən azad edilmiş Qarabağ bölgəsi ölkəmizin ayrılmaz bir hissəsi olmaqla yanaşı, çox qədim bir tarixə malikdir. Bu bölgənin adının etimologiyasına nəzər salsaq “Qara” və “bağ” birləşmələrindən əmələ gəlmişdir. Tarixi mənbələrə diqqət yetirdiyimiz zaman bu sözün VII əsrdən etibarən istifadə edildiyini görmüş olarıq. Bu söz ilk vaxtlarda konkret bir ərazini əhatə edirdisə, sonrakı dövrlərdə geniş ərazi anlayışında istifadə olunmağa başladı. Dilimizdə və digər türk dillərində qara sözü qalın, sıx, böyük mənalarında olduğunu nəzərə alaraq, “Qarabağ” sözünün “böyük bağ”, “qalın bağ”, “sıx bağ” və s. kimi işlənildiyini görmüş olarıq.

Min illər boyu ulu babalarımızdan bizlərə yadigar qalan əbədi və əzəli torpağımız Qarabağ bölgəsi Kiçik Qafqaz dağlarından başlayaraq Kür-Araz çaylarına qədər olan yayla və düzənliklər olmaqla geniş ərazini əhatə etməkdədir. Əlverişli təbii coğrafi şəraitə malik olan Qarabağ düzən ərazilərinin münbit torpağı, dağlıq ərazilərinin isə çəmənlikləri, yeraltı və yerüstü sərvətləri ilə seçilir.

Qarabağ əlverişli coğrafi şəraitdə yerləşməklə yanaşı, zəngin flora və faunaya malikdir. Dağ ətəyi ərazilərdə mövcud olan şabalıdı və boz torpaqlarla yanaşı dağ-çəmən və dağ-meşə torpaqlarına da dağlıq ərazilərdə rast gəlmək olar. Dağ və meşə massivi çox zəngin heyvan növlərinə sahibdir. Burda müxtəlif növ çöl heyvanları vardır.

Qafqaz Albaniyasının əsas tərkib hissələrindən biri olan Qarabağ əhalisinin əksəriyyətini türklər təşkil edirdi. Qarabağın əhalisinin bir hissəsi gəlmə ermənilərdən ibarət olsa da, uzun müddət bu ərazilər, dil və mədəniyyət baxımından türk mənşəli və Qafqaz dil qrupuna mənsub xalqların doğma yurdu olmuşdur.

Qarabağda orta əsrlər dövründə əmələ gəlmiş şəhərlər vardır. Həmin şəhərlərin siyahısına Ağdərə, Xocavənd, Şuşa, Cəbrayıl, Laçın, Zəngilan, Qubadlı, Kəlbəcər, Xankəndi, Füzuli, Tərtər aiddir. Sadalanan bu şəhərlərin inkişaf mərhələsində və mədəniyyətində türk milli təfəkkürü özünü əks etdirib. Bunu həm yerli sakinlərin məişətində, eyni zamanda memarlıq və şəhərsalmada görmək mümkündür. Qarabağ memarlığında dini abidələrlə yanaşı, bir sıra tarixi- memarlıq və təbiət abidələri də xüsusi rol oynayır [3, s.45-46].

Qarabağ bölgəsi turizm baxımından çox böyük perspektivə malikdir. Qədim tarixə malik olmaqla yanaşı, bu turizm bölgəsində tarixin müxtəlif dövrlərinə adi möhtəşəm abidələr mövcuddur. Bu turizm bölgəsində yerləşən tarixi abidələrin siyahısı ilə aşağıdakı cədvəl vasitəsi ilə daha yaxından tanış ola bilərik. Cədvəldə Qarabağ bölgəsindəki abidələrin inzibati ərazilər üzrə yerləşməsi, dövlət qeydiyyatına daxil edilmiş abidələrin sayı və həmin abidələrin yerli, ölkə və beynəlxalq əhəmiyyətli olmasına görə təsnif edilmişdir.

**Cədvəl 1.**

**Qarabağ turizm bölgəsində yerləşən tarixi abidələr**

| Abidələrin yerləşdiyi inzibati ərazi vahidləri | Dövlət qeydiyyatında olan abidələrin sayı | Əhəmiyyətinə görə tarixi abidələrin siyahısı | | |
|---|---|---|---|---|
| | | Yerli əhəmiyyətli | Ölkə əhəmiyyətli | Beynəlxalq əhəmiyyətli |
| **Qubadlı** | 67 | 51 | 16 | Yoxdur |
| **Laçın** | 73 | 62 | 11 | Yoxdur |
| **Kəlbəcər** | 70 | 50 | 18 | 2 |
| **Zəngilan** | 47 | 39 | 8 | Yoxdur |
| **Füzuli** | 71 | 57 | 14 | Yoxdur |
| **Ağdam** | 140 | 41 | 95 | 4 |
| **Xocalı** | 28 | 8 | 19 | 1 |
| **Cəbrayıl** | 93 | 74 | 16 | 3 |
| **Xocavənd** | 93 | 61 | 30 | 2 |
| **Şuşa** | 217 | 167 | 49 | 1 |
| **CƏMİ** | 899 | 610 | 276 | 13 |

*Mənbə: [1].*

Qubadlı rayonuna 93 kənd, 1 şəhər və 31 inzibati-ərazi vahidi daxildir. Qubadlının ən böyük kəndləri Xanlıq, Dondarlı və Mahmudludur. Bazarçay və Həkəri çayları da rayonun ərazisində yerləşir. Yeraltı və yerüstü sərvətlərə malik olmaqla yanaşı

ərazidə mineral resursların mövcudluğu rayonda turizmin müxtəlif istiqamətlər üzrə inkişafı üçün şərait yaradır [4].

Qubadlı rayonu sərin havası, dağları, meşə massivləri, əsrarəngiz təbiəti ilə seçilir. 28 il ərzində düşmən işğalı altında olan digər ərazilərimiz kimi Qubadlı rayonunda da turistik ərazilərimiz erməni vandalizmi nəticəsində viran edilmişdir. 2022-ci ilin oktyabr ayında Qubadlıya səyahət edən ölkə Prezidenti İlham Əliyev Qubadlı rayonu və kəndlərinin yenidən qurulacağını, bunun üçün isə Qubadlının baş planının hazırlandığını bildirdi.

Qubadlı rayonunun turizmi üçün burada kifayət qədər tarixi-mədəni abidələr var. Həmin abidələrin sayı barədə cədvəl 1-də məlumat vermişdik. Həmin abidələrdən XIX əsrə aid edilən “Hacı Bədəl” körpüsü, rayondan axan Bərgüşad çayı üzərində yerləşən və 1867-ci ilə aid edilən altı oval, “Laləzar Körpüsü”, Məmər kəndi yaxınlığında yerləşən və XVIII əsrə aid edilən tarixi əhəmiyyətli məscid, Dəmirçilər və Dondarlı kəndlərindəki məscidlər, həmçinin, “Gürcülü türbəsi”, müalicəvi bulaqlardan “Sarıbulaq”, “Paşa bulağı”, “Şirin bulaq”, VI və VII əsrə aid edilən alban abidə və məbədləri, “Göy qala”, “Qalalı” tarixi və təbiət abidələri rayonun turizm potensialının əsas göstəriciləridir. Qeyd etmək lazımdır ki, həmin abidələrin əksəriyyəti erməni vandalizminə məruz qalmış və dağıdılımışdır. Hazırda Qarabağın digər ərazilərində olduğu kimi, Qubadlı rayonunda da dağılmış və zərər görmüş abidələrin restavrasiya işlərinə başlanılmışdır.

Mədəni və dərketmə turizmindən başqa regionda yerləşən “Sarıbulaq”, “Şirin bulaq”, “Məşədi Allahverdi”, “Paşa bulağı” müalicə əhəmiyyətinə malikdir. Belə ki, “Sarıbulaq” suyundan sarılıq xəstəliyinin müalicəsində istifadə etməklə müalicə-sağlamlıq turizmi üçün perspektivin yaradılmasına nail oluna bilər.

Qubadlı rayonunda turizmin inkişafı baxımından çay turizmi də perspektivə malikdir. Həmçinin rayonda alternativ turizm növlərinin də inkişaf etdirilməsi mümkündür. İstər ekoturizm, istər kənd, istərsə də aqroturizmin inkişaf etdirilməsi mümkündür. Bərgüşad çayı boyunca Gorus rayonunadək olan ərazilər meşəliklərlə əhatə olunmuşdur. Həmin meşələr ekoturizm sevər turistlər üçün çox maraqlı olacaqdır. Qubadlının Qədili, Eyvazlı, Qayalı, Seytas kimi kəndləri təbiət peyzajı ilə zəngindir. Xüsusi ilə bu kəndlərin coğrafi baxımdan yerləşdiyi yer və təmiz havası, səs-küylü şəhər həyatından uzaqlaşaraq daha sakit və təbii ərazilərdə istirahət etmək istəyənlər üçün böyük əhəmiyyətə malik olacaqdır. Qeyd olunan bütün amillər göstərir ki, Qubadlı rayonunda kənd turizmi böyük potensiala malik olacaq.

Hal-hazırda rayonda turizmin inkişafı qarşısında duran bəzi problemlər mövcuddur. Həmin problemlər:

- Qarabağda təhlükəsizliyin tam olaraq təmin olunmaması;
- İnfrastrukturların hələ də tam yekunlaşdırılmaması;
- Turistik abidələrin restavrasiya prosesinin tam həyata keçirilməməsi.

Qeyd olunan amillərin hər birinin çox yaxın bir zamanda həll olunacağına hər kəsin şübhəsiz bir inamı vardır. Çünki Qarabağ bölgəsinə ən son standartlara uyğun yol infrastrukturunun çəkilməsinə artıq çoxdan başlanılıb. Rabitə, internet, yerləşmə kimi infrastrukturların da ən mükəmməl səviyyəyə çatdırılması elə də uzaq bir zamana gedib çıxmayacağı dəqiqdir. Qeyd olunan amillərdən əlavə olaraq, rayonda ən son standartlara cavab verən restoran və yerləşmə müəssisələrinin yaradılacağı da planlaşdırılır. Xüsusi ilə qeyd edək ki, bəlkə də ciddi yanaşılması ən vacib məsələ turizm bələdçilərinin kadr kimi hazırlanması prosesi olacaqdır. Burada turizm bələdçiləri sadəcə bir xidmət göstərən kadr kimi deyil, eyni zamanda bir növ ölkəmizin canlı təbliğatçısı kimi çıxış edəcəyi üçün təkcə Qubadlıda deyil, ümumən Qarabağ bölgəsində fəaliyyət göstərəcək bütün turizm bələdçiləri bu işdə aktiv fəaliyyət göstərməlidir. Bunun üçün də turizm bələdçiləri hazırlayan ali təhsil müəssisələri bu önəmli fakta daha ciddi yanaşmalı və bu sahədə səylərini artırmalıdır [2]. Ali təhsil müəssisələri ilə yanaşı, turizm bələdçiləri üçün, xüsusi ilə də peşə bacarıqları, xarici dil biliklərinin yüksəldilməsi və xarici turist axınının bu ərazilərə yönləndirilməsi üçün ilk öncə kadrların hazırlanması vacibdir.

Regional inkişafı təmin edən mühüm sektorlardan biri olan turizm bir tərəfdən iqtisadi inkişafı, digər tərəfdən isə tarixi, mədəni və turistik aspektləri baxımından cəlbedici olan ekoloji ərazilərin qorunması və bərpası məqsədi daşıyır. Bu çərçivədə yerli inkişaf və turizm arasındakı əlaqə, turizm və ətraf mühit vasitəsilə iqtisadiyyata töhfə vermək, inkişafda tarazlığı təmin etmək, sektorlar və fərdlər arasında tarazlı inkişafı təmin etmək, mədəni, təbii və fiziki mühiti qorumaq, turistlərə xidmət göstərməklə yanaşı, ehtiyacla-

rı nəzərə alaraq davamlı turizm strategiyaları yaradır. Digər tərəfdən, xüsusilə iqtisadi səbəblərlə kütləvi turizmi dəstəkləyən ölkələrdəki təcrübələr göstərdi ki, turizm zamanla bölgənin ictimai quruluşu, mədəni dəyərləri və təbii ehtiyatları baxımından mənfi təsirlərə səbəb ola bilər. Bu gün turizmin cəmiyyətlər üçün mühüm yeri olsa da, turizmin davamlı inkişafı ehtiyacı hələ də davam edir [5, s.28]. Bu səbəbdən də turizmi düzgün və davamlı şəkildə idarə etmək həmişə əsas məqsəd olmalıdır [6, s.50].

Qubadlı rayonunda da, digər işğaldan azad edilmiş ərazilər kimi müxtəlif sahələrin inkişaf etdirilməsi ilə bağlı layihələr hazırlanmaqdadır. Xüsusilə də Qubadlı rayonunda aqroturizm, ekoturizm kimi alternativ turizm növləri, mədəni turizmin inkişaf etdirilməsi üçün resurslar vardır.

**Cədvəl 2.**

**Azərbaycanın turizm regionları və turizmin mümkün növləri**

| Turizm bölgələri | Turizmin növləri |
|---|---|
| Qarabağ | Mədəni turizm, Təbiət və Ekoturizm, ov turizmi |
| Quba-Xaçmaz | Mədəni turizm, İdman, Qış, İstirahət, Əyləncə, Təbiət, Ekoturizm, Sağlamlıq, Ovçuluq, Çimərlik. |
| Şəki-Zaqatala | Mədəni turizm, İdman, Ovçuluq, Təbiət və Ekoturizm, Qış, İstirahət və Əyləncə, Kurort. |
| Bakı-Abşeron | Mədəni turizm, Konqres, Sağlamlıq, İstirahət və Əyləncə, Çimərlik, Kurort, İnanc |
| Lənkəran | Mədəni turizm, Sağlamlıq, Ovçuluq, Çimərlik, Təbiət və Ekoturizm, Kurort. |
| Dağlıq Şirvan | Mədəni turizm, Təbiət və Ekoturizm, Ovçuluq, İnam, Kurort. |
| Aran | Mədəni turizm və ov turizmi |
| Naxçıvan | Mədəni turizm, Sağlamlıq, Təbiət və Ekoturizm, İnam, Ovçuluq, Konqres, Kurort. |

*Mənbə: [7].*

Cədvəldən də göründüyü kimi, Qubadlı rayonunun da daxil olduğu Qarabağ turizm bölgəsi daha çox mədəni turizm, ov turizmi və təbiət turizmi növləri üzrə ixtisaslaşa bilər. Lakin işğaldan azad edilmiş ərazilərdə yeni turizm növlərinin də yaradılması və inkişaf etdirilməsi mümkün olacaqdır. Prezident İlham Əliyevin 2022-ci il oktyabr ayında Qubadlı rayonuna səfəri zamanı təqdim olunan Qubadlı rayonunun baş planında aqroturizmin inkişaf etdirilməsinə dair layihələr buna ən bariz nümunə ola bilər.

